AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASI
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

CƏLİL KƏRİMOV
AYAZ ORUCOV
HƏSƏN İSRAFİLOV

BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ. BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLAR

Əlavələrlə ikinci nəşri

BAKI-2012

Elmi redaktorlar: Mü2ə//ə?Məmmədov
iqtisad elmləri namizədi, dosent

Fikrət Rəhimli
iqtisad elmləri namizədi, dosent

Rəyçilər; Müşfiq Atakişiyev
iqtisad elmləri doktoru, professor

Qəzənfər Süleymanov iqtisad
elmləri doktoru, professor

Cəlil Kərimov, Ayaz Orucov, Həsən İsrafilov. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi. Beynəlxalq iqtisadi təşkilatlar. (Əlavələrlə ikinci nəşri).

XIV və XIX-fəsillər- dos. Qələndərova Ummhəbibə, XX və XXI- fəsillər- dos. Məhərrəmova Veranika, III, IV və V-fəsillər-b/m. Kərimova Tahirə tərəfindən yazılmışdır. ADPU-nəşriyyatı. Bakı-2012. 387 səh.

© 1947561842-012 / 1957(7)210418 **-2012 Qriflinəşr**

ÖN SÖZ

Beynəlxalq miqyasda ictimahlqtisadi əlaqələrin artması Beynəlxalq İqtisadi Münasibətlərin inkişafını genişləndirmişdir. Dövlətlərarası, müəssisələrarası, bir- liklərarası münasibətlər çoxalmışdır. Bu hərtərəfli əlaqə, əməkdaşlıq və münasibətlərin artması onların tənzimlənməsi prosesinin olmasını tələb edir.

Odur ki, müəyyən hüquq və normalar əsasında dövlətlərarası beynəlxalq institutlar, qurumlar yaradılır. Bu institutlardan biri də Beynəlxalq İqtisadi Təşkilatlar hesab edilir.

Beynəlxalq iqtisadi münasibətlər çoxtərəfli olduğu kimi Beynəlxalq İqtisadi Təşkilatlar da çoxtərəflidir. Dövlətlərarası, ərazilər üzrə, ayrı-ayrı sahələr üzrə, əmtəə qrupları üzrə və s.

Bu təşkilatların üzvləri bərabərhüquqlu dövlətlərdən ibarətdir. Onlar öz daimi fəaliyyət göstərən orqanları vasitəsilə, xüsusi siyasi normalar əsasında dövlətlərin iqtisadi siyasətlərinin həyata keçirilməsinə köməklik edirlər.

Təqdim olunan bu dərs vəsaiti "Beynəlxalq İqtisadi Münasibətlər" dərs vəsaitinin davamı kimi onun tənzimlənməsinə həsr edilmişdir. Burada bütün Beynəlxalq iqtisadi təşkilatlar deyil, onların müəyyən qruplarının fəaliyyəti barədə açıqlama verilmişdir.

Bu barədə Azərbaycan dilində demək olar ki, elə bir dolğun material yoxdur. Odur ki, güman etmək olar ki, təqdim edilmiş dərs vəsaiti oxucular üçün çox faydalı olacaqdır.

f FƏSİL

BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNİN OBYEKTİV ƏSASLARI

Beynəlxalq iqtisadi təşkilatlar (BİT-lər)

1. *BİM-in tənzimlənməsinin zəruriliyi.*
2. *BİT-lər haqqında ümumi anlayış. Onların yaradılması və təsnifatı.*
3. *BİT-lərin yaranması mərhələləri.*
4. *Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində regional iqtisadi təşkilatların rolu.*

1. BİM'in tənzimlənməsinin zəruriliyi

Müasir şəraitdə Dünya birliyinin və eləcə də vahid dünya təsərrüfatı sisteminin mövcud olması qlobal problemlərin inkişafını daha da artırmışdır. Hazırda qloballaşma proseslərinin inkişafı dövlətlərarası əlaqələrin və qarşılıqlı asılılıqların artmasını sürətləndirir.

Ümumdünya təsərrüfatında yaranan və inkişaf edən bu yeni proseslər və amillər dünya təsərrüfatının gündəlik tələbatına çevrilmişdir.

Bu amillərin bir çoxu daha ümumi, qlobal, bir qismi isə konkret və daha zəruri olmaları ilə seçilir. Bütün bu amillər bir tərəfdən BİM-in genişlənməsini sürətləndirir, digər tərəfdən isə onun tənzimlənməsini tələb edir. Burada daha ümumi hesab edilən amillərdən aşağıdakıları qeyd etmək olar:

1. **BƏB-in daha da dərinləşməsi,** dünya iqtisadiyyatında və beynəlxalq təsərrüfat əlaqələrində beynəlmiləlləşmənin güclənməsi. Bu proses intensiv artıma və məhsuldar qüvvələrlə istehsal komplekslərinin hərtərəfli inkişafına əsaslanır. Nəticə etibarı ilə bir çox sahələrin inkişafı milli çərçivədən kənara çıxaraq, regional və beynəlxalq səviyyədə qarşılıqlı əlaqələrin yaradılmasına səbəb olur. Əlbəttə, belə inkişaf istehsal, texniki, ticarət-iqtisadi və s. kimi əlaqələr üzrə beynəlmiləl tənzimləmə mexanizmlərinin olmasını tələb etməyə bilməz.

2. **Elmi-texniki inqilabın** hərtərəfli inkişafı, onun nüfuz dairəsinə yeni ölkələrin və ərazilərin cəlb edilməsi, elmi nailiyyətlərin mənimsənilməsinin bahalaşması - kommersiya xarakteri alması, həmin sahədə qüvvələrin birləşdirilməsini, hərtərəfli təsir dairəsinə malik olan mexanizmlərin yaradılmasını tələb edir.

3. **Bir çox qlobal problemlər** yaranır. Bunlardan: ekoloji problemlər, ərzaq problemi, yoxsulluq və aclıq, enerji problemi, demoqrafiya, təbii sərvətlərdən səmərəli istifadə edilməsi və s. göstərmək olar.

Eləcə də xarakter etibarilə qlobal olmasa da, ərazilərarası münasibətlərdə böyük əhəmiyyət kəsb edən qabaqcıl texnologiyanın yayılması, xarici borclar problemi və s.

4. **İstehsalın ictimailəşmə səviyyəsinin artması, beynəlxalq miqyasda kommunikasiyanın yaranması.**

5. **BİM-in bütün formalarının intensiv inkişaf yoluna keçməsi.**

6. BİM-ln hərtərəfli tənzimlənməsi sisteminin perspektiv inkişafında dünya sistemindəki dəyişikliyin də böyük əhəmiyyəti vardır. Belə ki, dünya bazarında iki əks sistemin (sosializm və kapitalizm) mövcud olması vahid tənzimləmə mexanizmlərin yaranmasını çətinləşdirirdi.

Z.Eləcə də "üçüncü dünya" adlanan inkişaf etməkdə olan ölkələrin özündə də müəyyən dəyişikliklər nəzəri cəlb edir. Bu ölkələrin bir çoxu "yeni sənaye ölkələri" kimi dünya bazarında öz nüfuzlarını artırmışlar. Bu inkişaf etməkdə olan ölkələr öz iqtisadi güclərini və mövqelərini möhkəmlətməyə çalışır və iqtisadi əməkdaşlığın müxtəlif mərhələlərində iştirak etməyə səy göstərirlər.

Bütün bu kimi amillər bir tərəfdən BİM-in genişlənməsinə zəmin yaradır, digər tərəfdən isə onun tənzimlənməsi mexanizminin olmasını tələb edirlər.

S.Belə qlobal-ümumi problemlərlə yanaşı BİM-in hərtərəfli tənzimlənməsi sistemini təmin edən digər amillər və proseslər də mövcuddur. Məsələn, regional iqtisadi inteqrasiyanın inkişafı iqtisadi tənzimləmə sistemində böyük rol oynayır. İnteqrasiya birliyinə daxil olan ölkələrdə qarşılıqlı güzəştlər həyata keçirilir. Bu ölkələrdə İstehsal amillərinin sərbəst hərəkəti, xarici ticarətin və digər iqtisadi əlaqələrin inkişafı eyni zamanda həmin çərçivədə iqtisadi münslbətlərin tənzimlənməsini asanlaşdırır.

Q.BİM-ln hərtərəfli tənzimlənməsində liberallaşma prosesinin də böyük rolu vardır. Əmtəə və xidmətlərin beynəlxalq ticarətində himayədarlıq deyil,

liberallaşdırmaya üstünlük verilməsi ticarət üzrə iqtisadi siyasətin əsasını təşkil edir.

lO.Onu da qeyd etməliyik ki, BİM-in müasir şəraitdəki inkişafı transmilli korporasiyaların rolunun və əhəmiyyətinin artması ilə qırılmaz bağlıdır.

Belə ki, hazırda transmilli korporasiyaların fəaliyyət dairəsi 70 min TMŞ və 800 mindən artıq filial qız müəssisəsini əhatə edir. Bu filial və müəssisələrin artımı hər bir ölkənin nəinki yalnız iqtisadiyyatına, hətta iqtisadi siyasətinə, beynəlxalq ticarət-iqtisadi mübadilə münasibətlərindəki norma və hüquq qaydalarının hazırlanması məsələlərinə də təsir edə bilir. Ona görə də, Transmilli Korporasiyaların özünün davranışı, işgüzar fəaliyyəti barədə 1970-1980-ci illərdən etibarən dəfələrlə müvafiq qanunlar hazırlanmışdır (TMK-ların davranış kodeksi),

11.BİM-in çoxtərəfli tənzimlənməsi sisteminin daha da inkişaf etdirilməsinin aktuallığı bir də ondan irəli gəlir ki, beynəlxalq iqtisadi əlaqələrdə daha yeni sahələr sürətlə artır. Burada xidmətlər ticarətinin yeni növləri olan İnformasiya texnologiyası ("elektron ticarəti"), kosmosun mənimsənilməsində, nüvə enerjisindən sülh məqsədilə istifadə edilməsində, dünya okeanı ehtiyatlarının mənimsənilməsi və s. də əməkdaşlıq edilməsi artmışdır.

Bütün bunların nəticəsində BİM-in subyektləri son vaxtlar daha sürətlə genişlənmişdir. Ona görə də, BİM- in beynəlxalq miqyasda tənzimlənməsi obyektiv zərurətə çevrilmişdir.

BİM-in dövlətlərarası tənzimlənməsində əsas vəzifə beynəlxalq əməkdaşlıq qaydalarının, hüquq

normalarının hazırlanmasından ibarətdir. Bu əsasda da hər bir ölkə öz qarşılıqlı münasibətlərini qurur, bir-birinə müəyyən güzəştlər nəzərdə tuturlar. Bu prosesdə BİM-in müxtəlif formaları dövlətlərarası tənzimlənmənin obyekti hesab edilir.

Dövlətlərarası tənzimlənmənin subyektləri isə milli dövlətlərin qurumları, qarışıq inhisarçı dövlət müəssisələri, beynəlxalq dövlətlərarası orqanlar hesab edilirlər.

BİM-in tənzimlənməsi beynəlxalq müqavilələr, konfranslar, ittifaqlar, birliklər, danışıqlar, görüşlər, forumlar, diplomatik danışıqlar və s. kimi yüksək səviyyəli tədbirlər vasitəsilə həyata keçirilir.

Bu danışıqlarda hər bir ölkənin milli müstəqilliyinə toxunmadan, ona zərər vermədən bir çox problemlər çoxtərəfli qaydada tənzimlənir. Burada "Beynəlxalq" hüquqi tənzimləmə sistemindən istifadə edilir, beynəlxalq hüquq normaları əsas götürülür. Beynəlxalq hüquq dedikdə - beynəlxalq münasibətlərin subyektləri olan dövlətlərin qarşılıqlı hüquq və vəzifələrinin müəyyən edilməsi yolu ilə, bu münasibətlərin tənzimlənməsini həyata keçirən xüsusi hüquq normaları sistemi nəzərdə tutulur. Beynəlxalq hüquqda bu normaların yaranması beynəlxalq müqavilələrə və beynəlxalq ənənələrə əsaslanır.

Bu beynəlxalq hüququn əsas məzmunu onun subyektlərinin (eləcə də dövlətin) hüquq və vəzifələri ilə əks olunur.

Bütün bu kimi beynəlxalq problemlər milli çərçivədən üstün olan və daimi fəaliyyət göstərən ins

titutlar, qurumlar, mexanizmlər yaradılması zərurətini doğurmuşdur.

Məhz belə mexanizmlərdən biri də Beynəlxalq İqtisadi Təşkilatların (BİT) yaradılmasıdır.

2. Beynəlxalq iqtisadi təşkilatlar haqqında ümumi anlayış. Onların yaradılma qaydası və təsnifatı.

Beynəlxalq iqtisadi təşkilatların məzmununun açıqlanmasına keçməzdən əvvəl ümumiyyətlə beynəlxalq anlayışına, dünya siyasətinin subyekti və beynəlxalq münasibətlərin iştirakçısı olmasına və dünya siyasi proseslərində onların rolunun şərhinə geniş yer verilmişdir. Sonra isə qanunauyğun olaraq beynəlxalq İqtisadi təşkilatların iqtisadi mahiyyəti açıqlanmışdır.

Məlumdur ki, məhsuldar qüvvələrin az-çox inkişafı ilə ayrı-ayrı xalqlar və dövlətlər arasında iqtisadi, siyasi və mədəni əlaqələr də genişlənmişdir. Sosial qrupların və dövlətin formalaşması ilə yanaşı rüşeym halında olsa da beynəlxalq yığıncaqlar, beynəlxalq görüşlər keçirilirdi. İqtisadi İcmalar arasında təsərrüfatçılıq prosesində baş verən problemlərin tənzimlənməsi, qədim dövlətlərdə Knyazların yığışması, ümumi dini qaydalar yaymaqda yığışmaq; müəyyən müharibələrdə kiminsə məğlub olması, kiminsə qalib gəlməsinin müzakirəsi və s. (Dövlətlərarası mübahisələrin həll edilməsində treteü məhməkəsi özü də bu qəbildəndir). Beləliklə dünya bazarının yaranması, dövlətlərarası ticarət münasibətləri və digər münasibətlərin intensivləşməsi, bütün xalqların mənafe ümumiliyinin dərk edilməsi özünü

göstərirdi. İlk əvvəllər dövlətlərarası müqavilələr, sazişlər bağlanır, sonra bu sazişlərin həyata keçirilməsi mexanizmi hazırlanırdı. Vaxt keçdikcə bu kimi proseslər daha da genişlənir və sistem halı alırdı. İctimai həyatın müxtəlif sahələrində əməkdaşlığın tənzimlənməsi üçün institutlar meydana gəlirdi.

«Beynəlxalq İnstitut» anlayışı daha ümumi anlayış olub «Beynəlxalq təşkilatlar», «Beynəlxalq konfranslar», «Beynəlxalq rejim» və digər adları özündə birləşdirir. Yəni bu anlayışlar sinonim təşkil edirlər. Lakin qeyd etməliyik ki. Beynəlxalq konfransların praktiki nəticəsi kimi Beynəlxalq təşkilatlar yaranmışdır.

Tarixi baxımdan yeni dövrün İlk siyasi İnstitutlarından biri "müqəddəs ittifaq" hesab edilir. Bu ittifaq 1815-ci ildə Avstriya, Prussiya və Rusiya Monarxları arasında yaradılmışdır. I Aleksandr Avropa dövlətləri ittifaqı yaradılması ideyasını irəli sürmüşdü. Müqəddəs İttifaq aktının özünü də I Aleksandr işləmişdir. 1815-ci ildə Parisdə Rusiya, Avstriya imperatorları və Rrusiya kralı tərəfindən imzalanmışdır. Sonra 1815-ci ilin noyabr ayında Fransa kralı XVIII Lüdovik bura qoşulmuşdur (sonra onların sayı artmışdır). 1840-cı ildə quldarlıq əleyhinə nəzarət mexanizmi də formalaşmışdır.

Sonra ardıcıl olaraq 1873-cü ildə «Beynəlxalq Hüquq Birliyi», 1875-ci ildə «Diş həkimlərinin, yazıçıların və rəssamların Beynəlxalq Birliyi», 1889-cu ildə «Parlamentlərarası ittifaq», «Beynəlxalq ictimai sağlamlıq Qərargahı» təsis edilmişdir. Beləliklə XX əsrin əvvəllərinə bu cür beynəlxalq təşkilatların sayı 400-dən artıq olmuşdur.

Bu kimi beynəlxalq institutlar yarandıqca beynəlxalq münasibətlərdə onların rolu və yeri barədə də fikirlər meydana gəlmişdir.

Müasir dövrün siyasi elmi Beynəlxalq təşkilatlan da beynəlxalq münasibətlərin iştirakçısı və dünya siyasətinin subyekti hesab edilir. Beynəlxalq təşkilatların mövcudluğu beynəlxalq münasibətlərə sabitlik və instltutslonal yekun vurmuş olur.

Realist nəzəri baxışların nümayəndələri belə hesab edirlər ki, beynəlxalq təşkilatlar beynəlxalq münasibətlərdə **o** qədər də böyük rola malik deyillər.

Siyasi liberalizm, yeni liberalizm (Liberal istiqamət) ideyasının nümayəndələri isə bunun əksinə fikir yürüdürlər. Bəzi tədqiqatlarda buna Liberal institut- sional İstiqamət deyilir. Bu konsepsiyanın tərəfdarları beynəlxalq institutların fəaliyyətinə çox üstünlük verir və göstərirlər ki, bu institutları bütün beynəlxalq münasibətlər sistemində, onun quruluşunda və yeniləşməsində böyük rola malikdirlər. Hətta bu institutlar gələcəkdə dövlətin rolunu sıxışdırmaq imkanına da malik ola bilərlər.

Uzun illərin təcrübəsi göstərir ki, beynəlxalq təşkilatlar hər bir dövlətin siyasi aləti ola bilər. Hər bir dövlət beynəlxalq təşkilatlara qoşulmaqla öz mili mənafelərini qorumaq imkanı əldə edirlər. Son dövrlərdə Beynəlxalq təşkilatların sayının artması özlüyündə beynəlxalq siyasətdə onların rolunun artmasını göstərir. Bu təşkilatlar əsasən dövlətlərarası qurum olsalar da gələcəkdə milli dövlətdən üstün funksiyalar yerinə yetirəcəklər.

Buna Aİ-nl misal çəkmək olar. Aİ-nin keçdiyi yolları yada salmaq kifayətdir.

Beynəlxalq hüquq sahəsində ixtisaslaşmış hüquqşünaslar göstərirlər ki, beynəlxalq dövlətlərarası təşkilatlar beynəlxalq hüququn subyekti olub beynəlxalq müqavilə əsasında yaranan dövlətlər birliyidir. Öz daimi orqanları ilə hər bir dövlətin suveren hüququna hörmətlə yanaşırlar. Öz səlahiyyətlərinə və üzv dövlətlərin tərkibinə görə bu təşkilatlar aşağıdakı qruplara bölünür:

- Ümumi səlahiyyətli dövlətlərarası beynəlxalq təşkilatlar. Bu birlik bütün fəaliyyət sahələrini nəzərdə tutur. Məsələn BMT.
- Xüsusi səlahiyyətə malik olan beynəlxalq hökumətlərarası təşkilatlar. Məsələn NATO - hərbi-siyasi təşkilatı. Beynəlxalq Valyuta fondu (BVF), BMT-nin mədəniyyət və təhsil məsələsi üzrə təşkilatı (YUNESKO);
- Açıq Beynəlxalq hökumətlərarası təşkilatlar.
- Qapalı beynəlxalq hökumətlərarası təşkilatlar. Məsələn NATO.
- Universal Beynəlxalq təşkilatlar - məsələn Millətlər Birliyi, BMT, BMT-yə daxil olan ixtisaslaşmış təşkilat və institutlar.
- Regional beynəlxalq hökumətlərarası təşkilatlar.

Beynəlxalq təşkilatlar öz səlahiyyətləri daxilində tənzimləyici, nəzarət və operativ funksiyaları yerinə yetirirlər.

Beynəlxalq dövlətlərarası təşkilatlarla yanaşı beynəlxalq qeyri-dövlətlərarası təşkilatlar da fəaliyyət göstərir. Aydındır ki, bu təşkilatlar dövlət qurumlan tərəfindən deyil, ayrı-ayrı dövlətlərin xüsusi şəxsləri və ictimai birlikləri tərəfindən yaradılır. Onlar **beynəlxalq hüququn subyektləri sayılmırlar.** Bununla yanaşı beynəlxalq münasibətlərdə müəyyən rol oynaya bilər

lər. Belə müddəalar da vardır ki, qeyri-hökumət təşkilatlarının gələcək inkişafı «Qlobal vətəndaşlıq cəmiyyəti»nin formalaşmasına və beynəlxalq münasibətlər sisteminə təsir edə bilərlər.

Beynəlxalq təşkilatlar-bir neçə dövlət və yaxud onların vətəndaşlarının mənafei ilə bağlı beynəlxalq problemlərin birgə həlli vasitəsidir. Buna uyğun olaraq dövlətlər, onların institutları və vətəndaşlar birliyi beynəlxalq təşkilatların subyekti hesab edilirlər.

Təşkilatların nizamnaməsinə uyğun olaraq bu subyektlər üzv hesab edilirlər. Formal olaraq bu üzvlər bərabər hüquqludurlar. BMT- nin Nizamnaməsinin 3-cü bəndinə əsasən yazılır ki, bu təşkilat «onun bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır».

İlk əvvəl beynəlxalq institutların bütün qərarları yekdilliklə qəbul edilirdi. 1899-cu ildə Haaqa konfransında Konsensus (ümumi fikir birliyi) prinsipi nümayiş etdirilmişdi. 1930-cu ildə yenə Haaqa konfransında «səs çoxluğu» prinsipi (3/4 prinsipi) müəyyən edilmişdir. BMT-də təsdiq edilmiş bu prinsip başqa təşkilatlara da keçmişdir. Bu fikir birliyi adlanan konsensus bəzən başqa xarakter də alır. Belə ki, məsələn, BMT- nln təhlükəsizlik şurasının beş dövlətdən ibarət daimi üzvü vardır (ABŞ, Böyük Britaniya, Fransa, Çin və Rusiya). Hər hansı bir məsələnin həlli üçün səsverməyə onların veto qoymaq hüququ var. Bu isə həmin məsələnin həllinə İmkan vermir. Burada müəyyən ədalətlə yanaşı ədalətsizlik də yaranmış olur.

Səsvermədə başqa prinsiplər də vardır. Məsələn, BVF-də qərar qəbul edilməsində köçürülmüş üzvlük haqqının məbləğinə əsasən qazandığı səs əsas götürülür. Burada da Böyük dövlətlərin səsi daha çoxdur.

Beynəlxalq təşkilatların fəaliyyətinin hüququ əsası təsisçi dövlətlər tərəfindən müəyyən edilir. Lakin müəyyən dəyişikliklər baş verdikcə düzəlişlər həyata keçirilir.

Qeyd etmək lazımdır ki, bütövlükdə beynəlxalq təşkilatlar anlayışı ilə xalis iqtisadi təşkilatları eyniləşdirmək olmaz. Beynəlxalq iqtisadi təşkilatlar, adından da göründüyü kimi əsasən iqtisadi problemlərlə bağlı olur. Ona görə də bizim məqsədimiz bütövlükdə beynəlxalq təşkilatlar barədə deyil, ancaq beynəlxalq iqtisadi təşkilatlar barədə müəyyən açıqlama verməkdən ibarətdir.

Beynəlxalq iqtisadi təşkilatlar müvafiq müqavilələr əsasında yaradılır və müəyyən məqsəd nəzərdə tuturlar. Bu təşkilatların daimi fəaliyyət göstərən orqanlar sistemi mövcud olur. Bütün bu orqanlar təşkilata üzv olan subyektlərin nümayəndələrindən ibarətdir.

Beynəlxalq iqtisadi təşkilatlar müxtəlif ad altında fəaliyyət göstərirlər. Məsələn, sadəcə olaraq təşkilat, fond, bank, ittifaq, agentlik və s. Ümumi şəkildə beynəlxalq iqtisadi təşkilatlar beynəlxalq əməkdaşlığın təşkilatı formasıdır.

Hazırda dünya miqyasında beynəlxalq təşkilatların sayı 5000-dən artıqdır.

Bu təşkilatların böyük bir qismi dövlətlərarası beynəlxalq iqtisadi təşkilatlardan ibarətdir (onların sayı 300-dən artıqdır).

Ümumilikdə bu təşkilatların yaradılması üç mərhələdən keçir:

— təsis sənədlərinin qəbul edilməsi;

—təşkilatın maddi strukturunun yaradılması və əsas orqanların müəyyən edilməsi;

Burada da həmin təşkilatın məqsədləri, prinsipləri, funksiyaları, fəaliyyət sahəsi və s. müəyyənləşdirilir.

Beynəlxalq İqtisadi təşkilatların yaranması da eyni qaydalara əsaslanır.

Daha doğrusu dövlətlərarası beynəlxalq iqtisadi təşkiiatlar hər bir döviətin könüllü razılığı iiə beynəlxalq müqavilə əsasında yaradılır. Ancaq dövlət beynəlxalq təşkilatın üzvü ola bilər. Onun hər hansı bir orqanı beynəlxalq təşkilatın üzvü ola bilməz.

Burada ümumi prinsip nəzərdə tutulur.

Beynəlxalq iqtisadi təşkilatların təsnifatına bir neçə səpkidə yanaşmaq olar:

- Dövlətlərarası təşkilatlar.
- Qeyri dövlətlərarası (böyük birliklər, firmalar, elmi cəmiyyətlərarası) təşkilatlar.

Təşkil olma prinsipinə görə:

1. BMT sisteminə daxil olan beynəlxalq iqtisadi təşkilatlar.
2. BMT sisteminə daxil olmayan beynəlxalq iqtisadi təşkilatlar.
3. Ərazi üzrə iqtisadi təşkilatlar.

Çoxtərəfli tənzimləmə baxımından beynəlxalq iqtisadi təşkilatlan aşağıdakı qruplara bölmək olar:

1. İqtisadi və sənaye üzrə əməkdaşlığı və dünya təsərrüfatı sahələrini tənzimləyən beynəlxalq iqtisadi təşkilatlar.
2. Dünya üzrə ticarəti tənzimləyən beynəlxalq iqtisadi təşkilatlar.
3. Dünya təsərrüfatını tənzimləyən ərazi üzrə olan iqtisadi təşkilatlar.
4. Sahibkarlıq fəaliyyətini tənzimləyən beynəlxalq və ərazi üzrə iqtisadi təşkilatları.

5. Beynəlxalq təsərrüfat əlaqələrinin inkişafına köməklik göstərən beynəlxalq qeyri-dövlət təşkilat və birlikləri və s.

İqtisadi təşkilatların əksəriyyəti dövlətlərarası təşkilatlardan ibarət olub, dövlətlərarası əməkdaşlıq münasibətlərini tənzimləyir.

Bunlarla yanaşı milli dövlətdən üstün hüquqi statusa malik olan təşkilatlar da mövcuddur. Məsələn Aİ-nin dövlətlərarası orqanları belə statusa malikdirlər.

Beynəlxalq İqtisadi təşkilatlar əsasən üç funksiyam yerinə yetirirlər.

1. Tənzimləyici funksiya - daha vacib vəzifə hesab edilir. Müəyyən qərarlar qəbul etməklə hər bir dövlətin hərəkətinə təsir edir. Belə ki, BlT-lər dövlətlər üçün davranış normaları işləyib hazırlayır və bu normaların həyata keçirilməsi monitorinqini keçirir, beynəlxalq təkliflərlə çıxış edirlər. Bu normalar beynəlxalq müqavilələr və sazişlər forması alır.

-Bu təşkilatlar qlobal istisadi problemlərin təsdiq edilməsi mərkəzi kimi çıxış edirlər.

-Dünya təsərrüfatı üzrə beynəlxalq miqyasda iqtisadi, texniki və humanitar yardımların həyata keçirilməsi kanalı hesab edilirlər. Bu mənada onlar donor rolu oynayırlar.

-Dünya üzrə sənaye istehsalı, kənd təsərrüfatı, beynəlxalq ticarət, beynəlxalq bilik mübadiləsi, beynəlxalq valyuta-kredit münasibətləri kimi problemlərin çoxtərəfli əməkdaşlığında əlaqələndirici rol oynayırlar.

-Beynəlxalq bank sisteminin fəaliyyətinin, beynəl- f xalq kredir münasibətlərinin inkişafında iştirak edirlər.

və sosial istiqamətlərdə

rl həyata keçirirlər

-İqtisadi və sosial problemlər üzrə ikitərəfli danışıqlar prosesinin inkişafı üçün zəmin yaradırlar.

2. Nəzarət funksiyası - ilə öz qərarlarına əməl edilməsinə çalışır.

3. Əməli funksiya (çeviklik, hərəkət etmək və məqsədə nail olmaq). Bu dərs vəsaitində təqribən 100- ə qədər iqtisadi təşkilatın iqtisadi məzmunu açıqlanmışdır.

3. Beynəlxalq iqtisadi təşkilatların yaranması mərhələləri

Bir çox qlobal problemlərin və BİM-in ayrı-ayrı formalarının artması ilə bağlı olaraq beynəlxalq iqtisadi təşkilatların yaranması və artması obyektiv zərurətə çevrilmişdir.

Aydındır ki, ayrı-ayrı dövrlərdə beynəlxalq proseslər eyni tərzdə cərəyan etmir. Məsələn, müstəmləkəçilik siyasəti dövrü, dünya müharibələri dövrü, müharibələrdən sonrakı bərpa dövrləri, milli azadlıq hərəkatının artdığı dövrlər, 90-cı illərdə sosializm dünyasının parçalandığı dövrlər və s.

Ona görə də başqa ictimai-iqtisadi proseslər kimi beynəlxalq iqtisadi təşkilatların yaranmasını da müəyyən dövrlərə-mərhələlərə ayırmaq olar.

Onu da qeyd etməliyik ki, ayrı-ayrı təşkilatların yaranması zəruriliyini səthi göstərməklə kifayətlənəcəyik. Daha geniş açıqlama isə ayrı-ayrı təşkilatlara həsr edilmiş mövzularda verlləcəkdir

BİT-iərin yaranmasının biriltcU'mərlıəlasii1ı94K^ 1950-ci illər). Məlum olduğu kimi iKinci Uunya Muna

ribəsinə qədər də bir çox beynəlxalq qurumlar olmuşdur. Lakin dünya iqtisadiyyatı vahid şəkildə formalaşdıqca, milli dövlətlərin birgə iqtisadi strategiya və çoxtərəfli tənzimləmə sistemi yaradılmasına ehtiyacı da artırdı.

İkinci dünya müharibəsi (1941-1945) dünya miqyasında böyük dəyişikliklər yaratmışdır. Ayrı-ayrı ölkələr, ərazilər, xalqlar arasında olan ənənəvi əlaqələr, münasibətlər müəyyən mənada pozulmuş, hardasa öz məzmununu dəyişmiş (məsələn, bir çox ölkələrin sosializm sisteminə qoşulması), yeniləşmiş və başqa xarakter almışdır.

Ona görə də pozulmuş iqtisadi münasibətlərin bərpa edilməsi və genişləndirilməsi ABŞ-ın təşəbbüsü və himayəsi ilə ön plana çəkilirdi.

Belə qlobal problemləri tənzimləmək üçün geniş miqyasda beynəlxalq iqtisadi təşkilatlar yaradılması obyektiv zərurətə çevrilirdi.

Elə bu məqsədlə də 1945-ci ilin iyun ayında ABŞ-ın Kaliforniya Ştatının San-Fransisko şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) təsis konfransı olmuşdur. Konfransda SSRİ, Böyük Britaniya, ABŞ və Çinin adından BMT-nin nizamnaməsi qəbul edilmişdir. 50 dövlət təsisçi olmuşdur. BMT-nin nizamnaməsi 1945-ci ilin oktyabr ayının 24-də təsdiq edilmişdir.

Beləliklə ən ümumi-universal beynəlxalq təşkilat olan BMT yaradılmışdır. O dövrdə valyuta-maliyyə və ticarət münasibətlərinin tənzimlənməsi də daha çox əhəmiyyət kəsb edirdi.

Odur ki, 1944-cü ildə Amerikanın Bretton-Vuds şəhərində BMT-nIn Beynəlxalq Konfransı keçirilmişdir. Konffans^o dövrdə daha möhkəm-sabit valyuta olan

"dollar standartr'na əsaslanan valyuta sistemi yaradılması barədə qərar qəbul etmişdir.

Bununla yanaşı ixtisaslaşdırılmış əlaqələndirmə valyuta orqanları olan Beynəlxalq Valyuta Fondu (BVF) və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BY və İB) yaradılması qərara alınmışdır. 1944-cü ildə BVF, 1945-ci ildə isə BY və İB yaradılmışdır.

1947-ci ildə xüsusi beynəlxalq təşkilat olan "Ticarət və Taarif dərəcələri üzrə Baş Razılaşma" (QATT) yaradılmışdır.

Yenə 1948-ci ildə "Avropa İqtisadi əməkdaşlıq təşkilatı" yaradılmışdır. 1961-ci ildə bu təşkilat öz fəaliyyətini dayandırmışdır.

Xüsusilə qeyd etməliyik ki, 60-cı illərin əwəllə-rinədək beynəlxalq iqtisadi təşkilatların yaradılması, daha doğrusu dünya təsərrüfat əlaqələrinin çoxtərəfli tənzimlənməsi sistemi demək olar ki, tamamilə inkişaf etmiş sənaye ölkələri çərçivəsində baş verirdi. Bu tənzimləmədə də ABŞ aparıcı rol oynayırdı. Tənzimlənmə əsasən ticarətin liberallaşdırılmasını - xarici ticarət üzrə öhdəçiliklərin azaldılmasını, kapitalın sərbəst hərəkəti və şairəni nəzərdə tuturdu.

İkinci mərhələ 60-cı illərdən başlanmışdır. Bu dövrdə artıq dünya təsərrüfatında qüvvələr nisbəti dəyişirdi. 1957-ci ildə Avropa İqtisadi Birliyinin yaradılması və Yaponiyanın inkişafı ilə dünya miqyasında inkişaf etmiş ölkələrin üç mərkəzinin formalaşdırıl- masına zəmin yaranırdı.

Həmin mərhələdə müstəmləkəçilikdən azad olan ölkələrin sayı sürətlə çoxalırdı. Bu isə dünya miqyasında iqtisadi və siyasi həyatın subyektlərinin

artmasına səbəb olurdu. Bu ölkələrin çoxu BMT-nin, BVF-in BY və İB-in, Ticarət və Tarif dərəcələri üzrə baş razılaşmanın (QATT) üzvlüyünə daxil olmuşlar. Bütünlükdə bu kimi təşkilatlarda inkişaf etmiş sənaye ölkələrinin say tərkibi 25%-dən artıq deyildi. Odur ki, bir çox təşkilatlarda müəyyən qərarlar qəbul edilməsində səs çoxluğu inkişaf etmiş sənaye ölkələrinin xeyrinə olmurdu.

Yaranmış bəzi ziddiyyətlər nəticə etibarı ilə ona səbəb olmuşdur ki, inkişaf etmiş sənaye ölkələri iqtisadi problemlərin həllini yalnız milli çərçivədə həyata keçirə bilirdilər. Odur ki, onlar özləri arasında və eləcə də inkişaf etməkdə olan ölkələrlə xarici İqtisadi siyasətlərini əlaqələndirməyi ön plana çəkmişlər.

Bütün bu kimi vəziyyətlə əlaqədar olaraq 1961-ci ildə ABŞ-ın təşəbbüsü ilə **"İqtisadı Əməkdaşlıq və İnkişaf Təşkilatı"** yaradılmışdır. Əsas beynəlxalq institutlardan biri kimi bu təşkilat "bazar iqtisadiyyatı" ölkələri üçün vahid iqtisadi siyasət hazırlamağa və onları əlaqələndirməyə başlamışdır.

Bu təşkilat çərçivəsində **"Beynəlxalq Energetika Agentliyi"** və eləcə də **"Atom Enerjisi üzrə Agentlik"** də yaradılmışdır.

Beləliklə 60-cı illərdə BMT-nin səyi ilə beynəlxalq təşkilatlar ailəsi və coğrafiyası xeyli artmışdır.

Beynəlxalq ticarətin genişləndirilməsi məqsədi ilə, ticarət sahəsində hökumətlərin siyasətlərini əlaqələndirmək və bu sahədə iqtisadi inkişafa nail olmaq üçün **1964-cü üdə BMT-nin "Ticarət və İnkişaf üzrə Konfransı"** yaradılmışdır. Sənayenin

inkişafı və inkişaf etməkdə olan ölkələrin sənayeləşdlrilməsinln sürətləndirilməsinə kömək etmək, ayrı-ayn layihələri maliyyələşdirmək və milli kadrlar hazırlamaq üçün 1967-cl ildə BMT-nin "Sənaye üzrə Təşkilatı" yaradılmışdır. Həmin ildə "BMT-nin İnkişaf Proqramı" (PROON) yaradılmışdır. Bu qurum BMT-nin Baş Assambleyasının köməkçi orqanı hesab edilir və texniki əməkdaşlıq proqramının əlaqələndirilməsinə köməklik göstərir.

Üçüncü mərhələ 70-cl illərdən başlanır. Bu dövrdə müstəmləkə sistemi tamamilə dağılmışdı. İnkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasındakı qarşılıqlı əlaqələr (bəzən də ziddiyyətlər) güclənmişdir.

Dünya təsərrüfatında quruluş böhranları (enerji, xammal, ərzaq, valyuta-maliyyə sahəsində) baş vermiş, inflyasiya və İşsizlik artmışdır.

Bir çox beynəlxalq iqtisadi təşkilatların qarşıya qoyduğu vəzifələr o qədər də effektiv yerinə yetirilə bilmirdi.

Bu ondan irəli gəlirdi ki:

1. Bu təşkilatlara daxil olan dövlətlər inkişaf səviyyəsinə görə, ideoloji və siyasi baxışlarına, milli mənafelərinə görə kəskin fərqlənirlər. Səsvermədə isə. bərabər hüquqa (BVF və BY və İB-dən başqa) malikdirlər. Belə şəraitdə razılığa gəlmək, təsirli qərarlar qəbul etmək çətin olurdu.

2. Bir çox hallarda müəyyən qərarların həyata keçirilməsi maddi və maliyyə çətinlikləri ilə də məhdudlaşırdı.

3. Bir çox təşkilatların dar çərçivədə ixtisaslaşdırılması daha mürəkkəb dünya iqtisadi sistemində problemlərin kompleks həllinə zəmin yarada bilmirdi.

4. Bu təşkilatlara daxil olan ölkələrin sayının çox olması da müəyyən çətinliklər yaradırdı. Demokratik, kollektiv qərarların effektli olmasına o qədər də təminat verilmirdi. 70-ci illərin ortalarındakı böhran vəziyyətində ’’İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı" ölkələri çərçivəsində iqtisadi siyasətlərin əlaqələndirilməsi və razılaşdırılması imkanları nisbətən asan idi.

Bütün bu cəhətlər bəzən də daha az saydan ibarət ölkəni birləşdirən beynəlxalq təşkilatlar, qurumlar yaradılmasını tələb edirdi (inkişaf səviyyəsinə görə nisbətən oxşar ölkələrin birliyi).

Dünyanın iqtisadi və siyasi hadisələrindəki əsas istiqamətləri müəyyən etmək üçün bir müddət 4 ölkənin, sonralar 5 ölkənin nümayəndələri (ABŞ, İngiltərə, Fransa, Almaniya sonra isə Yaponiya) Ağ evdə məsləhətləşmələr aparardılar.

Sonralar bu məsləhətləşmə qrupu - 1975-ci ilin noyabr ayında (İtaliyanın da iştirakı ilə) Parisdə-Rambuyedə ilk rəsmi görüş keçirmişlər.

Rambuye görüşündə bu qrupun statusu, iş metodu, qəbul edilmiş qərarların xarakteri, xarici

aləmə münasibət qaydaları və digər cəhətləri özündə əks etdirən Bəyannamə qəbul edilmişdir.

Beləliklə, 1975-ci ildə daha güclü təsir dairəsinə malik olan “Yeddilər” qrupu yaradılmışdır (1976-cı ildə Kanada, 1986-cı ildə Rusiya da bu qrupa qoşulmuşlar). Bu “Səkkizlər” qrupunun qərarları tam məcburi, qəti olmasa da, şüar xarakteri də daşımır. Müəyyən sahədə əldə edilmiş razılaşmalar BMT, ÜTT, BVF, BY və İB, İƏ və İT, BƏT, FAO, YUNESKO və bu kimi beynəlxalq təşkilatların fəaliyyətində ön plana çəkilir.

Onu da qeyd etməliyik ki, bu “8-lər” qrupunun qərarlarının həyata keçirilməsi işində müəyyən məsələlərin həllinə maraqlı olan dövlət rəhbərlərinin dəvət edilməsi təcrübəsi də həyata keçirilir. Hətta son dövrlərdə bu cür “Liderlər Klubu” şəklində beynəlxalq qurumlar yaradılması məsələləri də müzakirəyə çıxarılır.

Beləliklə 1975-ci ildəki Rambuye bəyannaməsi proqram sənədi kimi 30 ildən artıqdır ki, müvəffəqiyyətlə həyata keçirilir. “Liderlər klubu” iqtisadi inkişafın bir çox sahələri ilə yanaşı aşağıdakı sahələrin dinamik inkişafını ön plana çəkmişdir:

— beynəlxalq ticarət sistemində açıqlığa üstünlük verilməsi və qiymətlərin sabitliyinin möhkəmləndirilməsi, ticarətin liberallaşma səviyyəsinin artırılması, tarif dərəcələrinin azaldılması, kənd təsərrüfatı məhsulları satışının çoxaldılması və s.

— beynəlxalq valyuta-maliyyə sistemi sabitliyinin gözlənilməsi;

— İEOÖ-də sosial-iqtisadi problemlərin həllinə yardım edilməsi;

—qərb ölkələri iqtisadiyyatının enerji ehtiyatları ilə təmin edilməsinə yardım göstərilməsi.

Ölkələrin biri-birindən asılılığını nəzərə alan “Liderlər qrupu” ayn-ayrı dövlətləri anlaşıqlı dialoqa çağırmışdır. Bütövlükdə hazırkı dövrədək “Liderlər Klubunun” 31 yüksək zirvə görüşü olmuşdur. Bu görüşlərdə ayrı-ayrı işçi qruplarının quruluşu, qarşıda dayanan məsələlər müəyyənləşdirilmişdir. Son görüş 2006-cı ildə Sankt-Peterburqda Rusiya prezidenti V.V.Putlnin sədrliyi ilə keçirilmişdir.

Onu da qeyd etməliyik ki, son dövrlərdə dünya iqtisadi proseslərinin tənzimlənməsində yeni təşkilatların yaradılmasına deyil, bir çox hallarda onların fəaliyyətinin yenidən qurulmasına daha çox üstünlük verilir.

1990- cı illərdən sonra Keçid iqtisadiyyatı ölkələri də bu kimi beynəlxalq və eləcə də ərazi üzrə olan təşkilatlara qoşulurlar.

Tədricən bu "böyük səkkizlər" qeyri-formal institutdan döviətlərarası təşkilatların bir çox cəhətlərinə xas olan bütöv bir sistemə çevrilmişdir.

Qeyd etdiyimiz ümumi-iqtisadi təşkilatlarla yanaşı bir çox sahələr üzrə, əmtəə istehsalı və satışı üzrə də iqtisadi təşkilatlar yaradılmışdır (gələcək mövzularda onların fəaliyyəti daha müfəssəl açıqlanır).

4. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində Regional iqtisadi təşkilatların rolu (Burada inteqrasiya xarakterli birliklər nəzərdə tutulur).

Ümumdünya miqyasında olduğu kimi, ayrı-ayrı ərazilər üzrə də müəyyən iqtisadi təşkilatlar, birliklər, qurumlar fəaliyyət göstərirlər.

İqtisadi təşkilatlarla (institutlarla) yanaşı müəyyən növ məhsullar üzrə və yaxud ərazi üzrə İnteqrasiya birlikləri də yaranır.

Aydındır ki, bütün bu birliklərlərin yaranması BİM- in inkişafına xidmət edir.

Lakin bu mövzuda müəyyən birliklərin yaranması tarixi, **o** qədər də geniş verilmir, burada ancaq BİM-in tənzimlənməsi baxımından açıqlama aparılır. Çünki bu birliklər özlüyündə BİM-in obyektidirlər. İqtisadi münasibətlərin regional iqtisadi qruplaşma şəklində tənzimlənməsi iqtisadi inteqrasiya prosesi vasitəsilə həyata keçirilir. İqtisadi əməkdaşlığın formalarından asılı olaraq iqtisadi inteqrasiya dərəcəsi də inkişaf edir, formalaşır və təkmilləşir.

Son illərin məlumatına əsasən beynəlxalq ticarətin 60 faizdən artığı regional səviyyədə mövcud olan azad ticarət mexanizmi ilə həyata keçirilir.

Məsələn, Dünya ticarətinin 24%-i Asiya Sakit Okean iqtisadi əməkdaşlıq təşkilatı (ATES), 23%-i Aİ; 8%-i Şimali Amerika Azad Ticarət Zonası (NAFTA) tərəfindən həyata keçirilir. Deməli ticarət sahəsindəki iqtisadi münasibətlərin böyük bir qismi bu qurumlar vasitəsilə tənzimlənir.

Ümumdünya miqyasında ÜTT-nin rolunun artmasına baxmayaraq 1940-cı illərdən başlayaraq regional əsasda ticarətin liberaliaşdırılması genişlənmişdir.

Regional iqtisadi qruplaşmalar əsasında inteqrasiya və əməkdaşlığın aşağıdakı formaları yaranmışdır:

— Azad ticarət blrilyi. Burada üzv olan ölkələr öz aralarında olan bütün maneələri məhdudlaşdırır, ancaq xarici tarif dərəcələrini saxlayırlar. Daxili ticarətdə heç bir tarif fərqi olmur, bura daxil olmayan ölkələrlə himayədarlıq siyasəti saxlanılır.

— Gömrük ittifaqı. Bütün üzv olan ölkələr digər ölkələrdən idxal məhsulları üçün vahid tarif tətbiq edirlər. Deməli bütün daxili tariflər vahid xarici tariflərlə əvəz edilir.

— Ümumi bazar. Gömrük ittifaqının bütün bu kimi cəhətləri kapitalın, işçi qüvvəsinin, xidmətlərin (bütün istehsal amillərinin) sərbəst hərəkəti ilə tamamlanır.

— İqtisadi əməkdaşlıq. İqtisadi inteqrasiyanın bu mərhələsində daha sabit inkişafa nail olmaq üçün iqtisadi siyasətlər razılaşdmlır, regiondaxiii ticarət genişlənir, mərhələlər üzrə ümumi bazar, azad ticarət zonası yaradılır, iqtisadi və sosial məsələlərin həlli üçün ümumi müddəalar hazırlanır. Buradan da tam iqtisadi ittifaqa keçidə zəmin hazırlanır. Belə bir dinamiklik və klassik ardıcıl gediş (tam iqtisadi inteqrasiya) hələki Aİ üçün xarakterikdir.

— üzv ölkələrin iqtisadi strategiyasını və siyasətini, istehsal amillərinin azad hərəkətini nəzərdə tutan iqtisadi ittifaq kimi formalar inkişaf etmişdir. Tam iqtisadi ittifaq zəminində kredit-pul münasibətləri, sosial siyasət, iqtisadi inkişaf strategiyası, vergi qoyulması yeni əsasda həyata keçirilir, milli büdcədən üstün olan

qurumlar əmələ gəlir və bu ittifaqın bütün üzvləri üçün məcburi olur.

Beləliklə, iqtisadi ittifaq müəyyən dərəcədə siyasi inteqrasiyanın yaranmasını şərtləndirir.

Bu mənada Avropa İttifaqında Avropa parlamentinin təsis edilməsi Avropanın siyasi cəhətdən birləşməsi istiqamətində çox mühüm bir addımdır.

Ümumdünya miqyasında Ümumdünya Ticarət Təşkilatının rolunun artmasına baxmayaraq, 1940-cı illərdən başlayaraq regional əsasda ticarətin liberallaşması genişlənmişdir.

Beləliklə, iqtisadi inteqrasiya istehsal ehtiyatlarının bölgüsü effektliyini artırır, istehsala və istehlaka təsir edir və bazarın həcminin dinamik inkişafına zəmin yaradır.

Nəticə etibarı ilə inteqrasiya milli təsərrüfatlar arasında iqtisadi əlaqələrin inkişafına yeni vüsət verir.

Ümumdünya ticarət təşkilatının baş direktoru R.Rudjero hələ 1996-cı ildə ÜTT-in fəaliyyəti çərçivəsində beynəlxalq ticarət üzrə siyasətdən danışarkən göstərmişdir ki, son 15 ildə ayrı-ayrı qrup ölkələr arasında iqtisadi əməkdaşlığın və beynəlxalq əlaqələrin daha yetkin formaları genişlənmişdir.

Regional iqtisadi təşkilatların fəaliyyəti aşağıdakı İstiqamətlərdə həyata keçirilir:

—üzv olan ölkələr arasında birgə fəaliyyət göstərilməsi, əmtəə və kapitalın sərbəst hərəkəti;

—daha aparıcı sahələrin, o cümlədən - sənaye, kənd təsərrüfatı, maliyyə, nəqliyyat və s. inkişaf planlarının əlaqələndirilməsi;

-ayrı-ayrı ölkələrdə və qrup ölkələrdə investisiya və Innovasiya fəaliyyətinə köməklik göstərilməsi;

—ayrı-ayn müəssisələrdə sahibkarlığın inkişafına zəmin yaradılması, istehsal amillərinin sərbəst hərəkətinin, mülkiyyət hüqununun təmin edilməsi və s.

Regional İqtisadi Əməkdaşlıq sistemi 1940-1960- cı illərdən sonra öz inkişafını bank işində də tapmışdır. Belə ki, 1949-cu ildə Amerika ölkələrarası inkişaf Bankı yaradılmışdır.

Bu Bank 16 inkişaf etmiş və 27 inkişaf etməkdə olan ölkəni özündə birləşdirir.

1964-cü üdə Amerika İnkişaf Bankı yaradılmışdır. Bura həmin regionun 50 inkişaf etməkdə olan ölkəsi, 25 İnkişaf etmiş ölkəsi daxildir.

1966- cı ildə Asiya İnkişaf Bankı yaradılmışdır. Bu bank 31 inkişaf etməkdə olan, 14 inkişaf etmiş ölkəni özündə birləşdirir.

Regional İnkişaf Banklarının xarakterik xüsusiyyətləri ondan ibarətdir ki, bu banklar maliyyələşmədə eyni məqsəd və metoda əsaslanırlar.

İnşaat sahəsinin, avtomobil yolunun modernləşdirilməsi, dəniz limanlannın, təyyarə limanlarının kreditləşdirilməsi daha çox üstünlük təşkil edir.

Regional inkişaf banklarının əsas məqsədi - inkişaf etməkdə olan ölkələrin iqtisadi əməkdaşlığına və inteqrasiyasına nail olmaq və onların xarici asılılığını aradan qaldırmaqdan ibarətdir.

1980-ci illərdən sonra ayrı-ayrı regionlarda daha əlverişli investisiya şəraiti yarandığına görə struktur dəyişikliyinə və islahatlar keçirilməsinə kredit verilməsi xeyli genişlənmişdir.

Bu banklar həm dövlət bölməsi ilə, həm də özəl bölmə ilə əməkdaslıq edirlər.

Avropa Yenidənqurma və İnkişaf Bankı isə özəl böimə ilə daha geniş əməkdaşlıq edir. Burada xüsusi sahibkarların bank qarşısındakı öhdəçiliklərini məsuliyyətlə yerinə yetirmək üçün Beynəlxalq Maliyyə Korporasiyasının praktikasından istifadə edilir.

II FƏSİL

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ (BMT) YARADILMASI VƏ BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ ONUN ROLU

1. BMT-nin yaradılması tarixinə dair
2. BMT-nin əsas vəzifələri, onun quruluşu və iqtisadi funksiyaları
3. BMT-nin Baş Assambleyası
4. İqtisadi və Sosial Şura
5. BMT-nin İnkişaf proqramı və Azərbaycanla onun əməkdaşlığı
6. BMT və Müasir Dünya.

1. BMT-nin yaradılması tarixinə dair

Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi sisteminin formalaşması İkinci dünya müharibəsindən sonrakı illərdə özünü daha aydın göstərirdi. Hər bir beynəlxalq qurumun konkret olaraq BMT-nin hansı sahələri tənzimləməsi barədə kifayət qədər danışıqlar, görüşlər, müqavilələr həyata keçirilmişdir. Beynəlxalq miqyasda mübadilə münasibətlərinin inkişafına öhdəçilik törədən amillərin aradan qaldırılmasına səylər göstərilirdi. BİM-in tənzimlənməsində bir sistem yaratmaq məqsədilə 1920-ci ildən 1933-cü ilədək 5 Ümumdünya İqtisadi konfrans olmuşdur. 1920-ci ildə Brüsseldə "Maliyyə və Xarici Ticarətə Dair", 1922-ci ildə Genuyada "Avropada İqtisadiyyatın Bərpası və

Himayədarlığın Azaldılmasına Dair", 1927-ci ildə Cenevrədə (İsveçrə) Gömrük yükünün azaldılmasına dair, 1930-cu İldə Cenevrədə (İsveçrə) himayədarlığın azaldılmasına dair, 1933-cü ildə Londonda "Milli Valyutanın Sabitləşdirilməsi və Ticarət Siyasəti Barədə Məhdudiyyət Problemlərinə Dair" və bu kimi digər razılaşmaları qeyd etmək olar. Qeyd etməliyik ki, sadaladığımız konfranslar və digər görüşlər o qədər də konkret nəticə verə bilmirdi. Bu da ondan irəli gəlirdi ki, hələ o vaxtlar dövlətlər arasında iqtisadi inkişaf baxımından fərqlər və kəskin ziddiyyətlər vardı. Müəyyən iqtisadi razılaşmalar beynəlxalq əmək bölgüsü sisteminin İnkişafına əsaslanmırdı.

Eləcə də 1919-cu ildə yaradılmış "Millətlər Həmrəyliyi" təşkilatı da BİM-in çoxtərəfli tənzimlənməsi işinə kifayət qədər səy göstərmişdir. Lakin "Millətlər Birllyi"nin, onun iqtisadi komitəsinin və həmin ildə yaradılmış "Beynəlxalq Əmək Təşkilatı"nın səyləri heç bir nəticə verməmişdir.

1939-cu ilin sentyabr ayında Dünya Müharibəsinin başlaması da Millətlər Cəmiyyətinin heç nəyə qadir olmadığını göstərmişdir.

1941-ci ilin avqust ayında ABŞ-ın prezidenti R.Ruzvelt və İngiltərənin baş naziri Y.Çorçill arasında Atlantik Xartiyası adlı müqavilə bağlanmışdır. Xartiya 8 bənddən ibarət idi. Burada gələcək sülhə və təhlükəsizliyə nail olmağın yolları əks olunmuşdur.

Beləliklə tam inamla deyə bilərik ki, BİM-in hərtərəfli tənzimlənməsi sistemində BMT-nin yaranması keyfiyyətcə yeni mərhələ təşkil etmişdir. Qeyd etməliyik ki, BMT-nin yaranması da tarixi baxımdan bir çox

mülahizələr və müzakirələrlə bağlıdır. Belə ki, 1942-ci ildə Vaşinqtonda 26 dövlətin iştirakı ilə faşizm əleyhinə dövlətlərin və xalqların qüvvələrinin birləşdirilməsi barədə qətnamə qəbul edilmişdir (bu sənəd BMT-nin qətnaməsi adı ilə məşhurdur). Əslində bu 26 dövlət Almaniya, İtaliya və Yaponiya faşizminə qarşı birləşərək Atlantik Xartiyasını Müdafiə edirdilər. «Birləşmiş Millətlər» ifadəsi də ilk dəfə prezident T.Ruzvelt tərəfindən işlənmişdir. 1943-cü ilin oktyabnnda SSRİ, ABŞ, Böyük Britaniya və Çinin xarici işlər nazirləri Moskvada qətnamə qəbul etmişdilər. Bu qətnamədə göstərilir ki, bütün müstəqil dövlətlərin hüquq, sülh və təhlükəsizliyi prinsiplərini qoruyan ən ümumi bir beynəlxalq təşkilat yaradılması zərurət təşkil edir.

1943- cü ildə (28.XI-1-XII) ABŞ, SSRİ və Böyük Britaniyanın hökumət başçılarının Tehran görüşündə qəbul edilmiş qətnaməyə əsasən bütün millətlər birliyinin sülhün həyata keçirilməsində əməkdaşlığının zəruriliyi əks etdirilmişdir.

1945- ci ildə Krım (Yalta) konfransında BMT-nin nizamnaməsinin hazırlanması qərara alınmışdır.

Beləliklə, SSRİ, ABŞ, Böyük Britaniya və Çin nümayəndələrinin San-Fransisko (ABŞ) konfransı 26 iyun 1945-ci ildə BMT-nin Nizamnaməsini qəbul etmişdir. 1945-ci il 24 oktyabrda SSRİ, ABŞ, Böyük Britaniya, Fransa və Çin tərəfindən Nizamnamə təsdiq edilmişdir. Beləliklə, ən ümumi və nüfuzlu təşkilat olan BMT yaranmışdır. Bütün bu kimi yüksək səviyyəli görüşlərdən sonra dünya miqyasında baş verən hadisə və proseslərin vahid bir mərkəzdən tənzimlənməsini həyata keçirə bilən ümumi bir təşkilatın yaradılması mümkün olmuşdur. Beləliklə

1648-ci il vektoral sazişindən başlayaraq beynəlxalq münasibətlər sistemi formalaşmağa başlamış və Yaita-Potstan sülh sazişinin bağlanması və BMT-nin yaranması ilə daha da yetkinləşmişdi. Yalta-Potstan sistemi dövlətlərarası əlaqələrin tənzimlənməsi, Avropanın və dünyanın təhlükəsizliyinin təmin edilməsi, silahlı qarşıdurmanın aradan qaldırılması kimi dünyavi problemlərin həlli mexanizmini nəzərdə tutmuşdur.

Lakin çox keçməmiş dünyanın lider dövlətləri olan SSRİ, ABŞ və İngiltərə arasında bir çox fikir müxtəlifliyi yaranmışdır. SSRİ Avropada və dünyada sosialist sistemini genişləndirməyə çalışırdı. İngiltərə, Fransa və Almaniya genişlənən sosialist birliyinə qarşı mövqedə dayanırdılar. ABŞ isə özünün siyasi, iqtisadi, maliyyə imkanlarından istifadə edərək qarşıdurmanın mərkəzində fəaliyyət göstərirdi. Beləliklə 1947-ci ildən başlayaraq Hitler əleyhinə Koalisiyada birgə iştirak etmiş dövlətlər iki cəbhəyə ayrıldılar.

SSRİ-ABŞ qarşıdurmasının kəskinləşməsini şərtləndirən əsas amillərdən biri də müharibənin gedişində ABŞ-da atom silahının yaradılması idi. Bununla da o, dünyada öz hegemonluğunu nümayiş etdirməyə çalışırdı . 1945-ci ildə ABŞ prezidenti Ruzvelti Qarri Trumen (1884-1972) əvəz etmişdir (1945-1953). Tru- men “soyuq müharibə“nin təşəbbüskarlarından biri idi. O, SSRI-yə və onun Avropaya təsir dairəsinə qarşı açıq-aşkar mübarizə aparırdı.

Bütün bunlara baxmayaraq BMT ardıcıl olaraq dinc yanaşı yaşamaq, beynəlxalq hüquq normalarına əməl etmək, beynəlxalq sülhün, kollektiv təhlükəsizliyin birgə qorunması sahəsində gərgin iş aparır.

Göründüyü kimi ictimai-iqtisadi həyatın bütün sahələrində BMT çox geniş fəaliyyət göstərir. Biz BMT- nin bütün fəaliyyətini deyil, ancaq iqtisadi fəaliyyətini araşdıracağıq. Aydındır ki, BMT-nin iqtisadi fəaliyyəti onun iqtisadi qurumları tərəfindən həyata keçirilir. Odur ki, bu mövzuda müəyyən ümumi mülahizələrin verilməsi ilə kifayətlənəcəyik. Ayrı-ayrı qurumların fəaliyyəti isə sərbəst mövzular şəklində şərh edilir.

BMT-nin Nizamnaməsində onun iqtisadi vəzifələri ilə yanaşı beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, millətlərarası dostluq münasibətlərinin inkişafı, xalqların öz müqəddəratının həll edilməsi, iqtisadi, sosial, mədəni, humanitar xarakterli beynəlxalq problemlərin həlli kimi məsələlər də vardır. Bütün bu problemlərin həllində BMT, onun səlahiyyətli qurumları, eləcə də bir çox digər institut və təşkilatların birgə qarşılıqlı əməkdaşlığı mövcud olur. Beləliklə BMT-nin yaranması bütün başqa sahələrlə birlikdə iqtisadi sahədə də beynəlxalq əməkdaşlığın əsas prinsiplərini formalaşdırmaqla yanaşı bir çox beynəlxalq təşkilatların, institutların yaranmasına yol açmışdır. Bu kimi konkret qurumlar isə BİM-in Konkret bölmələrinin tənzimlənməsini genişləndirə bilmişdir.

2. **BMT-nin əsas vəzifələri, onun quruluşu və iqtisadi funksiyaları**

Ən ümumi və nüfuzlu Beynəlxalq təşkilat olan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi Konstitut- siyaıı bir sənəd olub bu təşkilatın bütün həyat fəaliyyətini tənzimləyir. Daha doğrusu Kollektiv təhlükəsizlik sisteminin formalaşması, hərbi, siyasi, iqtisadi, ekoloji,

humanitar və bütün digər sahələrdə hər bir dövlətin özünü necə aparması barədə özünəməxsus qanun (Kodeks) hazırlayır.

BMT-nin Nizamnaməsi əsasında yüzlərlə çoxtərəfli müqavilə sistemi yaranıbdır.

Dünya təsərrüfatının daha yeni dairələri, beynəlxalq iqtisadi münasibətlər BMT-nin öyrənilmə obyektinə çevrilirlər. Bunlarla yanaşı BMT-nin özünün də təşkilatı quruluşu dəyişir. İqtisadi müəssisələrin - təsisatların və dövlətlərin sayı artır. Bu təsisatların fəaliyyət dairəsi genişlənir. Onların başqa institutlarla əlaqəsi artır və s.

Ümumdünya iqtisadi münasibətlər sistemində mürəkkəb proseslərin artması da BMT-nin İqtisadi fəaliyyətinin artmasına səbəb olur. Bütün İqtisadi fəaliyyətləri ilə yanaşı BMT siyasi bir təşkilat kimi daha çox problemlərin həlli ilə məşğul olur.

Hazırda BMT-nin 192 üzvü vardır. Əslində bütün dünya dövlətləri BMT-nin üzvüdürlər. Ümumi şəkildə BMT-nin əsas vəzifələri aşağıdakılardan ibarətdir.

1. Kollektiv tədbirlər və münaqişələrin sülh yolu ilə həlli əsasında beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi;

2. Ayrı-ayrı xalqların özünü təyin etmək və bərabərlik prinsipi əsasında dövlətlər arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi;

3. İqtisadi, sosial, mədəni, humanitar və digər sahələrdə yaranan beynəlxalq problemlərin həllində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və İnsan hüquqlarına hörmət edilməsi;

4. Ümumi məqsədə nail olmaq üçün ayrı-ayrı ölkə və xalqlann öz qüvvələrini birləşdirmək işində mərkəz rolunu oynaması və s.

BMT-nin əsas iqtisadi vəzifələri dörd istiqamətdə həyata keçirilir:

-bütün ölkələr üçün ümumi olan qlobal iqtisadi problemlər;

-müxtəlif ölkələrin iqtisadi əməkdaşlığına köməklik göstərmək;

-IEOÖ-in ictimai-iqtisadi inkişafına yardım etmək;

-regional iqtisadi inkişaf problemlərinin həlli.

Praktiki olaraq bu istiqamətlərdə işlərin aparılması aşağıdakı formalarda həyata keçirilir:

-informasiya fəaliyyəti;

-texniki-məsləhətləşmə fəaliyyəti;

-valyuta-maliyyə fəaliyyəti.

Bu kimi vəzifələrin yerinə yetirilməsində BMT aşağıdakı prinsipləri nəzərdə tutur:

-öz üzvlərinin müstəqil bərabərliyi;

-nizamnaməyə əsasən götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsi;

-beynəlxalq münaqişələrin sülh yolu ilə həlli; -beynəlxalq münasibətlərdə başqa dövlətlərə qarşı güc işlətməmək;

-başqa ölkələrin daxili işlərinə qarışmamaq;

-bu prinsiplər əsasında bu təşkilatın üzvlərinə hər hansı bir köməklikdə iştirak etmək.

Bütün bu kimi prinsiplər əsasında BMT müəyyən təkliflər, tədbirlər, konvensiyalar (beynəlxalq saziş) və s. işləyib hazırlayır və müəyyən normativ aktlara uyğun olaraq həyata keçirir.

BMT sistemi əsas və köməkçi orqanlarla birlikdə BMT-nin özünü, 18 ixtisaslaşdırılmış müəssisəni, atom enerjisi üzrə beynəlxalq agentliyi (MAQATE) və bir sıra proqram, şura və komissiyaları əhatə edir.

BMT-nin nizamnaməsinə uyğun olaraq əsas orqanlar aşağıdakılardır:

— BMT-nin Baş Məclisi
— Təhlükəsizlik şurası
— İqtisadi və Sosial şura (EKOSOS)
— Qəyyumluq şurası
— Beynəlxalq məhkəmə
— Katiblik
— 2006-cı ildə insan hüquqları şurası yaradılmışdır.

Köməkçi qurumlar isə yuxanda qeyd etdiyimiz kimi müxtəlif proqramlar, şuralar və komissiyalardan ibarətdir.

Qeyd etdiyimiz kimi BMT ən nüfuzlu, ümumi, daha çoxtərəfli problemlərin həlli ilə məşğul olan bir təşkilatdır. Bütün bu problemlər BMT sisteminə daxil olan qurumlar tərəfindən həyata keçirilir.

Ona görə də dünya iqtisadiyyatında, beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində böyük rolu olan bəzi ixtisaslaşdırılmış qurumları sadalamaq olar:

— İqtisadi və Sosial Şura;
— Ümumdünya intellektual mülkiyyəti təşkilatı;
— Beynəlxalq inkişaf birliyi;
— Beynəlxalq dəniz təşkilatı;
— Beynəlxalq mülkü aviasiya təşkilatı;
— Beynəlxalq əmək təşkilatı;
— Beynəlxalq Maliyyə Korporasiyası;

— Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı;
— Beynəlxalq Valyuta fondu;
— Beynəlxalq kənd təsərrüfatının İnkişafı fondu;
— İnvestisiya təminatı üzrə çoxtərəfli agentlik;
— BMT-nin təhsil, elm və mədəniyyət üzrə təşkilatı (YUNESKO)
— BMT-nin sənayenin inkişafı üzrə təşkilatı
— BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı

Bu təşkilatların bir çoxunun fəaliyyəti ayrı-ayrı mövzularda daha geniş öyrəniləcəkdir.

BMT-nin iqtisadi funksiyaları da elə bu kimi İxtisaslaşdırılmış qurumlar tərəfindən həyata keçirilir. BMT-nin Nizamnaməsinə uyğun olaraq onun iqtisadi sahədə də fəaliyyəti genişdir. Bu sahədə də çoxtərəfli əməkdaşlığın həyata keçirilməsinə zəmin yaradır.

BMT Sisteminin iqtisadi funksiyaları (ümumiləşdirilmiş şəkildə) aşağıdakı sahələri nəzərdə tutur:
— müasir dövrün qlobal iqtisadi problemləri;
— inkişafa yardım edilməsi;
— zəif inkişaf etməkdə olan ölkələrin və keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafına köməklik göstərmək;
— təbiətin mühafizəsi və ətraf mühitin qorunması;
— fövqəladə hallarda humanitar yardım göstərilməsi və s.

Qlobal iqtisadi problemlərdə əhali artımı, statistika, elm və texnika, dövlət idarəçiliyi və maliyyə sahələri üzrə yaranan çətinliklərin həllinə daha çox diqqət verilir. Qlobal inkişafa yardım barədə 90-cı illərdə olduğu kimi müasir şəraitdə də çox güclü yardım

göstərilir. Burada yardım edən (donor) ölkələrin sosial sahələrə olan diqqəti artırılır.

Qeyd etmək kifayətdir ki, müəyyən fondlar və BMT-nin inkişaf proqramı (PROON) tərəfindən göstərilən əvəzsiz yardımlar hər il təqribən 4-5 mlrd, dollar təşkil edir. Aydındır ki, belə yardımlar əsasən kasıb ölkələrə göstərilir.

Hazırda təkcə inkişaf proqramının fəaliyyəti 150- dən artıq ölkəni əhatə edir. Bu ölkələrdə 7 minə qədər layihə həyata keçirilir.

Azərbaycan BMT-yə daxil olduqdan sonra 1992- ci ilin payızında İnkişaf Proqramı Bakıda öz nümayəndəliyini açmışdır. Həmin proqram çərçivəsində 1994- 2003-cü illərdə Azərbaycanda 65 layihənin yerinə yetirilməsi xətti ilə 36 mln. dollardan artıq yardım göstərilmişdir.

Son vaxtlar BMT-nin iqtisadi sahədə apardığı tədbirlər sırasında keçid iqtisadiyyatı ölkələrinin dünya təsərrüfatına İnteqrasiya İşinə və bazar iqtisadiyyatı institutları yaradılmasına köməkliyi də xüsusi rol oynayır.

Eləcə də BMT-nin təbiətin mühafizəsi fəaliyyəti də çox genişdir. Burada BMT-nin "Ətraf mühitin mühafizəsi" proqramı mövcuddur. BMT-nin sabit İnkişaf Komissiyası bu proqramla birlikdə ətraf mühitin qorunması, ekoloji norma və standartlar hazırlanması sahəsində (qlobal iqlimin mühafizəsi, torpağın erroziyaya uğraması, havanın, dənizlərin, okeanların çirklənməsinə qarşı mübarizə, tullantıların zərərsizləşdirilməsi, meşələrdən qənaətlə istifadə edilməsi və s. sahədə) geniş iş aparılır.

Bu sahədə enerjidən, nəqliyyatdan sabit istifadə edilməsi, içməli su ilə təminat, xammala qənaət edilməsi modelinin yaradılması da vacib problemlər kimi ön plana çəkilir. Fövqəladə hallarda zərər çəkən əhaliyə ildə 3-4 mlrd, dollar vəsait xərclənir.

3. **BMT-nin Baş Assambleyası**

BMT-nin əsas orqanlarından biri Baş Assambleyadır (Baş məclis). Bu Məclis BMT-nin üzvü olan bütün dövlətlərin nümayəndələrindən ibarət təşkil olunur. BMT-nin nizamnaməsi çərçivəsində hər bir məsələni müzakirə etmək və müvafiq qərar çıxarmaq hüququna malikdir. Baş Məclisin qərarları o qədər də məcburi hüquqi qüvvəyə malik deyildir. Bununla yanaşı hər halda dünya ictimaiyyətinin fikirlərini əks etdirdiyi üçün çox böyük əhəmiyyət kəsb edir. Baş Məclis BMT-nin siyasətini və proqramını müəyyən edir, büdcəni təsdiq edir, fəaliyyətin əsas istiqamətini hazırlayır və müxtəlif yığıncaqlar keçirir.

Nizamnaməyə uyğun olaraq Baş Məclis beynəlxalq əməkdaşlığa dair araşdırmalar aparır və dəyərli təkliflər verir. Bu təkliflər:

— Siyasi sahədə daha mütərəqqi beynəlxalq hüququn inkişafına həvəs oyatmaq və onun sistem- ləşdirilməsini həyata keçirmək;

— İqtisadi, sosial, mədəni, təhsil, səhiyyə sahələrində və irqindən, cinsindən, dilindən, dinindən asılı olmayaraq insanların hüquq azadlığının həyata keçirilməsini əhatə edir. Bu baxımdan Beynəlxalq sənədlərin və hüququn hazırlanmasında Baş Məclis böyük təcrübə qazanmışdır. Bu təcrübəyə əsasən hər

hansı bir məsələ barədə əvvəlcə bəyannamə (rəsmi bildiriş) qəbul edilir. Sonra isə bu bəyannamə əsasında beynəlxalq müqavilə və saziş hazırlanır. Onu da qeyd etməliyik ki, bu günədək Baş Məclis beynəlxalq hü« ququn sistemə salınmasına dair 10 mindən artıq qətnamə qəbul etmişdir.

Baş məclisdə 6 əsas komitə mövcuddur:

— tərksilah və beynəlxalq təhlükəsizlik üzrə;

— iqtisadi və maliyyə məsələləri üzrə;

— sosial, humanitar və mədəni məsələlər üzrə;

— xüsusi siyasət və müstəmləkəçilik əleyhinə məsələ üzrə;

— inzibati və büdcə məsələləri üzrə;

—hüquq məsələləri üzrə. Aydındır ki, bunlardan əlavə cari işlərə baxan komitələr, daimi fəaliyyət göstərən komitələr, İşçi qrupları, xüsusi qruplar da mövcuddur.

Baş Məclisin quruluşunda iqtisadi məsələlərlə aşağıdakı qurumlar məşğul olur:

— İqtisadi və maliyyə işləri üzrə komitə;

— Beynəlxalq ticarət hüququ üzrə BMT-nin komissiyası;

— Beynəlxalq hüquq üzrə komissiya;

— İnvestisiya üzrə komitə.

Bu komitələrin hər biri öz sahəsi üzrə təkliflər hazırlayır, qətnamə işləyir və Baş Məclisin müzakirəsinə təqdim edirlər.

1. **İqtisadi və maliyyə məsələləri üzrə komitə -**

Bu komitə əsas komitələr sırasına daxildir, iqtisadiyyat və maliyyə üzrə olan məsələlərlə məşğuldur.

2. Beynəlxalq ticarət hüququ üzrə komissiya - 1966-cı ildə yaradılıbdır. Beynəlxalq ticarətdə eyni- bərabər hüquq normalarına riayət edilməsinə köməklik göstərir.

Bu komissiya BMT-nin "ticarət və inkişaf" üzrə komissiyası (YUNKTAD) ilə əməkdaşlıq edir. 36 üzvü vardır. Bunlardan - 9 nümayəndə Afrikanın; 7-si Asiyanın, 5-i Şərqi Avropa ölkələrinin; 6-sı Latın Amerikası və Karib hövzəsinin, 9-u Qərbi Avropa və ABŞ-ın payına düşür.

3. Beynəlxalq hüquq üzrə Komissiya. Bu komissiya 1947-ci ildə yaradılıbdır. Əsas məqsədi beynəlxalq əməkdaşlıq, beynəlxalq hüququn inkişafı və sistem halına salınmasıdır.

Komissiyanın 34 üzvü vardır. Bunlardan - 8 nümayəndə Afrika ölkələrinə, 7-si Asiya ölkələrinə, 3-ü Şərqi Avropa ölkələrinə, 6-sı Latın Amerikası və Karib hövzəsi ölkələrinə, 8-i Qərbi Avropa və ABŞ-a məxsusdur. Komissiya beynəlxalq hüquqa dair məsələlər üzrə layihə işləyib hazırlayır.

4. İnvestisiya üzrə komitə - 1947-ci ildə yaradılıbdır. Bu Komitə BMT-nin nəzarəti altında olan pensiya fondu və digər xüsusi fondlar hesabına olan vəsaitin investisiya kimi yerləşdirilməsinə köməklik göstərir. İldə 4-5 iclas keçirir (adətən Nyu-Yorkda) 9 üzvü vardır.

4. İqtisadi və Sosial Şura (t və SŞ)

İqtisadi və Sosial Şura BMT-nin Əsas orqanla- nndan biridir. 1946-cı ildə yaradılıbdır. Bu şura Baş

Məclis ilə birlikdə və onun rəhbərliyi altında BMT-nin bir çox vəzifələrinin yerinə yetirilməsində məsuliyyət daşıyır.

İqtisadi və Sosial şuranın 54 üzvü (ölkə) vardır. Bunlardan 14-ü Afrika ölkələri, 11-1 Asiya ölkələri, 6-sı Şərqi avropa ölkələri, 10-u Latın Amerikası və Karib hövzəsi ölkələri, 13-ü Qərbi Avropa ölkələri və ABŞ- dan ibarətdir.

Bu üzvlərin hər il 30%-ə qədəri dəyişir - 3 illiyə yenidən seçilir. Şura ildə bir dəfə təşkilati, iki dəfə növbəti sessiya keçirir. Bu mənada İ və SŞ-daimi orqan hesab edilmir. BMT-nin cəmi büdcə vəsaitinin 70%-ə qədəri bu şuranın payına düşür.

Beynəlxalq İqtisadi Əməkdaşlığın inkişafı baxımından İ və SŞ BMT-nin iqtisadi, sosial-mədəni və humanitar sahələri üzrə olan siyasətində aparıcı rol oynayır.

Belə ki, **o** BMT-nin iqtisadi və sosial fəaliyyətini digər ixtisaslaşdırılmış müəssisələrin və institutların fəaliyyəti ilə əlaqələndirir.

BMT sistemi üzrə və bütövlükdə qlobal və **sahələrarası iqtisadi-sosial xarakterli problemlərin müzakirəsində, təkliflər hazırlanmasında mərkəz rolunda ÇIXIŞ edir.**

— İ və SŞ çərçivəsində tədqiqat işlərinin hazırlanması İqtisadi, ekoloji, sosial, mədəniyyət, təhsil, səhiyyə, həvəsləndirilmə, hörmət və insan hüquqlanna riayət edilməsi sahəsində olan beynəlxalq məsələlər üzrə geniş iş aparılır və məruzələr hazırlanır. Baş məclisdə olduğu kimi burada da ayrı-ayrı dövlətlər üçün iqtisadi və valyuta-maliyyə məsələləri üzrə hazırlanan qətnamələr təklif xarakteri daşıyır.

Bütün bunlarla yanaşı İ və SŞ ümumiləşdirilmiş şəkildə əsasən aşağıdakı məsələlərlə məşğul olur:

— Dünya üzrə İqtisadi və sosial vəziyyətin durumu barədə əsaslandırılmış təhlil və xülasələr hazırlamaq (BMT-nin universiteti - 1972 və Elmi-tədqiqat institutu — yunitar " 1965 tərəfindən hazırlanır);

— Beynəlxalq ticarətin vəziyyətini təhlil etmək. Bu iş BMT-nin ticarət və inkişaf konfransı və eləcə də beynəlxalq ticarət üzrə hüquq tərəfindən öyrənilir və əlaqələndirilir;

— Ətraf mühit problemi. Bu problem ətraf mühit proqramı (YUNEP - 1972) və təbii fəlakət zamanı yardım göstərilməsi üzrə BMT-nin əlaqələndirmə Bürosu tərəfindən öyrənilir.

— İnkişaf etməkdə olan ölkələrə iqtisadi və elmi- texniki yardım göstərilməsi. Bu problem BMT-nin inkişaf proqramı - PROON - 1966, inkişaf etməkdə olan ölkələrdə sənayenin inkişafı üzrə komissiya - YUNİDO - 1967 və Beynəlxalq kənd təsərrüfatının inkişafı fondu - 1976 tərəfindən öyrənilir.

Müxtəlif səpkidə ərzaq problemləri. Bu problem Dünya Ərzaq Proqramı (1961), Ümumdünya Ərzaq Komitəsi (1974), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO (1945) tərəfindən öyrənilir.

— Sosial-İqtisadi Statistika Problemi: Bu problem Statistika Komissiyası (1946) tərəfindən tədqiq edilir.

— Əhali artımı və yaşayış məntəqələri problemi: Bu problem əhali artımı sahəsində BMT-nin Fondu - 1967, Beynəlxalq Əmək Təşkilatı - 1946, Qaçqınların işi üzrə Ali Komissarlıq İdarəsi ~ 1949,

BMT-nin Uşaq Fondu - 1946 və Ümumdünya səhiyyə təşkilatı - 1946 tərəfindən öyrənilir.

— Təbii Ehtiyatlar problemi: Bu problem Təbii Ehtiyatlar Üzrə Komitə - 1970, eləcə də Enerji Mənbələrinin Mənimsənilməsi və İstifadə edilməsi Komitəsi -1982, tərəfindən öyrənilir.

— Pianlaşdırılma və maliyyə ehtiyatlarının səfərbər edilməsi problemi: Bu problem BVF, BY və İB, BMK, BİB kimi maliyyə təşkilatları tərəfindən öyrənilir.

— Sosial iqtisadi sənədlərin proqramlarının hazırlanması və onların həyata keçirilməsinə nəzarət edilməsi.

— Regional əməkdaşlıq problemi: Qeyd etməliyik ki, I və SŞ çərçivəsində 5 ərazi Komissiyası fəaliyyət göstərir.

Avropa İqtisadi Komissiyası, 1947 (30 Avropa ölkəsini, eləcə də ABŞ və Kanadanı birləşdirir) - katibliyi Cenevrədədir.

Asiya və Sakit okean üçün İqtisadi-Sosial Komissiya - 1947, 35 ölkəni birləşdirir - katiblik Banqkokdadır (Tailand).

Afrika üçün İqtisadi Komissiya - 1958, 50 ölkəni birləşdirir.

— Latın Amerikası üçün İqtisadi Komissiya - 1948, 40 ölkəni birləşdirir;

— Qərbi Asiya üçün İqtisadi Komissya - 1974, 14 ölkəni birləşdirir;

Bu regional Komissiyaların əsas məqsədi dünyanın ayrı-ayrı ərazilərində İqtisadi və texnoloji problemlərin öyrənilməsi, onların iqtisadi və sosial

inkişafına yardım etmək, birgə siyasət yeritmək və s.- dən ibarətdir.

Bunlardan əlavə İ və SŞ-in tərkibində iqtisadi məsələlərlə məşğul olan komitələr, xüsusi qruplar da az deyildir.

Belə ki, 6 işlək komissiya və yarım komissiya mövcuddur.

Bunlar - Sosial inkişaf üzrə:

Narkotik vasitələr üzrə;

Elm və texnika üzrə:

İnkişaf üzrə;

Sabit inkişafa köməklik üzrə;

Statistika üzrə;

Transmilli Korporasiyalar üzrə

2 daimi Komitə fəaliyyət göstərir - Proqram və əlaqələndirmə üzrə; Qeyri dövlət təşkilatları üzrə.

7 ekspert orqanı fəaliyyət göstərir.

Bunlar: Planlaşdırılmanın inkişafı;

Vergiqoyma üzrə beynəlxalq əməkdaşlığa dair xüsusi ekspertlər qrupu;

Təhlükəli yüklərin daşınmasına dair komitələr;

İqtisadi, sosial və mədəni hüquqa dair;

Milli ehtiyatlara dair;

Enerji mənbələrinin bərpası və istifadəsinə dair;

Dövlət idarəçiliyi və maliyyə üzrə ekspertlərin görüşlərinə dair.

Onu da qeyd etməliyik ki, İ və SŞ çərçivəsində Transmilli Korporasiyalar barədə də Komissiya yaradılıbdır. Bu komissiya Transmilli Korporasiyaların daha işlək olması üçün beynəlxalq müqavilələr bağlanmasına köməklik göstərir.

Qəyyumluq Şurası

Bu orqan başqa idarəçilikdə olan ərazilərə nəzarət etmək üçün yaradıbdır. Bu qurumun tərkibinə 2 qəyyum dövlətin və beş böyük dövlətin nümayəndələri daxildirlər. Burada əsas məqsəd həmin sistemlə əhatə olmuş ölkələrin xalqlarına öz müqəddəratını təyin etmək İşində kömək etmək, onların siyasi, iqtisadi və ictimai tərəqqisinə yardım göstərməkdən ibarətdir. Hazırda müstəmləkəçiliyin dağılması ilə qəyyumluq sistemi də ləğv edilmişdir. Bu təşkilat 1994-cü ildən öz fəaliyyətini dayandırmışdır

Beynəlxalq məhkəmə

Bu qurum BMT>nin baş məhkəmə orqanıdır. 15 hakimdən ibarətdir. Hakimlər Təhlükəsizlik Şurası və Baş Məclis tərəfindən 9 II müddətinə seçilir. Burada da üzvlərinin 30%-i 3 ildən bir dəyişir. Bu Məhkəmə BMT nizamnaməsinə əsasən xüsusi status əsasında fəaliyyət göstərir. Dövlətlər arasında baş verən beynəlxalq münaqişələrin həllində mühüm rol oynayır. Beynəlxalq məhkəmənin rəsmi və işçi dilləri ingilis və alman dilləridir. İqamətgahı Haaqa (Niderland) şəhərindədir.

Təhlükəsizlik Şurası

Bu qurum 15 üzvdən ibarətdir. Bunlardan 5-i daimi, 10-u müvəqqətidir. Müvəqqəti üzvlər 2 illiyə seçilir, sonra dəyişdirilir. Müvəqqəti üzvləri Baş Məclis seçir.

TŞ-nin Səlahiyyətinə aşağıdakılar daxildir.

— BMT-yə və Beynəlxalq Məhkəməyə üzvlüyə qəbulun şərtlərini tövsiyə etmək:

— Strateji regionlarda BMT-nin qəyyumluq vəzifəsini həyata keçirmək;

— BMT-Baş katibinin seçilməsi haqqında Baş Məclisə tövsiyə verir;

— Baş Məclislə birlikdə Beynəlxalq Məhkəmənin hakimlərini seçir;

— Baş Məclis qarşısında məruzələr edir,

BMT-TŞ-riln sərəncamında hərbi qüvvələr yoxdur. Yalnız lazım gəldikdə belə qüvvələr TŞ-nin tövsiyəsi ilə yaradılır.

TŞ-nin hər bir üzvünün yalnız 1 səsi var. «Veto» hüququ ancaq daimi 5 üzvlərə məxsusdur.

Katiblik

BMT-nin əsas orqanlarından biri katiblikdir. Katibliyə baş katib rəhbərlik edir. Baş katib əsas inzibati vəzifəli şəxs hesab olunur. Katibliyin tərkibində 7 departament fəaliyyət göstərir. Bunlardan ancaq biri iqtisadi problemlərlə məşğuldur.

"İqtisadi və Sosial Məsələlər üzrə Departament" - bu departament 1977-ci ildə yaradılıbdır. Beynəlxalq İqtisadi Əməkdaşlıq sahəsindəki problemlərin hərtərəfli həllinə və eləcə də BMT-nin bütün digər qurumlannın qarşılıqlı fəaliyyətinə xidmət edir. Bunlarla yanaşı Katiblik inkişaf sahəsi üçün proqram işləyib hazırlayır. Elm və texnika sahəsinin inkişaf istiqamətini öyrənir. Beynəlxalq ticarət, nəqliyyat, sənaye və inşaat statistikası barədə

məlumatlar toplayır və təhlil edir, Standartlaşdırılma və Statistika baxımından təsnifat hazırlayır.

1993- cü ildə katibliyin tərkibində insan hüquqları üzrə ilk komissar vəzifəsi təsis olunmuşdur.

BMT-nin rəsm dili ingilis, fransız, ispan, ərəb, rus və çin dilləridir. Təşkilatın büdcəsi BMT - Baş Məclisi tərəfindən müəyyən edilmiş xüsusi bölgüyə əsasən onun üzvlərindən toplanır.

5. BMT-nin inkişaf proqramı (BMTİP) və Azərbaycanla onun Əməkdaşlığı

İqtisadi problemlərin tənzimlənməsi sistemində fəaliyyət göstərən əsas qurumlardan biri də BMT-nin inkişaf proqramıdır (PROON). Bu təşkilat 1966-cı ildən fəaliyyət göstərir. BMT-nin "Geniş texniki yardım və xüsusi fondunu" özündə birləşdirir. Bu qurum BMT sistemində iqtisadiyyatın çoxşaxəli maliyyələşdirilməsində və texniki yardım sahəsində fəaliyyət göstərən ən böyük təşkilatlardan biri hesab edilir.

İnkişaf Proqramının (İP) 48 üzvü var. İP-in rəhbər orqanı İcra Şurasıdır. İcraedici şura 3 ildən bir seçilir. BMT-nin Baş katibi İP-ə 4 illiyə inzibati rəhbər təyin edir. İcraedici Şura İP-in layihələrinə baxır, onu təsdiq edir, maliyyə vəsaitini bölüşdürür, İstiqamətləndirici ümumi rəhbərlik prinsipləri və direktiv göstərişlər hazırlayır.

Bütün bunlar barədə icraedici şura BMT-nin İqtisadi və Sosial Şurasına (EKOSOSa) vaxtaşırı məruzə təqdim edir. Sonra bu məlumat Baş Assambleyaya çatdırılır.

Bu təşkilatın əsas məqsədi inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafına texniki yardım göstərmək və əhalinin həyat səviyyəsinin artmasına kömək etməkdən İbarətdir. Bu məqsədə nail olmaq üçün BMTİP öz fəaliyyətini aşağıdakı istiqamətlərdə həyata keçirir:

— ayrı-ayrı ölkələrdə yerli mütəxəssislərə məsləhətlər verir, seminarlar keçirir və onlara ekspert xidməti göstərir;

— bir çox qlobal problemlərə dair qəbul edilən qərarların yerinə yetirilməsi yollarını müəyyənləşdirir. Məsələn, 1992-ci ildə ətraf mühitə və inkişafa dair RİO-de-Janeyro-da keçirilən forum; 1994-cü ildə əhali artımı və inkişafa dair Qahirə Görüşü; 1995-ci ildə sosial inkişafa dair Kopenhagen forumu; Qadınların vəziyyətinə dair 1995-ci il Pekin forumu; yaşayış məntəqələrinə dair 1996-cı il İstanbul forumunun qərarları və s. göstərmək olar;

— İdarəçilikdə milli kadrların hazırlanmasına, iqtisadiyyatın dövlət bölməsində islahatların və iqtisadi siyasətin həyata keçirilməsinə, eləcə də xüsusi bölmənin inkişafına şərait yaradılmasına köməklik göstərir;

— İnsan inkişafına, Yoxsulluğun ləğv edilməsinə məşğulluğun artmasına, ətraf mühitin yaxşılaşdırılması və s. problemlərin həllinə yaxından köməklik edir.

Qeyd etmək lazımdır ki, BMT müxtəlif adlı fondları və proqramları vasitəsilə hər il 4-5 mlrd, dollar əvəzsiz yardımlar həyata keçirir.

BMTİP üzrə olan müxtəlif təyinatlı yardımlar çox vaxt uzun müddətə - 5 ilə nəzərdə tutulurlar. Məsələn, 1992-1996-cı İllər üçün illik yardım fondu (büdcə) ——

təqribən 1 mlrd, dollar təşkil etmişdi. Bu vəsaitin yaranmasında əsas donor ölkələri inkişaf etmiş sənaye ölkələrindən ibarət olmuşdur.

Aydındır ki, donor ölkələrinin sayı dəyişməz deyil, artır, onların ayırdığı yardım da iqtisadi artımla bağlı olaraq artıb-azalır.

1997-ci ildən başlayaraq beşilliyin əvvəlindən inkişaf proqramının mərkəzi büdcəsinin 55%-i ölkələrdə əhalinin hər nəfərinə düşər ÜDM-in həcminə görə, 11,8%-i regional prinsiplərə görə, 1,6% BMT-nin xüsusi maliyyə qurumları tərəfindən (proqrama əsasən), 0,5% inkişaf etməkdə olan ölkələrdə texniki əməkdaşlıq xətti ilə ödənilir.

Bunlarla yanaşı İnkişaf Proqramı bir çox digər beynəlxalq təşkilatların birgə fəaliyyəti zəminində çoxtərəfli fondlardan istifadə edir. Bunlardan:

"Qlobal ekoloji fond"u;

"XXI əsrin potensialı";

"BMT-nin qadınlar üçün inkişaf fondu";

"BMT-nin Kapital inkişafı fondu";

"Müəyyən xəstəliklərə qarşı mübarizə fondu" və s. qeyd etmək olar.

Bütün bunlarla yanaşı BMTİP öz strategiyasında ardıcıl olaraq əlavə ehtiyat mənbələrini də səfərbərliyə alır, iqtisadi və insan ehtiyatlarından səmərəli istifadə edilməsində öz təcrübəsinə əsaslanır.

Hazırda İP-in fəaliyyəti 150-dən artıq ölkəni əhatə edir. Bu ölkələrdə 6500-dən çox layihə həyata keçirilir. Qeyd etməliyik ki, Azərbaycanın BMT-yə daxil olmasından bir qədər sonra, 1992-cl ilin payızında BMTİP Bakıda öz nümayəndəliyini yaratmışdır. BMTİP öz fəaliyyətinin ilk mərhələlərində humanitar yardıma.

xüsusilə Dağlıq Qarabağ münaqişəsindən zərərçəkənlərə fövqəladə humanitar yardıma üstünlük verirdi. Lakin vaxt keçdikcə BMTİP-in Azərbaycandakı fəaliyyəti genişlənmişdi.

Beləliklə BMTİP öz fəaliyyətində yoxsulluğun azaldılması, insan hüquqlarının təşviqi, ətraf mühitin mühafizəsi, torpaqların minalardan təmizlənməsi, informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin artması və s. kimi problemlərə daha çox üstünlük verir.

Bu kimi problemlərin həlli üçün BMTİP 1994-2003- cü illərdə 65 layihənin yerinə yetirilməsi xətti İlə 36 mln. dollardan artıq yardım etmişdir.

Bu vəsaitin 30 faizi iqtisadi böhranların qarşısının alınması və bərpa İşlərinə; 28%-i demokratik idarəçiliyin inkişafına; 22%-i enerji və ətraf mühitin qorunmasına; 12%-i yoxsulluğun azaldılması İşlərinə, 6%-l informasiya və kommunikasiya texnologiyalarına sərf edilmişdir. Son vaxtlar Azərbaycanda inkişaf proqramının daha dinamik və ardıcıllığı artmışdır. Azərbaycan ərazilərinin minalardan təmizlənməsi üzrə milli Agentlik (ANAMA) yaradılmışdır. Elə həmin vaxtdan bu sahədə milli proqram hazırlanmış və ərazilərin minalardan təmizlənməsi məqsədilə 7 mln. dollar maliyyə vəsaiti sərf edilmişdir. BMTİP, son dövrlərdə Azərbaycanda baş verən inkişafı və müəyyən dəyişiklikləri müşahidə etmək məqsədilə 1995-ci ildən başlayaraq, milli insan inkişafı üzrə hesabat da hazırlayır (^ərbaycan 1994- cü ildən BMTİP-in İnsan inkişafı Konsepsiyasına qoşulubdur). İnkişaf Proqramının əsas nəşri olan bu hesabat Azərbaycanın humanitar yardımdan insan

inkişafına doğru olan dəyişiklikləri özündə əks etdirmişdir.

1990- cı illərin ortalanndan etibarən iqtisadi tərəqqi və siyasi sabitlik hesabına ölkədə daxili vəziyyət xeyli yaxşılaşmışdı. Başqa sahələrə nisbətən neft sektoru əhəmiyyətli dərəcədə inkişaf etmiş və nəticədə neft fondu yaradılmışdır.

Neft sektoru ilə Qeyri-Neft sektoru arasındakı fərqi azaltmaq məqsədilə BMTİP-in Azərbaycandakı nümayəndəliyi "qara qızılın" "insan qızılına" çevrilməsi ideyasını irəli sürmüşdür. Bu fikir ilk dəfə 2002-ci ilin aprel ayında keçirilən BMTİP-in yoxsulluq və məşğulluq məsələləri üzrə olan konfransda səslənmişdir. BMTİP- in rezident nümayəndəsi cənab Marko Borsotti demişdir ki, sürətlə inkişaf edən Şərqi Asiyanın bəzi ölkələri kimi Azərbaycan da İnsan potensialının inkişafına kapital qoyuluşunu artırmalıdır. Bu məqsədə nail olmaq üçün neftdən əldə edilən gəlirdən müxtəlif İstiqamətlərdə istifadə etmək olar. Məsələn, xarici texnologiyalardan istifadə bacarığının öyrənilməsi üçün minlərlə azərbaycanlını xaricə göndərmək olar. Bu isə insan kapitalının inkişafını təmin edəcək.

BMTİP-in nümayəndəliyinin bu konsepsiyasına əsaslanaraq Azərbaycan yoxsulluğun azaldılmasına dair milli strategiya hazırlamış və 2002-ci ilin oktyabr ayında Dövlət proqramı təqdim edilmişdir. Beləliklə BMTİP özünü bu proqramın icrasına yardım göstərmiş hesab edir. Bütün bu kimi nailiyyətləri nəticə etiban ilə "qara qızılın” "insan qızılına" çevrilməsi işində əsas vasitə sayır.

BMTİP bütün başqa sahələrdə olduğu kimi bu problemin icrasında da ardıcıl və dinamik iş

apanlmasına köməklik edir. Belə ki, məsələn, yoxsulluğun azaldılması üzrə 2002-2003-cü illər üçün 366169 mln dollar ümumi vəsait sərf edilmişdir. Bu vəsaitin 319669 min dolları BMTİP büdcəsi, qalanı isə digər tərəflər hesabına ödənilmişdir.

2003-2004-cü illər üçün isə yenə də yoxsulluğun azaldılması məqsədilə BMTİP üzrə "Əmək statistikası və regional inkişaf sahəsində Azərbaycana texniki yardım" layihəsi hazırlanmışdı. Bu layihənin həyata keçirilməsi üçün 265100 dollar vəsait xərclənməsi nəzərdə tutulmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi BMTİP ən çoxşaxəli maliyyələşdirmə sisteminə malik olan qurumlardan biridir. Bu mənada həmin təşkilatın "fövqəladə halların qarşısının alınması və bərpa" üzrə də kifayət qədər layihələri həyata keçirilir.

Bu layihə "Azərbaycanda Mina Təhlükəsi İlə Mübarizə Proqramı" adı altında həyata keçirilir. Layihə 1999-2003-cü illəri əhatə etmişdir. Bu layihənin maliyyələşdrilməsl üçün 6.048 min dollar vəsait ayrılmışdır.

Bu vəsait aşağıdakı mənbələr hesabına həyata keçirilmişdir:

1. Avropa komissiyası	1.600m dol.
2. ABŞ	1.521 m dol.
3. BMTİP	1.013m dol.
4. Azərbaycan	600m dol.
5. Yaponiya	486,7m dol.
6. Beynəlxalq əməkdaşlıq departamenti	450,Om dol.
7. İtaliya	200m dol.
8. Norveç	112,1m dol.
9. Kanada	65m dol.

Bu layihənin köməkliyi ilə 4.250000 kv.m şübhəli ərazi minalardan təmizlənib, 3000 ədəddən çox partlamamış mərmilər, 53 tank əleyhinə mina məhv edilmişdir.

Bütün bu işlərin görülməsi üçün 10 nəfərdən ibarət texniki yoxlama dəstəsi və 106 nəfərdən ibarət minalardan təmizləmə dəstəsi yaradılıb və tam gücü ilə fəaliyyət göstərmişdir.

BMTİP-in fəaliyyətində həyata keçirilən layihələrdən biri də "Enerji və ətraf mühit" problemidir. Bu layihə "Xəzər Ekoloji Proqramı çərçivəsində Trans- sərhəd Ətraf Mühit Problemlərinin həlli" adlanmışdır. Bu layihə 1999-2003-cü illəri əhatə edir. Layihənin ümumi büdcəsi 5574,1m dollara bərabər olmuşdur. Bu vəsaitin 5274,6 dolları Qlobal Ekoloji Fond tərəfindən ödənilmişdir.

BMTİP həyata keçirdiyi layihələrdə "İnkişaf üçün milli informasiya Kommunikasiya texnologiyaları Strategiyası və onun ilkin mərhələdə icrası" layihəsi də mərkəzi yerlərdən birini tutur. Bu layihə 2002-2004-cü illər üçün nəzərdə tutulmuşdur. Layihənin icrası üçün 1200 min dollar (BMTİP - 600 min dol., Azərbaycan - 600 min dol.) nəzərdə tutulmuşdur.

Onu qeyd etməliyik ki, BMTİP çərçivəsində və yaxud birgə fəaliyyət şəraitində BMT-nin "Qaçqınlar üzrə Ali Komissarlığının"; "Ümumdünya Ərzaq Proqramının"; "BMT-nin uşaq fondunun"; "BMT-nin Əhali fondunun"; "BMT-nin İctimai İnformasiya departa- mentinin"; "Beynəlxalq Miqrasiya təşkilatının"; "Ümumdünya Səhiyyə Təşkilatının"; "Qadınlar üçün inkişaf fondunun" və bu kimi qurumların böyük rolu vardır.

Qeyd etdiklərimizdən aydın görünür kl, BMT - ictimai-iqtisadi həyatın bütün sahələrinin inkişafına hərtərəfli yardım göstərir və müxtəlif proqramlar hazırlayır. 2000-ci ilin sentyabr ayında da Minilliyin Sammitində dünya liderlərinin Minilliyin Bəyannaməsini təsdiq etməsi də bü kimi proqramlardan biridir.

Bəyannamədə aşağıdakı problemlər qeyd olunmuşdur:

1. Dilənçiliyin və aclığın ləğv edilməsi;
2. Bütün əhalinin iqtisadi təhsillə təmin olunması;
3. Qadınların hüquq və imkanlarının genişləndirilməsi. Qadın və kişilər arasındakı bərabərliyin təmin edilməsi;
4. Uşaq ölümü səviyyəsinin azaldılması;
5. Analığın qorunması vəziyyətinin yaxşılaşdırılması;
6. Qızdırma və digər xəstəliklərə qarşı mübarizə;
7. Qlobal tərəfdaşlığın inkişaf etdirilməsi;
8. 2015-ci ilə ekoloji vəziyyətin yaxşılaşdırılması.

Onu da qeyd etməliyik ki, 2005-ci ilin sentyabr ayında BMT-nin Baş Məclisinin sessiyasında Minilliyin Bəyannaməsində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi məsələləri geniş müzakirə edilmişdir.

6. BMT və Müasir Dünya

Dünyada sülhün və təhlükəsizliyin təmin edilməsində BMT ən universal bir təşkilat hesab edilir. Bu kimi vəzifələrin həllində bir çox beynəlxalq təşkilatların birgə, razılaşdınimış fəaliyyəti mövcud olur. Aydındır ki, bu sahədə BMT-nin fəaliyyəti Millətlər Birliyinin fəaliyyətindən köklü surətdə fərqlənir.

BMT və onun orqanları mövcud olduğu bütün illərdə beynəlxalq hüququn inkişafında həlledici rol oynamışdır. Kifayət qədər normativ aktlar qəbul edilmişdir.

Müstəmləkə ölkələrinin suverenlik əldə etməsi işində də BMT-nin böyük rolu olmuşdur. 1960-cı ildə BMT-nin Baş Assambleyası müstəmləkə ölkələrə və xalqlara müsləqillik verilməsi barədə bəyannamə qəbul etmişdir. Bununla əlaqədar olaraq 60-dan artıq ölkə müstəqillik əldə etmiş və BMT-nin üzvü olmuşdur.

BMT-nin «İnsan hüququ» barədə beynəlxalq Kodeksi də böyük əhəmiyyətə malikdir. Bu barədə də kifayət qədər normativ aktlar hazırlanmışdır.

Bütün bunlara baxmayaraq BMT öz öhtəsinə düşən vəzifələri heç də kifayət qədər yerinə yetirə bilməmişdir. Beləliklə XX əsrdə dünyada baş verən 140 müharibə 125 mln. nəfər adamın həyatına son qoymuşdur. Münaqişələrin aradan qaldırılması və onların tənzimlənməsi üzrə BMT-nin fəaliyyət effektivliyi çox aşağıdır. XX əsrdə baş verən 700-dən çox beynəlxalq, regional və lokal münaqişələrin 500-dən artığı BMT dövrünə təsadüf edilir.

Son dövrlərdə BMT-nin 14 münaqişəli hadisəyə qarışması ilə ancaq münaqişənin yeri dəyişmişdir.

76 hadisəyə qarışmış və heç bir nəticə əldə edilməmişdir. 18 hadisədə dolayı yolla müəyyən tənzimləmə baş vermişdir. 21 hadisədə müəyyən rol oynamış, 4 hadisədə isə həlledici rola malik olmuşdur.

BMT-nin silahlı qüvvələri onun üzv dövlətlərindən təşkil olunur. Hərbi əməliyyatlar da aparıldıqda hərbi xərclər BMT-nin bütün üzvləri tərəfindən həyata keçirilir. Məsələn, 1995-ci ildə bu xərclər 2,8 mlrd, dollar olmuşdur.

Ölkə /daxil olma tarixi	Ölkə /daxil olma tarixi	Ölkə /daxil olma tarixi
1	2	3
Avstraliya - 1945	İran - 1945	Portuqaliya - 1955
Avstriya - 1955	İrlandiya - 1955	Rusiya - 1945
Azərbaycan - 1992	İslandiya - 1946	Rumıniya -1955
Albaniya - 1955	İspaniya - 1955	Salvador -1945
Əlcəzair - 1962	İtaliya - 1955	San-Marino - 1992
Anqola - 1976	Yəmən - 1947	San-Tome və Prinsipi -1975
Andorra - 1993	Kabo-Verde - 1975	Səudiyyə Ərəbistan - 1945
Antiqua və Barbuda - 1981	Qazaxıstan - 1992	Şimali Koreya - 1991
Ermənistan - 1992	Kamerun - 1960	Seyşel adaları - 1976
Əfqanıstan - 1946	Kanada - 1945	Seneqal - 1960
Baham adaları - 1973	Qətər - 1971	Svazilend - 1968
Argentina - 1945	Kamboca - 1955	Sent-Vinsent və Qrenadin - 1980
Banqladeş - 1974	Keniya - 1963	Sent-yusiya - 1979
Barbados - 1966	Kipr - 1960	Sinqapur - 1965
Bəhreyn - 1971	Çin - 1945	Suriya - 1945
Belarus - 1945	Kolumbiya - 1945	Slovakiya - 1993
Beliz - 1981	Kamor adaları - 1975	Sloveniya - 1992
Belçika - 1945	Konqo - 1960	Solomon adaları - 1978
Benin - 1960	Kosta-Rika - 1945	Somali - 1960
Bolqarıstan - 1955	Kot-de-ivuar - 1960	Sudan - 1956
1	2	3
Boliviya - 1945	Küveyt - 1963	Surinam - 1975
Bosniya və Hersoqovina- 1992	Qırğızıstan - 1992	ABŞ - 1945
Botsvana - 1966	Laos - 1955	Serra-Leone - 1961
Braziliya - 1945	Latviya - 1991	Tacikistan - 1992
Bruney Darussalam - 1984	Lesoto - 1966	Tailand - 1946
Burkino - Faso - 1960	Liberiya - 1945	Tanzaniya - 1961
Burundi – 1962	Livan - 1945	Toqo - 1960
Butan - 1971	Liviya - 1955	Trinidad və Tobaqo - 1962

Vanuatu - 1981	Litva - 1991	Tunis
Böyük Britaniya - 1945	Lixtenşteyn - 1990	Türkmənistan - 1992
Macarıstan - 1955	Lyüksemburq - 1945	Türkiyə - 1945
Venesuela - 1945	Mavrikiya - 1968	Uqanda - 1962
Vyetnam - 1947	Mavritaniya - 1961.	Özbəkistan - 1992
Qabon - 1960	Madaqaskar - 1960	Ukrayna - 1945
Haiti - 1945	Makedoniya - 1993	Mikroziya Federativ Ştatları - 1991
Qayana - 1966	Malavi - 1964	Fici - 1970
Qambiya - 1965	Malaziya - 1957	Filippin - 1945
Qana - 1957	Mali - 1960	Finlandiya - 1955
Qvatemala - 1945	Maldiv adaları - 1965	Fransa - 1945
Qvineya - 1958	Malta - 1964	Xorvatiya - 1992
Qvineya-Bissau - 1974	Marokko - 1956	Mərkəzi Afrika Respublikası-1960
Almaniya - 1974	Marşall adaları - 1991	Çad - 1960
Honduras - 1945	Meksika - 1945	Çex Respublikası - 1993
Qrenada - 1973	Mozambik - 1975	Çili - 1945
Yunanıstan - 1945	Moldova - 1992	İsveç - 1946
Gürcüstan - 1994	Monako - 1993	Şri-Lanka - 1955
Danimarka	Monqolustan - 1961	Ekvador - 1945
Cibuti - 1977	Myanma (Birma) - 1948	Ekvatorial Qvincya - 1968
Dominikan Respublikası-1945	Namibiya - 1990	Eritreya - 1993
1	2	3
Dominik - 1976	Nepal - 1955	Estoniya - 1991
Zair - 1960	Niqer - 1990	CAR - 1945
Zambiya - 1964	Niderland - 1945	Cənubi Koreya - 1991
Samoa - 1976	Nikaraqua - 1945	Yamayka - 1962
Zimbabve - 1980	Yeni Zellandiya -	Yaponiya - 1956
İsrail - 1949	Norveç - 1945	Yaponiya - 1956
Hindistan - 1945	BƏƏ - 1971	Tonqa - 1999
İndoneziya - 1950	Paraqvay - 1945	Kribati - 1999
İordaniya - 1955	Peru - 1945	Nauru - 1999

İraq - 1945	Polşa - 1945	Kuba - 1945
Oman - 1971	Pakistan - 1947	Palau - 1994
Panama - 1945	PapuaYeni Qvineya - 1975	Ruanda - 1962
Timor-Leşti - 2002	«San-Kits» Nevis - 1983	Tuvalu - 2000
Uruqvay - 1945	Serbiya - 2000	Çemoqoriya - 2006
Misir - 1945	Nigeriya - 1960	Efiopiya - 1945

III FƏSİL

MİLLƏTLƏR BİRLİYİ

1919-cu ii Paris konfransında müzakirə olunan ən zəruri problemlərdən biri də Beynəlxalq Təşkilatlar məsələsi idi. 1919-cu ii yanvar ayının 25-də keçirilən plenar iclasda Millətlər Birliyi yaradılması barədə də qətnamə qəbul edilmişdir. Hələ I Dünya Müharibəsi ərəfəsində belə bir təşkilat yaradılmasının zəruriliyi qeyd edilirdi. Müharibə illərində İngiltərədə və Fransada müxtəlif yalançı pulpərəst (pasifist) qüvvələr bu barədə müəyyən layihələr irəli sürürdülər. Müharibənin axırlarında bu məsələ artıq hökumət səviyyəsində qoyulurdu. Gələcəkdə yaradılacaq Təşkilatın Nizamnaməsi və quruluşunu işləmək üçün İngiltərə, ABŞ və Fransada Komissiya yaradılmışdır.

Amerika prezidenti Vilson da Millətlər Birliyinin Layihəsini Parisə gətirmişdir.

İngilis layihəsi Lord Fillimorun rəhbərliyi ilə dövlət Komissiyası tərəfindən hazırlanmışdır. Bu layihədə «İttifaq» şəklində olan böyük dövlətlər arasında arbitraj sxemi verilmişdir. Layihənin müəlliflərinin hesablamA- larına görə bu «İttifaq» İngiltərənin müstəmləkə imperiyasını saxlamağı təmin etməli idi. Amerikada hazırlanan layihə isə Polkovnik Xauzun rəhbərliyi ilə həyata keçirilmişdir.

Bu layihədə Millətlər Birliyi və onun əsas orqanlarının yaradılması nəzərdə tutulmuşdur.

İngiltərənin təqdim etdiyi sxemdən bnun fərqi ondan ibarət idi ki, Liqanın üzvləri böyük dövlətlərlə məhdudlaşırdı.

Millətlər Birliyinin Fransada hazırlanmış layihəsi Əmək Naziri L.Burniyanın rəhbərliyi ilə hökumət komissiyası tərəfindən keçirilmişdir. Onların layihəsinə əsasən Almaniya bu beynəlxalq təşkilata üzv ola bilməzdi. Hətta Fransızlar təklif edirdi ki, Millətlər Birliyinin nəzdində beynəlxalq silahlı qüvvələr də formalaşmalıdır. Lakin İngiltərə və ABŞ buna razı olmadılar.

Millətlər Birliyinin Nizamnaməsini hazırlamaq üçün Paris konfransı xüsusi komissiya da yaratmışdı. Komissiyaya Bigon rəhbərlik edirdi. Burada İngiltərə- Amerika layihəsi əsas götürülmüşdür. Başqa layihələrə, hətta Fransa, İtaliya layihələrinə baxılmamışdır. Fevral ayının 13-nə Birliyin layihəsinin nizamnaməsi hazır olaraq Vilson tərəfindən Konfransa təqdim edilmişdir. Layihə 26 bənddən ibarət idi. Bu bəndlərdə təşkilatın iş prinsipi, quruluşu, funksiyası və vəzifələri öz əksini tapmışdır.

Bu birliyə Britaniya Millətlər birliyi də demək olar. Çünki bu birliyə Britaniya imperiyasının keçmiş müstəmləkə və dominonları daxildir.

Bu birlik bura daxil olan dövlətlərin tam müstəqilliyi və könüllüyü prinsipləri əsasında yaradılıb, 1919-cu ildə təsis olunubdur. Nizamnaməyə əsasən burada əsas məqsəd xalqlar arasında əməkdaşlığı inkişaf etdirmək və onların təhlükəsizliyini təmin etməkdən ibarətdir.

Hazırda bu birliyə 53 dövlət daxildir.

Bunlar aşağıdakılardır:

1. Böyük Britaniya	28. Mozambik
2. Avstraliya	29. Namibiya
3. Kanada	30. Malavi
4. Hindistan	31. Svazilend
5. Malayziya	32. Nauru
6. Sinqapur	33. Tonqa
T.Yeni-Zellandiya	34. Qərbi Samara
8. Cənubi Afrika resp.	35. Fidcl
9. Şri-Lanka	36. Banqladeş
10. Qana	37. Baham adaları
11. Kipr	38. Qrenada
12. Nigeriya	39. Papua-Yeni
13. Sero-Leona	Qvineya
14. Tanzaniya	40. Seyşel adaları
15. Yamayka	41. Solomon adaları
16. Trinidad və Tobaqo	42. Tuvalu
17. Malta	43, Dominika
18. Qanbiya	44. Sent-Lyusiya
19. Botsvana	45. Kiribati
20. Qayana	46. Sent-Vinsentvə
21. Lesoto	Qrenadina
22. Barbados	47. Zimbabve
23. Mavrikiy	48. Bellz
24. Uqanda	49. Antiqua və
25. Keniya	Barbuda
26. Zambiya	50. Maldiv respublikası
27. Kamerun	51. Sent-Kristofer və Nefis
	52. Bruney
	53. Vanuatu

1932-ci ildə Kanadanın paytaxtı Ottavada İmperatorluğun Konfransı keçirilmişdir. Burada İmperiya daxili ticarətdə müəyyən imtiyazlar sistemi işlənib hazırlanmışdı. 1973-cü ildə Böyük Britaniya AİB-in ümumi bazarına daxil olduqdan sonra ümumi bazarın tariflərini Millətlər Birliyi ölkələri üçün də məqbul hesab etmişdir. 1920-1934-cü illər arasındakı dövrdə Millətlər Birliyi Sovet hökumətinə qarşı açıq-aşkar düşmənçilik siyasəti yeridirdi. Lakin 1934-cü ildə Almaniya və Yaponiya bu birlikdən çıxmışlar. Həmin dövrdə 1934-cü ildə SSRİ birliyə daxii olmuş və 1939- cu ilədək onun işində fəaliyyət göstərmişdir. 1939- 1940-cı illərdə SSRİ ilə Yaponiya arasında olan müharibəni əsas gətirən Böyük Britaniya və Fransa SSRİ-nin bu birlikdən çıxarılmasına nail olmuşlar. Beləliklə faktiki olaraq birliyin fəaliyyəti dayanmışdır. Formal olaraq birliyin fəaliyyəti 1946-cı ildən dayandırılmışdır.

Liqanın fəaliyyətinin əsas istiqamətləri aşağı- dakılardın ibarətdir:

— İqtisadi və siyasi əməkdaşlığa yardım edilməsi;

— Birliyə üzv olan ölkələrin sabit iqtisadi inkişafına köməklik göstərilməsi;

— Müəyyən məsləhətlər vermək, məlumatlar yaymaq vəzifəsi həyata keçirmək;

— Əməkdaşlıq proqramları hazırlamaq və həyata keçirmək. İqtisadi və sosial inkişaf, texnologiya, elm, təhsil, peşəkarlıq, insan hüququ, demokratiya və s. məsələlər barədə konfranslar, seminarlar və digər tədbirlərin həyata keçirilməsi əsas götürülür.

Birliyə daxil olan ölkələr arasındakı qarşılıqlı əmək> daşlıq, könüllülük, bərabər hüquqlu olmaq prinsipləri 1931-ci ildə rəsmi qaydada müəyyənləşdirilmişdir.

1971- ci ildə qəbul edilmiş bəyannamədə də bu kimi prinsiplər öz təsdiqini tapmışdır.

1971-ci ildə Birlik üzrə texniki əməkdaşlıq fondu yaradılmışdır. Bu fond üzv olan ölkələrin könüllü üzvlük haqqı hesabına formalaşır. Bu fond əsas mənbə hesab edilir. 1987-ci ildə dünya ticarəti barədə, 1989-cu ildə ətraf mühit barədə bəyannamə, 1991-ci ildə əsas hüquq barədə bəyannamə qəbul edilmişdir.

Bütün bu kimi tədbirlərin həyata keçirilməsi üçün birliyə daxil olan ölkələrin dövlət başçıları iki ildə bir dəfə toplantı keçirirlər. Əsas əlaqələndirici orqan Katiblik hesab edilir. Katiblik 1965-ci ildə yaradılıbdır.

Katibliyə Baş Katib rəhbərlik edir. Baş katibin 3 müavini mövcuddur:

— İqtisadi və sosial məsələlər üzrə;
— Siyasi məsələlər üzrə;
— Texniki əməkdaşlıq məsələləri üzrə.

Katibliyin fəaliyyəti aşağıdakı beş müxtəlif fondlar hesabına həyata keçirilir.

1. Birliyin büdcəsindən olan maliyyə vəsaiti;
2. Birliyin Elmi Şurasının büdcəsindən olan ayırmalar;
3. Texniki Əməkdaşlıq fondu hesabına;
4. Gənclərin əməkdaşlığı proqram xətti üzrə;
5. Texnologiyanın idarə edilməsi üzrə məsləhət qrupunun vəsaiti üzrə.

Böyük Britaniyanın Monarxı rəmzi olaraq biriiyin də başçısı hesab ediir.

IV FƏSİL

BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI - BƏT

1. BƏT-in yaranması tarixi
2. BƏT-ln məqsədləri
3. BƏT-ln quruluşu
4. BƏT və Azərbaycan

1. BƏT-in yaranması tarixi

1900-cu illərin əvvəllərində yaranan BİT-lərdən birl də Beynəlxalq Əmək Təşkilatıdır. 1919-cu İldə məlum Versal sülh müqaviləsindən sonra beynəlxalq əmək normalarının tənzimlənməsi, zəhmətkeşlərin hüquq normalarının qorunması, sahibkarlarla həmkarlar İttifaqları arasında olan münasibət və hüquqi tərəfdaşlıq və digər bir çox problemlərin aydınlaşdırılması da ön plana çəkilirdi. Odur ki, Versal Sülh müqaviləsinin XIII - bəndində «Sosial tərəfdaşlıq» başlığı da verilmişdi. Millətlər liqası (cəmiyyəti) yanında müstəqil statusa malik BƏT-in orqanlannda üçtərəfli nümayəndəlik qaydası nəzərdə tutulmuşdu.

Zəhmətkeşlər (Həmkarlar İttifaqı), sahibkarlar və hökumət. 1919-cu ildə yaradılmış bu təşkilatın əsasını aşağıdakı problemlər təşkil edirdi:

— Demokratiyanın möhkəmləndirilməsi;
— Yoxsulluğa qarşı mübarizə aparılması;
— Sosial müdafiənin təkmilləşdirilməsi;

BMT yaradıldıqdan az sonra 1946-cı ilin əvvəllərində BƏT ilə danışıqlar apanimış və 1946-cı il

dekabr ayının 14-də BƏT BMT-nin ixtisaslaşmış qurumu statusu almışdır. Elə o vaxtdan da beynəlxalq aləmdə BƏT-in fəaliyyətinə çox ciddi və uğurlu baxışlar yaranırdı. Onu qeyd etmək kifayətdir ki, 1969-cu ildə BƏT-in yaradılmasının 50 illik yubileyi keçirildiyi zaman bu təşkilat Nobel sülh mükafatına layiq görülmüşdür.

Sosializm sisteminin dağılması ilə bağlı olaraq yeni ictimai-iqtisadi sistemə daxil olan ölkələrdən BƏT-ə daxil olanların sayı artmışdır. O cümlədən Azərbaycan da bu təşkilata daxil olmuşdur.

2. Beynəlxalq əmək təşkilatının məqsədləri

BƏT öz növbəsində aşağıdakı məsələləri əsas götürmüşdür:

— Tam məşğulluğu və həyat səviyyəsinin yüksəldilməsini təmin etmək;

— İqtisadi və sosial proqramların dəstəklənməsi və həvəsləndirilməsi;

— Başlıca insan hüquqlarına əməl olunması;

— zəhmətkeşlərin həyat və sağlamlığının müdafiə olunması;

— sahibkarlar və zəhmətkeşlər arasında əməkdaşlığa şərait yaradılması;

— sosial ədalətin təmin edilməsi vasitəsi ilə sülhə nail olunması və s.

Bununla yanaşı BƏT-in aşağıdakı fəaliyyət prinsiplərini də qeyd etmək olan

— Əməyin əmtəəyə çevrilməsi yolverilməzdir;

— Azad fikir, düşünmək, birliklərdə iştirak etmək prinsipi;

— irqindən, dinindən və cinsindən asılı olmayaraq bütün insanlara azadlıq, ləyaqət və iqtisadi təhlükəsizlik şəraitində maddi cəhətdən təmin olunması və mənəvi inkişaf hüququnun olması.

BƏT-in fəaliyyəti əsasən dörd sahəyə aynlır:

— Əmək və həyat şəraitinin yaxşılaşdırılması;

— Məşğulluğa nail olunması;

— İşçi qüvvəsi potensialının aşkarlanması;

— Sosial institutların inkişaf etdirilməsi.

BƏT-in qəbul etdiyi beynəlxalq əmək normalan öz ifadəsini Beynəlxalq əmək kodeksində tapmışdır.

BƏT-in təklifləri məcburi xarakter daşımır. Hər halda onun üzvlərinin çoxunun fikrini ifadə edir. Bu isə hər bir ölkədə sosial və əmək münasibətlərindəki qanunvericiliyə dəyişiklik edilməsinə əsas yaradır.

Bu mənada BƏT-in beynəlxalq sazişlərinin böyük rolunu qeyd etmək olar:

-1948-ci ildə azadlığın və hüququn qorunması barədə müqavilə;

-1930 və 1957-ci illərdə məcburi əməyin ləğv edilməsi barədə müqavilə;

-1951-ci ildə bərabər mükafatlandırılma barədə;

-1952-ci ildə sosial təminatın minimum həddi barədə;

-1958-ci ildə əmək və məşğulluqda irqi fərqə dair;

-1964-cü ildə məşğulluq siyasəti barədə;

-1949 və 1975-ci illərdə mühacir işçilərə dair;

-1976 və 1969-cu illərdə əməyə nəzarət barədə;

-1976-cı ildə üçtərəfli məsləhət barədə sazişlər və s.

BƏT bu kimi normalarla yanaşı öz üzvlərinə texniki köməkliklər də göstərir.

3. Beynəlxalq əmək təşkilatının quruluşu.

BƏT-in struktumna aşağıdakı orqanlar daxildir.

1. Beynəlxalq əmək konfransı;
2. İnzibati Şura;
3. Beynəlxalq Əmək Bürosu;
4. Üçtərəfli Komitələr;
5. Regional və xüsusi konfranslar.

BƏT-in başlıca orqanı, Beynəlxalq Əmək Konfransıdır. Konfrans hər ildə bir dəfə çağırılır. Hər bir dövlət Konfransda 4 nümayəndə ilə təmsil olunur. Bunların 2-sl hökumət nümayəndəsi, 1-i sahibkarlardan, 1-i isə zəhmətkeşlərdən ibarət olur. Aydındır ki, bu nümayəndələr bərabər hüquqludurlar.

İnzibati Şura BƏT-in əsas orqanlarından seçilir. Bu 56 üzvdən ibarətdir.

Bunlardan 28 nümayəndə hökumətləri, 14 nümayəndə sahibkarlan, 14 nümayəndə isə zəhmətkeşləri təşkil edir. Bu inzibati Şuranın rəhbərləri sırasında 10 yer daimi əsaslarla daha çox ÜDM-ə malik olan dövlətlərin nümayəndələri üçün nəzərdə tutulubdur (bunlar-Braziliya, Böyük Britaniya, Almaniya, Hindistan, İtaliya, ABŞ, Fransa, Rusiya, Yaponiya və Çindir).

İnzibati Şuranın qalan nümayəndələri (üzvləri) gizli səsvermə yolu ilə seçilirlər.

İnzibati şura ildə üç iclas keçirir, konfransın gündəliyini hazırlayır, onun qərarlarını nəzarətə götürür.

BƏT-in daimi katibliyi. Beynəlxalq əmək bürosundan ibarətdir. Buraya baş direktor rəhbərlik edir. Burada əsasən üç qurum var.

— İcra orqanı

— Əlaqələndirmə mərkəzi
— Tədqiqat və sənədləşdirmə mərkəzi.

Əmək Bürosunun təqribən 40 ölkədə regional və sahə nümayəndəlikləri vardır.

Hazırda BƏT-in tərkibində 180-dən artıq dövlət vardır. İqamətgahı Cenevrədədir.

BƏT-in işçi dilləri: ingilis, ispan və fransız dilləridir.

4. BƏT və Azərbaycan

Azərbaycan 1992-ci ilin may ayında BƏT-in üzvlüyünə qəbul olunmuşdur. Odur ki, qanunauyğun olaraq BƏT-in hər bir İşində fəal iştirak edir. Hazırkı vaxtadək BƏT-in 54 beynəlxalq konvensiyasını təsdiq etmişdir. Azərbaycan Əmək və Sosial müdafiə sahələrində, milli qanunvericiliyin təkmilləşdirilməsində, məşğulluq problemində və bu kimi digər problemlərdə BƏT-in texniki yardım proqramlarından faydalanmışdır. BƏT - 2002-ci ildə Azərbaycanda Milli əlaqələndirici vəzifə təsis etmişdir.

Respublikada Əməyin Mühafizəsi və Təhlükəsizliyi üzrə milli strategiyanın hazırlanmasına dəstək və əməyin mühafizəsi və təhlükəsizliyi haqqında məlumat və təlim mərkəzinin yaradılması nəzərdə tutulmuşdur.

Bu problem Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin mütəxəssisləri tərəfindən həyata keçirilir.

V FƏSİL
ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ YARANMASI

1. Beynəlxalq turizmin inkişafı.
2. Beynəlxalq turizmin coğrafiyası.
S.Turizm sənayesinin inkişafı.
4. Ümumdünya Turizm Təşkilatının yaranması.
5. Azərbaycanda turizmin inkişaf imkanları

1. Beynəlxalq turizmin inkişafı.

Turizm (fransız dilində gəzinti, səyahət) sivilizasiyanın inkişafı nəticəsində meydana gəlmişdir. Turizm hər şeydən əvvəl həzz almaq, öz marağını təmin etmək, əylənmək, gəzintiyə çıxmaq deməkdir.

İqtisadi ədəbiyyatların demək olar ki, hamısında beynəlxalq turizmin şərhi, onun iqtisadi əhəmiyyəti ilə başlanır. Bunu müəyyən mənada düzgün hesab etmək olar, çünki bu məsələ BİM sistemində (iqtisadi baxımdan) araşdırılır.

Lakin bizim fıkrimizcə beynəlxalq turizmin İctimai mahiyyəti daha genişdir. Onun iqtisadi məzmunu ictimai məzmununun tərkib hissəsini təşkil edir. Turizmin inkişafına iki tərəfdən yanaşdıqda bir tərəfdə müxtəlif formalarda səlahətə çıxan adamlar nəzərdə tutulur. Burada xalis səyahət baxımından demək olar ki, heç bir iqtisadi fayda nəzərdə tutulmur. Digər tərəfdə isə bu insanları göndərən və qəbul edən ölkələr nəzərdə tutulur. Aydındır ki, burada iqtisadi fayda ön plana çəkilir.

Turizmə xalis ictimai münasibət - ictimai hadisə kimi baxdıqda, insanlar müxtəlif ölkələri gəzməklə ayrı-ayrı ölkələrin xalqlarının adət-ənənələri və işgüzarlığı barədə, nizam-intizama riayət edilməsi barədə, tarixi abidələri barədə, iqtisadi inkişaflan barədə tam təsəvvür əldə edə bilirlər. Deməli, burada atalar misalı olan «yüz eşitməkdənsə, bir dəfə görmək yaxşıdır» müddəası daha yaxşı sınaqdan çıxmış olur. Beynəlxalq turizmdə insanlar arasında qarşılıqlı ünsiyyət yaranır.

Filosoflar insanlar arasında yaranan ünsiyyəti xoşbəxtliyin əsas şərtlərindən biri hesab edirlər. Tanınmış Azərbaycan filosofu mərhum Ziyaddin Göyüşovun 1983-cü ildə nəşr etdirdiyi «Səadət düşüncəsi» adlı kitabında insanlar arasında yaranan ünsiyyətin əhəmiyyətinə kifayət qədər yer verilmişdir. Orada göstərilmişdir ki, insanlar arasında yaranan əlaqələrin keyfiyyətindən, məzmunundan və formasından asılı olaraq onlar xoşbəxtlik tapırlar. Qədim filosoflar xoşbəxtliyi «ünsiyyətdən, ülfətdən və dostluqdan hörülmüş möhtəşəm bir saraya» bənzətmişlər.

Təsadüfi deyil ki, marksizm-leninizm klassikləri ünsiyyəti insanların ictimai mövcudluğunun ən vacib şərti hesab etmişlər. F.Engels ünsiyyəti yeməklə, geyimlə, mənzillə və insan həyatının mövcudluğu üçün zəruri olan başqa tələbatlarla eyni cərgəyə qoymuşdur.

Deməli, müəyyən mənada ünsiyyət - insanın xarici aiəmlə, başqa insanlarla bilavasitə və dolayısı ilə əlaqələrinin məcmusudur. Ünsiyyət insanın həyat fəaliyyətinin əsas məğzini təşkil edən amillərdən biridir. İnsan üçün fəaliyyət nə qədər vacibdirsə, ünsiyyət də bir o qədər vacibdir.

insanın bütün varlığı, onun daxili aləmi, istedadı, yaradıcılıq qabiliyyəti məhz ünsiyyət şəraitində təzahür edir. Bütün bu kimi mülahizələrlə oxucuların nəzərinə çatdırmaq istərdik ki, turizm hər şeydən əwəl insanlar arasında ünsiyyət vasitəsidir və onun ictimai əhəmiyyəti iqtisadi əhəmiyyətini qa» haqlayır.

Hazırda müstəqil bir fəaliyyət dairəsi olan turizmə xas bəzi subyektlərin və anlayışların ictimai məzmununun açıqlanması çox prinsipial bir əhəmiyyət kəsb edir.

Turizmin aşağıdakı subyektləri qarşılıqlı halda fəaliyyət göstərirlər:

1. Turistlər. Öz müxtəlif psixi və fiziki tələbatlarını ödəmək istəyən insanların səyahətə çıxması.

2. Turistlərə əmtəə və xidmətlər təqdim edən təşkilatlar. Bu mənfəət əldə etmək istəyən sahibkarlardan ibarətdir.

3. Yerli hakimiyyət orqanları. Bunlar turizmə iqtisadiyyata gəlir verən bir amil kimi baxırlar.

4. Turistləri qəbul edən tərəflər. Bu subyektlər - yerli adamlar turizmə əhalinin məşğulluğunun artması amili kimi baxırlar.

Beləliklə, turizm - turistlərin, turist göndərənlərin, yeri orqanların və yerli əhalinin turist fəaliyyəti prosesində yaranan hadisə və qarşılıqlı münasibətlərin məcmusunu əks etdirir.

Səyahət və turizm çox yaxın anlayışlardır.

Səyahət anlayışına ilk baxışda bir çox hadisələri daxil etmək olar. Məsələn; ayrı-ayrı fərdiər, vahid məqsəd və mənafeyə malik insan qrupları, bütöv bir

ekspedisiya, bir neçə yüz, bəlkə də min nəfəri birləşdirən hərbi mütəxəssislərin səyahəti, diplomatlar, mühacirlər, köçkünlər və s. Bəzi ayrı-ayrı xalqlar üçün səyahət həyat tərzidir. İqlim şəraiti ilə bağlı olaraq əsrlər boyu belə həyat tərzi formalaşır. Məsələn, bir çox köçəri xalqlar mal-qara, qoyun sürüləri ilə yaylaqlara köçürlər, payız ayları qayıdırlar.

Pakistan və Əfqanıstanda belunclar, ərəblər də beduninlər bu cür həyat tərzinə öyrəşiblər.

Eləcə də mövsümi kənd təsərrüfatı işləri ilə məşğul olan adamlar da səyahət edirlər.

Deməli, səyahət dedikdə, insanların müəyyən zaman və məkan baxımından yer dəyişməsi nəzərdə tutulur.

Müəyyən məqsəd, istiqamət və nəqliyyat vasitələrindən asılı olmayaraq səyahətə çıxan insan səyyah adlanır.

Səyahətdən fərqli olaraq turizm iqtisadiyyata təsir göstərən bir kateqoriya kimi araşdırılır.

Turizm - xüsusi növ, kütləvi səyahətdir. Turizm - öz daimi yaşayış yerini müvəqqəti dəyişərək başqa yerə getməyi nəzərdə tutur. Burada dincəlmək, qonaq getmək, müalicə üçün, əylənmək, tanışlıq və yaxud peşəkarlıq və işgüzarlıq baxımından getmək halları ola bilər.

Beləliklə, turizm hər bir dövlətdə mehmanxana təsərrüfatının, restoranların, tamaşa tədbirlərinin, nəqliyyat sisteminin və s. işini canlandırmaqla məşğulluğun artmasına və xarici valyuta daxil olmasına zəmin yaradır.

Bütün bunlarla yanaşı ölkə daxilində olan turizm ilə, dövlətlərarası, ayrı-ayrı ərazilər üzrə olan

turizm də fərqləndirilir. Bu artıq beynəlxalq turizm adlanır.

Beynəlxalq turizmin təsnifatını müxtəlif səpkidə vermək olar. Məhz elə bununla da onun iqtisadi məzmunu müəyyənləşmiş olur. Beləkl, məsələn, müddətinə görə - bir günlük, bir neçə günlük, tranzit turizm növləri fərqləndirilir.

Mövsümi xarakterinə görə - fəal turizm mövsümü (buna qızıl mövsüm də deyilir), mövsüm- lərarası müddət (məsələn tutaq ki, qış mövsümü ilə yazın təzə başlandığı dövr), mövsümi xarakter daşımayan turizm və s.

Nəqliyyat növləri baxımından turizm. Burada piyada, ənənəvi nəqliyyat növləri olan avtomaşın, dəmiryolu, havayolları və eləcə də ayn-ayn xalqlara xas olan dirijabi (hava gəmisi), hava şarı, deltaplan, at, veloslbed, kanad yolu, funikler və s. nəzərdə tutulur.

Yaş baxımından - gənclər, yaşlı adamlar, uşaqlar, qarışıq halda həyata keçirilən turizm növləri də fərqləndirilir.

Bunlarla yanaşı müəyyən məqsəd baxımından da turizm növləri fərqləndirilir:

Beləki: 1. Tanış olmaq məqsədi daşıyan turizm. Bu növ turizm
daha çox kütləvilik təşkil edir. Burada müəyyən plan əsasında təbiətlə, mədəni-tarixi yerlərlə tanış olmaq nəzərdə tutulur.

2. İstirahət günləri kurort və müalicə, istirahət məqsədi ilə həyata keçirilən turizm (buna bərpaedici turizm də deyilir). İqlim dəyişmə, palçıq

müalicəsi, çimərlikdən istifadə, gəzinti və s. kimi proseslər də bura aid edilir.

3. İşgüzarlıq, yığıncaqlarda iştirak etmək və s. məqsədi ilə həyata keçirilən turizm.

4. İdman növlərində (suda, piyada, dağ, xizək, velosibed yarışlarında, avtomaşınlarla, alpinizm və s.) iştirak etmək məqsədilə həyata keçirilən turizm.

5. Elmi turizm. Beynəlxalq konfranslar, qurultaylar, simpoziumlar, seminarlar və s.-də iştirak etmək məqsədi ilə insanların getməsi.

6. Tədris turizmi. Beynəlxalq tələbə mübadiləsi, kolleclərdə və universitetlərdə xarici dillərin öyrənilməsi, maarifləndirmək məqsədilə yaradılan turlar.

7. Dini turlzmiər. Burada (Çində - Lxasa, Səudiyyə Ərəbistanında - Məkkə, İraqda - Kərbəla, İranda - Məşhəd, israildə ~ İerusəlim və digər dünya dini mərkəzləri müqəddəs yerlərə ziyarətə gedənlər nəzərdə tutulur.

8. Daha maraqlı olan kosmik turizm növü də yaranmışdır. Turizmin bu növü ilk dəfə Rusiyada həyata keçirilmişdir. 2002-ci ildə Amerika biznesmeni Denis Tito kosmosa göndərilmişdir. Bu kosmik tur bir həftə davam etmiş və 20 mln. dollar qiymətləndirilmişdir. 2003-cü ildən Amerikanın xüsusi turist kompaniyaları olan «Speys Edvençer» və «Red Letter Deyz» beynəlxalq kosmik stansiyaya turizmin İnkişafı üçün geniş iş aparırlar.

Son illərdə beynəlxalq görüşlər, yığıncaqlar artdığına görə işgüzar turizm növü də daha dinamik inkişaf yoluna keçmişdir. Bu növ turizmin artım sürəti

8% təşkil edir. İstirahət günləri həyata keçirilən 1-2 günlük qısamüddətli turistlərin sayı da sürətlə artır.

2. Beynəlxalq turizmin coğrafiyası və iqtisadi əhəmiyyəti

Beynəlxalq turizm xidmətin xüsusi bir sahəsi olmaqla, insanlann beynəlxalq hərəkəti və yaxud səyahəti ilə bağlıdır. İnsanların bu fəaliyyət növü beynəlxalq ticarətə xas olan spesifik bir iqtisadi kateqoriyadır. Bu beynəlxalq səyahət bölməsi bir çox dövlətlərin iqtisadiyyatında özünəməxsus rola malikdir.

Hər bir turist yola düşməzdən əvvəl müəyyən məbləğ yol xərci - nəqliyyat xərci, mehmanxana xərci, yemək pulu, xidmət haqqı və s. ödəməli olur. Eləcə də getdiyi ölkədə müəyyən əmtəələr almalı olur, xidmətlərdən istifadə edir. Bütün bunlar ticarətə aid kateqoriyalardır. Lakin turizmin ictimai faydası bu iqtisadi xərclərdən daha artıqdır.

Turizm yalnız zahirən işçilərin beynəlxalq hərəkətinə bənzəyir. Əmək miqrasiyasında əsas məqsəd İşə düzəlməkdir. Turizmdə isə əsas məqsəd insanların dincəlməyini, əylənməyini, müalicəsini, mədəni, kütləvi, elmi tədbirlərdə iştirakını nəzərdə tutur.

Qeyd etməliyik ki, XX əsrin ikinci yarısından beynəlxalq turizm hərtərəfli genişlənir. Aydındır ki, burada yalnız müxtəlif formalarda səyahətə çıxanların sayı deyil, bütövlükdə turizm infrastrukturunun inkişafı nəzərdə tutulur. Beləliklə, 1960-1970-ci illərdən beynəlxalq turizm ümumdünya xarakteri almışdır. Nəticə etibarı ilə - Ümumdünya turizm bazan yaranmışdır.

Dünya turizm bazarında hər şeydən əvvəl daha çox turist göndərən və turist qəbul edən ölkələr fərqləndirilir. Burada daha çox turist göndərən ölkələrdən ABŞ, Almaniya, İngiltərə və Belçika, daha çox turist qəbul edən ölkələrdən isə Fransa, İspaniya, ABŞ və İtaliya fərqlənirlər.

Cədvəldən görünür ki, turistlərin sayına görə Fransa, İspaniya və İtaliya (ABŞ-la əhalinin sayı ilə müqayisədə) liderlik edirlər.

Daha çox turist qə 3Uİ edən ölkə ər (2002)

	Tutduğu yer	Turistlərin sayı, mln. nəfər	Beynəlxalq turizmdən olan gəlir, mlrd, evro
Fransa	1	76,7	33,5
İspaniya	2	51,7	36,7
ABŞ	3	45,4	80,7
İtaliya	4	38,4	29,0
Çin	5	36,8	19,9
Rusiya	15	21,2	12,2

Cədvəldən görünür ki, turistlərin sayına görə Fransa, İspaniya və İtaliya (ABŞ-la əhalinin sayı ilə müqayisədə) liderlik edirlər.

Ümumiyyətlə, son illərin məlumatlarına görə cəmi qəbul edilən turistlərin 60%-ə qədəri, turizmdən daxil olan gəlirin isə 50%-ə qədəri Avropa ərazisinin payına düşür. Avropa ölkələrinin bu cür irəlidə olması heç də yalnız onlarda ümumdünya miqyasında məlum olan mədəni-tarixi və təbii abidələrin, inkişaf etmiş turizm sənayesi şəbəkəsinin, ticarətin, nəqliyyat

infrastrukturunun mövcudluğu ilə izah edilmir. Etiraf etməliyik ki, avropalılar ənənəvi olaraq səyahətə, öz məzuniyyətlərini yaxın qonşu ölkələrdə keçirməyə üstünlük verirlər.*'

Bu və ya digər Avropa ölkəsinə gələn qonaqların 90%-ə qədəri yenə avropalılardan ibarət olur.

Avropa ərazisində isə İspaniya, İtaliya, Yunanıstan, Almaniya, Avstriya və Benilüks ölkələri daha qabaqcıl mövqedədirlər. Turizmdən olan mənfəətin 20%-i həmin ölkələrin, 11%-i isə Mərkəzi və Şərqi Avropa (Bolqarıstan, Xorvatiya, Çexiya və Macarıstan) ölkələrinin payına düşür.

İkinci yerdə Asiya Sakit Okean regionu dayanır. Bu regionu çox vaxt «turist istiqamətinin gələcəyi» adlandırırlar. Bu region dünya turizm bazarının 18%-ni təşkil edir. Son dövrlərdə bu region Amerika regionunu 2-ci mövqedən sıxışdırmışdır. Buradakı yarımregionlarda isə Şimal-şərqi Asiya (başda Yaponiya olmaqla), sonra Cənubi-şərqi Asiya (Malayziya, İndoneziya, Tailand) və Cənubi Asiya (Vyetnam, Hindistan, Şri-Lanka) fərqlənirlər.

Dünya turizm xidməti bazarında Amerika regionu 3-cü yeri tutur - 17%. Aydındır ki, beynəlxalq iqtisadi münasibətlər sistemində bu regionda əsas

' Maraq üçün qeyd edək ki, 1976-cı ildə biz Minsk şəhərində ixtisasartırma İnstitutunda olarkən 15 nəfər Cənubi Qafqazdan, 15-20 nəfər Orta Asiya respublikalanndan. təqribən 100 nəfər Rusiya, Belorusiya, Ukrayna və Moldova respublikalarından müəllim vardı. Hər həftənin 5-ci günləri dərsin əvəzinə müxtəlif yerlərə ekskursiya təşkil edilirdi. Orta Asiya və Qafqazlılardan ancaq bu yazının müəllifi Kərimov Cəlil və Azərbaycan Dövlət iqtisad Universitetindən mərhum Həsənov Ağayar bütün bu kimi tədbirlərə qoşulardıq. Belə ictimai-kütləvi tədbirlərə qoşulmayanda bizə o qədər də yaxşı baxmırdılar.

¨>>

mərkəz ABŞ, Kanada və Meksika birliyidir. Həmin regionda turizmdən olan gəlirin 75%-i bu üçlüyün payına düşür. Qeyd etməliyik ki, bu üçlükdə də ABŞ daha həlledici mövqeyə malikdir. ABŞ dünyada daha geniş mehmanxana şəbəkəsinə və yüksək inkişaf etmiş müasir nəqliyyat sənayesinə malikdir.

Dünya turizm bazarında sonrakı yerləri Afrika (CAR, Tunis, Mərakeş, Seyşel adaları) - 4% və Yaxın Şərq (BƏƏ, Səudiyyə Ərəbistanı) - *2%* ölkələri tutur.

Ayrı-ayrı regionlarda beynəlxalq turistlərin sayı, min, nəfər

	1990	1995	2002
Dünya üzrə	456,8	551,8	714,6
Avropa	282,2	324,2	411,0
Asiya və Sakit Okean regionu	57,7	85,6	130,6
Amerika regionu	92,9	108,9	120,2
0 cüm: Şimali Amerika	71,7	80,5	85,3
Afrika	15,0	20,0	28,7
Yaxın Şərq	9,0	13,1	24,1

Yuxanda qeyd etdiyimiz dünya turizm bazannda ayn-ayrı regionların mövqeyi cədvəldəki məlumatlarda bir daha öz əksini tapmış olur. Beləki, cəmi turistlərin 58%-l Avropanın, 18,3%-i Asiya və Sakit Okean regionunun, 17%-i Amerika regionunun payına düşür.

Hazırda dünya turizm bazarında bəzi ölkələr daha yüksək rəqabət üstünlüyünə malik olmaqla öz ölkələrini bu bazar üzrə ixtisaslaşdırırlar. Hətta bu > >80

biznes üzrə inhisar vəziyyəti də yarada bilirlər. Bu mənada ABŞ-da qar şəlaləsi kimi nadir təbiət abidələrini, Nepalda Comolunqma dağını, Misirdə qədim fironların piramidalarını (ehramiannı), Hindistanda - Tac-Mahalı, Yunanıstanda - Akropai qalasını, İtaliyada 50 min adam yerləşən Kolizey abidəsini (qladiator döyüşləri üçün 75-80-ci illərdə tikilmiş qədim anfiteatra bənzər abidə) göstərmək olar.

İspaniya, Portuqaliya, Türkiyə, Kipr və bu kimi digər ölkələrdə gözəl dəniz çimərliklərini və Aralıq dənizinin mülayim iqlim şəraitinin olması həmin ölkələrə turistlərin cəlb edilməsinə maraq yaradır.

Ümumdünya turizm təşkilatının məlumatına görə hazırda 15 ölkə turizm xidməti üzrə ixtisaslaşmışdır. Bu ölkələrdə turizmdən olan gəlir əmtəə ixracından olan gəlirdən daha çoxdur. Burada kiçik ada dövlətləri (Barbados, Seyşel adaları və s.) daha çox fərqlənirlər. 45 dövlətdə turizmdən olan gəlirlər cəmi İxracın 25%-dən artıqdır (bunlar əsasən inkişaf etməkdə olan ölkələrə aiddir).

Beynəlxalq Turizm Təşkilatının məlumatına görə 2005-ci ildə cəmi turistlərin sayı 815 min nəfər, turizmdən olan gəlirlər isə 745,0 mlrd dollara bərabər olmuşdur.

Hazırda beynəlxalq turizm sistemində 275 mln. nəfərdən çox adam işləyir. Beləliklə, hazırda bir çox ölkələrdə turizm iqtisadiyyatın ən qabaqcıl sahələrindən birinə çevrilir. Bununla da ÜDM-un formalaşdırılmasına və bir çox sosial-iqtisadi problemlərin həllinə zəmin yaradır.

Beynəlxalq turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilmişdir. Belə ki, ÜDM-in 12-13%-i, cəmi kapital qoyuluşunun 8%-i, dünya üzrə cəmi istehlak xərclərinin 12%-i, cəmi vergi daxilolmalarının 5-7%-i beynəlxalq turizmin payına düşür.

3. Turizm sənayesinin inkişafı

Turizmin inkişafına elə belə səyahətə çıxanların sayının artması kimi baxmaq olmaz.

Turizm xidmət sahəsində ən böyük bölmələrdən birini təşkil edir.

Deməli, insanların həyat səviyyəsi yüksəldikcə, beynəlxalq iqtisadi münasibətlər hərtərəfli xarakter aldıqca, mübadilə münasibətləri genişləndikcə, turizm insanlar üçün tarixi zərurətə çevrilmişdir. Bu proses artdıqca qanunauyğun olaraq həmin sahəyə xidmət edən xüsusi qurumlar yaranır, turizm məhsulları meydana gəlir. Yeni sənaye və xidmət sahələrinə ehtiyac artır.

Odur ki, qanunauyğun olaraq turizmin inkişafı dedikdə, ilk növbədə turizm sənayesinin inkişafı nəzərdə tutulur. Burada hər cürə nəqliyyat növlərinin, mehmanxana təsərrüfatının, İctimai iaşə obyektlərinin, müəyyən gəzinti, əyləncə təyinatlı obyektlərin, idman komplekslərinin, ekskursiya xidmətləri göstərən təşkilatlar və şairənin məcmusu nəzərdə tutulur.

Turizm sənayesində və yaxud beynəlxalq turizm sistemində mehmanxana təsərrüfatı əsas yerlərdən birini tutur. Mübaliğəsiz qeyd etmək olar ki, bir çox hallarda turist axınının qədəri məhz turizm

sənaysinin bu bölməsinin həcmindən asılıdır. Məsələn, birdən-birə Məkkəyə milyonlarla adamın ziyarətə getməsi üçün yüzlərlə, minlərlə mehmanxana mövcud olmasını tələb edir. Beləliklə, mehmanxana təsərrüfatı bütövlükdə turizmin iqtisadi təhlilində də mərkəzi yer tutur. Aydındır ki, turistlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş mehmanxanalar hər halda bir çox xüsusiyyətlərinə görə fərqlənirlər.

Məsələn, turistlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş mehmanxanalar, turist bazaları, pansionat- lar, motellər öz rahatlığına görə, neçə nəfər yerləş- dirilməsinə görə, mənfəət şəraitinə, dizayn quruluşu və bu kimi keyfiyyətlərinə görə fərqlənirlər.

Bütün bu kimi cəhətlərinə görə bu mehmanxanalar 5 kateqoriyaya bölünür və yaxud 5 ulduzlu olur. Motel adlanan tikililər 4 ulduzlu, turist bazaları, müəyyən ümumi yaşayış yerləri 3 dərəcəyə bölünürlər.

Məsələn, dünyanın əsas turizm mərkəzlərindən biri olan Fransada çox geniş mehmanxana şəbəkəsi mövcuddur. Bunlardan:

- birdən dörd ulduzadək dərəcəyə malik olan mehmanxanalar;
- birdən dörd ulduzadək dərəcəyə malik olan lagerlər və istirahət evləri;
- kiçik qəsəbədə yaradılmış balaca kotteclər, taxtadan düzəldilmiş kənd evləri, istirahət guşələri və s.

Uzun müddət mehmanxana biznesi sahəsində ənənəvi təcrübəsi olan İsveçrədə 2600 mehmanxana birliyi fəaliyyət göstərir.Böyük Britaniyada mehmanxana təsərrüfatının təsnifatı birdən beşədək ulduz (tac) sisteminə əsaslanır. Burada mehmanxana, motellər, qonaq evləri və yaxud kənd evləri, istirahət evləri,

kotteclər və digər mənzillər fərqləndirilir. Aydındır ki, hər cürə xidmətlər də həmin sistemə uyğun həyata keçirilir.

Benilüks (Belçika, Niderland, Lüksemburq) ölkələrində mehmanxana sisteminin təsnifatı onlarda kafe, restoran xidmətinin olması, avtomobil yollarına yaxınlığı, yaşayış və yeməklə təmin olunma dərəcəsi və digər cəhətlər əsasında müəyyənləşdirilir və Benilüks otel təsnifatı adlanır. Burada da birdən beş ulduzadək dərəcə fəaliyyət göstərir. Bütün bunlarla yanaşı turizmə xidmət edən ictimai iaşə sistemi, nəqliyyat sistemi və nəqliyyat vasitələrinin artırılması da turizm sənayesində mühüm rola malikdir.

Hazırda beynəlxalq turizm dünya iqtisadiyyatının ən gəlirli sahələrindən birinə çevrilmişdir. Belə ki, XXI əsrin əvvəllərində dünya üzrə ixracın 8%-i, dünya xidmətlər ticarətinin isə 30-35%-i turizmin payına düşmüşdür. Dünya miqyasında beynəlxalq turistlərin sayı ardıcıl olaraq artır. Son 20-30 il ərzində xarici turistlərin orta artımı 5%-dən artıq olmuşdur. 1950-ci illərdə dünya üzrə xarici turistlər 25 mln. nəfər təşkil edirdisə, 2005-ci ildə onların sayı 750 mln. nəfərə bərabər olmuşdur. Həmin vaxt beynəlxalq turizmdə olan gəlir 550 mlrd, dollar təşkil etmişdir.

Dünya üzrə turistlərin və turizmdən gələn gəlir-

İllər	Turistlərin sayı, min nəfər	Turizmdən əldə olunan gəlir, mlrd, dollar
1990	456,8	264,7
2000	696,1	402,1
2003	694,2	470,5
2005	750,0	550,0

Qeyd etmək lazımdır ki, beynəlxalq turizm sahəsində 100 mln. nəfərdən çox adam çalışır.

Bir çox dövlətlərin iqtisadi inkişafında, ÜDM-un formalaşmasında, sosial-iqtisadi problemlərin həllində turizm həlledici rol oynayır. Daha doğrusu valyuta daxilolmalarında sabit mənbə kimi çıxış edir

-yeni iş yerləri yaratmaqla işsizlik səviyyəsini azaldır;

-qarışıq sahələrin yaradılmasına imkan verir. Turist xidmətləri ilə bağlı olan sahələrin inkişafı artır (yeyinti və yüngül sənaye, İnşaat sahəsi, səhiyyə xidməti, nəqliyyat xidməti, mehmanxana, əyləncə kompleksləri və s.);

-Xalq sənətkarlığı mərkəzlərinin fəaliyyətini artırır, suvenir sənətkarlığı və ümumi mədəni inkişafa zəmin yaradır;

-əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin edir.

Turizmin inkişafı və dinamikası əsaslı surətdə hər bir ölkənin iqtisadiyyatından asılıdır. Məsələn, İspaniya və Avstriyada ümumi əmtəə və xidmətlər ixracının 40%-dən çoxunu turizmdən əldə olunan gəlir təşkil edir. Hazırda bütövlükdə və xüsusilə IEOÖ-də əhalinin həyat səviyyəsinin artması da turizmin inkişafına zəmin yaradır. Bir zox ölkələrdə müasir turist mərkəzləri yaradılır, yeni mehmanxana şəbəkələri inşa edilir.

Əhalinin demoqrafik quruluşunda və sosial-iqtisadi şəraitdə olan dəyişikliklər də beynəlxalq turizmin inkişafına təkan verir. Bütövlükdə əhalinin artımı, təqaüdçülərin sayının çoxalması, ödənişli məzuniyyət

günlərinin artması, insanların səyahətə olan marağının artması və s.

4. Ümumdünya Turizm Təşkilatının yaranması.

Aydındır ki, beynəlxalq turizm hər bir ölkə üçün sosial-iqtisadi münasibətləri əks etdirir. Bununla da beynəlxalq münasibətlərin tərkib hissəsi kimi fəaliyyət göstərir. Bu prosesin tənzimlənməsi üçün də müəyyən norma və standartlar işləyib hazırlayan beynəlxalq İnstitutlar fəaliyyət göstərir. Bu təşkilatların təsnifatı aşağıdakı cəhətlərə görə aparılır:

— milli ərazi baxımından beynəlxalq, regional və milli səviyyədə - yəni ümumdünya, regional və milli səviyyədə fəaliyyət göstərən təşkilatlar;

— ictimai dövlət mənsubluğuna görə: dövlət qurumu, İctimai qurum, xüsusi qurum olması;

— fəaliyyət növləri baxımından: tənzimləyici, turist göndərməklə məşğul olmaq, bazar agentlikəri, məsləhətçilər, layihə təşkilatları, öyrətmə ilə məşğul olan təşkilatlar, nəşriyyat, peşəkar birliklər, ticarət və istehlak təşkilatlan və s. nəzərdə tutulur.

— fəaliyyət dairəsinə görə - nəqliyyat üzrə (aviasiya, avtobus, dəmiryol, avtomaşın və kruizlə), turist agentlərl, turoperatorlar, sahəvi həmkarlar və s. təşkilatlar mövcuddur.

Beynəlxalq turizmin ardıcıl olaraq genişlənməsi bu kimi təşkilatların yaradılmasına olan zərurəti daha da artırmışdır.

Bunlardan: Ümumdünya Turizm Təşkilatı (ÜTT).
Bu təşkilat ən üzdə olan təşkilatlardan biridir. İlk dəfə

1925-ci ildə «Turizmin təbliği üzrə rəsmi təşkilat» adı ilə yaradılmış dövlətlərarası qurumdur.

1947-ci ildə «Rəsmi Turist Təşkilatlarının Beynəlxalq İttifaqı» (UCOTO) adlandırılmışdır.

1975-ci ildən qeyri-hökumət beynəlxalq ittifaqı əsasında hökumətlərarası beynəlxalq təşkilatlar yaradılmışdır. ÜTT-nin nizamnaməsi 27 sentyabr 1975- ci ildə qəbul olunmuşdur. İqamətgahı Madriddədir (İspaniya).

1980-ci ildən bu tarix ümumdünya turizm günü kimi qeyd edilir.

BMT ilə ÜTT arasında əməkdaşlıq və qarşılıqlı münasibətlər barədə razılığa əsasən bu təşkilat muxtar hüquqa malikdir.

ÜTT- öz fəaliyyətində dünya üzrə turizmin bütün tərəflərini əhatə edir.

ÜTT-nin üzvləri üç kateqoriyaya bölünür:

— birinci üzv olan dövlətlər-• bu təqribən 130-a qədərdin

— ikinci birlik şəklində olan üzvlər - bunlar 4- dür. Aruba, Makao, Niderland, Antil adaları, Puerto Riko.

— üçüncü 330-dək birlik şəklində olan qurumlardır. Bura turizm ilə məşğul olan hökumət və hökumətlərarası təşkilatlar və eləcə də kommersiya təşkilat və birlikləri daxildir. Məsələn - mehmanxanalar, turizm agentliyi, restoranlar, maliyyə institutları, aviakompaniyalar, məsləhətxanalar birliyi, istehlakçılar, sənayeçilər, turizm sahəsi üçün kadrlar hazırlığı mərkəzləri, tədqiqat institutları, nəşriyyat qrupları və s.

ÜTT-nin əsas məqsədi aşağıdakılardan ibarətdir:

— turizmin (istər daxili, istərsə də xarici turizmin) ***sülhə,*** qarşılıqlı anlaşmalara, bütün dünyada insanların sağlamlığına və çiçəklənməsinə olan təsirini sürətləndirmək və genişləndirmək;

— səyahət zamanı insanların təhsil almasına və mədəni səviyyəsinin artırılmasına zəmin yaratmaq;

— az inkişaf etmiş rayonlarda turistlərin yaşayış normalannm standartlara yaxınlaşdırılmasına köməklik göstərmək;

— turist qəbul edən ölkələrin imkan dairələrinin genişləndirilməsi;

— ölkələrarası əməkdaşlığın əlaqələndirilməsi üzrə beynəlxalq agentlik rolunda çıxış etmək;

— turizm sahəsində milli təşkilatlar üzrə yaranan turlara xidmət göstərmək;

— Turist operatorlan birlikləri arasında daimi əlaqə saxlanılmasına yardım etmək.

ÜTT turizm hərəkəti üzrə daim informasiya hazırlayır və ayrı-ayrı millətlərin bu prosesə qoşulmasına çalışır.

Aydındır ki, ÜTT öz fəaliyyətini həyata keçirmək məqsədilə ardıcıl olaraq beynəlxalq yığıncaqlar təşkil edir, döviətlərarası, birliklərarası əlaqələndirmə işləri aparır. Bu mənada 1980-cl ildə (27 sentyabrdan - 10 oktyabradək) Filippinin paytaxtı Manilada keçirilən turizm üzrə ümumdünya konfransının böyük əhəmiyyəti olmuşdur.

Konfransda turizmin inkişafında dövlət məsuliyyəti məsələləri geniş müzakirə edilmişdir. Sosial-iqtisadi şərait, insanın öz şəxsi istirahətinin təşkilatçısı olması, tələb və təklifin tənzimlənməsi, turizm sahəsində elmi- texniki əməkdaşlıq, turizm sənayesi üçün kadrlar

hazırlığı və bu kimi aktual problemlər müzakirə olunmuşdur. Konfransda 100-dən artıq dövlətin nümayəndələrinin iştirakı ilə **Manila bəyannaməsi** qəbul edilmişdir.

Turizm sahəsinin inkişafı və tənzimlənməsi üçün bir çox ümumi xarakterli və ixtisaslaşdırılmış qurumlar fəaliyyət göstərir.

Məsələn daha ümumi xarakterli təşkilatlardan:

— turizm agentlikləri üzrə yaradılmış Ümumdünya Agentliyi;

— Aİ -- İdman turizminin Beynəlxalq Federasiyası (FİTE);

—Beynəlxalq Turistlər Alyansı və s.

İxtisaslaşdırılmış qurumlara aşağıdakıları aid etmək olar:

— Turizm agentliklərinin Ümumdünya Federasiyası (VATA);

— İşgüzar məqsədlə turizmi təşkil edənlərin beynəlxalq liqası (İLSTA);

— Sosial Turizm Təşkilatlannın Beynəlxalq Federasiyası (İFPTO);

— Tələbə Turizmi üzrə Beynəlxalq Konfrans (MKST);

— Turizm agentlikləri üzrə Xüsusi Qatarların Təşkili üçün Beynəlxalq Konfrans (KİTA);

— Beynəlxalq Turizm Akademiyası (AKİT)

— Beynəlxalq Bələdçilər Klubu (İKT)

— Turizm və Səyahətlər Sahəsində Tədqiqatlar üzrə Assosiasiya və s.

Beynəlxalq Hava Nəqliyyatı Birliyi (BHNB)

BHNB bütün beynəlxalq təyyarə daşımalarının ümumdünya təşkilatı hesab edilir. İlk dəfə 1919-cu ildə yaradılmış 1945-ci ildə yenidən təşkil edilmişdir. BHNB beynəlxalq marşrutları həyata keçirən peşəkar aviasiya kompaniyası birliyidir. Bu birlik insanların, poçt bağlamalannın və yüklərin dünyanın bir nöqtəsindən digər nöqtəyə daşınmasını həyata keçirir.

259 aviakompaniya bu birliyin üzvüdür. Bu birliyin tərkibində turist agentliklərinin qeydə alınması üzrə sərnişin xidməti korporasiyası fəaliyyət göstərir. Bu turist agentliyi BHNB-in xüsusi şöbəsi olan aviakom- paniyaların beynəlxalq təşkilatı vasitəsilə fəaliyyət göstərir.

Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT)

BMAT - 1944-cü İldə ABŞ-ın Çikaqo şəhərində keçirilmiş konfransda yaradılmışdır. BMT-nin himayəsi altında fəaliyyət göstərir. 200-ə qədər dövlət bu təşkilatın üzvüdür. İnsanların ölkələrarası hərəkətinin genişlənməsinə zəmin yaratmaqla turizmin inkişafında böyük rol oynayır.

Asiya Sakit Okean Turist Birliyi (ASOTB)

ASOTB 1951-ci ildə yaradılmışdır, 34 dövləti özündə birləşdirir. Asiya Sakit Okean istiqamətində olan hərəkətin genişlənməsinə köməklik edir. Bütün bunlarla yanaşı ayn-ayrı milli dövlətlərdə də turizmin inkişafı və tənzimlənməsi ilə məşğul olan qurumlar fəaliyyət göstərirlər.

5. Azərbaycanda turizmin inkişaf imkanian

1991- ci illərdən sonra Azərbaycanın yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyması, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında irəliləməsi onun beynəlxalq aləmə olan baxışlarını da dəyişdirmiş, beynəlxalq iqtisadi əlaqələr genişlənmiş, respublikanın beynəlxalq turizmdə iştirakı məsələsi ön plana çəkilmişdir.

1999-cu ildə Azərbaycan Respublikasının prezidenti H.Əliyevin fərmanı əsasında «Turizm haqqında qanun» qəbul edilmişdir. Prezidentin fərmanına uyğun olaraq 2010-cu ildə «Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı» qəbul edilmişdir.

Dövlət Proqramının başlıca məqsədi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsidir.

Bu məqsədə nail olunması aşağıdakı əsas vəzifələrin həllini nəzərdə tutur:

-ölkədə turizm İnfrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyətin həyata keçirilməsi;

- daxili və xarici investisiyaların turizm sahəsinə cəlb edilməsi məqsədilə bu sahədə təşviqləndlrlci investisiya və biznes mühitinin formalaşdırılması;

- turizm sahəsində qabaqcıl beynəlxalq təcrübədən istifadə edilməklə səmərəli dövlət tənzimlənməsi və idarə edilməsi mexanizmlərinin yaradılması;

-ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması. Onu da qeyd etməliyik ki, turizmin inkişafında dönüş yaratmaq məqsədilə 2005-ci ildə «Gənclər, İdman və Turizm Nazirliyi» bazasında «Mədəniyyət və Turizm Nazirliyi» yaradılmışdır.

Azərbaycan turizm sahəsində bir sıra beynəlxalq və regional təşkilatlarla - Ümumdünya Turizm Təşkilatı (ÜTT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), GUAM, İslam Konfransı Təşkilatı (İKT) və MDB üzv dövlətlərinin turizm şuraları ilə əməkdaşlıq edir. Onu da qeyd etməliyik ki, 2006-cı ilin dekabr ayında İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin turizm nazirlərinin birinci Konfransı Bakıda keçirilmişdir. 57 ölkənin turizm nazirlərinin Azərbaycanda toplanması turizmin beynəlxalq standartlara uyğun inkişafına real zəmin yaratmışdır. Azərbaycan ilə 14 ölkənin - Türkiyə, Pakistan, Özbəkistan, Qırğızıstan, Çin, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Bolqarıstan, Belarus, Yunanıstan, Qətər, Rumıniya, Moldova və Qazaxıstan hökumətləri arasında turizm sahəsində əməkdaşlığa dair saziş imzalanıbdır. Bundan əlavə Böyük Britaniya, Misir, Rusiya, Avstriya, Küveyt, Bəhreyn, Macarıstan, İsveçrə, Yaponiya, Koreya, İran, İsrail ilə turizm sahəsində əməkdaşlıq haqqında saziş layihələri dövlət qurumlarına təqdim olunubdur. Bütün dünyada olduğu kimi Azərbaycanda da turizmin inkişafı üçün turizm sənayesinin inkişafı ön plana çəkilmişdir.

Qeyd etməliyik kl, respublikada - xüsusilə Bakı şəhərində mehmanxana təsərrüfatı demək olar kl, tamamilə yenidən qurulur. Yaxın vaxtlaradək bizim üçün çox möhtəşəm görünən köhnə və təzə İnturlst, Abşeron, Moskva, Bakı, Qarabağ, Gənclik və digər mehmanxanalar tamamilə sökülüb yenidən İnşa edilir. Belə bir şeyi heç təsəvvür etməsək də real gerçəklik, günün tələbi bundan İbarətdir.

Hazırda Bakı şəhərində və regionlarda beynəlxalq standartlara uyğun mehmanxana və turist İstirahət mərkəzləri tikilərək İstifadəyə verilir. Ümumilikdə respublika üzre mehmanxana və ona bənzər turist yerləşdirmə obyektlərinin sayı 2001-cl İldə 149, 2002-ci ildə 173, 2003-cü ildə 203, 2004-cü İldə 238, 2005-cl ildə 262 olmuşdur. 2010-2011-cl İllərdə 112 mehmanxana və mehmanxana tipli turizm obyekti tikilib istifadəyə verilmişdir (yaxın keçmişdə isə 4-5 İlə ancaq bir mehmanxana inşa edilirdi). Bunlardan 60-ı Bakı şəhərindədir. Bu obyektlərdə çarpayıların ümumi sayı 20000-ə yaxındır. Bunun da 6000-dən çoxu paytaxtın payına düşür. Mehmanxanaların xidmət səviyyəsinin öyrənilməsi və beynəlxalq standartlara uyğun qiymətləndirilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı olmuşdur. Bu qərara əsasən «Turist- ekskursiya xidmətlərinin sertifikatlaşması»nın keçirilməsi qaydaları təsdiq edilmişdir. Həmin qaydalara əsasən Mədəniyyət və Turizm Nazirliyi respublikada fəaliyyət göstərən mehmanxana və ona bərabər tutulan turistlərin yerləşdirilməsi obyektlərinin təsnifatı aparılır.

Bu günə qədər Bakı şəhərində 22, digər şəhər və rayonlarda isə 11 mehmanxana təsnifatdan keçmiş və xidmət dərəcələrinə görə fərqləndirilmişlər.

Respublikada turizm sahəsində sahibkarlığın İnkişaf etdirilməsi məqsədilə bir sıra zəruri hüquqi-normativ sənədlər qəbul edilmişdir. Bu da həmin sahəyə olan marağı artırmışdır. Respublikda fəaliyyət göstərən turizm şirkətlərinin sayı 18 ədəd olduğu halda, bu gün onların sayı 200-ə çatmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin BMT İP ilə birgə hazırladığı layihəyə əsasən respublikada turizm informasiya mərkəzlərinin yaradılması barədə geniş İş aparılır. Artıq Bakı şəhərində, Xaçmaz, Şamaxı rayonların və Şəki şəhərində belə mərkəzlər fəaliyyət göstərirlər. Bunlardan əlavə ABŞ Ticarət və İnkişaf Agentliyinin qrantı hesabına respublikada «turizmin strateji inkişaf planı» hazırlanmışdır. Respublikada dağ-xizək turizm növünün inkişaf etdirilməsi sahəsində geniş İş aparılır.

Bütün bunlarla yanaşı turistlərə göstərilən nəqliyyat xidmətlərinin, ictimai İaşə sisteminin yaxşılaşdırılması, cəlbedici suvenir məhsullar istehsalı (məsələn tutaq ki, Şəki ipəyi, nar şərabı, zeytun və s.) savadlı və mədəni bələdçilər hazırlanması, yollarda müəyyən dayanacaqlarda məişət xidməti obyektlərinin yaradılması həyata keçirilməlidir.

Onu da göstərməliyik ki, son illərin məlumatlarına görə respublikaya gələn turistlərin sayı da ardıcıl olaraq artmışdır. Belə ki, respublikada olan turistlərin sayı 2002-ci ildə 428,4 min, 2003-cü ildə 629,8 min, 2004- cü ildə 785,9 mln, 2005-cl ildə 865,3 min, 2006-cı ildə isə 1300 min nəfər olmuşdur. Turizm fəaliyyətindən dövlət büdcəsinə daxil olan vəsait 2002-ci ildə 51,0 mln., 2003-cü İldə 57,7 mln., 2004-cü ildə 57,9 mln., 2005-ci ildə isə 77,7 mln. dollar təşkil etmişdir.

VI FƏSİL

TİCARƏT ÜZRƏ BİM-İN TƏNZİMLƏNMƏSİ, BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLAR

1. Ticarət üzrə BİM-in tənzimlənməsinin iqtisadi məzmunu.
2. Ticarət üzrə BİM-in tənzimlənməsində beynəlxalq iqtisadi təşkilatların yaradılmasının zəruriliyi.
3. Ümumdünya ticarət təşkilatının (ÜTT) fəaliyyəti.
4. Beynəlxalq ticarət mərkəzi.
5. BMT-nin ticarət və inkişaf üzrə konfransı (UNKTAD).

1. Ticarət üzrə BİM-in tənzimlənməsinin İqtisadi məzmunu

Dövlətlərarası tənzimləmə dedikdə, ayrı-ayn sahələr üzrə dövlətlərin (hökumətlərin) birgə qəran - razılığı əsasında həyata keçirilən iqtisadi siyasət nəzərdə tutulur.

Beynəlxalq miqyasda xarici ticarətin tənzimlənməsi də məhz bu cür birgə dövlətlərin İşləyib hazırladıqları ümumi hüquqi müddəalara, normalara, qarşılıqlı razılaşdırılmış öhdəliklərə, təkliflərə və s. əsaslanır.

Dünya ticarətinin dövlətlərarası çoxtərəfli tənzimlənməsi dövlətlər arasında ticarət-iqtisadi və istehsal- texniki əlaqələrin daha da inkişafına güclü təsir edir.

Qeyd etməliyik ki, iqtisadi problemlərin çoxtərəfli tənzimlənməsi barədə müəyyən bir sistem yaradılması həmişə maraq dairəsində olmuşdur. Belə ki, 1900-cu illərin əvvəllərindən, daha doğrusu **1920-1933-cü** illər ərzində elə bu məqsədlə 5 dəfə ümumdünya iqtisadi konfransı keçirilmişdir:

1920-ci ildə Brüsseldə (Belçika) "Maliyyə Məsələləri və Xarici Ticarətə" dair;

— 1922-ci ildə Genuyada (İtaliya) "Avropa İqtisadiyyatının Bərpa edilməsi və Himayədarlığın Zəiflədilməsinə" dair;

—1927-ci ildə Cenevrədə (İsveçrə) "Gömrük Yükünün Azaldılmasına" dair;

—1930-cu ildə Cenevrədə (İsveçrə) "Himayədarlığın Məhdudlaşdırılmasına" dair;

—1933-cü ildə Londonda (İngiltərə) "Milli valyutanın tənzimlənməsi və ticarət-siyasəti barədə məhdudiyyət problemlərinə" dair.

Eləcə də həmin illərdə **"Millətlər Birliyi (1919- 1939)** və onun iqtisadi komitələri də çoxtərəfli tənzimləmə sisteminin yaradılmasına cəhd etmişlər.

Həmin mərhələdə çoxtərəfli tənzimləmə işində müəssisələr səviyyəsində **kartel müqavilələri** də müəyyən rol oynayırdı.

1929- 1933-cü illərdəki dünya iqtisadi böhranı zamanı inkişaf etmiş sənaye dövlərləri öz daxili bazarlarını böhrandan qorumaq üçün yüksək gömrük tarifləri müəyyən edirdilər. Bu isə xaricdən olan idxalın azalmasına səbəb olurdu. Nəticədə böhran vəziyyəti daha da dərinləşirdi. Ona görə də beynəlxalq səviyyədə əməkdaşlıq qurmağa zərurət artırdı. Xarici

ticarətin iiberallaşdırılması qanunauyğunluq təşkil edirdi.

İkinci mərhələ İkinci Dünya müharibəsindən sonrakı dövrü əhatə edir. Bu mərhələdə beynəlxalq ticarətin tənzimlənməsində liberallaşmaya, ticarət məhdudiyyətlərinin ləğv edilməsinə üstünlük verilirdi. Həmin düvrdə Beynəlxalq iqtisadi münasibətlər Bret- ton-Vuds iqtisadi sisteminə əsasən tənzimlənirdi. Bu sistemdə də əsasən Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankının müddəaları əsas götürülürdü.

2. Ticarət üzrə BİM-in tənzimlənməsində beynəlxalq iqtisadi təşkilatların yaradılmasının zəruriliyi

İkinci Dünya müharibəsindən sonrakı ilk illərdə başqa sahələrdə olduğu kimi beynəlxalq ticarətin tənzimlənməsi yolunda da müvafiq qurumlar, institutlar yaradılması problemi ön plana çəkilirdi. Odur ki, 1946- cı ildə BMT-nin "İqtisadi və Sosial Şurası" bəyannamə qəbul etmişdir. Bu bəyannaməyə əsasən BMT-nin "ticarət və məşğulluq" probleminə dair konfrans çağırması zərurətə çevrilmişdir.

Konfransın çağırılması üçün hazırlıq komitəsi də yaradılmışdır. Bu komitə yaradılması nəzərdə tutulan beynəlxalq ticarət təşkilatının nizamnaməsini hazırlamış və bu çərçivədə gömrük dərəcələrinin azaldılmasına dair danışıqlar aparmışdır. Beləliklə, 1947-ci ildə (oktyabrda) konfrans keçirilmişdir. Konfransda "Tarif və Ticarət üzrə baş razılaşma" (QATT) yaradılması barədə yekun aktı qəbul edilmişdir. Göstərməliyik ki.

konfransda ABŞ iiə Qərbi Avropa dövlətləri arasında fikir ayrılığı yaranmışdı. Belə ki, Avropalı nümayəndələr «bir ölkə - bir səs» prinsipini əsas götürdükləri halda, ABŞ səslərin sayının hər bir ölkənin dünya ticarətindəki xüsusi çəkisinə uyğun olmasını təklif edirdi (Çünki o vaxt ABŞ dünya ticarətinin 40%-dən artığına sahib idi). ABŞ-ın sözü keçmədiyinə görə o, Beynəlxalq Ticarət Təşkilatının (və yaxud ÜTT-nin) nizamnaməsini İmzalamaqdan imtina etdi. Beləliklə ÜTT deyil, müvəqqəti olaraq QATT yaradıldı. Bu sənədi 30 oktyabr 1947-ci ildə Cenevrədə (İsveçrə) 23 ölkənin nümayəndəsi imzalamışlar. Müqavilə 1948-ci ilin yanvar ayının 1-dən qüvvəyə minmişdi. Qəbul edilmiş sənədə görə bu "Baş razılaşma" Beynəlxalq ticarət təşkilatının (BTT) nizamnaməsi yaranan müddətə qədər ticarət münasibətlərini tənzimləyən müvəqqəti bir razılıq hesab edilirdi.

Burada BTT-in nizamnaməsinin layihəsinə uyğun olaraq ticarət siyasətinin tənzimlənməsi məsələləri də öz əksini tapırdı.

Beləliklə XX əsrin axırlarmadək beynəlxalq ticarətin tənzimlənməsi bu “Baş razılaşma” tərəfindən həyata kezirilmişdir.

Bununla yanaşı həmin konfrans 1947-ci ilin noyabr ayından 1948-ci ilin mart ayınadək Havanada (Kuba) 'Ticarət və məşğulluq" barədə yekun aktı qəbul etmişdir. Bu sənəd Havana Xartiyası - (yazılı sənəd) BMT-nin nizamnaməsi adlanırdı. Həmin sənəd ticarət siyasətindən başqa iqtisadi inkişaf, tam məşğulluq, işgüzar fəaliyyətdə müəyyən məhdudiyyət, kapital qoyuluşu, beynəlxalq əmtəə müqavilələri, inzibati- hüquqi müddəalar və digər məsələləri də özündə əks etdirirdi.

Beləliklə, "Baş razılaşma" beynəlxalq ticarətin tənzimlənməsi sahəsində yeganə ço:^ərəfii sənəd kimi (Baş razılaşma - 47) qərarlaşmışdı.

Bu təşkilatın fəaliyyətində aşağıdakı prinsiplər əsas götürülmüşdür:

1. Ticarətin həyata keçirilməsində ayn-seçkiliyə yol verilməməsi, daha əlverişli şərait qaydası, milli şəraitin əsas götürülməsi;

Bu prinsipinin məğzi ondan ibarətdir ki, daha əlverişli ticarət rejimi tətbiq edilir. Belə ki, öz aralarında müqavilə bağlamış iki ölkə həmin şərtlərlə üçüncü ölkə ilə də müqavilə bağlaya bilər. Yəni eyni gömrük dərəcələri əsas götürülür.

Bütün bunlarla yanaşı bəzi əmtəə növləri üzrə bu əlverişli rejimdən kənara çıxmaq hallarında da yol verilir. Yəni məsələn ABŞ - prezidentinə hüquq verilmişdir ki, iqtisadiyyatda müəyyən çətinliklər yarandıqda bu kimi güzəştləri ləğv etsin.

2. Milli istehsalçıların mənafeyinin müdafiə edilməsi, gömrük rüsumlarının müəyyən edilməsi və tədricən qeyri tarif tənzimləmə vasitələrindən imtina edilməsi;

3. Gömrük dərəcələrinin ixtisar edilməsinə nail olmaq;

4. Ticarət sahəsindəki müəyyən problemləri tənzimləmək üçün üzv ölkələrinə lazımi məsləhətlər vermək;

5. Ədalətli-düzgün rəqabət əsasında beynəlxalq ticarətin inkişaf etdirilməsi;

6. İnkişaf etməkdə olan ölkələrə güzəştli şərtlər qoymaq;

7. Ərazilər üzrə ticarət müqavilələrinin bağlanılması;

8. Parça və paltar ticarətinin tənzimlənməsi üçün xüsusi-əlahiddə normalar müəyyən edilməsi və s.

'Tarif və Ticarət üzrə Baş Razılaşma" ikili statusa malik olmuşdur: Bir tərəfdən o beynəlxalq təşkilat kimi fəaliyyət göstərirdi. Digər tərəfdən isə bu təşkilat beynəlxalq ticarətin və eləcə də üzv olan ölkələrdə ticarətin dövlət tərəfindən tənzimlənməsinin əsas normaları, prinsipləri və qaydaları barədə çoxtərəfli razılıqdan ibarət olmuşdur. Bu təşkilatın ən fərqli cəhətlərindən biri ondan ibarətdir ki, onun üzvləri daha tez razılığa gəlirdilər.

Bura daxil olan hər bir ölkə öz milli ticarət sistemini dəyişmək, yenidən qurmaq barədə öhdəlik götürmüşlər. Yarandığı vaxtdan ilk 30 ildə "Baş razılaşma" öz fəaliyyətində Beynəlxalq ticarətin liberallaşmasının artmasına daha çox üstünlük verirdi. Burada qarşılıqlı Gömrük-Tarif dərəcələrinin aşağı salınması əsas götürülürdü. Belə ki, idxal məhsulları üçün taarif dərəcələri 40-cı illərin axırlarından 1970-ci illərin əvvəllərinə olan müddətə 40-50%-dən 8-10%-dək, 1990-ci illərin əvvəllərinə isə 4-5%-dək azaldılmışdır.

Çoxtərəfli dövlətlərarası tənzimləmə sisteminin yaradılması prosesində tarixi baxımdan 1950-1960-cı illər üçüncü mərhələ təşkil edir. Bu mərhələdə çoxtərəfli tənzimləmənin əsas obyekti maddi-əşya formasında idxal olunan əmtəələrdən ibarət olmuşdur. Burada sənaye məhsulları və xammal üstünlük təşkil edirdi.

Həmin dövrdə çoxtərəfli tənzimləmə sistemində dünya bazarında rəqabətin genişlənməsi tədbirləri artırdı.

1955-ci ildə "Baş razılaşmanın" nizamnaməsində müəyyən dəyişikliklər edilmiş və yeni əlavələr də nəzərdə tutulmuşdur.

1970-ci illər çoxtərəfli tənzimləmənin 4-cü mərhələsi hesab edilir.

Bu mərhələdə dünya və təsərrüfat əlaqələrinin quruluşunda ciddi dəyişikliklər baş verirdi. İstehsalın beynəlmiləlləşməsi, transmilli kompaniyaların rolu artırdı. İnkişaf etməkdə olan ölkələr təsərrüfat əlaqələrinə qoşulurdu.

Bu mərhələdə çoxtərəfli tənzimləmə sistemində əsas prinsip "yığcam-təşkil olunmuş azad ticarət" prinsipindən ibarət idi. Bu prinsipdə əsas obyekt - Milli səviyyədə istehsalın quruluşunun tənzimlənməsi idi. Eləcə də ixracın nisbətən məhdudlaşdırılması da ön plana çəkilirdi.

Həmin mərhələdə Şərq ilə Qərb arasında iqtisadi əməkdaşlığın genişlənməsi də diqqəti cəlb edirdi. Bu əməkdaşlıqda sənaye və onun inkişafı, ticarət mübadiləsi üzrə əsas prinsiplər, ticarət üzrə maneələrin məhdudlaşdırılması, hüquqi sənədlər hazırlanması və s. əsas götürülürdü.

BMT-nin Avropa İqtisadi Komissiyası (1947) çərçivəsində ekspertlərin seminarlar, məşvərətlər keçirmə praktikaları, fikir mübadilələri əməkdaşlığa dair qərarlar çıxarılmasına köməklik edirdi.

Həmin vaxtlar Avropada təhlükəsizlik və əməkdaşlığa dair keçirilən müşavirlərdə (Helsinkidə, Bel- qradda, Madriddə, Vyanada) ümumavropa tlcarət-

iqtisadi əməkdaşlığının əsas istiqamətləri və vəzifələri müəyyənləşdirilirdi. Bu mərhələdə baş məclisin qətnaməsinə əsasən 1964-cü ildə BMT-nin daimi orqanı olan 'Ticarət və İnkişaf üzrə Konfransı" - YUNKTAD yaradılmışdır.

Bu təşkilatın yaradılmasında 185 dövlət iştirak etmişdir. Universal xarakterə malik olan bu təşkilatın fəaliyyətində hansı regionda olmasından, iqtisadi inkişafından, sosial quruluşundan, ticarət və siyasi yö- nümündən asıı oimayaraq bütün qrup dövlətlər iştirak etmişlər.

Bu konfransdan sonra "Baş razılaşma"nın fəaliyyəti daha da artmışdı. Onun fəaliyyətinə ticarət və inkişaf üzrə müəyyən əlavələr edilmişdi.

Beləliklə, əməkdaşlıq formaları, tənzimləmə sistemi, beynəlxalq təşkilatlar artdıqca ümumi hüquqi məkan formalaşırdı. 1970-ci illərdən belə bir proses daha intensiv xarakter almışdır.

Son dövrlərdə çoxtərəfli tənzimləmə sistemi daha böyük əhəmiyyət kəsb edərək dövlətiərarası əməkdaşlığın bir çox sahələrini əhatə edir. Bu mərhələdə istehsalın beynəlmiləl xarakteri, ixtisaslaşma və kooperasiya, milli iqtisadiyyatların qarşılıqlı asılılığı, elmi- texniki tərəqqinin güclənməsi prosesi genişlənmişdir.

Beləliklə, "Baş razılaşma"nın bütün fəaliyyəti ümumiləşdirilmiş şəkildə aşağıdakı istiqamətlərdə həyata keçirilmişdir.

1. Çoxtərəfli beynəlxalq ticarət danışıqları;
2. Ticarət münaqişələrinin tənzimlənməsi;
3. Milli siyasətlərin izlənilməsi;
4. İnkişaf etməkdə olan ölkələrlə iş aparılması və

s.

Ticarət üzrə çoxtərəfli beynəlxalq danışıqları tarixi ardıcıllıqla açıqlamaq daha çox maraq doğurur.

Göstərməliyik ki,1994-cü ilədək 8 dəfə danışıq turu keçirilmişdir.

1947-1961-ci illərdə keçirilən ilk 5 turda gömrük dərəcələrinin azaldılması üzrə razılıqlar əldə edilmişdir.

Bu konfranslar belə adlanırlar:

1947-cl ildə Cenevrədə (İsveçrə) 23 dövlətin iştirakı ilə Cenevrə raundu;

1949- cu ildə 13 dövlətin iştirakı ilə keçirilən Annesi (Fransa) konfransı;

1950- ci ildə 38 dövlətin iştirakı ilə keçirilən Torki (Böyük Britaniya) konfransı;

1956-cı ildə 26 dövlətin iştirakı ilə keçirilən Cenevrə (İsveçrə) konfransı;

1960-1961-ci illərdə 26 dövlətin iştirakı ilə Cenevrədə keçirilən - "Dillon-raundu".

1964-1967-ci illərdə 62 dövlətin iştirakı ilə Cenevrədə keçirilən 6-cı “Kennedi-raundu";

1973-1979-cu illərdə Cenevrədə 102 dövlətin iştirakı ilə keçirilən 7-ci ’Tokio-raundu"; və s.

"Tokio raundu" gedişində bir çox tarif güzəştləri qəbul edilmiş, qeyri-tarif dərəcələri və "Baş razılaşma"nın fəaliyyətinin təkmilləşdirilməsi barədə razılıqlar əldə edilmişdir. Mindən artıq sənaye və kənd təsərrüfatı məhsullarının tarif dərəcələri azaldılmışdır. Bəzi hazır məhsulların gömrük rüsumları 34% azaldılmışdır. Sənaye ölkələri kofe, çay, kakao, ədviyyat və digər yarımemal məhsullar üzrə taarif dərəcələrini azaltmışlar. Bütün bunlardan əlavə "Baş razılaşma" çərçivəsində inkişaf etməkdə olan ölkələr üçün

müəyyən imtiyazlar nəzərdə tutan razılıqlar da əldə edilmişdir. Buniardan:

1. Əmtəələrin gömrük qiymətləri barədə razılıq;
2. "Baş razılaşma" üzrə demplnq əleyhinə kompleksə yenidən baxılması;
3. Mülki aviasiya üzrə təyyarə ticarəti barədə;

Bu razılığa əsasən 1980-ci il yanvar ayının birindən mülki aviasiya təyyarələri və onlara aid hər cür ehtiyat hissələrinin bütün gömrük rüsumlarından azad olması barədə sənaye ölkələri razılığa gəlmişlər.

4. Dövlət satınalması barədə razılıq;
5. Mal ətinin ticarətinə dair razılıq;

Bu razılığa əsasən mal ətinin beynəlxalq ticarətinin artırılması, liberallaşdırılması, sabit xarakter alması və bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulurdu.

6. Süd məhsulları üzrə beynəlxalq razılıq.

Tokio raundunda baş verən bütün bu kimi yeni proseslər açıq-aydın onu göstərir ki, "Baş razılaşma" öz fəaliyyətində tam yeni mərhələyə qədəm qoymuşdur.

Beləliklə, "Baş razılaşma"nın növbəti 8-ci raundu Uruqvayın kurort şəhərciyi olan Punta-geiestedə açılmışdır. 8-ci raund 1986-1994-cü illəri əhatə etmişdir. Bu raund-Uruqvay raundu adlanır. Bu raundun əsas danışıqlan Cenevrədə keçmişdir. Danışıqların aparılması dövründə 500-dən artıq rəsmi iclas keçirilmişdir. Bu iclaslarda 1500-ə qədər təklif və işçi qruplarının hazırladıqları sənədlər müzakirə obyekti kimi təhlil edilmişdir. Bu danışıqların əsas mərkəzi aşağıdakı problemlər ətrafında qərarlaşırdı.

— Gömrük məhdudiyyətlərinin azaldılması;
— Tariflərin ixtisar olunmasını artırmaq;

— Qeyri-tarif tədbirlərinin azaldılması;

— «Baş razılaşma» sisteminin təkmilləşdirilməsi;

— Parça, Kənd təsərrüfatı məhsulları, təbiət mənşəli məhsulların Baş razılaşmanın fəaliyyət dairəsinə verilməsi;

— Tropik əmtəələr üzrə ticarətin tənzimlənməsi;

— Subsidiyalar və Kompensasiya tədbirləri;

— Mübahisələrin tənzimlənməsi haqqında;

— Əqli mülkiyyət hüququnun ticarəti barədə saziş;

— İnvestisiya fəaliyyətinin ticarəti barədə saziş;

— Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılması barədə razılaşma;

— Beynəlxalq Xidmət ticarətini tənzimləmək üçün xidmət üzrə "Baş razılaşma" işləyib hazırlamaq;

"Uruqvay raundu"nda 111 ölkə iştirak edirdi. Qeyd etməliyik İd, “Baş razılaşma” yarandığı vaxtdan 194B-
1994- cü illər arasında Ümumdünya Ticarət Təşkilatının yaradılması barədə danışıqlar kəsilmirdi. 1986-1994-cü illər arasında gedən Uruqvay danışıqlarında da bu məsələ əsas predmetə çevrilmişdir. Burada ancaq beynəlxalq ticarətin liberallaşdırılması və inkişafının artırılması nəzərdə tutulmurdu. Həmçinin “Baş razılaş- ma”nın bazası əsasında Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılması ön plana çəkilirdi. Uruqvay raundunun yekun aktına əsasən bütün iştirakşılara vahid məzmunlu razılıq paketi təqdim edilmişdir. Heç bir danışıq olmadan razılıq paketi qəbul edilməli idi. “Ya hamılıqla, yaxud heç nə prinsipi” əsas götürülürdü. Bu prinsip beynəlxalq ticarət sisteminin təşkilində böyük bir siyasi dönüş idi. Belə ki, məsələn “Baş razılaşma” şəraitində belə bir vəziyyət mövcud idi ki, lEOÖ inkişaf

etmiş ölkələrə nisbətən daha az öhtəçiiik götürürdülər (Differensasiya və daha əlverişli rejim mövcud udu). Hazırda belə müddəa öz qüvvəsini itirir. Baxmayaraq ki, bəzi sənədlərdə lEOÖ və keçid iqtisadiyyatı ölkələrinə müəyyən güzəştlər hələ də qalmaqdadır. Daha zəif inkişaf etmiş ölkələr bəzi öhtəçiliklərdən azad edilir.

Beləliklə 1993-cü ilin dekabr ayının 15-də ümumdünya ticarət təşkilatı (ÜTT) yaradılması barədə yekun aktı qərara alınmışdı.

Bu akt 1994-cü il aprel ayının 15-də Mərakeşdə 120 ölkənin nümayəndəsi tərəfindən imzalanmış və təsdiq edilmişdir.

Çoxtərəfli ticarət danışıqlarının "Uruqvay raun- du"nun nəticələri üzrə yekun aktı aşağıdakı müddəaları özündə əks etdirir:

1. Bütün qərarları, danışıqları, bəyannamələri nəzərə alaraq Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılması razılığı;
2. ÜTT yaradılması barədəki razılığı öz aidiyyatı orqanları qarşısında dəstəkləmək və nazirliklərin bəyannamələrini qəbui etmək;
3. Üzv olan iştirakçı dövlətlər ÜTT-nin yaradılması barədəki razılıqlann və ona əlavə edilən ticarət üzrə çoxtərəfli razılaşmaların təsdiq edilməsi barədə öhdəlik götürmüşlər.
4. ÜTT-nin yaradılması barədəki razılaşma bütün iştirakçılann imzalaması məqsədi ilə 2 il müddətinə açıq qalır.
5. ÜTT-nin yaradılması barədəki razılaşma çoxtərəfli danışıqlann ən məhsuldar və zəruri nəticəsi hesab edilir. Uruqvay raundundan sonra Beynəlxalq

Əmtəə ticarətinin liberallaşdırıiması çərçivəsində 12 yeni çoxtərəfli razılaşma əldə edilmişdir. Mərakeş protokoluna (1994) əsasən lEÖ 5 il müddətinə sənaye məhsulları üzrə (yanacaqdan başqa) İdxal tarif dərəcələrinin - 38®/o, o cümlədən ABŞ və Yaponiya 33%, Al - 38%, Kanada - 45% azaldılmasına söz vermişlər. Bundan əlavə 11 əmtəə qrupu üzrə (inşaat, kənd təsərrüfatı və tibbi avadanlıqlar, dərman preparatları, qara metallar, kağız, pivə və s.) gömrük rüsumlarının ləğv edilməsi nəzərdə tutulmuşdur.

3. Ümumdünya ticarət təşkilatının (ÜTT) fəaliyyəti

Beləliklə ÜTT Baş Razılaşmanın hüquqi əsası kimi 1995-ci ilin yanvar ayının 1-dən fəaliyyət göstərir.

ÜTT - Baş razılaşmanın bütün səlahiyyətlərini yerinə yetirməklə yanaşı, bir çox yeni razılaşmalar, müqavilələr və qərarları da əhatə edir. Həmçinin "Xidmət ticarəti üzrə Baş razılaşma" (QATS) və eləcə də ticarət baxımından intellektual mülkiyyət hüququ da (TRİPS) bura daxildir. ÜTT daim fəaliyyət göstərən beynəlxalq təşkilatdır.

Təşkilatı quruluşuna görə ÜTT-nin ali orqanı konfransdır. Nazirlər konfransı ali qərar qəbuledici orqan hesab edilir.

Konfrans iki ildən bir çağırılır. Nazirlər Konfransı təşkilatın baş direktorunu təyin etmək, müvafiq komitələri təsis etmək; təşkilata yeni üzv qəbul etmək və s. Kimi səlahiyyətlərə malikdir.

Nazirlər Konfransı:

— ÜTT-nin İnkişaf və Ticarət Komitəsini

— Tədiyyə balansının tarazlığını təmin edən məhdudiyyətlər üzrə komitəni, büdcə, maliyyə inzibati məsələlər üzrə komitəni, ticarət və ətraf mühit üzrə komitəni təsis edir.

Baş direktor ÜTT-nin katibliyinin əməkdaşlarını təyin edir. Bunlarla yanaşı Nazirlər Konfransının müddəalarına uyğun olaraq onların vəzifə səlahiyyətlərini də müəyyən edir.

İndiyədək beş belə konfransı qeyd etmək olar: 1996-cı ildə Sinqapurda, ikinci konfrans 1998-ci ildə Cenevrədə, 1999-cu ildə Sietldə, 2001-ci ildə Doha da (Qətərin paytaxtı), 2003-cü ildə Kankunda keçirilmişdir.

Nazirlər Konfransının tabeçiliyində bir neçə şura fəaliyyət göstərir. Bunlardan:

^ **Baş şura.** Bu şura cari işlərin yerinə yetirilməsi ilə məşğuldur. Baş şura əsasən üzv olan ölkələrin səfirləri və yaxud nümayəndələri ilə iş aparır. Şuranın mənzil qərargahı Cenevrədədir (İsveçrə). İldə bir neçə dəfə toplanırlar. Çoxtərəfli ticarət sazişlərinin və Nazirlər Konfranslannın qərarlarının yerinə yetirilməsinə nəzarət etmək, müəyyən mübahisələrin həli edilməsi, ardıcıl olaraq ticarət siyasətinin həyata keçirilməsi və digər məsələlər də Baş Şuranın tabeçiliyində **«əmtəələrlə ticarət üzrə şura», «xidmətlərlə ticarət üzrə şura»** və **«intellektual mülkiyyət hüquqlarının ticarət aspektləri üzrə şura»** fəaliyyət göstərir.

— **Əmtəələrlə ticarət üzrə Şura** - ÜTT-nin prinsiplərinə riayət edilməsinə və QATT - 1994 sazişinin heyata keçirilməsində 14 ixtisaslaşmış komitənin fəaliyyətinə rəhbərlik edir.

— Xidmətlərlə ticarət üzrə Şura. OATS sazişinin həyata keçirilməsinə nəzarət edir. Tərkibində iki komitə vardır.

— İntellektual mülkiyyət hüquqlarının ticarət aspektləri üzrə şura - TRİPS. Bu şura əqli mülkiyyət hüququnun ticarət barədə olan sazişin yerinə yetirilməsinə nəzarət edir.

Aydındır ki, cari məsələləri icra etmək üçün bir sıra komitələr və işçi qrupları da fəaliyyət göstərir.

— Katiblik. ÜTT-nin əsas icraçı orqanı hesab edilir. Katibliyə baş direktor rəhbərlik edir. Katibliyin 600-dən artıq əməkdaşı vardır.

Katibliyin əsas vəzifəsi Nazirlər Konfransına, müxtəlif komitələrə və Şuralara texniki yardım göstərməkdən ibarətdir. Eləcə də İEÖ-rə texniki yardım göstərir. Dünya üzrə ticarətin vəziyyətini təhlil edir. Üzv olmaq istəyən ölkələrə məsləhət xidməti göstərir

ÜTT-nin illik büdcəsi 170 mln. İsveçrə frankı təşkil edir.

Baş razılığın bir çox sənədləri ÜTT-də dəqiqləşdirilmiş və tamamlanmışdır. Bu sənədlərin əksəriyyəti üzv olan ölkələr üçün eyni dərəcədə məcburidir. Hazırda bu təşkilatın 148 üzvü var. Otuzdan artıq ölkə bura birləşmək barədə müraciət ediblər.

Öz sələfindən fərqli olaraq ÜTT BMT-nin ixtisaslaşmış müəssisəsi hesab edilir, hüquqi şəxs statusuna malikdir.

ÜTT-in əsas məqsədi beynəlxalq ticarətin liberallaşdırılması, ona sabit xarakter verilməsi, iqtisadi artımın təmin edilməsi, insanların rifah halının yüksəldilməsindən ibarətdir.

ÜTT-in fəaliyyəti əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilir:

— bu təşkilatın hüquqi əsasları olan çoxtərəfli ticarət müqavilələri üzərində nəzarət;

— ticarət üzrə çoxtərəfli danışıqlar aparılmasında forum rolunu yerinə yetirmək;

— üzv olan ölkələr arasındakı hər cür ticarət münaqişələrini tənzim etmək;

— üzv olan ölkələrin ticarət siyasətinə nəzarət etmək;

— beynəlxalq ticarət mexanizmi və ticarət siyasətinin inkişaf etdirilməsi üzrə informasiya toplamaq, təhlil etmək və öyrənmək.

ÜTT demək olar ki, beynəlxalq ticarət siyasətinin bütün sahələrini və eləcə də beynəlxalq kommersiya təcrübəsinin xeyli hissəsini əhatə edir, daha doğrusu: gömrük taarifinin tənzimlənməsini; dempinq əleyhinə tənzimləmə; subsidiya və qarşılıqlı ödəmələrdən istifadə edilməsi; qeyri-taarif məhdudiyyətləri; İdxal və ixracın miqdarının tənzimlənməsi; idxal və ixracın qadağan edilməsi; dövlət ticarət müəssisələrinin fəaliyyəti; gömrük İttifaqları və azad ticarət zonaları; daxili vergilərin yığılması qaydası; ticarətdə mühafizə tədbirləri; ticarətdə texniki maneələr; sanitariya tədbirləri; əmtəələrin mənşəyinin dəqiqliyi; xidmətlərin ticarəti; intellektual mülkiyyətin ticarəti qaydası; saxta əmtəələrin ticarəti; parça və paltar, kənd təsərrüfatı mallarının satışı; dövlət satınalmasının həyata keçirilməsi; mülkü aviatexnika satışı; satış baxımından investisiya tədbirləri; beynəlxalq ticarət və azad mühit.

ÜTT bütün bu kimi geniş fəaliyyətini reallaşdırmaqda müəyyən prinsiplərdən istifadə edir. Bu prinsiplərdən aşağıdakıları qeyd etmək olar.

1. Hər bir üzv olan ölkə üçün əlverişli şəraitin yaranması, ayrı seçkiliyə yol verilməməsi.

2. Milli rejim prinsipi. Bu prinsipə görə xarici mallar və milli mallara eyni vergi, sərəncam, qayda- qanun tətbiq edilməlidir.

3. Milli sənayenin müdafiəsi prinsipi. Bu prinsipə əsasən milli sənayenin müdafiəsi üçün ancaq idxala olan gömrük dərəcələrini dəyişmək təsirindən istifadə etmək olar. Digər ticarət-siyasi tədbirlər, qadağalar, məhdudiyyətlərə icazə verilmir.

4. Ticarətə sabit əsas yaradılması. Bu prinsipə əsasən tarif dərəcələrinə sözsüz riayət edilməsi nəzərdə tutulur.

5. Ədalətli rəqabət yaradılmasına kömək etmək. Bəzən istehsala və ixracata subsidiya verilməsi ilə onlar dünya bazarında müəyyən üstünlüyə malik ola bilirlər. Odur ki, ÜTT bu cür himayədarlıq məqsədi güdən tədbirləri yolverilməz hesab edir.

6. İdxalın miqdar cəhətdən məhdudlaşdırılmasının qadağan edilməsi. Bu kimi məhdudlaşdırmalar bu vaxtadək kənd təsərrüfatı məhsullarının, parça, polad və s. məhsulların satışına çox təsir etmişdir. Ancaq tədiyyə balansını müdafiə etmək məqsədi ilə, ölkədən xarici valyuta axınının qarşısını almaq məqsədi ilə belə tədbirlər həyata keçirilə bilər.

7. Daimi ticarət müqavilələri bağlanması prinsipi. Bu təşkilata daxil edilməsindən asılı olmayaraq ayn-ayn qrup dövlətlər öz aralarında ərazi üzrə gömrük ittifaqı, azad iqtisadi zona və s. yarada bilərlər.

—w—-lil-*—■*<M—*■

8. İnkişaf etməkdə olan ölkələr üçün sosial şərait yaradılması prinsipi. Bu prinsipə əsasən həmin ölkələrin əmtəələrinin dünya bazarına çıxması üçün daha əlverişli şərtlər tətbiq edilir.

9. Bəzi məhsullara müəyyən istisna şərtlər qoyulması. Parça, geyim şeyləri, bir çox lif növləri üzrə (rəqabət qabiliyyətli inkişaf etməkdə olan ölkələrdən) idxala müəyyən kvotalar qoyulması nəzərdə tutulur.

ÜTT-də qərarların qəbulu. ÜTT-də qərarlar Konsensus ^ yolu ilə qəbul olunur. Bu qərar üzv ölkələrin parlamentlərinin təsdiqinə göndərilir.

ÜTT-yə üzvolma qaydaları. Aydındır ki, ÜTT-yə qəbul qaydası «Tarif və Ticarət üzrə Baş Sazişin» təcrübəsinə əsaslanır. Qəbul prosesi o qədər də sadə deyildir. Bu proses ən azı 3-4 il, bəzi hallarda isə daha çox vaxt aparır. QATT-ın təsisçiləri eyni zamanda UTT- nln təsisçiləri hesab edilir. Hazırda UTT-nin 148 tam hüquqlu üzv ölkəsi var. Bunlardan 128 ölkə təsisçi ölkə hüququna malikdirlər. 30-dan artıq ölkə müşahidəçi ölkə kimi fəaliyyət göstərirlər. Bunlardan başqa bir sıra beynəlxalq təşkilatlar - Məsələn Beynəlxalq Valyuta fondu, Dünya Bankı, BMT sisteminin müxtəlif təşkilatları, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər birliklər də müşahidəçi kimi ÜTT-nin fəaliyyətində iştirak edirlər.

ÜTT-nin fəaliyyətində xüsusi istiqamətlər aşağıdakılardan ibarətdir:

— İnkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələrə yardım edilməsi;

— İxracın inkişafına xüsusi yardım göstərilməsi;

2 Konsensus - latınca - razılıq - vahid fikir.

— Beynəlxalq iqtisadi siyasətin əsas istiqamətlərinin birgə işlənib hazırlanması;

— İnformasiyaya çıxışın təmin edilməsi.

Son zamanlar İTT tərəfindən daha çox müzakirə olunan bəzi məsələlər.

— Regional iqtisadi komplekslərin vəziyyəti:

— Ticarət və Ətraf mühit;

— Ticarət və investisiyalar;

— Rəqabət siyasəti;

— Dövlətin idxal siyasəti məsələsi;

— Ticarətə yardım;

— Ticarət və əmək münasibətləri.

Ümumdünya Ticarət Təşkilatı və Azərbaycan

Aydındır ki, bir çox başqa dövlətlər kimi Azərbaycan da ÜTT-yə üzv olmağa çalışır. Odur ki, hələ 1997-cl ildə bu barədə öz arzusunu bildirmişdi. Qeyd etməliyik ki, Azərbaycanın xarici ticarət apardığı dövlətlərin demək olar ki, əksəriyyəti bu təşkilatın üzvüdürlər. Odur ki, həmin dövlətlər də bu məsələdə Azərbaycanı dəstəkləyirlər.

ÜTT-yə üzv olmağın əsas əhəmiyyəti:

— Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesinin sürətləndirilməsi;

— ÜTT-yə üzv olan ölkələrin bir-birindən fay- dalanması (güzəştlərdən istifadə edilməsi);

— ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında dünyanın əksər ölkələri ilə ticarət əməliyyatları aparmaq;

— BƏB-də geniş iştirak etməklə ölkədə aparılan iqtisadi islahatlara yardımın artırılmasına nail olmaq;

— ÜTT - qaydalarının tətbiq edilməsi ilə birbaşa xarici investisiyaların artırılmasına nail olmaq və s.

4. Beynəlxalq Ticarət Mərkəzi (BTM)

Beynəlxalq Ticarət Mərkəzi 1964-cü ildə Taarif və Ticarət üzrə Baş razılığın (QATT) üzvü olan ölkələrin razılığı ilə yaradılıbdır. Bu mərkəzin yaradılmasında əsas məqsəd xarici ticarət barədə beynəlxalq kommersiya fəaliyyəti sahəsində və texniki xidmət göstərilməsində geniş informasiya əldə etmək, məsləhət xidməti göstərmək və konkret layihələr həyata keçirməkdən ibarətdir.

1968-ci ildən "Ticarət və İnkişaf üzrə Konfrans da ticarət mərkəzinin iştirakçısı kimi Taarif və Ticarət üzrə Baş razılığa - (QATTa) qoşulmuşdur.

1995- ci ildən isə bu mərkəz ÜTT-in mərkəzi adlanır. Ona görə də bu mərkəzin özünün əlahiddə üzvləri yoxdur. Yuxarıdakı təşkiiatlann üzvləri bu mərkəzin də üzvləridirlər.

1973-cü ildən BMT-nin İqtisadi və Sosial Şurasının qətnaməsinə əsasən bu mərkəzə mərkəzi orqan funksiyası verilmişdir. Daha doğrusu ticarətin inkişafına köməklik göstərilməsi (hər şeydən əvvəl inkişaf etməkdə olan ölkələrin ixracına) üzrə mərkəzi orqan.

1984-cü ildən bu mərkəzə “İnkişaf proqramının icraedici agentliyi” statusu verilmişdir. Deməli BMT öz öhdəsinə düşən əsas vəzifəiən əsas proqramı olan 'Ticarətə və ixracın inkişafına kömək” proqramı çərçivəsində yerinə yetirir. Bundan əlavə BTM "Zəif inkişaf etmiş ölkələr ilə texniki əməkdaşlıq” və

"Milli ticarət palataları ilə texniki əməkdaşlıq" proqramları əsasında da iş aparır.

1973-cü ildə İqtisadi və Sosial Şuranın - İ və SŞ qətnaməsinə əsasən BTM-nin fəaliyyətində altı əsas həlledici sahə ayrılmışdır.

1. Məhsulun keyfiyyətinin və marketinq fəaliyyətinin yüksəldilməsinə yardım etmək;

2. Ticarət əməliyyatlarının həyata keçirilməsinə texniki xidmət göstərmək;

3. Beynəlxalq ticarətin vəziyyəti barədə informasiya hazırlamaq;

4. Xarici ticarətin effektivliyinin artırılması məqsədi ilə kadr hazırlığına köməklik göstərmək;

5. İdxal üzrə əməliyyatların həyata keçirilməsinə köməklik göstərmək;

6. Tələbatlann müəyyən edilməsi və ticarətin inkişafı proqramının işlənməsinə köməklik göstərmək.

Qeyd etmək lazımdır ki, BTM öz fəaliyyətinin bütün istiqamətlərində zəif inkişaf etmiş ölkələrə daha çox diqqət verir.

1995- ci üdə BTM Birləşmiş texniki yardım “proqramı" qəbul etmişdir. Burada "Uruqvay Raun>
du" bazası əsasında çoxtərəfli ticarət sistemi çərçivəsində “Afrika üzrə texniki əməkdaşlıq proqramı” nəzərdə tutulur. Bu proqramda beynəlxalq ticarətdə Afrika ölkələrinin və inkişaf etməkdə olan digər ölkələrin iştirakı ilə onların rəqabət qabiliyyətinin artırılmasına qayğı əks etdirilir.

Afrikanın 8 öikesi artıq bu proqramın reaiiaş- dırılmasına qoşuiubduiar. Bunlar - Benin, Burkino- Faso, Kot-d'İvuar, Qana, Keniya, Tanzaniya, Tunis, Uqandadan ibarətdirlər.

Bu mərkəzin rəhbərlik prinsiplərinin ÜTT-nIn Baş şurası və ticarət və inkişaf üzrə şura müəyyən edirlər. Mərkəzin dövlətlərarası işinə isə Birləşmiş Məsləhət Qrupu nəzarət edir. Məsləhət qrupunun sessiyaları arasındakı müddətdə isə mərkəzin cari fəaliyyətinə Katiblik cavabdehdir.

BTM-nin fəaliyyətinin maliyyələşdirilməsi hər iki təşkilatın eyni miqdarda vəsait ayırması hesabına həyata keçirilir. Eləcə də İnkişaf Proqramının (PROON) vəsaiti hesabına BTM-nin inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatı ölkələrinə texniki əməkdaşlıq fəaliyyəti maliyyələşdirilir.

5. BMT-nin ticarət və inkişaf üzrə konfransı (YUNKTAD)

BMT-nin ticarət və İnkişaf üzrə konfransı 1964-cü ildə yaradılıb. BMT-nin xüsusi orqanı kimi fəaliyyət göstərir. Bu çoxtərəfli nüfuzlu iqtisadi təşkilatdır. İqamətgahı Cenevrədədir (İsveçrədə), 191 üzvü var.

BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı adlanan bu təşkilatın əsas vəzifəsi: Beynəlxalq Ticarətin (xüsusilə inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında) genişləndirilməsinə maraq oyatmaq; beynəlxalq iqtisadi münasibətlərin inkişafına dair problemlər üzrə təkliflər hazırlamaq; iqtisadi inkişaf və ticarət məsələləri barədə ayrı-ayrı hökumətlərin və qruplaşmaların siyasətlərinin razılaşdırılmasında mərkəzi rolu oynamaq; BMT-nin Beynəlxalq ticarət üzrə olan digər müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsinə köməklik göstərmək və s.

ÜTT-nin yaradılması ilə bu təşkilatın qalıb- qalmaması barədə də müxtəlif fikirlər mövcud olmuşdur. Lakin bununla yanaşı müəyyən aydınlıq da hasil olmuşdur ki, ÜTT xalis ticarət məsələləri ilə məşğul olduğu halda, bu təşkilat dünya iqtisadiyyatının inkişafına dair bir çox ümumi ticarət-siyasi prinsipləri işləyib hazırlayır.

1. "Ticarət və İnkişaf üzrə Konfrans"ın işi üç istiqamətdə qurulmuşdur:

1. Üzv olan ölkələr arasında aktual məsələlərə dair danışıqlar və müzakirələr aparmaq;

2. İştirakçı nümayəndələr üçün informasiya (analitik işləri yerinə yetirmək, müzakirə olunası məsələlərin xülasəsinin hazırlanması) xidməti göstərmək;

3. İnkişaf etməkdə olan ölkələr üçün, son illərdə isə keçid iqtisadiyyatı ölkələri üçün texniki köməklik proqramları işləyib hazırlamaq.

Etiraf etmək lazımdır ki, bu təşkilatın qərarları hüquqi cəhətdən ÜTT-nin qərarlarına nisbətən o qədər də məcburi deyil. Bu qərarlar beynəlxalq ticarətin yaxşılaşdırılmasına xidmət edir.

BMT-nin 'Ticarət və İnkişaf üzrə Konfransının" fəaliyyəti əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilir.

1. Döviətiərarası ticarət və iqtisadi münasibətlərin tənzimlənməsi. Burada Beynəlxalq ticarət münasibətləri və ticarət siyasəti üzrə olan prinsiplərin işlənib hazırlanması daha böyük rola malikdir. Bu prinsiplərdə - ölkələrarası münasibətlərdə, bərabərlik, daxili işlərə qarışmamaq, ölkənin müstəqilliyinə hörmət etmək, iqtisadi təzyiq metodlarına imkan verməmək, inkişaf etməkdə olan ölkələrə müəyyən güzəştlər vermək,

qabaqcıl ölkələrin inkişaf etməkdə olan ölkələrə iqtisadi və texniki yardımına zəmin yaratmaq və s.

2. Xammal məhsullarına dair beynəlxalq ticarətin tənzimlənməsi üzrə tədbirlər işlənib hazırlanması;

3. Ticarət siyasəti və iqtisadi əməkdaşlıq üzrə tədbirlər və müxtəlif vasitələr hazırlanması;

4. İnkişaf etməkdə olan ölkələrə iqtisadi əməkdaşlığın inkişafına xüsusi köməklik göstərmək;

5. Dünya ticarətinin və bununla bağlı digər problemlərin həlli üçün siyasi dairələr, ekspertlər arasında yığıncaqlar, diplomatik danışıqlar, konfranslar keçirmək;

6. Bir çox problemlər üzrə təhlil işləri aparmaq. Bu sahədə həmin təşkilatın IX sessiyası 1996-cı ildə dörd əsas problemin təhlilini vermişdir:

— Qloballaşma və inkişaf problemi;
— İnvestisiya, müəssisələrin və texnologiyanın inkişafı;
— Əmtəə və xidmətlərin beynəlxalq ticarəti;
— Xidmət dairəsində infrastrukturun inkişafı.

7. Beynəlxalq iqtisadi münasibətlərə dair bir çox problemlərin həllində forum rolu oynamaq;

8. BMT çərçivəsində beynəlxalq ticarət, dünya təsərrüfatı əlaqələrinin inkişafı, digər ərazi komissiyaları ilə əməkdaşlıq və bu kimi problemlər üzrə fəaliyyətlərin əlaqələndirilməsini həyata keçirmək;

9. Bir-birini təkrarlamamaq və öz fəaliyyətlərində razılıq yaratmaq üçün Beynəlxalq iqtisadi təşkilatlarla (xüsusi ilə ÜTT və Beynəlxalq ticarət mərkəzi ilə) əməkdaşlıq edir. Bu təşkilatın ali orqanı Konfransdır. Konfransın sessiyası dörd ildə bir dəfə keçirilir. Cəmisi 11 sessiya keçirilibdir.

I sessiya - 1964-cü ildə Cenevrədə (İsveçrə);
II sessiya - 1968-ci İldə Dehlidə (Hindistan);
III sessiya - 1972-ci İldə Santyaqoda (Çili);
IV sessiya - 1976-cı ildə Nayrobidə (Keniya);
V sessiya - 1979 -cu ildə Manilidə (Filippin);
VI sessiya - 1983-cü ildə Belqradda (Yuqoslaviya);
VII sessiya - 1987-cl İldə Cenevrədə (İsveçrə);
VIII sessiya - 1992-ci ildə Kartaxendə (Kolumbiya);
IX sessiya - 1996-cı ildə Midrandedə (CAR);
X sessiya - 2000-ci ildə Tailandda keçirilmişdir.
XI sessiya - 2004-cü ildə Braziliyada (San-Pauil) kezirilmişdir.

Deməli, bu təşkilatın sessiyası BMT çərçivəsində keçirilən çoxtərəfli iqtisadi forum hesab edilir.

İcraedici orqan ticarət və inkişaf üzrə Şuradır. Konfransın sessiyalararası işini Şura həyata keçirir. Hər il bu şura öz fəaliyyəti barədə **Baş Assambleyaya məruzə** edir.

Ticarət və İnkişaf üzrə Şura hər il payızda 10 gün müddətinə sessiya keçirir. Bundan əlavə bir çox problemlər üzrə ayrı-ayrı komissiyaların, orqanların iclasları, yığıncaqları da keçirilir.

Qeyd etdiklərimizdən aydın olur ki, Konfransın fəaliyyəti heç də xalis ticarətlə məhdudlaşmır. Bu konfrans daha ümumi - universal xarakterə malik beynəlxalq bir təşkilat olub sosial-iqtisadi, siyasi və ticarət siyasəti istiqamətlərində iş aparır.

Aydındır ki, bir mövzuda "Konfransın bütün fəaliyyətini açıqlamaq mümkün deyildir.

Odur ki, daha ümumi - həlledici problemləri verməklə kifayətlənirik:

Belə ki:

1.1960-cı illərdə "Beynəlxalq ticarət münasibətləri və ticarət siyasəti prinsipləri" işlənib hazırlanmışdır.

2.1971>ci ildə ümumi imtiyaz sistemi barədə razılıq əldə edilmişdir. Burada İEOÖ-dən İEO-ə məhsul ixracında müəyyən güzəşt qaydası nəzərdə tutulur. Bu güzəştdən lEOÖ-lər ildə 70 mlrd, dollar gəlir əldə edirlər.

3.1976- cı ildə "Dövlətlərin iqtisadi hüququ və vəzifələri Xartiyası"nın əsaslannı təşkil edən prinsiplər işlənib hazırlanmışdır.

4.1980-ci ildə işgüzarlıq əməliyyatlarında müəyyən məhdudiyyət qaydalarına əməl edilməsi razılaşmaları qərarlaşdırılmışdır.

5.1989-cu ildə İEOÖ-lə qlobal sistemdə ticarət üzrə imtiyaz nəzərdə tutulması razılaşmaları olmuşdur.

6. 1976-cı ildə bir çox əmtəə növləri üzrə beynəlxalq razılaşmalar əldə edilmişdir (məsələn, kakao, şəkər, kauçuk, hind kəndiri, tropik ağaclar, qalay, zeytun yağı, buğda və s.). Bu razılıqlar əsasında həmin məhsullar üzrə beynəlxalq təşkilatlar fəaliyyət göstərirlər.

7.1976- cı ildə xammal məhsulları üzrə inteqrasiya proqramlan işlənib hazırlanmışdır.

8. Xammal məhsulları üzrə (dəmir filizi, volfram, mis, nikel və s. daxil olmaqla) dövlətlərarası tədqiqat qruplan yaradılmışdır.

9. Xammal əmtəələri üzrə inteqrasiya proqramlarını həyata keçirmək üçün 1989-cu ildə ümumi fond

yaradılması, beynəlxalq bufer ehtiyatlarının maliyyələşdirilməsi işinin qoyuluşu başlanmışdır.

10. İEOÖ-in borclarının ödənilməsinə dair müəyyən güzəştə-getmə halları barədə razılıqlar əldə edilmişdir (50-dən artıq ölkə borcların ödənilməsindən azad edilmişdir). Ümumi məbləğ - 6,5 mlrd, dollara bərabər olmuşdur. 1980-ci ildə borcların ödənilməsi barədə beynəlxalq prinsiplər hazırlanmışdır.

11.1992-ci İldə Kolumbiyada - Kartaxendə "Konfransın" VIII sessiyasında "optimal idarəçilik", "iqtisadi inkişafda bazarın rolu", "yoxsulluq problemi məsələləri", "demokratiya və insan hüququ" və bir çox məsələlər müzakirə olunaraq öhdəlik qəbul edilmişdir.

12.1996-cı ildə CAR-da Konfransın IX sessiyası dünya iqtisadiyyatının qloballaşması şəraitində artma və sabit inkişafa yardım məsələləri, ölkələr arasında yardım məsələləri, ölkələr arasında yaxın əməkdaşlıq yolları tədqiq edilmişdir.

13.2000-ci ildə Tailandın paytaxtı Banqkokda konfransın X sessiyasında qloballaşma məsələləri bir daha müzakirə olunmuş və qətnamə qəbul edilmişdir.

Bütün qeyd etdiklərimizlə yanaşı, bu təşkilatın fəaliyyətində əsas istiqamətlərdən biri də transmilli şirkətlər üzrə qəbul edilmiş proqram çəçivəsində tədqiqat işlərinin aparılmasıdır. Bu proqram UNKTAD tərəfindən 1993-cü ildən həyata kezirilir. Bu məqsədlə xüsusi olaraq investisiya üzrə şöbə yaradılmışdır. Bu şöbə həmin sahələrdə informasiya və analitik fəaliyyəti həyata keçirir, müzakirələr təşkil edir, məsləhətlər keçirir, IEOÖ-ə texniki yardım proqramı işləyib hazırlayır. IEOO üçün əlverişli investisiya şəraiti yaradılmasına köməklik göstərir.

Qeyd etməliyik ki, YUNKTAD çərçivəsində investisiya, texnologiya və bəzi maliyyə məsələləri üzrə Komissiya da fəaliyyət göstərir. Bu komissiya vaxtaşırı siyasi müzakirələr keçirir. YUNKTAD-ın Katibliyinin hər il hazırladığı "Dünya investisiyası barədə" olan məruzəsinə əlavə materiallar da daxil edilir.

VII FƏSİL

DÜNYA ƏMTƏƏ BAZARININ ÇOXTƏRƏFLİ TƏNZİMLƏNMƏSİ SİSTEMİ

1. *Dünya əmtəə bazarının tənzimlənməsinin iqtisadi mahiyyəti.*
2. *Xammal istehsalı və ixracı üzrə döviətlərarası təşkilatlar (OPEK).*
3. *Əmtəə bazarı üzrə bəzi beynəlxalq təşkilatlar.*
4. *Metal istehsalı və ixracı üzrə beynəlxalq təşkilatlar.*
5. *Dünya Əmtəə bazarının tənzimlənməsi və beynəlxalq Şuralar.*

1. **Dünya əmtəə bazarının tənzimlənməsinin iqtisadi mahiyyəti**

Aydındır ki, beynəlxalq miqyasda ticarət münasibətlərinin tənzimlənməsi mövcud beynəlxalq ticarət təşkilatları tərəfindən həyata keçirilir. Bununla yanaşı ümumi əhəmiyyətinə görə bir çox əmtəə növlərinin istehsalı, idxalı və ixracı ayrılıqda tənzimlənmə tələb edir. Bu tənzimlənmə də həmin məhsulların istehsalçıları ilə idxal və ixrac edən ölkələrin hökumətlərinin razılıqlarına əsaslanır. Burada müvafiq sabitlik və dinamik-ardıcıllığm həyata keçirilməsi üçün beynəlxalq mexanizm və müəyyən təşkilati formaların yaradılması zərurət təşkil edir.

Odur ki, qanunauyğun olaraq Dünya Əmtəə bazarının tənzimlənməsi üçün Döviətlərarası Beynəl-

xalq təşkilatlar yaradılır. Bunlara Beynəlxalq Əmtəə təşkilatı deyilir.

Beynəlxalq təşkilatların yaranmasında əsas məqsəd, dünyada ayrı-ayn əmtəələr üzrə bazarın vəziyyətini öyrənmək, müəyyən razılaşmaların, müqavilələrin həyata keçirilməsini izləmək, ayrı-ayn konkret növ bazarlara olan tələb və təklifin vəziyyətini öyrənməkdən ibarətdir. Elə bu əsasda da hər bir təşkilatın üzvü olan ölkələr beynəlxalq məsləhət təşkilatlan və tədqiqat qrupları vasitəsilə lazımi təkliflər hazırlayırlar. Əmtəələr üzrə beynəlxalq təşkilatların fəaliyyətləri bəzi ölkələrin fərdi - birtərəfli hərəkətini müəyyən qədər məhdudlaşdırır və eləcə də Kartel tipli ixrac birliklərinin yaranmasını çətinləşdirir.

Beynəlxalq əmtəə təşkilatlarının tərkibi və yaxud quruluşu aşağıdakı kimi ifadə edilir:

— Beynəlxalq təşkilatlar;
— Beynəlxalq şuralar;
— Beynəlxalq məsləhət komitələri;
— Beynəlxalq tədqiqat qrupları və s.

2. Xammal istehsalı və ixracı üzrə dövlətlərarası təşkilatlar (OPEK)

Xammal istehsalı və ixracı üzrə dövlətlərarası təşkilatların yaradılması 1960-cı illərdən başlanmışdır. Adətən bir çox birliklər, təşkilatlar inkişaf etmiş sənaye ölkələrinin təşəbbüsü ilə yaradılırdı. Lakin xammal ixracı əsasən inkişaf etməkdə olan ölkələr tərəfindən həyata keçirildiyinə görə, bu kimi təşkilatlar da xammal ixrac edən həmin ölkələrin səyi ilə yaradılmışdır. Burada əsas məqsəd təbii sərvətlər üzərində milli

nəzarətin artırılması və xammalın bazar qiymətlərinin sabitliyinin saxlanılmasına zəmin yaradılmasından ibarətdir.

Məlumdur ki, beynəlxalq ticarətin inkişafında təbii ehtiyatların böyük rolu vardır. Bu ehtiyatların isə çoxu inkişaf etməkdə olan ölkələr tərəfindən təmin edilir. İqtisadçılar açıq etiraf edirlər ki, əgər inkişaf etməkdə olan ölkələr tərəfindən olan xammal ixracı dayandırılarsa, nə Şimali Amerika, nə də Avstraliya bu kəsirin yerini doldura bilməzlər. Onu da qeyd etməliyik ki, inkişaf etməkdə olan ölkələrin bir çoxu yüksək sənaye ehtiyatına malik olmadığı üçün, öz sosial-iqtisadi problemlərinin həllində təbii ehtiyatlara əsas gəlir mənbəyi kimi baxırlar. Bu isə ölkənin xammal ixracından asılı vəziyyətə düşməsinə səbəb olur. Məsələn, Zambiya xaricdən olan gəlirin 90%-ni, Zair isə 60%-ni mis ixracından, Mavritaniya 70%-dən çoxunu dəmir filizi satışından, Qvineya 70%-ə qədərini boksitlərdən əldə edirlər.

Beləliklə dünya ticarətinin sabit inkişaf etdirilməsi prosesində sənaye ölkələrinin xammal idxalı ilə 3-cü dünya ölkələrinin ixracı qarşılıqlı asılılıq şəraitində götürülür.

Lakin bir müddət ehtiyatların istifadə edilməsi mexanizmi pozulmuşdur. Xammal çıxarılması artdığına görə aşağı keyfiyyətli misdən istifadə edilirdi. Bəzən yeni, çətin sahələrin axtarışı, kəşfi, İstifadəyə verilməsi müddəti 10-20 il davam edirdi. Belə vəziyyət bir müddət qiymətlərin artmasına və bəzi xammal növlərinin çatışmamasına səbəb olmuşdur. Həmin vaxtlar yeraltı ehtiyatların İstifadə edilməsi sahəsindəki beynəlxalq münasibətlərin əsas subyektləri xüsusi

kompaniyalar hesab edilirdi. Xüsusilə Qərb ölkələrinin TMK-rı xammalın çıxarılması və istifadəsini öz əllərində cəmləşdirmişdir.

1960- 1970-ci illərdə bu sahədə ciddi dəyişikliklər baş vermişdir. İnkişaf etməkdə olan ölkələr təbii ehtiyatlar üzərində nisbi də olsa öz suverenliyini yarada bilmişlər. Dövlət və yarıdövlət kompaniyalan meydana gəlmişdi. Bazar ayrı-ayrı kompaniyaların nəzarəti altında olduqda qjymətyaranma mexanizmi dəyişkənliyə məruz qalmalı olurdu. Belə ki, onlar əksər hallarda bu və ya digər növ xammalın çıxarılması və satışı kvotası barədə uzunmüddətli müqavilə bağlayırdılar. Bu fikri neft üzrə daha aydın şəkildə açıqlamaq olar.

Belə ki, 1928-ci ildə yeddi böyük kompaniyadan ibarət Beynəlxalq Neft Karteli yaranmışdı ("Qalf oyl", "Teksako", "Standart oyl of Kalifomia", "Mobil oyl", "Britiş Petroleum", "Royal dat-Şell", "Kompanı Fransez de petrol").

Bu kompaniyalar Fars körfəzində və digər ölkələrdə neft çıxarılmasından satışınadək olan bütün əməliyyatlara demək olar ki, tam nəzarət edirdilər. On illərlə bu kartelin siyasəti dünya bazarında neftin qiymətini aşağı salmaqdan ibarət olmuşdur. Bir barrei neftin qiyməti 1948-ci ildə 2,27 dol., 1960-cı ildə 1,8 doll. təşkil etmişdir. Bunun nəticəsində dünya üzrə energetikanın inkişafı duru yanacağa istiqamətlənirdi. İlkin enerji mənbəyi istehsalında neftin xüsusi çəkisi 1950-ci ildəki 31%-dən 1976-cı ildə 52%-ə çatmışdı. Bir məsələni də qeyd etmək maraqlıdır ki, dünya miqyasında 1900-cu ildə cəmi 20 mln. ton neft çıxanldığı halda, 1960-cı ildə 1 mlrd. ton. 1969-cu ildə 2 mlrd. ton.

1974- cü ildə isə yenə xeyli artdığı halda, neft kartelinin

siyasəti dəyişmədiyi üçün, neftin qiyməti də dəyişməmişdir.

Göstərilən dövrlərdə neft çıxarılmasının artımı əsasən inkişaf etməkdə olan ölkələrin hesabına baş vermişdir. Bu isə Qərb dövlətlərinin öz-özünü təmin etmək imkanlarını kəskin azaltmışdır. Belə ki, 1950- 1970-ci illərdə dünya üzrə neft çıxarılmasında Qərb dövlətlərinin xüsusi çəkisi 53%-dən 25%-ədək, ABŞ-ın xüsusi çəkisi isə 51%-dən 21%-ədək azalmışdır.

Yuxarıda qeyd etdiyimiz bütün asılılıqların nisbətən azaldılmasına, ədalətli qiymətlər yaradılmasına, təbii sərvətlərin talan edilməsinin qarşısının alınmasına nail olmaq üçün müxtəlif ölkələrin kollektiv birliyi tələb olunurdu. Hazırda bir çox məhsul növlərinin satışı üzrə dövlətlərarası beynəlxalq birliklər fəaliyyət göstərir. Bunlardan - neft, mis, boksitlər, hind kəndiri, dəmir filizi, voifram, civə, qalay, gümüş, fosfat, təbli kauçuk, pambıq, qara bibər, kakao, kofe, çay, şəkər, banan, araxis və s. göstərmək olar.

Bu birliklərdən daha çox gözə çarpanı neft istehsalı və ixracı ilə məşğul olan bəzi ölkələrin yaratdığı birlikdir.

1960-cı ildə Asiya, Afrika və Latın Amerikasının neft hasil edən bəzi ölkələri birləşərək neft ixrac edən ölkələr (OPEK) təşkilatını yaratmışlar (Bağdad konfransında), İqamətgahı Vyanadadır (Avstriya), bura 12 ölkə daxildir:

Əlcəzair, İraq, Liviya, Venesuela, İran, Nigeriya, Qabon, Qətər, BƏƏ, İndoneziya, Küveyt, Səudiyyə Ərəbistanı.

1995-2000-ci illərin məlumatına görə bu təşkilata ***daxil*** olan ölkələr cəmi neft istehsalının 60%-ni, ixracın isə 80%-ni öz əllərində cəmləmişlər.

Bu təşkilatın yaradıldığı ilk vaxtlardan neft karteli qiymətlərin azaldılmasını dayandırmışdır. 1973-cü ilin oktyabr ayında əsas ölkələrdə neft çıxarılması miliiləşdirilmişdi. Odur ki, OPEK ölkələri qeyri-şərtsiz yeni qiymətlər müəyyən etmişlər. 1972-1981-ci illərdə neftin qiyməti - 14,5 dəfə, yanacağın qiyməti - 13,5 dəfə, bütünlükdə mineral xammallar üzrə isə 12,5 dəfə artmışdır.

OPEK ölkələri neftin qiymətini lazımi səviyyədə saxlamaq məqsədi ilə onun çıxarılması həcmi barədə kvota razılığına gəlmişlər. Odur ki, bu ölkələrdə neft çıxarılması uzun müddət 70-ci illərin səviyyəsində saxlanılmışdır.

Nəticə etibarı iiə qiymətlərin aşağı olması xammal ixrac edən ölkələrin iqtisadiyyatına zərər vurduğu kimi, yuxarı olması da onu idxai edən ölkələrin işini çətinləşdirirdi. Odur ki, 70-ci illərdə yanacaq-xammal böhranları baş vermişdir. Bu isə faydalı qazıntılardan səmərəli istifadə edilməsi probleminə, mineral xam- mailann çıxaniması və istifadə edilməsində ekstensiv metoddan intensiv metoda keçirilməsinə zərurət yaratmışdır.

Bu təşkilatın əsas məqsədi aşağıdakılardan ibarətdir:

— təşkilata üzv olan öikələnn neft siyasətinin əlaqələndirilməsi;

— onların mənafelərinin müdafiə edilməsində daha səmərəli kollektiv və ya fərdi vasitələrin müəyyən edilməsi;

— dünya bazarında neftin qiymətinin sabit saxlanılmasında zəruri vasitələrdən istifadə edilməsi;

— neft istehsal edən ölkələrin mənafeyini müdafiə etmək üçün onların sabit gəlirinin təmin edilməsi;

— neft istehlak edən ölkələrin vaxtında və dinamik təchizatının təmin edilməsi;

— neft sənayesinə kapital qoyuluşunu maraqlandırmaq;

— ətraf mühitin mühafizəsinin təmin edilməsi;

— OPEK-in üzvü olmayan ölkələrlə əməkdaşlığın təmin edilməsi.

1991- ci ildən OPEK bir çox digər təşkilatların əlaqələndirmə görüşlərində iştirak edir. Neft ixrac edən müstəqil təşkilatla (OPEK), Aİ ilə, Beynəlxalq energetika agentliyi ilə və digər sahələrdə əlaqələr yaradır.

Daha ümumiləşdirilmiş şəkildə OPEK-in inkişafını bir neçə mərhələdə səciyyələndirmək olar.

1960-1970-ci illər OPEK-in ilk inkişaf mərhələsi hesab edilir. Bu ilk mərhələdə OPEK-ə beş ölkə daxil idi. Bu problemlə bağlı çoxmillətli kompaniyalar hökmran idi. Yeni müstəqil dövlətlər yaranırdı:

— 1968-ci ildə OPEK-ə üzv olan ölkələr neft siyasəti barədə bəyanat qəbul etmişlər. 1969-cu ildə OPEK-in üzvlərinin sayı 10-a çatmışdı.

— 1970-1980-ci illərdə OPEK-in beynəlxalq nüfuzu artmışdı. Həmin ölkələr neft hasilatı üzərində nəzarəti öz əllərinə ala bilmişlər. Dünya bazannda xam neftin qiymətinə təsir etmək imkanına malik olmuşlar.

1975- ci ildə OPEK-ə üzv olan ölkələrin sayı 15-ə çatmışdır.

— 1980-1990-cı illərdə Dünya Neft bazarında OPEK ölkələrinin payı əsaslı surətdə azalmışdır. Sonra isə ***vəziyyət*** bərpa olunmuşdur.

— 1990-2000-cı illərdən neftin qiyməti sabit şəkildə yüksəlməyə başlamışdır.

— 2000-ci illərdən sonrakı dövrlərdə neftin qiymətində dəyişilmə halları müşahidə olunmuşdur. 2008-ci ildə qiymətlər daha sürətlə artmışdır.

OPEK-in ali orqanı konfransdır. Konfransın İclası iki ildən bir çağrılır. OPEK-in siyasətinin əsas istiqamətini konfrans müəyyən edir. OPEK-in baş katibi və katiblik fəaliyyət göstərir. Katibliyin tərkibində 3 departamentdən ibarət tədqiqat şöbəsi var - energetika tədqiqatı; iqtisadiyyat və maliyyə; məlumatlar bankı departamenti.

1976-cı ildə OPEK Beynəlxalq İnkişaf Fondu (OPEK fondu) yaratmışdır. Bu fond çoxtərəfli maliyyə institutu hesab olunur. OPEK-in üzvü olan ölkələrlə inkişaf etməkdə olan digər ölkələrin əməkdaşlığına yardım edir.

OPEK-in üzvləri, eyni zamanda, fondun üzvləridir, öz fəaliyyəti ilə (OPEK-in üzvü olan və olmayan) inkişaf etməkdə olan ölkələrə fayda verən hər bir beynəlxalq institut fondun köməkliyindən istifadə edə bilər.

Bu fondun əsas məqsədində - OPEK üzvü olan ölkələrlə inkişaf etməkdə olan digər ölkələr arasındakı maliyyə əməkdaşlığının həyata keçirilməsinə daha çox üstünlük verilir.

Beləliklə fondun fəaliyyəti bir çox İstiqamətlərdə həyata keçirilir. Bunlardan biri də güzəştli şərtlərlə

(aşağı faizlə) borc və subsidiya verilməsidir. Bu borclar üç növdə olur:

a) Konkret inkişaf layihələrinin yerinə yetirilməsi üçün. Eləcə də kiçik və orta müəssisələrin maliyyələşdirilməsi məqsədi İlə milli banklara kredit xətti ilə borc verilir;

b) Xammal, avadanlıq və bir çox zəruri malların alınması üzrə, iqtisadiyyatın sahələrində modernləşdirmə və bərpa işləri aparılması üzrə proqramların maliyyələşdirilməsi üçün;

v) Tədiyyə balansının maliyyələşdirilməsi üzrə borc verilir. Ərzaq məhsulları və istehlak mallan istehsalı üçün avadanlıqlar alınmasının maliyyələşdirilməsi həyata keçirilir.

Bu kimi borclardan əlavə müəyyən tədqiqat işlərinə, kadr hazırlanmasına, texniki köməklik edilməsinə, ərzaq köməkliyinə subsidiya şəklində maliyyə yardımı göstərilir.

Bu Beynəlxalq İnkişaf Fondu (OPEK-in üzvlərindən başqa) inkişaf etməkdə olan bütün ölkələrə növbə ilə yardım edir. Daha az inkişaf etmiş ölkələrə üstünlük verir.

Sənaye, energetika, nəqliyyat, kənd təsərrüfatı, su təchizatı, kanalizasiya, səhiyyə və bu kimi digər sahələrin inkişafına dair layihələrin həyata keçirilməsinə də borc verilir.

Bu fondun maliyyə ehtiyatları əsasən üzv olan ölkələrin üzvlük haqqı, investisiya və borclardan olan gəlirlər, OPEK-in üzvü olan ölkələrin ikitərəfli və çoxtərəfli kanallardan əldə etdiyi vəsaitlər hesabına yaranır. Fond dünya bazarından borc almır.

Yarandığı vaxtdan fondun fəaliyyəti müvəffəqiyyətlə genişlənir. İlk dövrlərdə fondun fəaliyyətində yanacaq ehtiyatının çıxarılmasına daha çox üstünlük verilmişdir. Bu təşkilat 90-cı illərin ortalarından Afrikanın, Asiyanın, Latın Amerikasının, Karib hövzəsi və Avropanın 93 ölkəsində fəaliyyət göstərmişdir. Bütün bunlarla yanaşı, bəzi beynəlxalq təşkilatların - məsələn OPEK-ln İştirakçısı olan ölkələrin inkişaf agentliyinin (sosial və İqtisadi inkişafa dair Küveyt fondu, Ərəb fondu və s.) donoru və yaxud kreditoru kimi də çıxış edir.

Afrika, Asiya və Amerikanın ərazi üzrə inkişaf bankları da bu fonddan maliyyə vəsaiti alırlar. 1994-cü ilin məlumatına görə fonda daxil olan vəsait 4277 mln. dollar, fondun verdiyi vəsait isə 3182 mln. dollar təşkil etmişdir.

Fondun fəaliyyətinin ən əsas prinsiplərindən biri də ondan ibarətdir ki, o, digər donor dövlətlərlə də əməkdaşlıq edir. Burada Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının, ərazi üzrə inkişaf banklarının əməkdaşlığını qeyd etmək olar.

Bu fondun fəaliyyətində maliyyələşdirilən layihələrin keyfiyyətinin yaxşılaşdınimasında ciddi dəyişikliklər həyata keçirilir. Belə ki, əvvəllər borc alan ölkələrin energetika sahəsində tədiyyə balanslannda olan kəsirin bərpasının maliyyələşdirilməsinə üstünlük verilirdisə, son vaxtlar sosial əhəmiyyətli sahələr ~ aclığın, Afrikada quraqlığın nəticələrinin aradan qaldırılması və bu kimi problemlərə kreditlər verilməsi ön plana çəkilmişdir. Aydındır ki, sosial layihələr böyük investorlar üçün o qədər cəlbedici deyildir.

Ona görə də fond faktiki olaraq bu çatışmazlığı aradan qaldırmağa çalışır, səhiyyə, təhsil və s. sahələrə köməklik göstərilməsinə diqqəti artırır.

Bəzi mülahizələrə görə OPEK-in fəaliyyətində müəyyən qeyri-qənaətbəxş cəhətlər də müşahidə olunur. Dünya üzrə bəzən neftin qiymətlərinin artıb- azalması da buna əyani misaldır.

Odur ki, müəyyən çatışmazlıqların aradan qaldırılması məqsədilə və eləcə də Fars körfəzinin neft çıxaran ölkələrinin dünya bazanna mənfi təsiri imkanlarına qarşı tədbir olaraq OPEK-in buraxılması kimi təkliflər irəli sürülür. Bunun müqabilində isə neft ixrac edən ölkələrin daha effektli birliyinin yaradılması təklif edilir. Bu birliyə aşağıdakı ölkələrin daxil edilməsi nəzərdə tutulmuşdur:

Səudiyyə Ərəbistanı, Meksika, Rusiya, Venesuela, İran, BƏƏ, Çin, Küveyt, Nigeriya.

Cədvəl №4

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln. nəfər
1.	İraq	438	31,7
2.	İran	1648	75,4
3.	Qətər	11,4	1.7
4.	Küveyt	18	2.6
5.	BƏƏ	83,6	2.6
6.	Səudiyyə Ərəbistan	2150	27.1
7.	İndoneziya	1905	240
8.	Əlcəzair	2382	36,5

9.	Liviya	1760	6,4
10.	Qabon	268	1,4
11.	Nigeriya	924	158,0
12.	Venesuela	912	29,2
		12500,0	612,6

Bununla yanaşı neft ixrac edən Ərəb ölkələrinin birlik yaratması ideyası da mövcuddur. Buna OAPEK deyilir. Yəni, Neft İxrac edən ərəb ölkələrinin təşkilatı.

OAPEK - 1968-ci İldə Küveyt, Liviya və Səudiyyə Ərəbistanı hökumətlərinin arasındakı razılığa əsasən yaradılmışdır. Onların nizamnaməsinə əsasən miili gəlirin əsas hissəsi neftdən olduqda, hər hansı bir ərəb ölkəsi bu təşkilatın üzvlüyünə qəbul edilə bilər. Beləliklə Əlcəzair, Bəhreyn, Misir, İraq, Qətər, BƏƏ, Suriya, Tunis də bu təşkilata qoşulmuşlar. 11 - ölkədən ibarət olan bu təşkilatın əsas məqsədi:

• neft sənayesinin müxtəlif sahələrinin iqtisadi inkişafında əməkdaşlıq etmək;

• neft sənayesinin inkişafında həmin ölkələrin mənafelərinin qorunması yollarını müəyyən etmək;

• üzv olan ölkələrin neft satışında bərabər hüquqlu və ədalətli şəraitə nail olmaq;

• bu ölkələrin neft sənayesinə kapital axınına və texniki təcrübələrin ötürülməsinə əlverişli şərait yaradılmasını həyata keçirmək;

• BMT sistemindəki BİT-lərlə və OPEK ilə əməkdaşlıq etmək.

OAPEK-in ali orqanı Nazirlər Şurası hesab edilir. Bu şura həmin ölkələrin neft sənayesi nazirləri nümayəndələrindən ibarətdir. Aydındır ki, təşkilatın

əsas fəaliyyəti və siyasəti istiqamətləndirici qərarlar qəbul etməsi, şura tərəfindən həyata keçirilir.

Cari işlərin icra edilməsi üçün, təkliflər hazırlanması, şuranın gündəliyinin tərtibi və s. üçün İcraedici büro yaradılır. Baş katibin rəhbərliyi altında Katiblik inzibati vəzifələri həyata keçirir. Bu kitablik dörd departamentdən ibarətdir. Bunlar: maliyyə və inzibati məsələlər; iqtisadiyyat; texniki işlər; informasiya və kitabxana işləridir. Energetika sahəsində Ərəb Tədqiqat Mərkəzi və Neft üzrə ekspert aparatı da departamentə daxildir.

Lakin qeyd etməliyik ki, bu təşkilat neft siyasətində OPEK qədər real qüvvəyə çevrilə bilməmişdir.

Cədvəl №5

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln nəfər
1.	Küveyt	18	2,6
2.	Liviya	1760	6,4
3.	Səudiyyə Ərəbistan	2150	27,1
4.	Əlcəzair	2382	36,5
5.	Bəhreyn	0,695	1,3
6.	Qətər	11,4	1,7
7.	BƏƏ	83,6	2,6
8.	Suriya	185	21,1
9.	Misir	1002	80,3
10.	İraq	438	31,7
11.	Tunis	164	10,5
		8294.7	224,8

3. **Əmtəə bazarı üzrə Beynəlxalq Təşkilatlar**

Beynəlxalq təşkilatlar əmtəə növləri üzrə beynəlxalq razılaşmalar əsasında yaradılmışdır. Bu təşkilatlar müəyyən subyekt hüququna malik olub, konkret məqsəd daşıyırlar. Hazırda BMT sistemində yüzlərlə bu cür beynəlxalq təşkilat fəaliyyət göstərir (Kakao, kofe, təbii kauçuk, şəkər, taxıl, hind kəndiri üzrə və s.).

Bu təşkilatlar öz təşkilatı quruluşuna görə demək olar ki, eyni tiplidirlər. Daha doğrusu Beynəlxalq Şura, İcraedici Komitə və İcraedici direktordan İbarətdirlər. Beynəlxalq şura all orqan olub müqavilənin bütün üzvlərini əhatə edir. O, ardıcıl olaraq sessiyalar keçirir, müqavilənin yerinə yetrilməsl vəziyyətini müzakirə edir.

İcraedici Komitə ali icra orqanıdır. Şuranın rəhbərliyinə tabedir və ona hesabat verir. Eləcə də icraedici komitə dünya bazarında Konyukturanın vəziyyətini İzləyir və müəyyən təkliflər hazırlayır. Bəzi məhsul növləri üzrə yaradılmış beynəlxalq təşkilatların fəaliyyətinin şərhi ilə bu problem barədə daha anlaşıqlı açıqlama vermək olar.

Kakao üzrə Beynəlxalq Təşkilat. Bu təşkilat
1972- ci İldə yaradılıbdır. Sonrakı İllərdə (1975, 1980, 1987, 1993) bu müqaviləyə baxılmış və yenidən öz qüvvəsini saxlamışdır. Bu təşkilat dövlətlərarası qurum olub dünya miqyasında kakaonun iqtisadiyyatı, idxal və ixrac ölkələri arasındakı iqtisadi münasibətləri tənzimləyir.

1993-cü ildə Kakao üzrə Beynəlxalq sazişdə bu təşkilatın məqsəd və vəzifələrinə bir daha baxılmışdır. 2000-ci ilin məlumatına görə 16 ölkə ixrac, 21 ölkə idxal ölkələri sırasına daxildirlər. Bunlar - Kot-d'lvuar, Braziliya, Qabon, Qana, Kamerun, Nigeriya, Toqo,

Trinidad və Tobaqo, Ekvador və s. ölkələrdən ibarətdir. Bu təşkilatın fəaliyyəti ilə kakao üzrə qiymətlərə nəzarət edilin istehlakçılar tərəfindən sabit və ardıcıl ixraca zəmin yaradılır.

1975, 1980, 1987-ci illərdəki, müqavilələrə (razı> lığa) əsasən kakao üzrə "bufer ehtiyatı" deyilən qayda nəzərdə tutulmuşdur. Bu qayda ilə Kakaonun qiymətinə müəyyən təsir etmək imkanı yaranmışdır. Lakin kakao istehsalı artdığı şəraitdə 1987-ci ildə qiymətlərin sabitləşdirilməsi cəhdi baş tutmamışdı. Odur ki, "bufer ehtiyatı" ilə alış dayandırılmışdır. Bu isə təşkilatın işində böhrana səbəb olmuşdur. Ona görə də bu vəziyyətdən çıxmaq üçün 1987-cl ildə əldə edilmiş razılaşmalann bəzi müddəaları dayandırılmışdır. Bir çox müddəalar qalmaqla və kakaoya olan tələb və təklif arasındakı nisbəti saxlamaqla 1993-cü İldən müəyyən dəyişikliklər həyata keçirilmişdir. Burada aşağıdakı cəhətlər daha ön plana çəkilmişdir:

— Kakao üzrə dünya iqtisadiyyatının bütün sahələrində beynəlxalq əməkdaşlığın inkişafına və möhkəmlənməsinə köməklik göstərmək;

— Kakao istehsalçılarının hər birinin mənafeyini gözləməklə bu sahədə dünya bazarının sabitləşməsinə zəmin yaratmaq, qiymətlərin səviyyəsini optimal səviyyədə saxlamaq, kakaonun beynəlxalq ticarətinin artırılmasına şərait yaratmaq;

— Kakao sahəsində elmi işlər və axtarışlar aparılmasına hərtərəfli köməkliklər göstərmək;

— Kakao iqtisadiyyatına dair bütün problemlərin müzakirəsinə zəmin yaratmaq.

Bütövlükdə 1993-cü il razılaşmasının əsas məğzi komitə üzrə istehsalın tənzimlənməsi planını hazır

lamaqdan ibarət olmuşdur. İxrac və idxal edən ölkələr də "İstehsalın tənzimlənməsi proqramr'nın üzvüdürlər və istehsalçı kimi onlar da məsuliyyət daşıyırlar. Lakin bu plan və proqram əsasən İxrac edən ölkələr tərəfindən maliyyələşdirilir. Həmin proqrama əsasən istehsal üzrə olan komitə bu sahədə mllil siyasətləri və proqramları əlaqələndirir və müəyyən təkliflər hazırlayır.

Beləliklə komitə müəyyən proqnozlar əsasında kakao istehsalının illik səviyyəsini müəyyənləşdirir, tələb və təklif arasında tarazlıq yaradır. Müqavilənin bəzi müddəalarına əsasən bir çox digər ölkələrdə də kakao istehlakının yayılması, kakao istehlakı komitəsi yaradılması nəzərdə tutulmuşdur. Kakao Idxalçılan isə bu sahədə daxildə olan maneələri aradan qaldırmağa çalışırlar.

Daxili vergilərdə və gömrük dərəcələrində müəyyən çətinliklər müşahidə olunurdu. İstehlak üzrə olan komitə də müəyyən konkret proqramlar hazırlamaq üçün özlüyündə əlavə komitə yarada bilər. Bu proqram iştirakçıların könüllü maliyyələşdirilməsinə əsaslanır. Bundan əlavə müqavilənin şərtlərinə əsasən kakao iqtisadiyyatında açıqlığın artmasına da xüsusi fikir verilir. Bu mənada xüsusi olaraq qeyd edilmişdir ki, müqavilənin iştirakçıları hər il təsərrüfat ilinin axırına (30 sentyabr) kakao ehtiyatı barədə məlumat versinlər.

Müqavilənin ayrı-ayrı müddəalarında qiymətlərin aşağı və yuxan həddinin tənzimlənməsi də öz əksini tapmışdır. Qiymətlər aşağı həddə düşdükdə satış bufer ehtiyatı hesabına həyata keçirilir. Burada bufer ehtiyatı 250 min ton nəzərdə tutulmuşdur. Bununla yanaşı bufer ehtiyatının 100 min ton artırılması da planlaş- dmlmışdı. Bufer ehtiyatının həyata keçirilməsi əmə-

Ilyyati da idxal və ixrac edənlər tərəfindən maliyyələşdirilir. Bu ödəniş hər ton üçün 30-45 dollara bərabərdir. Ödənişin əsas hissəsi ixrac ölkələri tərəfindən həyata keçirilir. Idxai edən ölkələr isə müqavilənin iştirakçısı olmayan ölkələrdən kakao aldıqda müəyyən ödəniş verirlər.

Bütün bunlarla yanaşı 1993-cü ildən bufer ehtiyatı ləğv edilmişdir. Qeyd etdiyimiz kimi Beynəlxalq Kakao Təşkilatı (BKKT) öz funksiyasını BKKT-ln şurası vasitəsi ilə həyata keçirir.

Şuranın nəzdində İcra, Maliyyə, Statistika komitələri fəaliyyət göstərir.

Bunlarla yanaşı:

1. İstehsal sahəsi üzrə siyasət;
2. İstehiak sahəsi üzrə siyasət;
3. Katiblikdə İcraedici direktorun dəftərxanası;
4. İqtisadi tədqiqatlar bölməsinin iqtisadiyyat şöbəsi;
5. İnzibati xidmət şöbəsi, maliyyə-hesab şöbəsi və s.-də mövcuddur.

Kofe üzrə Beynəlxalq Təşkilat (BKT). Bu təşkilat 1962-ci ildə yaradılıbdır. 2000-ci ilin məlumatına görə 54 dövlət bu təşkilata daxildir. Bunlardan 18 dövlət ixrac, 36 dövlət isə idxal dövlətidir. Son illərin məlumatına görə 11 dövlət - Anqola, Benin, Braziliya, Kot- d'İvuar, Qabon, Qana, Keniya, Kolumbiya, Kosta-Rika, Meksika, Salvador cəmi kofe istehsalının və ixracın 80 faizini öz əllərində cəmləmişlər.

Kakao üzrə olduğu kimi Kofe təşkilatı da ardıcıl olaraq görüşlər keçirir, müəyyən şərtlərə yenidən baxırlar və yeni tədbirlər planı hazırlayırlar. Son

dövrlərdə bu təşkilatın qarşıya qoyduğu vəzifələr aşağıdakılardan ibarətdir:

— Dünyada kofe ticarəti üzrə əməkdaşlığın inkişafına zəmin yaratmaq;

— Dövlətlərarası görüşlər və danışıqlar aparılmasını təşkil etmək, münasib qiymətlər əsasında tələblə təklif arasındakı nisbəti saxlamaq;

— Dünya kofe bazarı və qiymətinə dair statistik məlumatlar toplamaq, reklam etmək, ticarəti genişləndirmək;

— Kofe bazarı barədə məlumat toplamaq, nəşr etdirmək işində mərkəz rolu oynamaq;

— Kofe istehlakının artmasına maraq yaratmaq;

— Kofe üzrə Beynəlxalq Təşkilatı (BKT) da öz vəzifələrini Beynəlxalq Şura, İcra Komitəsi, İcraedici direktor və Katiblik vasitəsi ilə həyata keçirir.

Beynəlxalq Şura bu təşkilatın ali orqanı hesab edilir və iştirakçı dövlətlərlə əldə edilən bütün razılıqlar da nəzərə alınır. Beynəlxalq Şura ildə iki sesiya keçirir. Təşkilatın tənzimlənmə mexanizmində kvota və kofe istehlakının inkişafı fonduna köməklik göstərilməsi əsas götürülür. Tənzimlənmə mexanizmində qiymətlərin sabitliyi yaradıla bilmədikdə Kvota üsulundan istifadə edilmir (Məsələn 1976-cı İllərdə belə olmuşdur). 1980-ci illərdə bu sistem yenidən dəyişdirilmişdir. Dünya kofe bazarında iki sistem yaradılmışdır. Təşkilatın üzvü olan ölkələr üçün kvota sistemi, təşkilatın üzvü olmayan ölkələr üçün isə kvotasız sistem nəzərdə tutulmuşdur. Bütövlükdə kofe istehlakının inkişafına köməklik fondu məcburi olaraq ixrac ölkələri tərəfindən maliyyələşdirilir.

idxal edən ölkələr isə könüllü olaraq müəyyən ödəniş həyata keçirirlər. Fondun vəsaiti əsasən kofe istehlakının artınıması məqsədilə keçirilən kompaniyalara, eləcə də bu sahədə olan tədqiqat Işlənnə, araşdırmalara sərf edilir. Bu kimi tədbirlərə sərf edilən vəsaitin 50%-ə qədəri fond tərəfindən maliyyələşdirilir.

Bu fondun fəaliyyətini fondun komitəsi həyata keçirir. Bu işə icraedici direktor rəhbərlik edir. Fonda üzvlük haqqı köçürən bütün iştirakçılar komitənin tərkibinə daxildir. Odur ki, fondun vəsaitinin xərclənməsində tam dəqiqlik mövcuddur.

Qeyd etməliyik ki, kofe üzrə daha bir neçə qurum fəaliyyət göstərir:

— Ümumdünya Kofe Təşkilatı. Anqola, Kot- d'lvuar, Braziliya və Kolumbiya dünya üzrə kofe istehsalı və ixracının 50%-nə sahibdirlər.

— Kofe üzrə Afrika ölkələrarası təşkilatı. Bura Anqola, Benin, Kot-d'lvuar, Burundi, Qabon, Qana, Zair, Kamerun, Keniya, Konqo, Liberiya, Madaqaskar, Ruanda, Syerra-Leone, Tanzaniya, Toqo, Uqanda, MAR və Həbəşistan daxildir.

— Amerika Kofe Federasiyası. Bura Venesuela, Qvatemala, Honduras, Dominikan Respublikası, Kosta- Rika, Meksika, Nikaraqua, Panama, Salvador, Ekvador daxildir. Kofe İstehsalı və ixracının 20%-nə sahibdirlər.

— Afrika-Malaqasiya Kofe Təşkilatı. Bura ~ Benin, Kot-d'lvuar, Qabon, Kamerun, Konqo, Madaqaskar, Toqo, MAR - daxildirlər. Cəmi İstehsal və ixracın 10%-nə sahibdirlər.

Təbii Kauçuk üzrə Beynəlxalq Təşkilat (BTKT). Təbil Kauçuk Beynəlxalq Təşkilatı 1980-ci ildə yaradılıbdır. Bu təşkilat BMT-nin ticarət və İnkişaf üzrə

Konfransının (YUNKTAD) xammal üzrə inteqrasiya proqramı çərçivəsində bağlanmış müqaviləyə əsaslanır. 1995-ci ildə Cenevrədə keçirilən Beynəlxalq Konfransda yenidən müqavilə bağlanmışdır. 1987-cl il müqaviləsinə nisbətən 1995-ci il müqaviləsində bu təşkilata daxil olan ölkələrin sayı artmışdır.

Əvvəlcə bu təşkilata Vyetnam, Hindistan, İndoneziya, Malayziya, Papua - Yeni Qvineya, Sinqapur, Tailand, Şri-Lanka daxil olmuşlar.

Bu ölkələr cəmi istehsalın 90; ixracın 95 faizinə sahibdirlər. İdxalın isə 50 faizə qədəri Aİ ölkələrinin payına düşür. 1996-cı ildə idxal ölkələrinin sayı artmışdır. Aİ ölkələrinin payı 25%-ə enmişdir.

1979 və 1987-ci illərdə olduğu kimi 1995-ci II müqaviləsində də qiymətləri sabit saxlamaq üçün bufer ehtiyatından İstifadə edilir, O vaxtlar bufer ehtiyatı 550 min ton nəzərdə tutulurdu. 1995-ci II müqaviləsinə əsasən isə adi bufer ehtiyatı 400 min ton, fövqəladə ehtiyat isə 150 min ton olmuşdur.

Təbii kauçuk üzrə Beynəlxalq Razılıqda aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

— Təbii kauçuka olan tələb və təklif arasında tarazlıq yaratmaq, bu sahədə olan müəyyən çatış- mazlıqlann aradan qaldınimasma köməklik etmək;

— Daha sabit ticarətə nail olmaq üçün qiymətlərin tez-tez dəyişilməsinə imkan verməmək, istər qısa müddətə və istərsə də uzun müddətə bazarın inkişaf meylini müəyyənləşdirmək və istehsalçılarla alıcıların mənafelərinin gözlənilməsinə zəmin yaratmaq; bununla da sabit artımı təmin etmək;

— Təbii kauçukun və ondan hazırlanan hazır məmulatların beynəlxalq ticarətinin genişlənməsinə və bazarın yaxşılaşmasına nail olmaq;

— Təbii kauçuk üzrə olan problemlərin tədqiqatını genişləndirmək və onun rəqabət gücünü artırmaq;

— Təbii kauçukun emalının və satışının təşkilini yaxşılaşdırmaq;

— Kauçukun tələb və təklifinə təsir edən problemlərə dair beynəlxalq əməkdaşlığın və məsləhətlərin genişləndirilməsini təmin etmək;

— Kauçuk üzrə tədqiqat işləri proqramlarının əlaqələndirilməsini həyata keçirmək və s..

Bir çox digər təşkilatlarda olduğu kimi Kauçuk üzrə Beynəlxalq Təşkilatda da yuxarıdakı vəzifələr kauçuk üzrə **Beynəlxalq şura, icraçı direktor** və sabit ehtiyat yaratmaq üçün təşkil edilən idarə tərəfindən həyata keçirilir.

Burada da **Beynəlxalq şura ali orqan hesab edilir.** Beynəlxalq şura hər il iştirakçı dövlətlərdən ibarət sədr və müavin seçir. Beynəlxalq şura ildə iki növbəti sessiya keçirir.

Beynəlxalq şuranın tərkibində aşağıdakı komitələr fəaliyyət göstərir:

— İnzibati məsələlər üzrə Komitə;

— Digər ehtiyat əməliyyatları üzrə Komitə;

— Statistika üzrə Komitə;

— Digər məsələlər üzrə Komitə.

Qeyd etdiyimiz kimi bufer ehtiyatı (sabitləşmə ehtiyatı) əsas tənzimləmə mexanizmi hesab edilir.

Şakər üzrə Beynəlxalq Təşkilat (BŞT). BŞT barədə ilk saziş 1937-ci ildə bağlanmışdır. Lakin

ikinci Dünya Müharibəsinin başlaması ilə bu təşkilatın fəaliyyəti dayanmışdır. Sonra BMT-nin şəkər üzrə konfransı bu sahədə yeni beynəlxalq müqavilə bağlanması üçün material hazırlamış və 1954-cü ildə 5 il müddətinə razılaşma əldə edilmişdir. Bu müqavilədə 23 dövlət iştirak etmişdir (SSRİ-də daxil idi). 1959-cu ildə yenidən 5 illiyə razılıq əldə edilmiş, lakin 1961-ci ildə onun fəaliyyəti faktiki olaraq dayandırılmışdır.

1968-ci ildən BMT-nin Konfransında yenidən Beynəlxalq Razılıq əldə edilmişdir (5 ilə). Müqavilənin əsas məqsədi İxrac kvotası yolu ilə dünya baza- nnda qiymətlərin sabit saxlanılmasından ibarətdir.

Demək olar ki, hər beş ildən bir müqavilənin şərtlərinə yenidən baxılır. Şəkər üzrə Beynəlxalq Müqavilə 1974-1977-ci illərdə nisbətən yeni şərtlər əsasında fəaliyyət göstərmişdir. Sonra 1978-1984-cu illər üçün müqavilə bağlanmışdır. Bu müqavilədə 44 ixrac ölkəsi, 15 idxal ölkəsi iştirak etmişdir.

1983-1984-cü il danışıqlarında bu sahədə o qədər də razılıq əldə edilməmişdir. Xüsusilə Aİ ölkələri ilə inkişaf etməkdə olan ölkələr arasındakı qeyri müəyyənlik bu sahədə tənzimləmə mexanizminə malik razılaşma əldə edilməsinə imkan verməmişdi.

Beləliklə, 1987-ci ildən başlayaraq hər beş ildən bir yeni müqavilə bağlanmışdır.

Bu təşkilatın əsas məqsədi aşağıdakılardan ibarətdir:

— inkişaf etməkdə olan ölkələrin ixracdan olan gəlirini artırmaq məqsədi ilə beynəlxalq miqyasda şəkər ticarətini artırmaq;

— istehsalçılarla istehlakçıların mənafeyinə uyğun ədalətli qiymətlərin müəyyən edilməsi;

— şəkərə olan tələb və təklif arasında tarazlıq yaradılması;

— şəkər istehlakının artırılması;

—^şəkər üzrə dünya bazarı barədə informasiya mübadiləsini genişləndirmək;

—şəkərin satışı üzrə ayrı-ayrı ölkələrin siyasətlərini əlaqələndirmək və s.

BŞT öz fəaliyyətini Beynəlxaiq şura, İcraçı direktor, ehtiyat fondunun maliyyələşdirilməsi idarəsi və katiblik vasitəsilə həyata keçirir.

BŞT-nin şurası ildə iki sessiya keçirir. Şura cari ildə və növbəti ildə şəkər istehsalı və istehlakına dair hesablama aparır.

—şəkər İstehsalı sənayesinin inkişafına dair problemləri araşdırır, izləyir, bu sahədə tədqiqat işləri aparır;

—ayrı-ayrı sahələrdə şəkərdən istifadə və onun əvəzlənməsi barədə informasiya yığıb ümumiləşdirir;

— şəkər bazarı barədə ardıcıl olaraq nəşrlər olunmasını həyata keçirir.

Bütün bu kimi vəzifələri həyata keçirmək üçün aşağıdakı yardımçı komitələr mövcuddur.

İcraedici Komitə; Statistika Komitəsi; Şəkər İstehlakı üzrə Komitə; Qiymət Komitəsi; Xüsusi Kvota ehtiyatı Komitəsi; Mandat Komitəsi; Maliyyə Komitəsi. Bu müqaviləyə birləşmək üzrə iş aparan işçi qrupu və s.

BŞT-nIn maliyyələşdirilməsi onun üzvlərinin ayırmalan hesabına həyata keçirilir.

4. Metal istehsalı və ixracı üzrə Beynəlxalq təşkilatlar

Neft istehsalı və ixracı sahəsində yaradılmış təşkilatların digər sahələrdə də birliklər yaradılmasına böyük təsiri olmuşdur. Belə ki, 1960-cı illərdə metal bazarı sahəsində yeddi beynəlxalq birlik yaradılmışdır.

Mis ixracı üzrə hökumətlərarası Şura, Boksit çıxarılması üzrə Beynəlxalq birlik, Civə istehsalı üzrə ölkələr birliyi, Gümüş ixracı üzrə birlik, Dəmir filizi ixracı üzrə, Qalay ixracı üzrə və Volfram ixracı üzrə yaranan ölkələr birliyi və s.

Bu birliklərin hamısının ali orqanı hər il çağırılan konfrans hesab edilir.

İştirakçı ölkələrin nazirləri səviyyəsində konfrans keçirilir və müvafiq qərarlar qəbul edilir. Aydındır ki, hər bir təşkilat ölkələrin sayına, dünya miqyasındakı mövqeyinə görə fərqlənirlər. Ona görə də onlann fəaliyyətinin nəticələri də fərqlənir. Bu təşkilatların hər biri haqqında qısa məlumat verək:

1. Mis ixracı üzrə hökumətlərarası Şura - SİPEK - 1968-ci ildə yaradılıbdır. Bu Şura Mis Kartelinin dağılmasından sonra yaradılmışdır. Əvvəlcə bura Mis çıxaran dörd ölkə daxil idi - Zair, Zambiya, Peru, Çili. (Bunlara "böyük dördlük" deyilir). Sonralar İndoneziya, Mavritaniya (1979-cu ildən burada mis çıxarılmır) və ayrıca birlik kimi Avstraliya, Papua-Yeni Qvineya və Yuqoslaviya da bu birliyə daxil olmuşlar.

Bura daxil olan doqquz ölkə dünya üzrə mis istehsalının təqribən 50%-nl, ixracın isə 60%-ni öz əllərində cəmləşdirmişlər.

Bu birlik həmin ölkələrdə mis çıxarılması və satışı üzrə öz fəaliyyətlərini birləşdirmək yolu ilə, öz ölkələrinin iqtisadi və sosial inkişafına zəmin yaradırlar.

Birliyin əsas məqsədi:

1. Mis ixracından olan gəlirlərin dinamikliyini təmin etmək üçün mis istehsalı və satışı üzrə üzv olan ölkələrin siyasət və fəaliyyətlərinin əlaqələndirilməsini təmin etmək;

2. Bu ölkələrin iqtisadi və sosial inkişafı üçün ehtiyatların artırılmasına zəmin yaratmaq;

3. Mis istehsalı və satışı üzrə həmin ölkələrə dəqiq statistik və digər məlumatlar verilməsini həyata keçirməkdən ibarətdir.

2. Boksit çıxaran ölkələrin Beynəlxalq ***Birliyi*** - (MABS). Bu təşkilat 1974>cü ildə yaradılıbdır. Alüminium xammalı ixrac edən ölkələrin birliyidir. Bu birlik 11 ölkəni özündə birləşdirir. Haiti, Qayana, Qana, Qvineya, Dominikan Respublikası, İndoneziya, Suri- nam, Syerra-Leone, Yamayka, Yuqoslaviya, Avstraliya.

Dünya üzrə boksit çıxarılmasının 80%-i, ixracın isə 90%-i həmin ölkələrin payına düşür. (Qlinozem - torpaqda olan alüminium oksid İstehsalı və ixracının da 45%-i həmin ölkələrin payına düşür).

Bu təşkilatın fəaliyyəti göstərir ki, o mineral xammal bazarında ən fəal əmtəə birliklərindən biridir.

Bu təşkilat öz praktiki fəaliyyətində boksitçıxarma sənayesinin İnkişafına kömək etmək, boksltlərln istismarı, emalı və satışı sahəsində düzgün, ədalətli şərait yaratmaq, bu sahəyə beynəlxalq alüminium inhisarlarının təsirini məhdudlaşdırmaq, informasiya mübadiləsinə nail olmaq və bu kimi problemləri ön plana çəkir. Boksit çıxaran dövlətlər ilə alüminium

inhisarları arasında mənfəətin daha ədalətli bölgüsünə nail olmaq üçün ilkin metallara olan qiymətlərlə boksitlərə və qlinozemlərə olan qiymətlər arasındakı asılılıqlar dəqiqləşdirilir. Bütün bunlara baxmayaraq, bu birliyin dünya alüminium xammalı bazarına olan təsiri o qədər də güclü deyil.

Bu da ondan irəli gəlir ki, alüminium sənayesində geniş inteqrasiya əlaqələri mövcuddur və bu sahədəki TMK-rın və digər xarici firmaların mövqeləri daha güclüdür.

Bu birliyə üzv olan ölkələrin iqtisadi inkişaf baxımından, siyasi və sosial vəziyyəti baxımından bir- birindən kəskin fərqlənməsi də onlann fəaliyyətinə mənfi təsir göstərir.

3. CİVƏ istehsal edən ölkələrin birliyi - (AMPK).

Bu təşkilat 1974-cü ildə yaradılıbdır. Əlcəzair, İspaniya, İtaliya, Meksika, Türkiyə və Yuqoslaviyanı özündə birləşdirir. Civə istehsalının təqribən 70%-i, ixracın isə 50%-i bu ölkələrə məxsusdur (Yuqoslaviya istisna edilir).

Birliyin yaradılmasında əsas məqsəd bu məhsulun istehsalının həcmini tənzim etmək və bazar qiymətlərinin aşağı düşməsinə imkan verməməkdən ibarətdir.

Lakin bu təşkilatın bəzi üzvlərinin o qədər də ardıcıl olmamaları üzündən qiymətlərin sabitləşdirilməsi sahəsində effektiv şərait yarada bilmirlər. Mütərəqqi tənzimləmə mexanizminə malik deyillər. İstehsalın həcminin məhdudiaşdırılmasında könüllü fəaliyyətə üstünlük verirlər.

4. Gümüş ixracı birliyi ölkələri. Bu birlik 1974-cü üdə yaradılıbdır. Bu metalın istehsalı və ixracı üzrə ən qabaqcıl ölkə olan Meksika və Perunu özündə

birləşdirir. Dünya üzrə Gümüş istehsalının 38%-i, İxracın isə 16%-i bu birliyə məxsusdur. Bu ölkələrin o qədər də böyük xüsusi çəkiyə malik olmaması üzündən Birlik bu sahədə bazarın konyukturasına güclü təsir edə bilmir. Lakin həmin sahə üzrə vəziyyət barədə informasiya mübadiləsi tədbirləri həyata keçirilir.

5. Dəmir filizi ixracı ölkələri birliyi. Bu birlik 1975-ci ildə yaradılıbdır. Aşağıdakı 11 ölkəni özündə birləşdirir. Avstraliya, Əlcəzair, Venesuela, Hindistan, Tunis, Liberiya, Mavritaniya, Peru, Syerra-Leone, Çili, İsveç.

Dünya üzrə çıxarılan cəmi dəmir filizinin 45%-i, ixracın isə 54%>i birliyin payına düşür. Birliyin iştirakçısı olan ölkələr bu sahədə öz mənafelərini möhkəmlətmək, ixracın artırılması imkanlarını araşdırmaq, dəmir filizinin çıxarılması və satışından ədalətli gəlir əldə etmək və öz ölkələrinin iqtisadi-sosial inkişafına zəmin yaratmağa çalışırlar.

Bir çox problemlərdə Avstraliya və İsveç daha həlledici neqativ siyasət yeridirlər. Beləliklə bu birliyin daha fəal bir təşkilata çevrilməsinə İmkan vermirlər. Bu təşkilata "fikir mübadiləsi forumu" kimi baxırlar.

6. Volfram ixracı ölkələri təşkilatı - OTEK. Bu təşkilat 1975-ci ildə yaradılıbdır, Avstraliya, Boliviya, Braziliya, Zair, İspaniya, Peru, Portuqaliya, Ruanda, Tailand və Fransanı özündə birləşdirir.

Dünya filiz çıxarılmasının 55%-ə qədəri, volfram filizi və konsentratın isə 70-75%-ə qədəri bu təşkilata daxil olan ölkələrin payına düşür.

Bu təşkilatın yarandığı ilk vaxtlardan onlar volfram xammalı üzrə olan qiymətlərin sabitləşdirilməsinə dair təsirli təkliflər işləyib hazırlamışlar.

Bu məqsədlə də perspektiv gələcəkdə volfram konsentratları üzrə yüksək və aşağı qiymət həddinin müəyyən edilməsi üçün hökumətlərarası müqavilə bağlanması hazırlığı nəzərdə tutulmuşdur. Lakin müəyyən fikir müxtəlifliyi üzündən belə müqavilə bağlanması baş tutmamışdı.

Odur ki, bu təşkilatın fəaliyyəti də statistik məlumatlar yığılması, mübadiləsi və bazarın vəziyyətinin öyrənilməsi ilə məhdudlaşır.

7. Qalay istehsalı ölkələri birliyi - ASPO. Bu təşkilat 1983-cü ildə yaradılıbdır. Qalay üzrə Beynəlxalq Razılaşmaya daxil olmayan qabaqcıl qalay istehsalçıları ölkələrinin əksəriyyəti bu birliyin üzvüdürlər.

Bu birliyin yaradılmasının təşəbbüskarları Cənubl- Şərql Asiya ölkələri - Malayziya, İndoneziya və Tailand olmuşlar. Sonralar Boliviya, Nigeriya, Zair, Avstraliya da bura qoşulmuşlar.

Lakin bu birliyin rəsmi nümayəndələri də dəfələrlə qeyd etmişlər ki, birlik qalay üzrə Beynəlxalq Razılaşmaya aid olan vəzifələri yerinə yetirməməlidir, ancaq öz fəaliyyətləri ilə bu vəzifələri tamamlaya bilərlər.

Bu birliyin fəaliyyəti aşağıdakı istiqamətləri nəzərdə tutur:

— Qalayın istehsalı və istehlakı üzrə elmi-tədqiqat işlərinin təşkili;

— İnkişaf etməkdə ölkələrin istehsalda, satışda və üzv olan ölkələrin özündə bu metalın emalını və istehlakını artırmağa daha çox fikir verilməsi.

5. Dünya əmtəə bazarının tənzimlənməsi və Beynəlxalq Şuralar

Əwəlan onu qeyd etmək lazımdır kl, beynəlxalq təşkilatlardan fərqli olaraq Beynəlxalq Şuralar subyekt hüququna malik deyillər və ona görə də bazarın tənzimlənməsinə o qədər də güclü təsir göstərə bilmirlər.

Onlar müəyyən əmtəələr üzrə olan müqavilələrin iştirakçıları barədə, qiymətlər barədə, bazarın vəziyyəti barədə, İqtisadi münasibətlər yaradılması barədə məlumatlar toplayır və tədbirlər sistemi hazırlayırlar.

Hazırda Zeytun yağı. Taxıl, Qalay və bir çox məhsullar üzrə Beynəlxalq Şuralar fəaliyyət göstərir.

Zeytun yağı üzrə beynəlxalq Şura (BZYŞ). Məlumdur ki, 1956-cı İldə zeytun yağı üzrə Beynəlxalq Razılıq əldə edilmişdir. Bu razılıq çərçivəsində 1959-cu ildə Zeytun yağı üzrə Beynəlxalq Şura yaradılmışdır. Bu sahədə olan razılıqlar ardıcıl olaraq (hazırkı dövrədək) bir neçə dəfə yeni müddəalarla zənginləşmişdir.

Nəhayət son dəfə 1994-cü ildə Al ilə Şuranın 9 üzvü arasında kollektiv razılıq əldə edilmişdir.

Bu razılıq 2000-ci ilədək dinamik fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də ardıcıl olaraq təzələnmişdir.

Zeytun yağı üzrə Beynəlxalq Şura bu sahədə olan bütün danışıqların, təklif və şərtlərin yerinə yetirilməsini izləyir, bütün vasitələrlə zeytun yağı istehsalı və isteh- lakının artırılmasına, beynəlxalq ticarətin genişlənməsinə köməklik göstərir.

Lakin zeytun yağı üzrə dünya bazarının, qiymətlərin tənzimlənməsi bu Şuranın səlahiyyətinə daxil

deyildir. Bu sahədə Şura ancaq razılaşmanın iştirakçılanna müəyyən təkliflər verə bilir. Beynəlxalq Şuranın aşağıdakı işçi qurumları mövcuddur:

— Şuranın plenar sessiyası;
— İqtisadi komitə;
— Texniki komitə;
— Zeytun yağı üzrə kimyəvi komitə;
— Ərzaq üçün zeytunun ekspert komitəsi;
— Zeytunun istehlakı üzrə təbliğat komitəsi və s.

Qalay üzrə Beynəlxalq Şura. Bir çox məhsullar üzrə olduğu kimi qalay istehsalı və satışının tənzimlənməsi məqsədi ilə Beynəlxalq razılıqlar əldə edilmişdir. 1953-cü ildə BMT-nIn konfransında bu məsələyə baxılmış, 1956-cı ildə 5 il müddətinə müqavilə bağlanmışdır. Sonralar ardıcıl olaraq hər 5 ildən bir bu razılıq yeni müddəalarla təzələnmişdir.

Son illərin məlumatına görə bu Beynəlxalq Razılığa 6 istehsal edən, 19 istehlak edən ölkə daxildir.

Bu Şuranın əsas məqsədi aşağıdakılardır:

— Qalay üzrə qiymətlərin tez-tez dəyişməsinin qarşısının alınmasına köməklik etmək;

— Dünya üzrə qalay istehsalı və istehlakı arasında tarazlıq yaratmaq;

— Qalay çatışmazlığı baş verdiyi hallarda, onun istehsalının artırılması və ədalətli bölgüsünə dair zəruri tədbirlər görmək və s.

Beynəlxalq Şura həmin razılığın ali orqanı hesab edilir. Aydındır ki, razılığın üzvləri şuraya daxildirlər.

Beynəlxalq Şura ildə **4** şura keçirir. **Bu şura öz funksiyalarını həyata keçirmək üçün qiymətləri tənzimləyən iqtisadi komitə, inzibati komitə, bufer**

ehtiyatını maliyyələşdirən komitə, qiymət və xərclər komitəsi, statistika komitəsi və s. fəaliyyət göstərir.

Bu kimi qurumiann vasitəsilə Beynəlxalq Şura qalay istehsalı və satışı üzrə mövcud otan bütün problemlər barədə dolğun məlumat toplayır və təhlil edir.

Müxtəlif dövrlərdə qalay üzrə bufer ehtiyatı 20-25- 30 mln ton həcmində müəyyən edilmişdir.

Burada da bufer ehtiyatı tənzimləyici mexanizm rolu oynayır. Bufer ehtiyatı kifayət etmədikdə qalay ixracı məhdudlaşdırılır.

Taxıl üzrə Beynəlxalq Şura. Taxıl (xüsusilə buğda) üzrə ilk dəfə 1933-cü ildə müqavilə bağlanmışdır. Bu vaxtdan sonra hər 3-5 ildən bir müqavilə təzələnmişdir. 1986-cı ilədək bu razılıq buğda üzrə, 1995-ci ildən isə sadəcə olaraq taxıl üzrə razılıq adlanmışdır.

Müəyyən vaxtlarda bu razılıq ticarət və taarif üzrə Baş Razılaşma (QATT), Ərzaq və Kənd Təsərrüfatı təşkilatı (FAO) çərçivəsində, 1971-ci ildən sonra isə BMT-nin ticarət və inkişaf konfransı çərçivəsində fəaliyyət göstərir. Bu razılaşma iki müstəqil hüquqi sənəddən ibarətdir: Buğda ticarəti üzrə və ərzaq köməkliyi üzrə Razılıq.

Taxıl ticarəti üzrə razılıqda 1995-ci il müddəalarına görə aşağıdakı məqsəd əsas götürülmüşdür.

— Ərzaq üçün taxıla dair müddəalar əsasında taxıl satışı barədə beynəlxalq əməkdaşlığın artırılması;

— Taxıl satışına dair bəzi məhdudiyyətlərin aradan qaldırılması, İnkişaf etməkdə olan ölkələrə xüsusi güzəştlər edilməsi;

— Beynəlxalq taxıl bazarının sabitləşdirilməsi və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi;

— Taxıl satışına dair məlumat mübadiləsinin artırılması.

Bu müqavilənin hər bir üzvü Şurada eyni səsə malikdirlər.

Şura ildə iki dəfə sessiya keçirir. Şuranın icraedici komitəsi də bazarın konyukturasına nəzarət edir.

Beynəlxalq əmtəə bazarının tənzimlənməsi işində və eləcə də BİM-ln inkişafında komitə təşkilində yaradılan Beynəlxalq məsləhət təşkilatları, beynəlxalq tədqiqat qrupları və digər qurumlar da böyük rola malikdirlər.

VIII FƏSİL

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI - İƏ VƏ İT

1. iqtisadi Əməkdaşıq və İnkişaf Təşkiiatmm yaradılmas! zəruriliyi,
2. İqtisadi Əməkdaşlıq və inkişaf Təşkilatının əsas idarəçilik qurumlan.

1. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının yaradılması zəruriliyi

BİM-in hərtərəfli tənzimlənməsi sistemində 1960- 1970-ci İllərdə yaradılmış ən böyük beynəlxalq İqtisadi təşkilatlardan biri də iqtisadi əməkdaşlıq və inkişaf təşkilatıdır. Bu təşkilat BMT-nin tərkib hissəsinə daxil olmasa da hər halda onun əsas prisipləri çərçivəsində fəaliyyət göstərir. Bu təşkilat beynəlxalq dövlətlərarası iqtisadi təşkilatdır.

Qeyd etməliyik ki, hələ 1948-ci İldə "Marşal planının" müddəalarının həyata keçirilməsinə köməklik göstərilməsi məqsədilə Avropa iqtisadi əməkdaşlığı təşkilatı yaradılmışdır. Bu təşkilat ABŞ-ın kömək liyi əsasında Avropa dövlətləri iqtisadiyyatının ikinci dünya müharibəsindən sonrakı dövrdə bərpa edilməsi işlərinin həyata keçirilməsi məsələlərini öyrənirdi. Bir müddətdən sonra bu təşkilatın fəaliyyətinin genişləndirilməsinə obyektiv zərurət yaranmışdı. Dünyada sabit iqtisadi artımın təmin edilməsi, beynəlxalq ticarətin genişlənməsinə şərait yaradılması, inkişaf

etməkdə olan ölkələrin iqtisadi inkişafına köməklik göstərilməsi və bu kimi digər problemlərin tədqiq edilməsi tələb olunurdu. Belə dünyəvi problemlər Avropa iqtisadi əməkdaşlıq təşkilatı çərçivəsindən kənara çıxırdı. Odur ki, elə siyasi, hüquqi və iqtisadi baxımdan bu təşkilatın bazası əsasında başqa təşkilat yaradılması qərara alınmışdı. 1960-cı ildə ABŞ-ın təşəbbüsü ilə dekabr ayının 14-də belə bir təşkilatın yaradılması barədə Parisdə beynəlxalq müqavilə bağlanmışdır (1961-ci ildə 31 sentyabrda qüvvəyə minmişdir). (İqamətgahı Parisdədir (Fransa))

Hazırda bu təşkilata 31 ölkə daxildir.

Avropa ittifaqının Avropa komissiyası da ayrıca bir üzv hüququnda təşkilatın işində iştirak edir. Bu təşkilat da Aİ kimi öz sıralannı artırmağa səy göstərir. Məsələn təşkilatın rəhbərliyi Çin kimi böyük bir dövlətin bu təşkilata qəbul edilməsinə tərəfdar olduqlannı bildirmişlər. Çünki Çin güclü polad istehsalçısı olmaqla beynəlxalq xammal bazarında əhəmiyyətli rola malikdir.

Beləliklə bu təşkilatın genişlənməsi üçün 2007-ci ildə Rusiya, Estoniya, Sloveniya, İsrail, Çili, Braziliya, Çin, Hindistan və Cənubi Afrika Respublikası danışıqlara dəvət olunmuşlar. Göründüyü kimi yalnız İnkişaf etmiş sənaye ölkələri deyil, digər ölkələrin də bu təşkilata qoşulmaq imkanları vardır.

Bu təşkilatın əsas vəzifəsi üzv olan ölkələrin iqtisadi siyasətlərini əlaqələndirməkdən ibarətdir. Onun fəaliyyətinin əsas istiqamətlərindən biri də beynəlxalq ticarətin tənzimlənməsi, valyuta-kredit sisteminin sabitləşdirilməsi, inkişaf etməkdə olan ölkələrlə qarşılıqlı münasibətlərin İnkişafı problemidir.

İƏ və İT - iki növ qərar qəbui edir: üzv olan ölkələr üçün məcburi olan qərar və könüllü razılaşmalar. Bu könüllü xarakter daşısa da, hər halda razılaşmalara riayət edilməlidir. Deməli bu təşkilat müəyyən mənada inkişaf etmiş sənaye ölkələrinin iqtisadi siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir, daha böyük beynəlxalq razılaşmalar ~ müqavilələr üçün materiallar hazırlayır.

İƏ və İT-in əsas məqsədi aşağıdakılarla xarakterizə olunur.

— ayrı-ayrı ölkələrin (bura daxil edilməsindən asılı olmayaraq) sabit iqtisadi və sosial inkişafına köməklik etmək;

— daha effektli əlaqələndirmə metodlan işləyib hazırlamaq;

— üzv olan ölkələrdə daha sabit, yüksək iqtisadi artıma, məşğulluğa, həyat şəraitinə nail olmaq;

— inkişaf etməkdə olan ölkələrə köməklik göstərilməsində fəaliyyətlərin əlaqələndirilməsini həyata keçirmək.

İƏ və İT-in sıralarının genişlənməsi onun səlahiyyətlərini də artırır. Məsələn çirkli pulların yuyulması, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, vergi ödəmələrindən yayınma hallarının aradan qaldırılması məsələləri daha kəskin qoyulur.

Bütün bu kimi vəzifələri İƏ və İT aşağıdakı istiqamətlərdə həyata keçirir:

— Bu ölkələrin iqtisadi və sosial İnkişafına yönəldilmiş siyasətlərinə köməklik göstərir.

— Bu ölkələr arasındakı əmtəə və xidmətlərin mübadiləsindəki maneələri aradan qaldınr, kapitalın

sərbəst hərəkətinə şərait yaradır, iqtisadi ehtiyatlardan daha effektli istifadə edilməsinə zəmin yaradır;

— Tədqiqat işlərinin genişləndirilməsi və peşəkar elmi-texniki kadrların hazırlanması;

— İnkişaf etməkdə olan ölkələrə texniki yardım edilməsi;

— Digər beynəlxalq təşkilatlarla əlaqə yaradılmasını artırmaq;

— Ardıcıl olaraq konfranslar, yığıncaqlar, məsləhətləşmə keçirmək, tədqiqat aparmaq, informasiya materialları dərc etdirmək, statistik bülletenlər buraxmaq yolu ilə bu təşkilata üzv olan ölkələr haqqında geniş hərtərəfli məlumat yaymaq.

2. İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının idarəçilik qurumları

İƏ və İT-in rəhbər orqanı Şura hesab edilir. Hər bir ölkədən bir nəfər Şuraya üzv seçilir. Şura daimi nümayəndələrdən ibarət tərkibdə hər həftə toplantı keçirir. Avropa iqtisadi komissiyasının nümayəndəsi də Şuranın tərkibinə daxildir.

İştirakçı ölkələrin Xarici İşlər Nazirləri, Maliyyə Nazirləri və digər Nazirliklərin rəhbərlərindən ibarət tərkibdə isə ildə bir dəfə şura çağırılır.

Şura - 1974-cü ildə yaradılıbdır.

lƏ və İt-in ikinci əsas orqanı isə icraedici komitə hesab edilir.

İcraedici komitə isə 14 nəfərdən ibarətdir.

İcraedici komitə Şuraya tabedir. Şura beş illiyə baş katib seçir.

Katiblik “ İnzibati və operativ işləri həyata keçirir. Müzakirə üçün statistik materiallar hazırlayır. Müxtəlif iqtisadi və sosial məsələlər üzrə məruzələr nəşr edir. Katiblik təşkilatın digər orqanlarının fəaliyyətini əlaqələndirir.

İƏ və İT-in tərkibində 20-dən çox ixtisaslaşmış komitə fəaliyyət göstərir. Bu komitələrdə onlarla işçi qrupları, ekspert komissiyaları mövcuddur.

Bu komitələrdən aşağıdakıları göstərmək olar:

— iqtisadi siyasət, inkişafa kömək; ticarət üzrə; kapitalın hərəkəti və görünməyən əməliyyatlar; maliyyə bazarı; vergi siyasəti; rəqabət hüququ və siyasəti üzrə; istehlak siyasəti; turizm üzrə; dəniz nəqliyyatı üzrə;

— beynəlxalq investisiya və çoxmillətli müəssisə yaradılmasına dair; enerji siyasəti; elmi və texnoloji siyasət; kompüterləşdirmə və kommunikasiya; təhsil işləri üzrə, işçi qüvvəsi və sosial siyasət məsələləri üzrə dövlət idarəçiliyi məsələlərinə dair;

— ətraf mühitin mühafizəsi üzrə; kənd təsərrüfatı üzrə; balıqçılığa dair; əmtəələr üzrə və s.

Deməli, həmin təşkilatın bütün işləri praktiki olaraq bu komitələr tərəfindən həyata keçirilir. Məhz komitələr üzv olan ölkələrin ümumi iqtisadi siyasətini müəyyən edirlər.

— onların iqtisadi və maliyyə vəziyyətlərini izləyirlər;

— bu ölkələr barədə hər il iqtisadi yekun məlumatları hazırlayırlar;

— iqtisadi proseslərin beynəlxalq dövlətiərarası tənzimlənməsi problemləri üzrə təkliflər hazırlayırlar;

— inkişaf etməkdə olan ölkələrə borc verilməsi, subsidiya ayrılması və digər maliyyə vəsaiti verilməsi,

texniki köməklik göstərilməsi barədə üzv olan ölkələrin hökumətlərinə məsləhət xidmətləri göstərirlər.

(ə və İT öz fəaliyyətində daha hərtərəfli işlər görmək üçün müəyyən mərkəzlər də yaratmışdır. Bunlardan:

1. 1962-ci ildə yaradılmış inkişaf mərkəzi. Bu mərkəz üzv olan ölkələrin iqtisadi inkişafa dair bilik və təcrübələrini birləşdirir, iqtisadi yardım barədə ümumi siyasət hazırlayıb həyata keçirir. Bütün üzv olan ölkələr həmin mərkəzin də üzvüdürlər.

2. 1968-ci ildə yaradılmış təhsil sahəsində tədqiqat və yenilik mərkəzi. Bu mərkəz isə təhsil sahəsində tədqiqat və yeniliyin artırılması işlərinə yardım edir.

3. 1990-cı ildə yaradılmış Avropa dövlətlərinin keçid iqtisadiyyatı ölkələri ilə əməkdaşlıq mərkəzi. Bu mərkəzin əsas məqsədi İƏ və İT ilə Şərqi Avropa ölkələrinin əlaqələrini artırmaqdır.

Bu mərkəz hazırda iki istiqamətdə iş aparır.

1. Təşkilatın işində bir qrup ölkələrin açıq iştirakı proqramını həyata keçirir - bura 13 ölkə daxildir:

Albaniya, Bolqanstan, Macanstan, Qazaxıstan, Latviya, Litva, Monqolustan, Rumınya, Rusiya, Slovakiya, Sloveniya, Ukrayna, Estoniya

2. Müvafiq razılıqlarla həmin təşkilatla əlaqə yaratmaq istəyən digər ölkələr üçün proqram həyata keçirir. Mərkəz bir çox problemlər üzrə, o cümlədən - iqtisadi inkişafda quruluş dəyişikliyi etmək, rəqabət, əmək bazarı, banklar və sosial siyasət, bank işi və maliyyə sistemi, vergiqoyma, ticarət, investisiya, sənaye, kənd təsərrüfatı, energetika, təhsil, ətraf mühit,

statistika və ya bu kimi sahələrin problemiəri barədə seminarlar keçirir, kadrlar hazırlayır.

IƏ və İT bir çox beynəlxalq təşkilatlarla rəsmi əlaqə saxlayır. Bunlardan ~ Beynəlxalq Əmək Təşkilatı - BƏT, YUNESKO, BVF, ÜTT və s. qeyd etmək olar.

Bu təşkilatın maliyyələşdirmə fəaliyyəti üzv olan ölkələrin üzvlük haqqı hesabına həyata keçirilir, İƏ və İT-in şurası 1993-cü İldə bu təşkilata yeni üzvlərin qəbul edilməsi barədə yeni qərar qəbul etmişdir. İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq bu təşkilata qoşulmaq imkanları artmışdır. Üzv olan ölkələrin sayının artması isə onun vəzifələrinin genişləndirilməsinə zəmin yaratmışdır.

Bu təşkilat çərçivəsində mövcud olan ehtiyatlardan səmərəli istifadə edilməsi, elmi tədqiqatlann və təhsilin genişləndirilməsi, maliyyə sabitliyi barədə öhdəçilik götürülmüşdür. İƏ və İT - üzvlərinin daxili və xarici siyasətlərinin əlaqələndirilməsi beynəlxalq sazişə əsaslanır.

BİM-in hərtərəfli tənzimlənməsi işində bu təşkilatın qəbul etdiyi qərarlardan biri kimi kapitalın beynəlxalq hərəkətinin liberallaşdırılması aktı da böyük əhəmiyyət kəsb edir.

İƏ və İT öz fəaliyyətində 40-dan artıq hüquqi qərar və 100-dən artıq təklif, bəyannamə və razılaşmalar həyata keçiribdir.

Son dövrlərdə xarici investisiya sahəsində də çoxtərəfli razılıqlar işlənib hazırlanmışdır. Bu sahədə hüquqi tənzimləmə sənədləri işlənmişdir.

İlk addım 1976-cı ildə atılmışdır. Həmin ildə "Birbaşa Xarici İnvestisiya əməkdaşlığı barədə

çoxtərəfli və regional alətlər" adlı sənədə müəyyən yeniliklər edilmişdir. İnvestorlar və investisiya qəbul edən ölkələr üçün ədalətli rəqabət şəraiti yaradılması müəyyənləşdirilmişdir.

Beləliklə, 1995-ci ildən İƏ və İT çərçivəsində investisiya üzrə çoxtərəfli əlaqələr, investisiyanın liberallaşdırılması və onun qorunması mexanizmi genişlənir.

Bütövlükdə İƏ və İT sisteminə daxil olan ölkələri aşağıdakı kimi nümayiş etdirmək olar.

Cədvəl №2

№	Təşkilatın adı	Yarandığı tarix	Ölkələrin sayı
1.	İƏ və İT	1961	31
2.	«Böyük yeddilər qrupu»	1975	7+1
3.	Beynəlxalq energetika agentliyi	1974	29
4.	Təhsil sahəsində yenilikçiiik və tədqiqat mərkəzi	1968	31
5.	İƏ və İT-in inkişaf mərkəzi	1962	31
6.	Atom enerjisi üzrə agentlik	1958	29

Qeyd etməliyik ki, müxtəlif komitələrdə, işçi qruplannda 700-ə qədər iqtisadçı, elmi işçi, hüquqşünas və digər mütəxəssislər analitik fəaliyyətlə məşğul olurlar.

İƏ və İT-in rəsmi dilləri İngilis və Fransız dilləridir.

Bu təşkilatın büdcəsi üzv olan ölkələrin üzvlük haqları hesabına formalaşır. Təşkilatın illik büdcəsinin həcmi 300 mln. dollardır. İƏ və İT, Azərbaycanla müxtəlif proqramlar çərçivəsində əməkdaşlıq edir. Buraya müxtəlif görüşlər, ümumi layihələr, birgə fəaliyyət planları və s. aiddir.

Cədvəl N93

İƏ və İT-ə daxil olan ölkələr (2010)

№	Dövlətlərin adı	Ərazisi mln kv. km.	Əhalisi mln. nəfər
1.	Almaniya	357	82
2.	Avstriya	84	8,4
3.	Avstraliya	7741	22,6
4.	Belçika	30,5	10,8
5.	Böyük Britaniya	245	62,0
6.	Macarıstan	93	10,0
7.	Yunanıstan	132	11,3
8.	Danimarka	43	5,6
9.	İrlandiya	70	4.5
10.	İslandiya	103	0,300
11.	Portuqaliya	92	10,6
12.	İspaniya	506	40,3
13.	İtaliya	301	60,0
14.	Niderland	41,8	16,7
15.	Norveç	324	4,9
16.	Polşa	323	39,0
17.	Slovakiya	49	5,4
18.	Finlandiya	338	5,2

19.	Fransa	552	61,0
20.	Çexiya	79	10,5
21.	İsveçrə	41	7,8
22.	İsveç	450	9,4
23.	Yaponiya	372,2	127,9
24.	Koreya res.	99,4	49,0
25.	Türkiyə	779,4	73,7
26.	ABŞ	9364	296
27.	Meksika	1958	112
28.	Kanada	9971	34,5
29.	Yeni Zellandiya	271	4,4
30.	Lüksemburq	2.6	0,500
31.	Sloveniya	20	2,1
	Cəmi:	34477	1188

IX FƏSİL

BMT-NİN SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATI (SİT) (UNİDO)

1. *Sənayenin İnkişafı Təşkilatının yaradılması*
2. *Sənaye mülkiyyətinin mühafizəsi üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatı*
3. *Ümumdünya İntellektual Mülkiyyəti Təşkilatı*

1. Sənayenin İnkişafı Təşkilatının yaradılması

Sənayenin İnkişafı Təşkilatı (UNİDO) Baş məclisin qərarı ilə 1966-cı ildə yaradılmışdır. 1985-cl ildən BMT-nin ixtisaslaşdırılmış müəssisəsi hesab olunur. İqamətgahı Vyanadadır (Avstriya) - 170 ölkəni özündə birləşdirir.

Bu təşkilatın aşağıdakı qurumları fəaliyyət göstərir:

Baş Konfrans:

Sənayenin inkişafı üzrə şura;

Katiblik; Baş direktor; yerlərdə SİT-in nümayəndəliyi. Bunlarla yanaşı proqramlar və büdcə üzrə, eləcə də texniki komitələr də köməkçi qurum kimi fəaliyyət göstərirlər.

Baş konfrans 2 ildə bir dəfə növbəti sessiya keçirir. Sessiya təşkilatın işinin əsas prinsiplərini və siyasətini müəyyən edir, büdcəni təsdiq edir və maliyyə ehtiyatlarının istifadəsi üzərində nəzarəti həyata keçirir.

Sənayenin İnkişafı Şurası - 53 üzvdən ibarətdir. Bunun 33-ü inkişaf etməkdə olan ölkələrin, 15-i inkişaf etmiş ölkələrin, 5-i isə keçid iqtisadiyyatı ölkələrinin nümayəndələridirlər.

Şura: Təşkilatın öz məqsədinə çatmaq barədəki siyasətini və prinsiplərini işləyib hazırlayır; bu prinsiplərin həyata keçirilməsi üçün təkliflər hazırlayır; təşkilatın fəaliyyət proqramına baxır və onu qəbul edir; BMT - sisteminin sənayenin İnkişafı barədəki fəaliyyətinin əlaqələndirilməsi məsələlərini müzakirə edir; təşkilatda olan ehtiyatlardan səmərəli istifadə edilməsi üzərində nəzarəti həyata keçirir.

Beləliklə nəticə etibarilə təşkilatın fəaliyyəti barədə hər il məruzə hazırlayıb İqtisadi və Sosial Şura vasitəsilə BMT-nin Baş məclisinə təqdim edir. Beləliklə, SİT-in əsas məqsədi:

— BMT " sistemində sənayenin inkişafı üzrə koordinasiya rolunu həyata keçirir;

— Qlobal miqyasda regional, milli və eləcə də sahəvi səviyyədə sənayenin inkişafına və əməkdaşlığa köməklik göstərir;

— İnkişaf etməkdə olan ölkələrdə təbii ehtiyatların işlənib hazırlanması və infrastrukturanın inkişafı da daxil olmaqla onların sənayeləşdirilməsinə köməklik göstərir;

— Keçid iqtisadiyyatı ölkələrində və inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın quruluşunun yeniləşdirilməsində və özəlləşdirmədə onlara köməklik göstərir;

— Bəzi proqramların həyata keçirilməsində inkişaf etməkdə olan ölkələrə texniki yardım göstərir.

Həmin təşkilat öz fəaliyyətində aşağıdakı istiqa> mətlərə üstünlük verir:

— İEOÖ-rin sənayeləşdirilməsində iştirak edir;

— Afrika ölkələrinin sənayeləşdirilməsini daha ön plana çəkir;

—İEOÖ-də müasir istehsal metodlarının, proqramlaşdırma və idarəçiliyin həyata keçirilməsinə köməklik göstərir;

—^Texniki informasiyaların yayılmasına, təbli ehtiyatlardan səmərəli istifadə edilməsinə, milli kadrlar hazırlanmasına, müəyyən sənaye layihələri üçün maliyyə vasitələri cəlb edilməsinə köməklik göstərir;

—Sənaye avadanlıqları göndərmək yolu ilə İEOÖ- yə maddi və maliyyə yardımı ilə hərtərəfli texniki köməklik, mühəndis-məsləhət və texnoloji xidmət göstərir.

Aşağıdakı sahələr üzrə texniki əməkdaşlıq həyata keçirilir:

— yeyinti, gön-dəri, parça və ağac emalı sahələri üzrə;

— kimya sənayesində - biotexnologiya, su ehtiyatlarının idarə edilməsi - əczaçılıq, inşaat materialları, üzvü kimya və s. sahələri üzrə;

—maşınqayırma sahələrindən - elektronika, metal emalı və alətlər istehsalı, kənd təsərrüfatı maşınqayırması sahələri üzrə;

—^yeni texnologiyalar barədə informasiya verməklə beynəlxalq miqyasda sənaye üzrə eməkədaşlıq edilməsinə köməklik göstərir;

—sənaye obyektlərinin inşa edilməsində ekspertlər və məsləhətçilər göndərilməsi yolu İlə texniki yardım edir;

—bu təşkilat çərçivəsində Sənaye və Texnoloji Məlumat Bankı fəaliyyət göstərir.

Bu bank da texniki məlumatların topianmasıhda, sistemə salınmasında və sorğu əsasında yerlərə göndərilməsində yaxından iştirak edir.

UNİDO çərçivəsində IEOÖ-rin inkişaf proqramları sırasında aşağıdakı proqramları fərqləndirmək olar;

—1993-2002-ci illəri əhatə edən onillikdə Afrika sənayesinin inkişafı;

—^rəb ölkələri və ASOR-u ölkələrində sənayenin inkişafına dair xüsusi proqram;

—Latın Amerikası və Karib hövzəsi ölkələrində sənayenin inkişaf etdirilməsi məqsədi ilə regional əməkdaşlıq proqramı;

— Daha az inkişaf etmiş 47 ölkənin sənaye- ləşdirilməsi proqramı;

—Sənayenin inkişaf etdirilməsi prosesində qadın- lann inteqrasiyası proqramı;

—UNİDO xarici investisiyanın artıniması və texnologiya verilməsində də ciddi iş aparır. Bu məqsədlə xüsusi büro fəaliyyət göstərir.

İnvestisiyaya stimul yaradan belə ixtisaslaşdırılmış bürolar Afrikada, Kölndə, Milanda, Parisdə, Seulda, Tokioda, Vyanada, Varşavada, Vaşinqtonda və Sürixdə fəaliyyət göstərir.

UNİDO çərçivəsində beynəlxalq Komissiya təcrübəsinin ümumiləşdirilməsi üzrə elmi-tədqiqat işləri də apanlır. UNİDO Sənaye və Texnoloji İnformasiya Bankı ilə birlikdə İNTİBNET vasitəsilə sənaye, biznes

texnologiya məsələləri barədə hərtərəfli məlumat yayılmasını həyata keçirir.

2. Sənaye Mülkiyyətinin Mühafizəsi üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatı (BOUS)

Sənaye mülkiyyətinin mühafizəsi problemi beynəlxalq əməkdaşlıq sistemində əsas yerlərdən birini tutur. Bu beynəlxalq əməkdaşlıq əsasən beynəlxalq təşkilatlar və ilk növbədə «Ümumdünya intellektual mülkiyyəti təşkilatı» (BOİS) vasitəsilə həyata keçirilir. Bnunla yanaşı sənaye mülkiyyətinin hərtərəfli tənzimlənməsində İkitərəfli, çoxtərəfli razılaşmalar və eləcə də ərazi üzrə bəzi təşkilatların fəaliyyəti də da mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, son dövrlərdə elmi-texniki inqilabın inkişafı ilə elmdə, texnikada, istehsalatda və bütün digər sahələrdə bir çox yeni nailiyyətlər əldə edilmişdir. Beləliklə, mülkiyyət hüququna malik olma obyektləri artmışdır. Buradan da sənayenin və hüquqların qorunması zərurəti meydana çıxmışdır.

Deməli bu təşkilat yaradıcı əmək nəticələrinin mülkiyyət hüququnun qorunmasında yeganə əlaqələndirici bir beynəlxalq mərkəzdir.

OİMT - universal beynəlxalq bir təşkilat olub, intellektual və sənaye mülkiyyətinin mühafizəsi üzrə dövlətlərarası beynəlxalq əməkdaşlığın bütün tərəflərini özündə əks etdirir.

Bu təşkilat BMT-nin ixtisaslaşdırılmış müəssisəsi olmaqla xüsusi statusa malikdir. UİMT - BMT-nin digər ixtisaslaşdınimış təşkilatları olan UNİDO, UNKTAD və UTT ilə yaxından əməkdaşlıq edir. Bununla yanaşı, bu

təşkilatların mövcudluğu onun vəzifələrini məhdudlaşdırır.

Burada intellektual mülkiyyət dedikdə Sənaye mülkiyyəti və müəlliflik hüququnun obyekti nəzərdə tutulur. Hər cür ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanələri, xidmət nişanələri, firma adianmaları sənaye mülkiyyətinə aid edilirlər.

Bu sahədə həyata keçirilən əməkdaşlıq elmi- texniki yaradıcılıqda - patentlərin, lisenziyafarın, Nou-Xaunun kimə məxsus olmasını əsas götürür.

Patent hüququ və sənaye mülkiyyətinin mühafizəsi sahəsində tarixən bir çox beynəlxalq razılaşmalar olmuşdur. Bunlardan: «Sənaye mülkiyyətinin mühafizəsi» üzrə Paris razılaşması (1883), bu Paris sazişi adlanmışdır; yenə 1883-cü ildə «Əmtəələrin mənşələri üzrə saxtakarlığa qarşı mübarizə» barədə Madrid razılaşması; 1886-cı ildə isə İsveçrənin paytaxtı Bern şəhərində Beynəlxalq konfransda ədəbiyyat və incəsənət əsərləri üzrə mülkiyyət hüququnun qorunması barədə beynəlxalq razılıq əldə edilmiş və Bern sazişi adlandınimışdın 1891- ci ildə «Əmtəə Nişanələri» barədə də Madrid razılaşması; 1925-ci ildə Sənaye nümunələri və modelləri barədə Haaqa razılaşması; 1957-ci ildə yenə Fransada əmtəə və xidmətlərin təsnifatı barədə razılaşma; 1958-ci ildə Əmtəələrin mənşələri haqqında məlumatiann qorunmasına dair Lissabon (Portuqaliya) razılaşması; 1968-ci ildə İsveçrədə «sənaye nümunələri və modellərinin beynəlxalq təsnifatı» barədə Lokarn razılaşması; 1970-ci ildə Vaşinqtonda diplomatik konfransda «beynəlxalq sifarişlərin sistem halına salınması barədə

patent kooperasiyası» müqaviləsi bağlanmışdır; 1971-cl ildə Beynəlxalq patent təsnifatı müqaviləsi; 1973-cü ildə «Əmtəə nişanlarının elementlərinin Beynəlxalq təsnifatı» barədə Vyana (Avstriya) müqaviləsi və bu kimi rəsmi sənədləri qeyd etmək olar.

Onu da qeyd etməliyik ki, Paris mğqaviləsinin şərtlərinə əsasən sənaye mülkiyyətinin mühafizəsi üzrə bir zox məsələlər də dövlətlərin özləri tərəfindən tənzimlənir.

Sənaye mülkiyyəti obyektlərinin mühafizəsində ABŞ və Yaponiya daha qabaqcıl mövqedə dururlar. Lakin onlann arasında da müxtəlif yanaşmalar mövcuddur. Belə ki, başqa dövlətlər kimi Yaponiya belə hesab edir ki, kəşf barədə kim ilk dəfə məlumat verirsə, o da ixtiraçı hesab edilməlidir. ABŞ isə belə hesab ki, kəşf barədə ilk məlumat verən deyil, onu sübut edən İxtiraçı hesab edilməlidir. Bu kimi müxtəlif baxışlar üzündən Paris sazişinə əlavə olaraq Patent barədə saziş əldə edilə bilinmir. 1991-ci ildə Haaqada bu barədə diplomatik danışıqlar aparılsa da bir nəticə əldə edilməmişdir. Odur ki, sənaye mülkiyyətinin mühafizəsi üzrə hələ ki, əsas sənəd Paris sazişi hesab edilir. Hər cür ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və s. sənaye mülkiyyəti obyekti hesab edilirlər.

1993-cü ildə 108 dövlət bu sazişin iştirakçısı kimi öz həmrəyliyini bildirmişlər. Hazırda elmi-texniki tərəqqinin sürətli inkişafı ilə bağlı olaraq patent məlumatları o dərəcədə artmışdır ki, bu yenilikləri qeydə almaq, ekspertdən keçirtmək çətinləşmişdir. Ona görə də sənədlərin hazırlanması, verilməsi və s. məsələlər üzrə yeni hüquq normalarının işlənməsi zərurəti yaranmışdır. 1970-ci ildə Vaşinqtonda “Patent birliyi barədə müqavilə”

bağlanmışdır. 1979, 1984, 1996-cı İllərdə bu müqaviləyə yenidən baxılmışdır(83 dövlət iştirak etmişdir). Müqavilənin inzibati funksiyalarını həyata keçirmək üçün beynəlxalq büro da təsis edilmişdir.

Patent birliyi müqaviləsində müəlliflik vəsiqəsidə nəzərdə tutulmuşdur.

Demək olar ki, sahibkarlığın tənzimlənməsi sahəsində dövlətiərarası əməkdaşlıq problemində bu "Patent birliyi müqaviləsi" çox yeni bir əməkdaşlıq formasıdır. Bu mənada aşağıdakı regional patent sistemlərinin də böyük əhəmiyyəti olmuşdur:

1. Avropa regional patent sistemi;
2. Avrasiya regional patent sistemi;
3. Afrika intellektual mülkiyyət təşkilatı;
4. Afrika regional sənaue mülkiyyəti təşkilatı.

1. Avropa regional patent sistemi 1973-cü ildə Münhendə imzalanmışdır.

2. Avrasiya regional patent sistemi 1994-cü ildə Cenevrədə Müstəqil Dövlətlər Birliyinin 9 dövləti tərəfindən imzalanmışdır (iqamətgahı Moskvadadır). Müqaviləyə əsasən iştirakçı dövlətlərin hər hansı birində kəşf edilən yenilik vahid patent əsasında mühafizə edilir. Bu təşkilat özü-özünü maliyyələşdirir.

3. Afrika intellektual mülkiyyət təşkilatı 1962-ci ildə yaradılıb, bura 13 dövlət daxiidirıBenin, Burkina-Faso, Kamerun, MAR, Çad, Konqo, Qabon, Kot-d Ivuar, Mali, Mavritaniya, Niger, Seneqal, Toqo.

4. Afrika regional sənaue mülkiyyəti təşkilatı 1985-ci ildə (1978-ci ildə ingilis dilində danışan Afrika regional təşkilatı əsasında) yaradılmışdır. Bura da 13 dövlət daxildir: Botsvana, Qambiya, Qana, Geniya, Lesoto,

Malavi, Syerra-Leone, Somali, Sudan, Tanzaniya, Uqanda, Zambiya, Zimbabve.

Əmtəə nişanlarının mühafizəsi üzrə beynəlxalq tənzimləmələr aşağıdakı sazişlər əsasında həyata keçirilir:

-Sənaye mülkiyyətinin mühafizəsi üzrə (1883-cü il) 1967- cl il Paris sazişi;

-Nişanların beynəlxalq qeydiyyatı barədə (1891-ci il) 1979-cu il Madrid sazişi;

-Əmtəə nişanlarının mənşəyinin mühafizəsi üzrə Lissabon (Portuqaliya) sazişi (1958);

Əmtəə nişanları üzrə qanuna dair müqavilə (1994).

Qeyd etməliyik ki, bu kimi müqavilələrin hər birinə dəfələrlə yenidən baxılmışdır. Məsələn, əmtəə nişanlarının beynəlxalq qeydiyyatı barədə Madrid sazişinə 7 dəfə baxılmışdır.

3. Ümumdünya intellektual Mülkiyyəti Təşkilatı (BOUC)

1967-ci ildə İsveçin paytaxtı Stokholm şəhərində Paris və Bern (İsveçrə) ittifaqı iştirakçılarının konfransı keçirilmişdir. Burada ittifaqın üzvlərindən ibarət 74 dövlət və BMT-nin üzvləri iştirak etmişdir. Müqavilə 1970-ci ildən qüvvəyə minmişdir. 1974-cü ildən isə həmin təşkilat BMT-nin İxtisaslaşdırılmış müəssisəsi hesab edilir. İqamətgahı Cenevrədədir (İsveçrə). 160-a qədər dövləti birləşdirir.

Aydındır ki, bu sazişin əsasını 1883-cü il Paris müqaviləsi və 1886-cı il Bern müqaviləsi təşkil edir. Bu iki ittifaqdan hər hansı birinin və yaxud BMT-nin, onun

ixtisaslaşmış müəssisələrindən birinin üzvü olan hər bir ölkə BOUC-nin üzvlüyünə qəbul edilə bilər.

Bu təşkilatın əsas məqsədi:

-Dünyada intellektual mülkiyyətin maraqlandırılması və təkmilləşdirilməsi;

-Mövcud ittifaqlarla və eləcə də intellektual mülkiyyətin mühafizəsi sahəsində ittifaq yaradan hər bir inzibati idarəçiliklə əməkdaşlıq etmək;

-İntellektual mülkiyyətin mühafizəsi sisteminin yaxşılaşdırılması üçün beynəlxalq müqavilələr bağlanmasına həvəsləndirmək;

-intellektual mülkiyyət obyektləri üzrə informasiya fəaliyyəti göstərmək və qeydiyyat aparmaq;

-Bu sahədə mövcud olan qanunçuluq aktlarının əlaqələndirilməsi;

-Müqavilələrin inzibati baxımdan təmin edilməsi;

BOUC inkişaf etməkdə olan ölkələrə məsləhətlər verməklə daha ciddi köməkliklər edir.

BOUC-in üç rəhbər orqanı vardır:

-Baş Assambleya- sazişin üzvləri bura daxildir;

-Konfrans. Baş Assambleyanın sessiyası çağırılanda Konfrans da çağırılır;

-Əlaqələndirmə komitəsi. Bu komitənin 58 üzvü vardır.

Bunlardan başqa aşağıdakı köməkçi orqanları da vardır:

-Sənaye mülkiyyəti informasiya üzrə daimi Komitə;

-Əməli xarakterə malik digər Komitələr:

1. Büdcə Komitəsi;

2.Icarə və binanın saxlanması Komitəsi;

S.Sənaye mülkiyyəti sahəsində əməkdaşlığın inkişafı üzrə daimi Komitə;

4. Müəlliflik hüququ barədə əməkdaşlığın inkişafı üzrə daimi Komitə və s.

-Beynəlxalq büro. Büro BOUC-in rəhbər orqanlarından ibarətdir. Beynəlxalq büro rəhbər orqanların sessiyalar və iclaslar keçirməsini təşkil edir, layihələri reallaşdırır, informasiyaları mərkəzləşdirir.

Büronun tərkibində 4 xidmət növü fəaliyyət göstərir:

1. Patent birliyi üzrə xidmət;
2. Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı xidməti;
3. Sənaye nümunələri və yaxud modellərinin beynəlxalq depozitə qoymaq xidməti;
4. Əmtəələrin mənşələrini bildirən beynəlxalq qeydiyyat xidməti.

X FƏSIL

ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI - Ə və KTT (FAO)

1. Ərzaq və kənd təsərrüfatı təşkilatının yaradılmasının zəruriliyi.
2. Ərzaq və kənd təsərrüfatı təşkilatının quruluşu.
3. Beynəlxalq kənd təsərrüfatının İnkişafı fondu.

1. Ərzaq və kənd təsərrüfatı təşkilatının yaradılmasının zəruriliyi

Məlumdur ki, kənd təsərrüfatı insanlar üçün ərzaq məhsullarının, sənaye sahələri üçün isə xammalın əsas mənbəyi hesab edilir. Ona görə də XVIII - əsrdə Fransada fıziokratiya cərəyanının nümayəndələri (F.Kene, A.Turqo, V.Mirabo və s.) hər cürə sərvətin mənbəyini kənd təsərrüfatında görürdülər.

İngilis iqtisadçısı V.Petti (1623-1687) göstərirdi ki, «Əmək sərvətin atası və fəal prinsipi, torpaq isə anasıdır».

İkinci Dünya Müharibəsi bütövlükdə cəmiyyətin demək olar ki, nizamını pozmuş, kənd təsərrüfatını dağıtmış torpaqları öz təbii gözəlliyindən döndərmişdi. Odur ki, kənd təsərrüfatının dirçəldilməsi və ərzaq probleminin həlli ən zəruri bir problem kimi ön plana çəkilirdi. Bu məqsədlə 1943-cü ildə ABŞ-da (Virciniya Ştatında) 44 dövlətin nümayəndəsi bir araya gələrək Ərzaq və Kənd təsərrüfatı üçün daimi fəaliyyət göstərən bir təşkilat yaradılması qəranna gəlmişlər.

Beləliklə, 1945-ci İldə (16 oktyabrda) Kanadanın Kvebek şəhərində Konfransda BMT-nin «Ərzaq və Kənd Təsərrüfatı təşkilatı»nı yaratmışlar. 1951-ci ildə bu təşkilatın qərargahı Vaşinqton şəhərindən Romaya köçürülmüşdür.

Bu təşkilatın əsas məqsədi aşağıdakılardan ibarətdir:

• Kənd təsərrüfatı məhsullarının, meşə təsərrüfatının, balıqçılıq məhsullarının və bütünlükdə ərzaq məhsulları istehsalı, emalı, satışı və bölgüsünü təkmilləşdirmək;

• Aclığın ləğv edilməsinə yardım etmək və qida məhsullarının keyfiyyətini yaxşılaşdırmaq;

• Kənd təsərrüfatına kapital qoyuluşunun artmasına, inkişaf etməkdə olan ölkələrə texnologiya verilməsinə, kənd təsərrüfatında elmi-tədqiqat işlərinin aparılmasına kömək etmək;

• Texniki köməklik göstərmək və texniki əməkdaşlıq proqramının həyata keçirilməsinə yardım etmək;

• Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və digər sahələrdə investisiya layihələri hazırlanmasında inkişaf etməkdə olan ölkələrə köməklik göstərmək;

• Kənd təsərrüfatının planlaşdınıması və digər iqtisadi siyasət məsələlərində məsləhətverici köməkliklər göstərmək.

Bütün bu kimi məqsəd və vəzifələri həyata keçirmək üçün bu təşkilat müxtəlif istiqamətlərdə fəaliyyət göstərməli olur.

Burada:

1. Sabit inkişaf strategiyasına nail olmaq üçün təbii ehtiyatlardan səmərəli istifadə edilməsinə köməklik göstərir.

2. Kənd yerlərində yeni enerji mənbələrinin mənimsənilməsinə kömək edir.

3. İqtisadi siyasət və planlaşdırma məsələlərində xidmət və məsləhətlər verilməsi üçün FAO üzvlərini maliyyələşdirir.

4. BMT-nin inkişaf proqramı olan PROON ilə kənd rayonlarına, eləcə də hökumətə texniki əməkdaşlığa köməklik göstərir.

5. İnvestisiya layihələri və inkişaf proqramlan hazırlanmasında milli hökumət və digər təşkilatlarla əməkdaşlıq edir.

6. Ərzaq məhsulları üzrə hər nəfər üçün normativlər hazırlanmasında Ümumdünya səhiyyə təşkilatı ilə (1962-ci ildə yaradılıb) əməkdaşlıq edir.

7. Kənd təsərrüfatının, kənd təsərrüfatı üzrə olan iqtisadi siyasətin müxtəlif problemləri üzrə kənd təsərrüfatı məhsulları, ərzaq məhsulları üzrə dünya ticarətinin həcmi və s. barədə informasiya toplayıb təhlil edilməsini həyata keçirir.

Bütün bu kimi vəzifələri həyata keçirmək üçün FAO çox səmərəli və ardıcıl fəaliyyət göstərir. O, öz fəaliyyəti çərçivəsində daha aktual problemlər barədə beynəlxalq konfranslar keçirir və cari məsələlərin həllini izləyir.

— 1960-cı ildə «aclıqdan azadlıq» kompaniyasına start verilmişdir.

—1962-ci ildə «beynəlxalq ərzaq standartlarını hazırlamaq» məqsədi ilə komissiya yaradılmışdır.

—1974-cü ildə Romada «Dünya Ərzaq Konfransı» təşkil edilmişdir. Bu konfransda «Dünya Ərzaq Təhlükəsizliyi» prinsipləri qəbul edilmişdir.

—1976-cı ildə təşkilatın fəaliyyəti daha da genişlənmiş, «Texniki Əməkdaşlıq Proqramı» qəbul edilmişdir.

—1978'Ci İldə **8-ci** «Dünya Meşəçilik Konqresi» Cakartada (İndoneziya) fəaliyyətə başlamışdır. Burada Meşəçiliyin inkişafı məsələləri müzakirə obyekti olmuşdur.

—1981-ci ildə ilk dəfə olaraq dünyanın 150-dən çox ölkəsində 16 oktyabr «Dünya Ərzaq Günü» kimi qeyd edilmişdir.

—1986-cı ildə kənd təsərrüfatı haqqında geniş məlumat və statistika mənbəyi olan Faostat orqanı fəaliyyətə başlamışdır.

—1991-ci ildə Beynəlxalq Bitki Müdafiəsi Konvensiyası 92 dövlət tərəfindən təsdiqlənmişdir.

—1994-cü ildə ərzaq qıtlığına məruz qalan ölkələr üçün «Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram» qəbul edilmişdir.

—1995-ci ildə bu təşkilatın 50 illiyi geniş qeyd edilmişdir.

—1996-cı ildə (noyabr) geniş miqyasda - 186 dövlətin iştirakı ilə «Dünya Ərzaq Sammiti» keçirilmişdir.

—1997-ci ildə aclığa qarşı «Telefood» adlı kompaniyaya start verilmişdir.

—1999-cu ildə təşkilatın «Balıqçılıq üzrə Komitəsi» balıqçılığın inkişafı ilə bağlı fəaliyyət planı qəbul etmişdir.

—^2001-cl ildə «Ərzaq və Kənd təsərrüfatı» üçün Genetik Bitki resursları haqqında Beynəlxalq müqavilə

təsdiq edilmişdir. Bu müqavilədə əsas məqsəd fermerlərə yardım göstərməkdən İbarətdir.

—^2006-cı ildə bu təşkilatın 96 üzvü Braziliyada Aqrar islahatlar və Kənd təsərrüfatının inkişafına dair Konfrans keçirmişlər.

—^2007-ci ildə Balıqçılıq üzrə Komitə qeyri-qanuni balıq ovu ilə bağlı rəsmi sənəd qəbul etmişdir.

Qeyd etməliyik ki, Romada olan kənd təsərrüfatı üzrə Omumdünya İnformasiya Mərkəzi FAO-nun bütün məlumatlarını öyrənmək, təhlil etmək üçün böyük kompüter bazasına malikdir. Bir çox məsələlərdə əvvəlcədən xəbərdarlıq edilməsində güclü informasiya sistemi mövcuddur. Bu sistem vasitəsi ilə dünya miqyasında ərzağın vəziyyəti müəyyənləşdirilir ki, bununla da ərzaq çatışmazlığı qorxusu olan ölkələr aşkara çıxarılır. Bu isə ərzaq köməkliyi edəcək ölkələrin ehtiyatlannın ölçülüb-biçilməsinə imkan verməli olur.

Beləliklə FAO ərzaq təhlükəsizliyi sistemi vasitəsilə inkişaf etməkdə olan ölkələrə köməklik göstərilməsində milli ərzaq ehtiyatları yaradılması işinə rəhbərlik edir.

Dünya miqyasında ərzaq təhlükəsizliyi yaradılması üçün FAO hesab edir ki, keçən ilin məhsulundan dünya üzrə Istehlakın 17%-i həcmində fond yaradılmalıdır. Bu iki ay müddətində istehlaka kifayət edə bilər.

Məlumat üçün qeyd etməliyik ki, 80-ci illərdə bu ehtiyat-taxıl həmin səviyyədə olduğu halda, 90-cı illərdə 40 günlüyə kifayət edə biləcək həddə olmuşdur. 1995- ci ildə isə həmin taxıl ehtiyatının həcmi cəmi istehlakın 14%-i həcminədək azalmışdır.

Beləliklə milli səviyyədə ərzaq təhlükəsizliyi konsepsiyası heç də o demək deyil kl, o özünü ərzaqla təmin etməlidir.

Aydındır ki, hər bir ölkə özünü zəruri məhsullarla təmin etməlidir. Lakin müqayisəli üstünlük buna imkan vermirsə, məhsulun müəyyən hissəsi İdxal hesabına ödənilə bilər.

2. Ərzaq və kənd təsərrüfatı təşkilatının quruluşu

Bu təşkilat 193 dövləti birləşdirir.

FAO-nun Ali rəhbər orqanı Konfransdır. Konfrans iki ildə bir dəfə çağırılır.

Konfransın adından Şura çıxış edir. Şuranın 49 üzvü vardır.

Şura öz tərkibində 3 əsas (Proqramlar üzrə, Maliyyə üzrə, Qanunçuluq və Hüquq üzrə) və 5 ixtisaslaşmış komitəni (kənd təsərrüfatı məhsulları, kənd təsərrüfatı, balıqçılıq, meşə təsərrüfatı, ümumdünya ərzaq təhlükəsizliyi komitəsi) birləşdirir:

Dünya miqyasında kənd təsərrüfatının vəziyyəti barədə yekun məlumatı hazırlamaq, kənd təsərrüfatı məhsullarının və ərzağın istehsalı, bölgüsü və istehlakı ilə bağlı əmtəə bazarı və s. problemlərlə məşğul olan dövlətlərarası təşkilatların işinin əlaqələndirilməsində həmin şura məsuliyyət daşıyır. Konfrans 7 illik müddətinə Direktor seçir. O, katibliyə rəhbərlik edir. Katiblik 7 departamentdən ibarətdir: Kənd təsərrüfatı, balıqçılıq, meşə təsərrüfatı, inkişaf, iqtisadi və sosial siyasət, ümumi məsələlər və informasiya, idarəçilik və maliyyə.

FAO-nun beş ərazi şöbəsi vardır:

1. Afrika üzrə;
2. Asiya-Sakit okean üzrə;
3. Avropa üzrə;
4. Latın Amerikası və Karib hövzəsi üzrə;
5. Yaxın şərq üzrə;

Bunlardan əlavə FAO - çərçivəsində nisbətən kiçik şöbə hesab edilən Cənubi və Şərqi Afrika, Sakit Okean adaları, Şərqi Avropa, Karib hövzəsi ölkələri. Şimali Amerika üçün də şöbələr vardır.

FAO-nun 100-dən çox dövlətdə nümayəndəliyi vardır.

FAO-nun fəaliyyəti əsasən aşağıdakı mənbələr hesabına maliyyələşdirilir.

1. Üzv olan dövlətlərin üzvlük haqqı.
2. Üzv olan dövlətlərin trast fondu.
3. İnkişaf proqramının yardımı.
4. Ümumdünya Bankının ayırmaları.

2008-2009-cu illər üçün bu təşkilatın büdcəsi 930 mln dollara bərabər olmuşdur. Əsas texniki işlər, əməkdaşlıq və tərəfdaşlıq, məlumat və ümumi siyasət, idarəetmə və inzibati işlər büdcənin maliyyə vəsaiti ilə təmin olunur.

Azərbaycan Respublikası 1995-ci il 20 oktyabr tarixindən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatının (FAO) üzvüdür. Həmin vaxtdan təşkilat tərəfindən Texniki Əməkdaşlıq proqramı çərçivəsində. Milli və Regional səviyyədə bir neçə layihə həyata keçirilmişdir.

Məsələn 1999-2000-ci illərdə «Azərbaycanda uzaq məsafədən zondlaşdırma üsulu ilə bitki örtüyünün və torpaqlardan istifadənin inventarlaşdırılması»

layihəsi (büdcə 211,5 min dol.) həyata keçirilmişdir. «Fitosanitariya xidmətləri sahəsinin gücləndirilməsi» layihəsi 2003-cü ildən həyata keçirilir. Texniki əməkdaşlıq proqramı çərçivəsində Respublikaya 120 min dollar həcmində vaksina yardımı edilmişdir. Milli səviyyədə tətbiq olunan layihələrdən əlavə, iki regional layihə həyata keçirilir.

Ərzaq və Kənd Təsərrüfatının Azərbaycan üzrə nümayəndəliyi, Türkiyədə təşkilatın Orta Asiya üzrə subregional ofisində yerləşir.

3. Beynəlxalq kənd təsərrüfatının inkişafı fondu

Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu 1976- cı ildə yaradılıbdır. 1977-ci ildən fəaliyyət göstərir. İqamətgahı Romadadır. Həmin fondda 160 ölkə iştirak edir. Bunları 3 qrupa bölmək olar:

1. 22 - inkişaf etmiş ölkələrdir ki, bunlara donor ölkələri deyilir.

2. 12 - inkişaf etməkdə olan ölkələr. Bunlar da donor ölkəsidir:

Əlcəzair, Venesula, Qabon, İndoneziya, İraq, İran, Qatar, Küveyt, Liviya, Nigeriya, BƏƏ, Səudiyyə Ərəbistanı.

3. 126 - inkişaf etməkdə olan ölkələr.

Fondun əsas məqsədi aşağıdakılardan ibarətdir:

a) Ərzaq məhsulları istehsalının artırılması məqsədinə yönəldilmiş layihə və proqramların maliyyələşdirilməsini həyata keçirmək.

— Fonda üzv olan ölkələrdə ərzaq istehsalı və qidanın səviyyəsinin artırılması üçün əlavə yardım göstərilməsi.

b) Aclıq və dilənçiliyin ləğv edilməsinə çalışmaq, əhalinin daha yoxsul təbəqəsinə köməklik göstərilməsi.

Bu fond öz fəaliyyətini əsasən aşağıdakı istiqamətlərdə aparır:

— Fonda üzv olan ölkələrdə ərzaq məhsulları istehsalının artırılmasında həyata keçirilən tədbirlər üçün güzəştli şərtlərlə borc və kredit verilməsi. Burada kənd təsərrüfatının kompleks inkişafı layihəsi (heyvandarlığın inkişafı, məhsulların saxlanılması, satışı, gübrə göndərilməsi, bölgüsü, meliorasiya işləri, balıqçılıq və s.) nəzərdə tutulur.

Bu fondun bankı üç növdə borc verir:

1. Çox əlverişli şərt olan faizsiz borc. Bu borc 50 illiyə verilir. Ödəmə müddəti 10 ildən sonra başlanır. İllik komisyon xidməti 1%-dir.

2. Aralıq müddətinə olan borc. Bu borc 20 illiyə verilir. İllik borc faizi 4%-dir (ödəmə vaxtı 5 il uzadıla bilər).

3. Adi borclar. Bu cür borclar 8% dərəcəsi ilə verilir. Ödəmə müddəti 15-18 ilə nəzərdə tutulur. Lazım gəlsə 3 il uzadıla bilər.

— Kənd rayonlarında yaşayış məntəqələrinin inkişafının maliyyələşdirilməsi. Bu məqsədlə Saxaranın cənubunda yerləşən ölkələrdə quraqlıqdan zərər dəymiş kənd təsərrüfatının bərpası üçün 1986-cı ildən xüsusi proqram da fəaliyyət göstərir.

Afrikanın, Asiyanın, Latın Amerikasının, Karib Hövzəsinin, Yaxın şərqin və şimali Afrikanın inkişaf etməkdə olan ölkələrində kiçik fermerlərə, torpaqsız

kənd əhalisinə maliyyə yardımı göstərmək və onları kənd təsərrüfatının inkişafı prosesinə cəlb etmək;

— Ümumdünya bankı, ərazi bankları və eləcə də digər maliyyələşdirmə işləri ilə məşğul olan müəssisələrlə birlikdə layihələr həyata keçirmək və s.

Bu fondun ali orqanı idarə müdirləri şurası hesab olur. Bu şura fondun bütün əməliyyatlarına rəhbərlik edir, nəzarət edir, ümumdünya Ərzaq Şurasına informasiya verir.

Prezident icraedici şuranın və müdirlər şurasının nəzarəti altında fonda rəhbərlik edir.

Fondun tərkibi altı departamentdən ibarətdir:

- Təhlil və tədqiqat;
- Ehtiyatlara dair iqtisadi siyasət və strategiya;
- Proqramların idarə edilməsi;
- İdarəçilik və kadr məsələləri üzrə xidmət;
- Daxili audit;
- Hüquqi xidmət.

Həmin fondun fəaliyyəti əsasən bura daxil olan dövlətlərin üzvlük haqqı hesabına həyata keçirilir. Eləcə də həmin dövlətlərin xüsusi köçürmələri də vardır.

Aydındır ki, əsas donor yuxarıda qeyd etdiyimiz dövlətlər hesab edilir.

Fond ancaq bura daxil olan dövlətlərə köməklik göstərir

1997-ci ilin əvvəlinə bu fond 461 layihənin işində iştirak etmiş və bu layihələri 110 inkişaf etməkdə olan ölkəyə yaymışdır.

XI FƏSİL

BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARI VƏ İQTİSADİ ƏMƏKDAŞLIĞIN TƏNZİMLƏNMƏSİNDƏ ONLARIN ROLU

1. Beynəlxalq Valyuta Fondu (BVF).
2. Ümumdünya Bankı qrupu:
a) Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB).
b) Beynəlxalq İnkişaf Birliyi (BİB),
v) Beynəlxalq Maliyyə Korporasiyası (BMK).
q) İnvestisiya Təminatı üzrə Beynəlxalq Agentlik (İTBA).
d) İnvestisiya Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz (İMTBM).
3. Beynəlxalq hesablaşmalar Bankı.
4. Paris klubu, London Klubu.

1. Beynəlxalq Valyuta Fondu (BVF)

Ümumiyyətlə cəmiyyətin ictimai-iqtisadi inkişafında maliyyə sisteminin düzgün qurulması, valyuta-kredit münasibətlərinin hərtərəfli inkişafı, maliyyə ehtiyatlarından səmərəli istifadə olunması böyük əhəmiyyət kəsb edir. Əlbəttə bütün bunlar beynəlxalq maliyyə institutlarının yaranmasını şərtləndirir.

1929-1933-cü illərdə baş verən iqtisadi böhranlar dünya iqtisadiyyatındakı tarazlığı pozmuşdur. Minlərlə banklar müflisləşmiş, əmanətlər qaytarılmaq ümidini İtirmiş, kənd təsərrüfatı məhsullarının qiymətləri maya

dəyərindən aşağı düşmüş, torpağın qiyməti azalmış, zavodlar dayanmış, işsizlik artmışdır.

Bütün bunlarla yanaşı beynəlxalq maliyyə sistemində, valyuta birjalarında da tarazlıq kökündən pozulmuşdur. Kağız pullara olan inamın azalması qızıla olan tələbatı artırırdı. Odur ki, maliyyə orqanlarında olan qızıl ehtiyatı da çoxalırdı. Bu vəziyyətin təsiri altında başda Böyük Britaniya olmaqla bəzi dövlətlər qızıl standartından İmtina etmişlər (hər vahid valyutanın dəyəri müəyyən qədər qızılı əks etdirirdi).

Ayrı-ayrı dövlətlər arasındakı mübadilə münasibətlərində pul vahidlərinin mübadiləsində qızıl standartından imtina edən və İmtina etməyən ölkələrin olması, vahid sistemin olmaması ümumi vəziyyəti mürəkkəbləşdirirdi.

Bəzi hökumət orqanları milli pul vahidlərinin xarici pullara dəyişdirilməsini kəskinləşdirərək barter mübadiləsinə üstünlük verirdilər.

Pul ilə əmtəələrin dəyəri arasındakı nisbət əsaslı surətdə pozulmuşdur. 1929-1932-ci illərdə dünya üzrə qiymətlər 48%, dünya üzrə ticarətin həcmi isə 63% azalmışdır. Belə vəziyyətdə hər hansı bir yanmçıq qərar kifayət etmirdi. Burada bütün millətlərin birliyinin, daha yeni valyuta sistemi və beynəlxalq maliyyə institutlarının yaradılması, güclü maliyyə nəzarətinin olması tələb edilirdi.

Dünya valyuta sistemi məsələlərinin həllinə dair 30-cu illərdə bir neçə dəfə beynəlxalq konfranslar keçirilsə də müəyyən nəticələr əldə edilməmişdi.

1940-cı ilin əvvəllərində ABŞ-dan Xarri Dekster Uayt və Böyük Britaniyadan Con Meynard Keyns

demək olar ki, eyni vaxtda çox cəsarətli addım ataraq təklif vermişlər.

BIr çox danışıqlardan sonra Beynəlxalq Valyuta Fondu (BVF) təşkilatı yaradılması təklifi qərarlaşmışdı.

1944- cü ilin iyul ayında Bretton-Vuds (ABŞ-Nyu-Hempşir ştatı) şəhərində BMT-yə daxil olan (ABŞ-m Maliyyə Naziri Q.Morqentaunun rəhbərliyi ilə) 45 dövlətin Beynəlxalq Valyuta-Maliyyə Konfransı keçirilmişdir.

Odur ki, bu konfrans tarixə Bretton-Vuds Konfransı kimi daxil olmuşdur.

Konfransda qəbul edilmiş qərara əsasən 1945-ci ilin dekabr ayında BMT-nIn iki xüsusiləşdirilmiş (İxtisaslaşmış) təşkilatı təsis edilmişdir. Bu təşkilatlar Beynəlxalq Valyuta Fondu (BVF) və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankıdır.

BVF - 1946-cı ilin may ayından (Vaşinqtonda) fəaliyyətə başlamışdır.

Hər iki təşkilat həm qlobal miqyasda (dünya iqtisadiyyatı çərçivəsində), həm də regional miqyasda (ayrı-ayrı ölkələr çərçivəsində) maliyyələşmə işləri aparırlar. Bu təşkilatın iqamətgahı Vaşinqtondadır.

Beynəlxalq Valyuta Fondunun quruluşu. Nizamnaməyə görə BVF-in quruluşu aşağıdakı orqanlardan ibarətdir:

— Müdirlər Şurası, Müvəqqəti Komitə, İnkişaf Komitəsi;
— İcraiyyə Şurası;
— BVF-in Statistika Komitəsi
— Bölüşdürücü direktor.

Müdirlər şurası fondun ali orqanı hesab edilir.

Bu şura üzv olan ölkələrin nümayəndələrindən (Maliyyə Nazirləri və yaxud Mərkəzi Bankın müdirləri və müavinlərindən ibarətdir) təşkil olunur. Bu şura beş illiyə seçilir. İldə bir dəfə yığıncaq keçirirlər.

Burada üzvlüyə qəbul edilmə məsələləri, üzv olan ölkələrdə valyuta bərabərliyində olan dəyişikliklər, Kvotaya baxılması, fondun xalis gəlirinin bölgüsü, icraedici direktorların seçilməsi və digər maliyyə məsələləri müzakirə edilir.

Müdirlər şurası öz üzvlərindən ibarət Müvəqqəti Komitə yaradır.

Fondun əməli fəaliyyəti icraedici şura (Direktorlar Şurası) tərəfindən həyata keçirilir.

İcraedici şura 24 icraedici direktordan İbarətdir. Bunlardan 7-si ğzv düvlətlər tərəfindən (ABŞ, Yaponiya, Almaniya, Büyğk Briyaniya, Fransa, Çin və Səudiyyə Ərəbistanı), digər 17 nəfər isə idarə şurası tərəfindən seçilir.

İcraedici Şura sərəncam verən direktor seçir
(bu, bir qayda olaraq avropalı olmalıdır), o, Şuranın sədri şəxsində çıxış edir.

İnkişaf Komitəsi. Buna Birləşmiş Nazirlər Komitəsi də deyilir. Bu komitə müvəqqəti komitə ilə birlikdə Müdirlər şurası üçün fond ehtiyatı barədə tövsiyə və məruzə hazırlayır və bəzi ölkələrə göstərilən yardımların əsas istiqamətini göstərir.

BVF-in tərkibində Statistika Komitəsi də fəaliyyət göstərir. Bu komitə dövlətlərin tədlyyə (ödəniş) balansları ilə bağlı vəziyyəti öyrənir.

Bölüşdürücü direktor da BVF-in orqanlarından biri kimi fəaliyyət göstərir. İcraiyyə şurasında 24 icraçı direktorla yanaşı bir bölüşdürücü direktor - sədr də

mövcuddur. Bu bölüşdürücü direktor ənənəyə görə Avropanı təmsil edir. O, İcraiyyə şurası tərəfindən təyin edilir və fondun gündəlik fəaliyyətinə rəhbərlik edir.

BVF-in texniki yardım proqramının hazırlanması və reallaşdırılması aşağıdakı orqanlar vasitəsi ilə həyata keçirilir:

— Texniki yardım Katibliyi;

— Valyuta və Mübadilə əməliyyatları depar- tamenti;

— BVF institutu. Bu institut Vaşinqtonda fəaliyyət göstərir və yüksək ixtisaslı fond mütəxəssislərinin hazırlanmasını həyata keçirir.

BVF-in tərkibi 5 departamentdən ibarətdir:

1. Vergi məsələləri üzrə;
2. Hüquqi məsələlər üzrə;
3. Üzvlük məsələləri üzrə;
4. Əməliyyat, hesablaşma xidməti məsələləri üzrə;
5. Valyuta və mübadilə dəyişdirilmə məsələləri üzrə.

Fondun maliyyə vəsaiti üzv olan ölkələrin üzvlük haqqlarından (kvota) ibarətdir.

BVF-in - maliyyə əməliyyatlarında xüsusi əvəz- etmə hüququ deyilən SDR valyuta vahidindən istifadə edilir (SDR - BVF tərəfindən buraxılır, beynəlxalq ödənişlərdə və ehtiyat vəsaiti kimi istifadə edilir).

Qeyd etməliyik ki, 1969-cu ilə kimi qızıl və ABŞ dollarından istifadə edilmişdir. Lakin BVF-in üzvü olan ölkələr istəmirdilər ki, belə bir beynəlxalq təşkilat və qlobal problem qızıl istehsalından və müəyyən dövrlərdə dollar bazarının dəyişilməsindən asılı olsun. 2003-cü ilin məlumatına görə 1 SDR = 1,41995 dollara və yaxud 1 dollar = 0,704249 SDR bərabərdir. Aydındır

ki, bu nisbət dəyişilməz deyildir. Hər beş ildən bir SDR səbətinə daxil olan valyutaların vəziyyəti - alıcılıq qabiliyyəti tədqiq edilir (Hazırda bu səbətə ABŞ dolları, Funt Sterlinq, yapon yeni və avro daxildirlər).

BVF-in hər bir üzvü 250 baza səsinə malikdir. Bundan əlavə hər üzv ölkə öz kvotasının hər yüz min SDR-ə bərabər olan hissəsi üçün də bir səs qazanır.

Hər bir ölkə üçün kvota müəyyən edildikdə, ölkənin ümumi iqtisadi vəziyyəti, dünya iqtisadly- yatındakı və beynəlxalq ticarətdəki xüsusi çəkisi əsas götürülür.

Kvotanın 25%-i dönərli valyuta və SDR ilə, 75%-i isə milli valyuta ilə ödənilir. Ən çox kvota ABŞ-a (17,5%), Yaponiyaya (6,3%), Almaniyaya (6,1%), Fransa və Böyük Britaniyaya (hər biri - 5,1%) məxsusdur.

Azərbaycan 1992-ci il sentyabr ayının 18-də BVF-in üzvlüyünə qəbul edilibdir. Üzvlük haqqı - kvotası 160,9 mln. SDR-dir (əvvəlcə 117 mln. SDR olmuşdu). Bu ümumi kvotaların 0,08%-inə bərabərdir. Hazırda BVF-in - cəmi kvotası 217,7 mlrd. SDR (280 mlrd. ABŞ dolları) təşkil edir.

Ayn-ayrı ölkələrin milli valyutaları BVF-in balansında (qeyd etdiyimiz kvotanın 75%-i) olsalar da ölkədən kənarda istifadə edilə bilmirlər. Cəmisi təqribən 20 valyutaya müəyyən ehtiyac olur. Odur ki, hər bir borc alan ölkə dönərli valyuta almağı nəzərdə tuturlar. Aydındır ki, hər bir ölkənin götürmək istədiyi kredit kvotanın həcmindən artıqdır. Odur ki, BVF çox vaxt öz üzvlərinə kredit vermək üçün özü də ayrı-ayrı ölkələrdən və yaxud pul-kredit orqanlarından kredit götürməli olur.

Azərbaycan BVF iiə çox yaxından əməkdaşlıq edir. 1995-ci ildən başlayaraq ardıcıl olaraq müxtəlif təyinatlı kreditlər almışdır. Məsələn, 1995-d ildə trasformasiya sistemi üzrə (STF) 29,25 mln. SDR (46 mln. dollar) kredit almışdır. Yenə 1995-1996-cı illərdə islahatlar proqramını həyata keçirmək üçün 58,5 min. SDR (88 mln. - dollar) qısa müddətli tədiyyə balansları çətinliyi (STED-bay) üzrə 87,8 mln. SDR (132 mln. dollar) kredit götürmüşdür.

Bunlardan əlavə yeni (1996-2000-ci illər üçün) təyinatlı 93,6 mln. SDR, 2001-2004-cü illər üçün 80,45 mln. SDR kredit ayrılmışdır.

2006-cı ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5985,7 mln. manat məbləğində investisiya yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş xarici investisiyanın bütün sərmayədəki xüsusi çəkisi 54,0% və yaxud 3229,6 mln. manat təşkil etmişdir.

BVF-in əsas məqsədi:

1. Beynəlxalq valyuta sistemi əməkdaşlığına köməklik göstərilməsi;
2. Beynəlxalq ticarətin genişlənməsinə və baiansiaşdırılmış artımına köməklik göstərmək. Məşğulluğun artmasına və iqtisadi şəraitin yaxşılaşdırılmasına zəmin yaratmaq;
3. Üzv olan ölkələrin valyuta siyasətlərini əlaqələndirmək və razılaşdırmaq. Bununla da beynəlxalq valyuta sisteminin fəaliyyətini təmin etmək və milli valyutaların valyuta məzənnəsinə və valyuta dönərliyinə yardım göstərmək;

4. Valyutaların bərabərliyinin və valyuta məzənnəsinin müəyyən edilməsi yolu ilə hər hansı bir valyutanın rəqabət üstünlüyünə yol verməmək;

5. Üzv olan ölkələr arasında çoxtərəfli ödəniş sisteminin təmin edilməsinə köməklik göstərmək və valyuta məhdudiyyətini aradan qaldırmaq;

6. Üzv olan ölkələrdə tədiyyə balansiarının tənzimlənməsi və valyuta məzənnəsinin sabitləş- dirilməsi üçün onlara xarici valyuta şəklində borc və kredit verilməsini təmin etmək;

7. Üzv olan ölkələrdə maliyyə və valyuta məsələlərində məsləhət yardımı edilməsi;

8. Beynəlxalq valyuta münasibətlərində davranış kodeksinə riayət edilməsinə nəzarətin həyata keçirilməsi.

Qeyd etdiklərimizdən tam belə bir nəticə çıxarmaq olar ki, BVF - əməli olaraq beynəlxalq valyuta sisteminin institutsional əsasıdır. O bütün fəaliyyəti iiə dövlətlərarası valyuta hesablaşmaları münasibətlərinin tənzimlənməsini həyata keçirir.

BVF ümumi məqsədi və kreditləşmə şəraitindən asılı olaraq müxtəlif kreditləşmə mexanizmlərindən istifadə edir. Aydındır ki, bütün hallarda müəyyən limit və məbləğin həddi müəyyənləşdirilir.

Bu mexanizmləri 4 qrupa bölmək oiar:

1. Adi mexanizm.
2. Xüsusi qarşılıqlı ödənişə əsaslanan mexanizm.
3. Fövqəladə yardım.
4. Aşağı gəlirə malik olan ölkələrə yardım mexanizmi.

Bütün bu mexanizmlər kreditin hansı sahəyə, nə məqsədə, neçə müddətə, neçə faizlə, kreditin həcmi və

digər prinsipləri özündə əks etdirir. Hər halda kredit verilməsində aşağıdakı siyashiqtisadi şərtlər əsas götürülür.

1. Fondun verdiyi vəsaitin vaxtında qaytarılması. BVF-in vəsaiti onun bütün üzvlərinin əmlakıdır. Odur ki, onların hamısı kredit götürmək hüququna malikdirlər.

2. BVF - kredit verməzdən əvvəl öz qurumları vasitəsilə vəsaitin qaytarılma imkanlarını müəyyənləşdirir. Bu məqsədlə borc alan ölkə ilə razılaşma sənədi hazırlanır və icraedici şuraya təqdim edilir.

3. Borc alan ölkə müəyyən edilmiş vaxtdan faiz də daxil olmaqla krediti ödəməyə başlayır. Faiz norması bazar normalanndan aşağıdır.

BVF - ardıcıl olaraq özünün kreditləşmə sistemini təkmilləşdirir. 1970-ci illərin sonundan başlayaraq yoxsulluğun azaldılması və iqtisadi inkişafa nail olmaq üçün ayrı-ayrı ölkələrə yardımlar edir, aşağı faiz dərəcələri ilə quruluş yenidənqurması (ESAF) fondu hesabına kredit verilir. 1999-cu ildə bu sahədə yenə əlavə tədbirlər nəzərdə tutulmuşdur. 1999-cu ildən bu quruluş yenidənqurma kreditləri yoxsulluğun azaldılması və iqtisadi artımın maliyyələşdirilməsi kreditləri ilə əvəz olunmuşdur.

Hazırda BVF-in üzvlərinin sayı 185-dir. Fondun maliyyə ehtiyatları 2000-ci illərdə195 mlrd, dollar, 2006- cı ildə 317 mlrd, dollar olmuşdur.

BVF Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə yaxından əməkdaşlıq edir.

2. ümumdünya Bankı qrupu

Dünya Bankı xüsusi növ bank hesab edilir. Bu bank xüsusi şəxslərlə əməliyyat aparmır. Onun müştəriləri ancaq dövlətlər ola bilər. Dünya Bankı BMT- nin ixtisaslaşmış orqanı statusuna malikdir. BVF>in üzvləri eyni zamanda Dünya Bankının da üzvüdürlər (185 - dövlət).

Dünya Bankı qrupu bir-biri ilə qarşılıqlı əlaqədə olan 5 institutdan ibarətdir (Bəzən 4 institutdan ibarət olması vurğulanır).

Bunlar aşağıdakılardır:

a) Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB)

b) Beynəlxalq İnkişaf Birliyi (BİB)

v) Beynəlxalq Maliyyə Korporasiyası (BMK)

q) İnvestisiya Təminatı üzrə Beynəlxalq Agentlik (İTBA)

d) İnvestisiya Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz (İMTBM)

a) Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB). Belə bir döviətlərarası investisiya qrupu dünyada ən böyük investisiya insitutuna çevrilmişdir.

Bu bank öz fəaliyyətində ilk əvvəllər Qərbi Avropa dövlətlərinin İqtisadiyyatının bərpasını ön plana çəkirdi. 1960-cı illərdən sonra İEOÖ-rln İqtisadi inkişafı diqqət mərkəzinə gətirilmişdir. 1990-cı İllərdən isə keçmiş sosialist ölkələrinə hərtərəfli köməklik göstərilməsinə diqqət artırılmışdır.

Bu institutların ümumi məqsədi inkişaf etmiş sənaye ölkələrinin inkişaf etməkdə olan ölkələrə maliyyə köməkliyi göstərmək, yoxsulluğa qarşı mübarizə və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına yardım etməkdən ibarətdir. Bu məqsədlə də BYİB üzv olan ölkələrə kreditlər verir, iqtisadi siyasət məsələləri üzrə təkliflər hazırlayır, informasiya mübadiləsi üzrə köməklik və xidmətlər göstərir və s.

Bütün dövlətlərarası təşkilatlar tərəfindən inkişaf etməkdə olan ölkələrə ayrılan illik vəsaitin təqribən 50%-ə qədəri məhz Dünya Bankının payına düşür. Dünya Bankı üzv olan bütün ölkələrin dünya sisteminin əsas mərkəzləri ilə iqtisadi inteqrasiyasına köməklik edir. Dünya Bankı qrupunda Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı daha böyük rola malik olan bir institutdur. Bu bank 1945-ci ildə yaradılmışdır (1944- cü ilin iyulunda Amerikanın Bretton-Vuds şəhərində 28 ölkənin razılığına əsasən). İqamətgahı Vaşinqtonda yerləşir. 185-dən artıq ölkəni birləşdirir.

Bank ilə BMT arasında münasibətlərin xarakterinə dair müddəalar, razılıqlar 1974-cü İldə BMT-nIn Baş Assambleyasında təsdiq edilmişdir. Orada göstərilmişdir ki. Nizamnaməyə əsasən Bankın üzərinə düşən öhdəliklərin və müddəalann xarakterinə görə o, müstəqil beynəlxalq təşkilat kimi fəaliyyət göstərə bilər. Razılığa müvafiq olaraq BMT-nin Baş Assambleyasında, İqtisadi və Sosial Şurada, BMT-nin İnkişaf Proqramında, eləcə də ərazi üzrə iqtisadi komissiyalarda Bankın nümayəndəliyi vardır.

Beləliklə, bu Bank BMT-nin ixtisaslaşdırılmış müəssisəsi hesab edilir.

Nizamnaməyə əsasən bu Bankın üzvü olan ölkələr ancaq BVF-nin üzvlərindən ibarət olmalıdır.

Bankın ali orqanı Rəhbərlər Şurasıdır. Hər bir ölkənin bir nümayəndəsi Şurada təmsil olunur (onlar nazir səviyyəsindədirlər).

Bankın ümumi siyasəti, yeni üzvlər qəbul edilməsi, Bankın Nizamnamə kapitalının həcmi barədə qərar qəbul edilməsi, xalis gəlirin bölgüsü və s. bu kimi qlobal problemlər Şura üzvləri tərəfindən həyata keçirilir.

Bankın icraedici orqanı Direktorluq hesab edilir. 24 direktor (sərəncam verən) mövcuddur. Bunlardan 5-i daha çox səhm sahibi olan Böyük Britaniya, Almaniya, ABŞ, Fransa və Yaponiyadır. Qalanlan isə qoyduqlan vəsaitin həcminə görə müvafiq olaraq seçilirlər (məsələn, ABŞ-ın 17% səsi var, bu inkişaf etməkdə olan 140 ölkəyə bərabərdir).

Bankın prezidenti Direktorluq tərəfindən seçilir. Direktorluğun beş komitəsi vardır:

1. Birgə auditor komitəsi;
2. Kadr siyasəti məsələləri üzrə komitə;
3. Müəyyən reqlament (qayda-qanun, üsul) hazırlayan komitə;
4. Xərclərin və büdcə praktikasının effektivliyi üzrə komitə;
5. İnzibati məsələlər üzrə olan komitə.

Bankın əməli fəaliyyətində aşağıdakı cəhətlər əsas götürülür:

1. Üzv olan ölkələrdə istehsal təyinatlı kapital qoyuluşunun artırılması vəsaiti ilə yenidənqurma və inkişafa köməklik göstərilməsi.
2. Xüsusi xarici kapital qoyuluşuna zəmin yaratmaq.

3. Beynəlxalq ticarətin artmasına köməklik göstərilməsi və s.

Bütün bu kimi geniş miqyaslı problemlərin həll edilməsi üçün Bank öz fəaliyyətini aşağıdakı istiqamətlərdə aparır:

— İnkişaf etməkdə olan ölkələrə istehsalın inkişafı üçün uzun müddətli borc və kreditlər verir. Bu kredit kənd təsərrüfatının və kənd rayonlarının, energetikanın inkişafına üzv olan ölkələrin borclarının ödənilməsinə təminat yaradılmasına, konkret layihələrə borc verilməsinə xidmət edir.

— İnkişaf etməkdə olan ölkələrdə infrastruk- turanın yaradılmasına borc verilməsini həyata keçirir. Burada şose və dəmir yollarının, elektrik rabitəsinin, şəhər limanlarının, eləcə də təhsilin, kadr hazırlığının İnkişafı nəzərdə tutulur.

— Bu kimi borclar bir çox hallarda TMK-rın fəaliyyətinə əlverişli şərait yaradılması, milli valyutanın devalivasiyası (qiymətdən düşmüş kağız pulların tədavüldən götürülməsi - dəyişdirilməsi), ixrac üzərində nəzarətin liberallaşdırılması, xarici kapital sahiblərinin əmanət qoyuluşunun vergidən azad edilməsi, mənfəətin sərbəst aparılmasına zəmin yaradılması və s. məqsədilə də verilir.

— Faiz dərəcələrini ödəyə bilməyən ölkələrə də borc verilir.

— Bankın üzvü olan ölkələrə və eləcə də xüsusi firmalara uzunmüddətli borc və kreditlər verir.

— İnkişaf etməkdə olan ölkələrə texniki köməklik göstərir.

— iqtisadi və elmi-texniki problemlər üzrə tədqiqat işləri aparılır. Bu tədqiqat işlərində konkret proqramlar hazırlanması və həyata keçirilməsi, kredit siyasəti məsələləri, investisiya qoyuluşu siyasəti və texniki yardım göstərilməsi, tədqiqat potensialının artınması işində inkişaf etməkdə olan ölkələrə köməklik göstərilməsi problemləri daha ön plana çəkilir.

Onu qeyd etmək maraqlıdır ki, bu Bank 40 digər təşkilatla birlikdə kənd təsərrüfatı tədqiqatı ilə məşğul olan 18 beynəlxalq mərkəzə köməklik göstərir. Bu mərkəzlərdə digər problemlərlə yanaşı ərzaq istehsalında daha müasir səviyyədə yüksək effektivli texnologiyaya keçilməsi işlənib hazırlanır.

— Ətraf mühitin qorunmasında inkişaf etməkdə olan ölkələrə maliyyələşdirmə köməkliyi göstərilir.

— İnkişaf etməkdə olan ölkələrin nümayəndələri üçün seminarlar keçirilir, tədris kurslan təşkil edilir. Tədris materialları nəşr edilib yayılır.

— Kreditor ölkələrin fəaliyyətini əlaqələndirmək məqsədi ilə Kanada, Fransa, Niderland və ABŞ birlikdə məsləhətverici orqan yaradıbdır. Bank bu orqanın üzvü kimi inkişaf etməkdə olan ölkələrin proqramının maliyyələşdirilməsini ardıcıl həyata keçirir.

— Ayrı-ayrı ölkələrin inkişaf proqramı barədə öz üzvlərinə hərtərəfli məlumatlar verir. BYİB, BVF ilə yaxından əməkdaşlıq edir. Onların fəaliyyəti İnkişaf Komitəsi çərçivəsində əlaqələndirilir.

Bankın maliyyə vəsaiti üzv olan ölkələrin üzvlük haqqları, beynəlxalq borc və bank mənfəəti hesabına yaradılır. Hər bir ölkə ÜDM-in müəyyən hissəsini üzvlük haqqı (kvota) kimi ödəyirlər. Bu

kvotanın 18%-i milli, 82%-i isə dönərli valyuta ilə ödənilir.

BYİB-in Nizamnamə kapitalı ilk əvvəllər 10 mlrd, dollardan artıq deyildi. Lakin bu Bankın fəaliyyətində daha geniş bir əraziyə malik inkişaf etməkdə olan ölkələrin ön plana çəkilməsi kredit ehtiyatlarının artırılmasına daha ciddi zərurət yaradırdı. Odur ki, Nizamnamə Kapitalı ardıcıl olaraq 1959, 1980, 1988-ci illərdə artırılmışdır. 1997-ci ildə bu kapital 182 mlrd, dollar təşkil etmişdir. 2002-ci ilin sonuna isə 191 mlrd. doll. olmuşdur.

Bankın təkliflərində iqtisadiyyatın xüsusi bölməsinin inkişafına və inkişaf etməkdə olan ölkələrə xarici kapitalın cəlb edilməsinə daha çox üstünlük verilir. Kredit istəyən hər hansı bir ölkə bu kimi təklifləri qəbul etmədikdə həmin kredit dayandırılır.

Onu da qeyd etmək lazımdır ki, verilən kredit hər hansı bir obyektə lazım olan vəsaitin ancaq 30%-ni təmin edə bilir, qalan vəsait isə daxili ehtiyatlar və yaxud digər xarici mənbələr hesabına ödənilir. BYİB- nin fəaliyyətində nəqliyyat, rabitə, energetika və bu kimi infrastruldura obyektlərinin kreditləşdiriiməsinə üstünlük verilir.

80-ci illərdən sosial sahələrin inkişafına, xüsusilə yoxsuiiuğa qarşı mübarizə işlərində kredit artırılmışdır. Səhiyyə, təhsil, ailənin planlaşdırılması, kənd təsərrüfatının inkişafı, ətraf mühitin mühafizəsi, özəlləşdirmə problemləri kimi sahələrə kredit artırılır.

2003-cü iiin məlumatına görə bu bankın cəmi kreditinin həcmi 383 mlrd, dollar təşkil edir. Təkcə 2003-cü il üçün kreditləşmənin həcmi 11,2 mlrd dollar

nəzərdə tutulmuşdur. Bu məqsədlə 99 yeni əməliyyat həyata keçirilmişdir.

Bütövlükdə BYİB öz mənfəətini artırmağa o qədər də səy göstərmir. Lakin 1948-ci ildən başlayaraq hər il bank xalis gəlir götürür. Həmin mənfəət hesabına müəyyən fəaliyyət növlərinin maliyyələşdirilməsi həyata keçirilir.

Azərbaycan Respublikası 1992-ci ilin sentyabr ayında Dünya Bankının 1995>ci ilin mart ayında isə Beynəlxalq İnkişaf Birliyinin üzvlüyünə qəbul edilmişdir. Eləcə də 1992-ci ildə «İnvestisiya təminatları üzrə çoxtərəfli Agentliyə» və 1995-cl ildə «Beynəlxalq Maliyyə Korporasiyasına» daxil olmuşdur. Bu bankın hər bir ölkədəki fəaliyyətinin istiqamətləndirilməsi üçün əsas sənəd olan "Ölkəyə Yardım Strateglyası"nın (ÖYS) ilk variantı 1996-cı ildə müzakirə olunmuşdur. Həmin vaxtdan etibarən Dünya Bankı qrupu Respublikanın ictimai-iqtisadi inkişafına dəstək ven'r. Burada, əsasən aşağıdakı istiqamətləri qeyd etmək olar:

— Bazar iqtisadiyyatına keçidə yardım;

— Makroiqtisadi sabitiəşdirməni və neft gəlirlərinin idarə olunmasını nəzərdə tutan iqtisadi islahatlar proqramının həyata keçirilməsində ölkəyə yardım göstərmək;

— Qaçqın və məcburi köçkünlərin problemlərinin həilində, İnfrastrukturun bərpa olunmasında, səhiyyə və təhsil xidmətləri göstərilməsində;

— Enerji sektoruna xarici investisiyanın cəlb edilməsində;

— Dövlət idarəetmə sisteminin təkmilləş- dirilməsində, kənd təsərrüfatında, qeyri-neft sektorunda, bütövlükdə iqtisadi artımın və məşğulluq imkan-

larinin təmin olunmasında köməklik göstərilməsi həyata keçirilir.

1992- ci ildən başlayaraq Dünya Bankı Azəraby- cana 600 mln. dollar vəsait ayırmış və 20-yədək iri miqyaslı layihəni maliyyələşdirmişdir. Bankın işçi qrupları hər il respublikanın iqtisadiyyatım təhlil edir və hesabatlar dərc etdirir.

Ölkədə struktur islahatlar aparmaq üçün ilk dəfə - 1997-ci ildə, sonra 2002-ci ildə kredit vermişdir. Son- ralar ardıcıl olaraq 2005-ci, 2006, 2007, 2008-ci illərdə də müxtəlif layihələrin həyata keçirilməsinə vəsait ayırmışdır.

b) Beynəlxalq İnkişaf Birliyi (BİB). Bu birlik 1960-cı ildə yaradılıbdır. Formal olaraq müstəqil Nizamnaməyə və maliyyə bazasına malikdir. Lakin əslində bu vəsait BYİB-ln fondu, BİB isə onun filialı hesab olunur. BYİB-ln prezidenti eyni zamanda BİB-in prezidenti sayılır. BİB BMT sistemində ixtisaslaşdırılmış müəssisə kimi fəaliyyət göstərir. BYİB və BİB arasında fərqli cəhət ondan ibarətdir ki, Bankın maliyyə vəsaiti, qeyd etdiyimiz kimi, əsasən dünya maliyyə bazarından daxil olur və aşağı faizlə inkişaf etməkdə olan ölkələrə uzun müddətə borc kimi verilir. BİB isə donor ölkələrin üzvlük haqqı hesabına inkişaf etməkdə olan ölkələrə faizsiz kredit verir. 2001-ci ildən hər nəfərə düşən ÜDM 885 dollardan az olan ölkələrə faizsiz borc verilir və texniki yardım edilir. BİB-in tərkibinə 164 ölkə daxildir (2005). Onun da 28-i İnkişaf etmiş sənaye ölkəsindən, 136-sı isə nisbətən az inkişaf etmiş ölkələrdən ibarətdir.

BİB-in əsas məqsədi yoxsul ölkələrə uzun müddətli kredit vermək, birliyin üzvü olan yoxsul ölkələrin

iqtisadi inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşmasına kömək etməkdən ibarətdir.

BİB 50 il müddətinə kredit verir. Kreditin ödənilməsi 10 ildən sonra başlanır, İlk başlanğıcda ikinci 10 il müddətində ildə kredit 1% hesabı ilə, son 30 ildə isə 3% ilə qaytarılır. Kredit faizsiz verilir. Lakin bank xərclərini ödəmək üçün xidmət haqqı olaraq 0,75% nəzərdə tutulur.

Kredit xarici valyuta ilə verilir. Bununla da xaricdən olan əmtəə idxalı və xidmətlərin ödənilməsi mümkün olur.

Aydındır ki, əldə edilmiş razılaşmalara uyğun olaraq BİB kredit verdikdə hər hansı bir ölkədən müəyyən əmtəə alınmasını təkid edə bilməz. Kreditin xərclənməsi, ticarət, hərrac və s. vasitəsi ilə həyata keçirilməlidir.

Kredit verilən ölkələrdə dörd meyar, cəhət əsas götürülür:

1. Hər nəfərə düşən illik gəlirin həcmi 1305 dollardan aşağı olmamalıdır.
2. Uzunmüddətli kreditdən səmərəli istifadə edilməsi üçün ölkədə iqtisadi, maliyyə və siyasi sabitlik olmalıdır.
3. Ölkədə tədiyyə balansının vəziyyəti aşağı olmalıdır.
4. Ölkənin əsas siyasəti iqtisadi inkişafa istiqamətlənməlidir.

Bu kimi tələblərin təsiri altında faktiki olaraq BİB- nin ayırdığı kreditin demək olar ki, əsas hissəsi hər nəfərə düşən illik gəlirin həcmi 800 dollaradək olan ölkələrə verilir. "Xüsusi köməklik proqramı" çərçivə

sində daha aşağı gəliri və borcu çox olan ölkələrə köməklik göstərilir.

Bu birliyin maliyyə vəsaitinin əsas hissəsi üç mənbə hesabına formalaşır:

1. BYİB-in mənfəətindən köçürmələr;
2. Üzv olan ölkələrin kapitalı;
3. BİB-In üzvü olan varlı və orta səviyyəli ölkələrin üzvlük haqları.

BYİB-In rəhbər işçiləri elə bu birlikdə də müvafiq vəzifələri yerinə yetirirlər.

Göstərməliyik ki, bu birliyin həyata keçirdiyi cəmi kreditləşdirmə 142 mlrd, dollara bərabərdir. Təkcə 2003-cü ildə kreditiəşdirmənin həcmi 7,3 mlrd, dollar olmuşdur. Həmin ildə 55 ölkədə 141 maliyyə əməliyyatı həyata keçirilmişdir.

BİB-in maliyyə ehtiyatlarının köməkliyi sayəsində milyonlarla uşaq ibtidai təhsil almağa nail ola bilmişlər. Təhsil, səhiyyə, su təchizatı və digər sahələrdə xidmət işlərinin yaxşılaşdınlması həyata keçirilir.

Bu birliyin büdcəsinə üzvlük haqqı kimi olan köçürmələr. Ümumdünya Bankına imkan verir ki, ildə 7- 8 mlrd, dollar kredit verə bilsin.

2003-cü ildə həmin kredit 81 yoxsul ölkəyə yüksək güzəştli şərtlərlə verilmişdir. Çox kasıb ölkələrə BİB faizsiz kredit verir. Bəzən də qaytarmamaq şərti ilə köməklik edir.

v) Beynəlxalq Maliyyə Korporasiyası (BMK). BMK 1956-cı ildə yaranmışdır. Müstəqil hüquqi şəxs olmaqla özünün Nizamnaməsi və maliyyə vəsaiti vardır. İqamətgahı Vaşinqtondadır (ABŞ). Bundan əlavə onun bir neçə bürosu fəaliyyət göstərir: Almaniyada

(Frankfurt), Böyük Britaniyada (London), Fransada (Paris), Yaponiyada (Tokio).

Lakin faktiki olaraq BMK BYİB-nin filialı və BMT- nin ixtisaslaşdırılmış müəssisəsi hesab edilir. Maliyyə təşkilatı olmaqla Ümumdünya Bankı qrupuna daxildir. 175 ölkəni özündə birləşdirir.

BMK BYİB-dən fərqli olaraq ölkə üzrə deyil, müəssisə üzrə maliyyələşdirmə aparmaqla "mikrosəviyyədə" fəaliyyət göstərir.

Beləliklə, BMK inkişaf etməkdə olan ölkələrdə xüsusi kapital qoyuluşu layihələrini birbaşa maliyyələşdirən dünyada ən böyük mənbə hesab olunur. Deməli:

— xüsusi sahibkarları maliyyələşdirir;

— İstər yerli İnvestisiya və İstərsə də xarici kapital hesabına yaradılmış müəssisələrin idarə edilməsinə köməklik göstərir;

— istehsal sahələrinə xüsusi kapitalın axmasına maraq göstərir.

BMK-nin 102 ölkənin maliyyələşməsinə qoyduğu cəmi kapitalı 1997-ci ildə 84,3 mlrd, dollara bərabər olmuşdur. 2003-cü ildə 64 ölkədə 204 layihə üzrə 3,9 mlrd, dollar həcmində vəsait xərclənmişdir.

Xüsusilə vurğulamaq lazımdır ki, BMK xüsusi bölmənin İnkişafına daha çox üstünlük verir. Xüsusi bölmədə öz fəaliyyətini genişləndirməklə, dövlət təminatına o qədər də ehtiyac duymur. BMK öz müştərilərinə səhm kapitalı və uzunmüddətli borc verir, investisiya risklərinin idarə edilməsinə köməklik edir və məsləhət xarakterli xidmətlər göstərir.

Bu birliyin əsas maliyyələşdirmə mənbəyi üzv olan ölkələrin üzvlük haqları və Nizamnamə kapitalı (2,4 mlrd dollar), BYİB-nin kreditləri, mənfəətdən ayırmalar.

kreditlərin qaytarılmasından yaranan vəsait və eləcə də beynəlxalq maliyyə bazarından cəlb olunan vəsaitlər hesab edilir.

Beynəlxalq Maliyyə Korporasiyası krediti 5-15 il müddətinə yüksək rentabelli xüsusi müəssisələrə verir. BYİB-dən fərqli olaraq burada hökumət kreditlərə təminat vermir.

Beləliklə, BMK xüsusi bölmələrdə həyata keçirilən layihələrin əlavə olaraq maliyyələşdirilməsinə köməklik etmiş olur. BMK hər hansı bir konkret layihənin dəyərinin 25%-i çərçivəsində öz iştirakını məhdudlaşdırır.

Son vaxtlar BMK özünün əsas vəzifəsi olan xüsusi kapital qoyuluşunun genişləndirilməsi ilə yanaşı texniki yardım sahəsində də öz fəaliyyətini artırmışdır. Burada əsasən iqtisadiyyatda, idarəçilikdə müəyyən yeniliklər, bilik əldə edilməsinə köməklik edilməsi, müəssisələrə məsləhətçilər göndərilməsi ilə yardım göstərilməsi nəzərdə tutulur. Bu sahənin maliyyələşdirilməsi texniki yardım fondu tərəfindən həyata keçirilir.

BMK-nin fəaliyyətinin əsas istiqamətləri. Beynəlxalq Maliyyə Korporasiyasının fəaliyyəti onun məqsəd və vəzifələrinin reallaşdırılması istiqamətində həyata keçirilir. Burada aşağıdakı istiqamətləri qeyd etmək olar:

— Bu təşkilata daxil olan ölkələrdə (xüsusilə inkişaf etməkdə olan ölkələrdə) xüsusi kompaniyalara borc verilməsi yolu ilə onların maliyyələşdirilməsini həyata keçirmək, sahibkarlığın inkişafına zəmin yaratmaq, öz xüsusi vəsaiti hesabına investisiya qoymaq (bu borclar 7-12 il müddətinə verilir);

— emal və hasilat sənayesi, kənd təsərrüfatı müəssisələri və turizm sahələrinə öz xüsusi vəsaiti hesabına investisiya qoyuluşunu həyata keçirir;

— infrastruktura və ətraf mühitin mühafizəsinin İnkişafı üçün xüsusi maliyyə vəsaitlərinin cəlb olunmasına köməklik edir;

— xarici tərəfdaşlarla birlikdə müştərək müəssisələr yaradılmasına, kiçik biznesdən ibarət sahibkarlığın inkişafına köməklik edir, texniki və məsləhət xarakterli yardım göstərir;

— istehsal təyinatlı obyektlərin layihəsini hazırlayır, qiymətləndirir, investisiyaya olan tələbatı müəyyən edir, xüsusi investorlar axtarılmasına köməklik göstərir;

— xüsusi və qarışıq kapital əsasında yaradılmış müəssisələrə müasir idarəçilik metodlarının mənimsənilməsində köməklik göstərir;

— üzv olan ölkələrin milli strateji inkişaf məsələlərində, maliyyə bölməsində, vergiqoyma sistemində BYİB ilə əməkdaşlıq edir;

— iqtisadi inkişafın və iqtisadi siyasətin hazırlanması, sahibkarlıq fəaliyyətlərinin əsas məqsədinin müəyyən edilməsi, marketinq planlarının tərtibi, xüsusi bölmənin inkişafı üçün maliyyə mənbələrinin müəyyən edilməsi, texniki yardım almaq imkanlarının öyrənilməsi və bu kimi problemlərin öyrənilməsində üzv olan ölkələrin hökumət və işgüzar dairələrinə tövsiyələr, məsləhətlər verir;

— BMK çərçivəsində yaradılan "Texniki **yardım** fondu" tərəfindən maliyyələşdirilən xüsusi firmalara texniki yardım edir;

— BMK-nin fəaliyyəti barədə yeni layihələr, yeni bazarlar barədə informasiya fəaliyyəti həyata keçirir.

BMK'Tiin ali orqanı Müdirlər Şurası hesab edilir. BYİB-nin Müdirlər Şurasının üzvləri eyni zamanda həmin Şuranın üzvü hesab edilirlər. BYİB-nin prezidenti BMK-nın da prezidenti sayılır.

Idarəedici Direktorlar da BYİB və BMK-da eyni vəzifəni icra edir. BMK-nın ümumi idarəçiliyi və cari əməliyyatlar 6 ərazi, 4 sahəvi və bir əməli departament tərəfindən həyata keçirilir.

Ərazi departamentləri aşağıdakı qrup dövlətlər üzrə bölünür:

1. Saxaradan Cənuba olan Afrika;
2. Asiya;
3. Orta Asiya; Yaxın Şərq və Şimali Afrika;
4. Avropa;
5. Latın Amerikası və Karib hövzəsi.

Sahələr üzrə olan departamentlər isə müəyyən fəaliyyət dairələri üzrə qruplaşdırılır. Burada:

1. Aqrar sahə üzrə sahibkarlıq;
2. Kimya, neftkimya, gübrə üzrə olan sahələr;
3. İnfrastruktura sahələri;

4. Neft, qaz və qaz-mədən sənayesi sahələrini qeyd etmək olar.

Funksional baxımdan olan departament isə Kapital bazarı və Korporativ Maliyyə Xidməti kimi dövlət müəssisələrinə və hökumətə özəlləşdirmə üzrə, xüsusi kampaniyalara isə təkmilləşdirmə məsələləri üzrə pullu məsləhət xidməti göstərir.

BMK-nın idarə heyəti BYİB-nin məsləhət şurasının nümayəndələri ilə vaxtaşırı görüşlər keçirir və BMK-nın siyasəti və fəaliyyəti işlənib müzakirə edilir.

BMK-nın maliyyə vəsaiti əsasən üzv olan ölkələrin üzvlük haqlarından, borc verilməsi müqabilində alınan faizdən, səhmlərin satışından olan gəlirlərdən, xidmət haqqlarından, BYİB-nin maliyyə yardımı və kreditlərdən ibarətdir.

q) İnvestisiya Təminatı üzrə Beynəlxalq Agentlik (İTBA). Bu Agentlik Dünya Bankının filialı hesab edilir. 1988-ci ildə yaradılmışdır. Lakin maliyyə cəhətdən asılı deyildir. İxtisaslaşdırılmış müəssisə kimi BMT sisteminə daxildir. Beynəlxalq Agentliyin ali orqanı Müdirlər Şurası hesab olunur. Agentliyin işinin operativ fəaliyyətinə Direktorluq cavabdehdir.

Direktorluq 209 üzvdən ibarətdir. BYİB-nin prezidenti direktorluğun sədridir. BYİB-nin vəzifəli şəxsləri və ştat üzrə işçiləri bu Agentlikdə rəhbər işlərdə işləyirlər.

Agentliyin 164 üzvü vardır (2005). Agentliyin əsas məqsədi aşağıdakılardan ibarətdir:

— İstehsal məqsədi ilə həyata keçirilən investisiyalara təminat verilməsi;

— qeyri-kommersiya risklərindən sığortalanmanı həyata keçirmək;

— hər hansı bir ölkənin tələbatına uyğun olaraq müəyyən layihələrin işlənməsi və iqtisadi cəhətdən əsaslandırılmasının təmin edilməsi;

— inkişaf etməkdə olan ölkələrə xarici kapital axınına stimul yaradılması məqsədi ilə texniki yardım göstərilməsi;

— informasiya fəaliyyətinin həyata keçirilməsi;

— investisiyanın birgə sığortalanmasını təmin edir;

— Beynəlxalq Konvensiyalara təminat verir;

— inkişaf etməkdə olan ölkələrə təminat verilməsi üçün layihələr və sifarişlər hazırlanmasına, bu sifarişlərin texniki-iqtisadi, ekoloji cəhətdən əsaslandırılmasına köməklik göstərir;

— inkişaf etməkdə olan ölkələrə birbaşa xarici kapitalın axması üçün lazım olan xidmətlər göstərir, yeni investisiya layihələri barədə informasiya yayır, marketinq proqramları hazırlanmasına köməklik göstərir və s.

Bütün bu məqsədləri üçün BİA çərçivəsində investisiya marketinqi xidməti yaranıbdır. Bu marketinq xidməti vasitəsi ilə investorlar və üzv olan ölkələr arasındakı əlaqələr genişləndirilir və zəruri tədbirlər həyata keçirilir.

Onu da qeyd etmək lazımdır ki, yerli valyutanın dönərli olmaması üzündən yaranan çətinliklər zamanı, mülkiyyətin zəbt edilməsi hallarında, yerli lxtişaşlar üzündən dəyən zərərlər, yerli ölkə tərəfindən müqavilənin pozulması və bu kimi hallarda Agentlik təminat verməyi öz öhdəsinə götürür.

Agentliyin maiiyyəiəşdirilmə mənbəyi üzv olan ölkələrin üzvlük haqlarından ibarət əsas kapital hesab olunur.

d) İnsvetisiya Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxaiq Mərkəz (İMTBM). Bu Mərkəz 1966-cı ildə yaradılıbdır. Dünya Bankı qrupuna daxildir. 2003-cü ildə 139 dövləti özündə birləşdirir. Bu vaxta qədər 129 mübahisəli məsələnin (arbitraj) həllinə baxıimışdır.

Mərkəz əsasən xarici investisiyaların artımını stimullaşdırır, onların beynəlxalq tənzimlənmə mexanizminə malikdir, investisiyalar üzrə mübahisələrin həllini arbitraj yolu ilə həyata keçirir.

Odur ki, İnvestisiya barədə bir çox beynəlxalq razılaşmalar bu mərkəzin arbitraj yolu ilə araşdırmalarına arxalanırlar.

Bu mərkəz arbitraj hüququ və qanunvericiliyi (xarici investisiyanın tənzimlənməsi barədə) sahəsində tədqiqat ilə və nəşrləri ilə də məşğul olur.

3. Beynəlxalq Hesablaşmalar Bankı (BHB)

Dünya miqyasında valyuta sisteminin tənzimlənməsində BHB böyük rola malikdir. Bu Bank Dünya Bankı və BVF-dən də əvvəl yaranmışdır. Deməli daha köhnə maliyyə qurumu hesab edilir.

BHB 1930-cu İldə Bazeldə (İsveçrədə) (Niderlandda-Haaqada) 6 ölkənin razılığı əsasında yaradılmışdır (Belçika, Böyük Britaniya, Almaniya, İtaliya, Fransa və Yaponiya). Faktiki olaraq bu bank həmin ölkələrin mərkəzi bankları tərəfindən yaranmışdır. Bunlarla yanaşı, burada ABŞ-nın bəzi xüsusi kommersiya bankları da iştirak etmişlər. ABŞ-ın federal ehtiyat bankı, Nyu-Yorkun federal ehtiyat bankı bu bankın işində yaxından iştirak edir. Dünya bankı və BVF-dən fərqli olaraq burada ABŞ deyil, Avropa ölkələri liderlik edir. Səhm kapitalının çoxu Avropa dövlətlərinin iri mərkəzi banklarına məxsusdur.

1931-1932-ci illərdə yenidən Avropa dövlətlərinin 19 mərkəzi bankı bu banka birləşmişdir. 2001-ci ilin axırlarına həmin bankın tərkibində 50-yədək bank səs hüququna malikdirlər. Bunlar aşağıdakı dövlətlərin mərkəzi banklarından və yaxud maliyyə qurumlarından ibarətdir;

Bu bank səhmdar cəmiyyəti hüququna malikdir, öz səhmlərini buraxmaq hüququ almışdı. Lakin Haaqa razılığına əsasən beynəlxalq təşkilat kimi beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstərir.

Bankın İsveçrədə yerləşməsinə baxmayaraq o, Bazelin hesab edilmir və Bazelin federal qanunçu- luğuna əsaslanmır.

BHB-nın yaradılmasında və fəaliyyətində əsas məqsəd aşağıdakılardan ibarətdir:

— mərkəzi banklar arasında əməkdaşlığın inkişafına köməklik etmək;

— beynəlxalq maliyyə əməliyyatlarının təmin edilməsini həyata keçirmək;

— üzv olan tərəflər arasında etibarlı hüququ şəxs kimi çıxış etmək və s.

Bu məqsədlə də bank mərkəzi bankların təqdimatına əsasən müəyyən əməliyyatlar apanr, qızılın aiınıb-satılması, mübadilə edilməsi, saxlanılması, eləcə də xarici valyutaların və qiymətli kağızların alınıb- satılmasını həyata keçirir.

Bütün bunlar üçün bu bank mərkəzi banklardan cari hesablara və əmanətə vəsait qəbul edir, onların qısa müddətli maliyyələşməsini həyata keçirir.

BHB-in ali orqanı səhmdarların ümumi iclası hesab edilir. Aydındır ki, ancaq mərkəzi bankların nümayəndələrinin iştirakı ilə hər il çağırılan yığıncaqlar keçirilir. Səslərin sayı müqavilə vaxtı ayrılan vəsaitin həcminə görə müəyyən edilir. Səsvermə vaxtı sahib olduğu səhmlərin həcmi rol oynamır. Hər il ümumi yığıncaq Bankın maliyyə hesabatını təsdiq edir. Bankın idarə edilməsi direktorlar şurası tərəfindən həyata keçirilir. Direktorlar Şurası 13 mərkəzi bankın idarə

müdiri tərkibində müəyyən edilir. Demək olar ki, yarandığı dövrdən BHB-in işində mütərəqqi təkmllləş- dlrmələr həyata keçirilir.

Bank geniş miqyasda maliyyə üzrə tədqiqat işləri aparır. Maliyyə-kredit müəssisələrinin fəaliyyətinə nəzarət etmək üçün "Bank nəzarəti üzrə Bazel komitəsi" yaradılmışdır.

Beynəlxalq və daxili ödəniş və hesablaşma sisteminin möhkəmlənməsi və etibarlı olması tədbirləri hazırlamaq məqsədi ilə "Ödəniş və hesablaşma sistemi üzrə Komitə" fəaliyyət göstərir. Dünya maliyyə bazarını qısa və uzun müddətə təhlil etmək üçün "Qlobal Maliyyə sistemi üzrə komitə" mövcuddur. Beləliklə Döviətlərarası Beynəlxalq İnstitut kimi BHB-in tənzimləyici rolu ardıcıl olaraq genişlənmişdir.

1960-cı illərdən BHB Avropa valyuta sisteminin sabitliyinin saxlanması üçün müxtəlif razılaşmaların, danışıqların mərkəzinə çevrilmişdir.

1970-ci İllərdən bu bank Avropa valyuta əməkdaşlığı fondu vəsaitini özündə saxlayır və Avropa valyuta sistemi daxilində valyuta kursunun sabitliyinə kömək edir.

1982-ci ildən BVF-dən kredit almaq istəyən ölkələrin banklanna müəyyən müddət üçün təminat verməyi və lazım gəldikdə kredit verməyi öz öhdəsinə götürmüşdür. Belə bir krediti Macarıstan, Meksika, Braziliya, Argentina, Yuqoslaviya götürmüşlər.

BHB ~ Avropa Kömür-Polad Birliyinin, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Avropa valyuta institutunun agenti rolu oynayır və beynəlxalq valyuta Klirinqi (döviətlərarası banklann nəğdsiz əməliyyatlannda) vasitəçi kimi çıxış edir.

Bank mərkəzi bankların müdirlərinin ardıcıl görüşlərini təşkil edir və bununla da dünya valyuta və kredit siyasətinin əlaqələndirilməsinə yardım göstərir.

Bank BVF və Dünya bankı İlə yaxından əlaqə saxlayır. Faktiki olaraq BHB beynəlxalq valyuta-kredit təşkilatına çevrilmişdir.

1998-ci ildən BHB və "bank nəzarəti üzrə Bazel Komitəsi"nin birgə gücü ilə "Maliyyə Sabitliyi İnstitutu" yaradılmışdır. Bu institut vasitəsi ilə dünya maliyyə sisteminin yaxşılaşdırılması və möhkəmləndirilməsinə köməklik göstərilir.

1998-ci ildə "Maliyyə sabitliyi forumu" (Mərkəzi) yaradılmışdır. Bu mərkəz vasitəsilə beynəlxalq maliyyə institutlarının, maliyyə bazarlarının, mərkəzi bankların agentlərlnln tənzimlənməsi həyata keçirilir.

4. Paris Klubu

Kreditlər ölkəsi adlanan Paris Klubu iqtisadi ədəbiyyatlarda "Onluqlar ölkəsi" kimi də vurğulanır. Bu Klubun yaradılması 1956-cı İldə Argentinanın xarici borc böhranı ilə də əlaqədardır. Bu dövlətlərarası təşkilat
1961- ci ildə Beynəlxalq Valyuta Fondu Müdirlər Şurasının qərarı ilə Parisdə yaradılıbdır.

ABŞ, İngiltərə, Fransa, Yaponiya, Almaniya, İtaliya, Belçika, Niderland və İsveç nümayəndələri imzaladıqdan sonra 1962-ci ilin oktyabrından bu müqavilə qüvvəyə minmişdir.

1964-cü ildən Kanada, 1982-cl ildən isə İsveçrə həmin qrupa daxil olmuşdur. Hazırda 19 dövlət daxildir. 1997-ci ildə Rusiya da bura daxil olmuşdur. Üzv olan ölkələrin Maliyyə Nazirləri növbə ilə klubun sədri

seçilirlər. Bu qrupun ilkin Kredit fondu 6 mlrd, dollar təşkil edirdi. Sonralar bu vəsait bir neçə dəfə artmışdı. Bu qrupun yaradılmasının əsas məqsədi BVF-in valyuta-kredit ehtiyatlarını artırmaqdan ibarətdir.

"Onluqlar qrupu" o qədər də müntəzəm fəaliyyət göstərmir. Bura üzv olan ölkələrin maliyyə nazirləri, mərkəzi bankların idarə müdirləri, İsveçrə bankının prezidenti İƏ və İT-in Baş Katibi, Al Komissiyasının sədr müavini və digər vəzifəli şəxslərin iştirakı ilə yığıncaqlar keçirirlər. Yığıncaqlar çox məxfi keçirilir.

Faktiki olaraq demək olar ki, bu qrup Qərb ölkələrinin valyuta-maliyyə çətinliklərini aradan qaldırmağa və BVF-in siyasətinə köməklik göstərir.

Qeyd etmək lazımdır ki, BVF-in bir çox qərarları, o cümlədən valyuta kursunun müəyyən edilməsi, BVF-in qızıl ehtiyatının satışı, borc və kredit verilməsi şərtlərinin müəyyən edilməsi və s. bu qrupun təsdiqindən sonra qəbul edilir. Bütün bunlarla yanaşı son vaxtlar 7-lər ölkəsinin iqtisadi məsələlərə dair apardığı danışıqlar həmin qrupun rolunu nisbətən azaltmışdır.

London Klubu

Bəzi Kommersiya bankları Paris klubunun təcrübəsindən İstifadə edərək hər hansı bir ölkənin xarici borclarının bu və ya digər formada tənzimlənməsi məqsədi İlə belə bir razılığa gəlmişlər. London Klubuna 400-ə qədər böyük xüsusi kredit institutu daxildir. Bu klub 1980-ci illərin əvvəllərində yaranmışdır. Bu klub da BVF ilə yaxından əlaqə saxlayır. Paris klubuna nisbətən London klubu ilə müəyyən əlaqə yaradılması, danışıq aparılması daha çətindir. Çünki bunun üzvləri demək olar ki, tamamilə xüsusi banklardan ibarətdir.

XII FƏSİL

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI - SİSTEMİ ÜZRƏ REGİONAL İQTİSADİ TƏŞKİLATLAR

1. *BMT-nin Avropa İqtisadi Komissiyası.*
2. *BMT-nin Asiya və Sakit okean ölkələri üçün İqtisadi və Sosial Komissiyası (ESKATO).*
3. *BMT-nin Qərbi Asiya ölkələri üçün İqtisadi və Sosial Komissiyası.*
4. *BMT-nin Latın Amerikası və Karib hövzəsi üçün iqtisadi Komissiyası.*
5. *BMT-nin Afrika ölkələri üzrə İqtisadi Komissiyası.*

1. BMT-nin Avropa İqtisadi Komissiyası

İqtisadi təşkilatların təsnifatında qeyd etdiyimiz kimi, BMT-nin birbaşa öz qurumiarı ilə yanaşı bu sistemə daxil olan və yaxud BMT çərçivəsində fəaliyyət göstərən regional iqtisadi təşkilatlar da mövcuddur. Bu təşkilatlar BMT sistemi çərçivəsində olduğu üçün xalis regional təşkilatlardan fərqlənirlər, onlar daha geniş fəaliyyət dairəsinə malikdirlər.

Bu təşkilatlarda hökumət səviyyəsində iqtisadi siyasətin əlaqələndirilməsi məsələləri həli edilir.

BMT-nin EKOSOS Orqanı çərçivəsində 5 regional İqtisadi təşkiiat (komissiya) fəaliyyət göstərir. Bunlar aşağıdakılardır:

BMT-nin Avropa İqtisadi Komissiyası. Əvvəlcədən qeyd etməliyik ki, bu iqtisadi komissiyam Aİ-nin Komissiyası ilə eyniləşdirmək olmaz.

Bu komissiya BMT Baş Assambleyasının qərarı ilə 1947-ci ildə yaradılıbdır. 1951-ci ildə BMT-nin daimi orqanı olmaq statusu almışdır. Katiblik Cenevrədədir. 55 dövləti özündə birləşdirir.

Beləliklə, demək olar ki, Avropanın bütün ölkələri və eləcə də ABŞ, Kanada və İsrail də bu komissiyanın üzvüdürlər.

BMT-nin üzvü olan hər bir ölkənin nümayəndəsi bu komissiyanın işində müşahidəçi və yaxud məsləhətçi kimi iştirak edə bilər.

Avropa iqtisadi komissiyasının fəaliyyəti Ümum- avropa məkanında baş verən proseslərlə və eləcə də Avropada təhlükəsizlik və əməkdaşlıq barədəki yığıncağın təklifləri ilə sıx bağlıdır.

Avropa iqtisadi Komissiyasının əsas məqsədi aşağıdakı cəhətlərlə xarakterizə edilir:

— Bu komissiyanın üzvü olan ölkələr və digər dövlətlər arasında iqtisadi münasibətlərin inkişafına və möhkəmlənməsinə köməklik etmək;

— Regionda yeni texniki və ticarət üzrə iqtisadi əməkdaşlığın əlaqələndirilməsi;

— Elm və texnika, iqtisadi proqnozlaşdırma və planlaşdırma, ticarət, ətraf mühit, energetika, sənayenin ayrı-ayrı sahələri, nəqliyyat, kənd təsərrüfatı, statistika, standartlaşdırma və digər sahələr üzrə əməkdaşlığın artırılması;

AİK iqtisadiyyat və texnika üzrə tədqiqat aparır, statistik materiallar üzrə İnformasiya toplayır və onu yayır. Bu sahədə ayrı-ayrı hökumətlərə təkliflər vermək

hüququna malikdir. Lazım olan hallarda daha yüksək orqan olan EKOSOS ilə razılaşmalar aparır.

AİK-BWIT-nin bir çox digər müəssisələri - qurumları ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq ayrı-ayrı proqram və layihələr hazırlanması, informasiya mübadiləsi, müəyyən sənədlərin hazırlanması təqdim edilməsi və digər sahələrdə həyata keçirilir.

AİK-in ali orqanı plenar sessiya hesab olur. Onun bütün üzvləri sessiyanın işində iştirak edirlər. Regionda iqtisadi siyasətin vəziyyəti ümumi şəkildə sessiyada müzakirə olunur və Komissiyanın bütün orqanlarının gələcək fəaliyyəti istiqamətləndirilir.

Plenar sessiya Komissiyanın əlaqələndirmə orqanı hesab edilir. Plenar sessiya xarici işlər nazirlərinin müavini səviyyəsində çağırılır.

AİK-ə katiblik xidmət edir, bu katiblik də BMT-nin katibliyinin bir hissəsi hesab edilir. AİK-in katibliyinin tərkibinə aşağıdakı qurumlar daxildir:

— məlumatlar sistemi qrupu;
— iqtisadi sorğu xidməti;
— ümumi iqtisadi təhlil şöbəsi;
— iqtisadi təhlil və proqnozlaşdırma şöbəsi;
— ticarət və texnika şöbəsi;
— energetika şöbəsi;
— nəqliyyat şöbəsi;
— ətraf mühit və yaşayış məntəqələri şöbəsi;
— statistika şöbəsi;
— kənd təsərrüfatı və meşə materialları şöbəsi.

AİK-in fəaliyyətində baş məsləhətçilər, işçi qrupları, ayrı-ayrı komitələr, statistiklər geniş iştirak edirlər.

AİK BMT-nin tərkib hissəsi kimi EKOSOS qarşısında hər il hesabat verir.

Müasir dövrdə komissiyanın işində ətraf mühitin qorunması, nəqliyyatın inkişafı, iqtisadi təhlil aparılması, kənd təsərrüfatı məhsulları üzrə standartlar hazırlanması və xarici ticarət üzrə olan bir çox prinsiplərin sadələşdirilməsi məsələləri üstünlük təşkil edir.

AİK çərçivəsində Mərkəzi və Şərqi Avropada ətraf mühitə dair proqram hazırlanması, eləcə də bütünlükdə Avropada belə bir proqram hazırlanması həyata keçirilir.

Son dövrlərdə Şərqi Avropa ölkələrində siyasi və sosial-iqtisadi vəziyyətin xarakterinin dəyişməsi, eləcə də Qərbi Avropada inteqrasiya proseslərinin genişlənməsi hər iki yarımqrup ərazi arasında əlaqələrin məzmununu dəyişmişdir. Bu isə özlüyündə AİK-in işinin xarakterinin dəyişməsinə təsir etmişdir.

2. BMT-nin Asiya və Sakit Okean ölkələri üçün İqtisadi və Sosial Komissiyası (ESKATO)

BMT-nin Asiya və Sakit Okean ölkələri üçün İqtisadi və Sosial Komissiyası 1947-ci ildə BMT-nin İqtisadi və Sosial Şurasının qərarı ilə yaradılıbdır. Bu təşkilat BMT-sistemində Asiya və Sakit okean regionu üçün iqtisadi və sosial inkişafın vahid mərkəzi hesab edilir. Bura 49 dövlət daxildir. Bunlar:

Bunlardan əlavə başqa dövlətlərin idarəçiliyində olan 10 ərazi də bura daxildir:

Şim Marian adası, Kuka adası, Fransa poline- ziyası, GUAM, Honq-Konq, Makao,Yeni kaledoniya, Niue, Palau, Amerika Samoası

Bu təşkilatın ali orqanı sessiya hesab olur. Sessiya hər il keçirilir. Katiblik, məsləhət şurası və komitələr fəaliyyət göstərir (Katiblik Banqokdadır - Tailand).

Proqramlar üzərində nəzarət və əlaqələndirmə idarəsi; kənd təsərrüfatı və kənd rayonlarının inkişafı şöbəsi; planlaşdırma şöbəsi; sənaye, yaşayış məntəqələri və ətraf mühit; Beynəlxalq ticarət və turizm şöbəsi; təbii ehtiyatlar şöbəsi; sosial inkişaf şöbəsi; nəqliyyat və rabitə şöbəsi; texniki əməkdaşlıq şöbəsi və s. katiblik çərçivəsində fəaliyyət göstərirlər.

Bütün bu komitələr ~ şöbələr ardıcıl olaraq iqtisadi və sosial problemlərin vəziyyətini öyrənir, təhlil edir və təkliflər hazırlayırlar.

1991-ci ildə Nazirlər səviyyəsində keçirilən konfranslarda bir çox problemlər üzrə, eləcə də 2000-ci ilə sosial inkişaf barədə regional strategiya proqramı qəbul edilmişdir. Burada əsasən regionda əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılması nəzərdə tutulmuşdur.

Asiya və Sakit okean ölkələri üçün iqtisadi və sosial komissiyasının (ESKATO) fəaliyyətində aşağıdakı problemlərin həllinə üstünlük verilir:

• Regionun iqtisadi və sosial inkişafına köməklik göstərillTiƏsl;

• Bu təşkilata üzv olan ölkələrə texniki yardım göstərilməsinin təmin edilməsi;

• Regionda iqtisadi inkişaf problemlərinin öyrənilməsi;

• Regionda ticarətin inkişafına köməklik göstərilməsi və dünyanın digər regionları ilə iqtisadi əlaqələrin möhkəmləndirilməsi və s.

Bütün bu kimi problemlərin həlli üçün həmin təşkilat öz fəaliyyətini aşağıdakı istiqamətlərdə həyata keçirir:

— Asiya, Uzaq Şərq və Sakit okean ölkələrinin kompleks inkişaf etdirilməsi;

— sənayenin, kənd təsərrüfatının və nəqliyyatın birgə inkişafı;

— milli inkişaf üzrə plan və proqramların əlaqələndirilməsi;

— sosial inkişaf, savadsızlığın və yoxsulluğun ləğv edilməsi, mənzil tikintisi, əhali artımı, işçi qüvvəsinin miqrasiyası, ətraf mühit və bu kimi problemlərin həll edilməsi;

— investisiya fəaliyyətinin, texnologiya verilməsinin, özəlləşdirmə və sahibkarlığın inkişafı və s.

Bütün bunlarla yanaşı, bu təşkilat çərçivəsində qrup ölkələr arasında müəyyən əməkdaşlıq formaları həyata keçirilir.

Bunlardan aşağıdakı əməkdaşlıqları qeyd etmək olar.

1. 1976-cı ildə inkişaf etməkdə olan 7 ölkə arasındakı (Banqkok müqaviləsi, Tailand) regiondaxili ticarətin liberallaşdırılması barədə müqavilə bağlanmışdır.

Bu müqaviləyə əsasən - Banqladeş* Çin, Hindistan, Koreya Respublikası, Laos, Papua-Yehi Qvineya və Şri-Lanka arasında ticarətin və iqtisadi əməkdaşlığın inkişafı nəzərdə tutulmuşdur.

2. Mekonq çayı (Tailand) üzrə 1957-ci ildə hökumətlərarası orqan yaradılıbdır. Aşağı Mekonq hövzə

sindən istifadə etmək, tədqiqat aparmaq, nəzarət etmək və s. barədə Kamboca, Laos, Tailand və Vyetnam arasında razılıq əldə edilibdir.

3. BMT Avropa İqtisadi Komissiyası (AİK) ilə birlikdə Mərkəzi Asiya üçün xüsusi proqram hazırlanıbdır. Burada Qazaxıstan, Tacikistan, Türkmənistan və Özbəkistana texniki yardım göstərilməsi nəzərdə tutulmuşdur.

3. BMT-nin Qərbi Asiya ölkələri üçün İqtisadi və Sosial Komissiyası

BMT-nin Qərbi Asiya ölkələri üçün İqtisadi və Sosial Komissiya 1974-cü ildə yaradılıbdır. Bura 14 ölkə daxildir:

Bəhreyn, Misir, İraq, İordaniya, Yəmən, Qatar, Küveyt, Livan, BƏƏ, Oman, Fələstin, Səudiyyə Ərəbistanı, Suriya.

Bu komissiyanın əsas məqsədi:

— Qərbi Asiya ölkələri arasında iqtisadi əməkdaşlığın genişlənməsi və inteqrasiyanın möhkəmlənməsi;

— region daxilində və digər ölkələrlə iqtisadi əlaqələrin artmasına köməklik göstərmək;

— iqtisadi və sosial məsələlər üzrə tədqiqat işləri aparmaq və üzv olan ölkələrə ekspertlərin məsləhətlər verməsi formasında köməklik göstərmək.

Bu komissiyanın ali orqanı hər il keçirilən sessiya hesab olur (Katiblik Əmmandadır- İordaniya).

İcraedici Katib - katibliyə rəhbərlik edir. Aşağıdakı köməkçi şöbələri vardır:

— İnkişafın planlaşdırılması;

— FAO ilə birləşmiş kənd təsərrüfatı; sənaye və təbii ehtiyatlar:

— Elm və texnika;

— Nəqliyyat və rabitə;

— Sosial inkişaf, demoqrafiya və yaşayış məntəqələrində texniki xarakterli bir çox tədbirlər, texniki şöbələr, proqramlar, qruplar və eləcə də məsləhətçilər tərəfindən həyata keçirilir. Komissiyanın fəaliyyəti BMT-nin büdcəsi və üzv ölkələrin üzvlük haqları hesabına formalaşır.

4. BMT-nin Latın Amerikası və Karib hövzəsi üçün İqtisadi komissiyası

BMT-nin Latın Amerikası və Karib hövzəsi üçün **iqtisadi komissiya 1948-ci ildə** BMT-nin İqtisadi və Sosial Şurasının (EKOSOS) qərarı İlə təsis edilmişdir.

O, regional, subregional və reglonlararası layihələrin maliyyələşdirilməsi üzrə icraedici orqan kimi çıxış edir. Bu maliyyələşdirilmə BMT-nin inkişaf proqramı (PROON) tərəfindən həyata keçirilir.

Bu komissiyanın tərkibinə 41 dövlət və 7 əlahiddə-xüsüsiləşmiş qurum daxildir:

Bu komissiyanın fəaliyyəti də başqa komissiyalar kimi əsasən iqtisadi problemləri və ictimai-iqtisadi həyatın müxtəlif tərəflərini əhatə edir, daha doğrusu:

— Ərzaq və kənd təsərrüfatı sahəsi; beynəlxalq ticarət; nəqliyyat; iqtisadi inkişafın maliyyələşdirilməsi; təbli ehtiyatlar və energetika; istehsal; məhsuldarlıq və İdarəetmə; elm və texnika; sosial inkişaf və humanitar problemlər; ətraf mühit və yaşayış məntəqələri; iqtisadi

layihələrin hazırlanması; peşəkar kadrların hazırlanması və s.

Komissiya milli və beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq edir.

Bu komissiyanın da rəhbər orqanı plenar sessiya hesab edilir. Plenar sessiya bu regionun müxtəlif ökələrində növbə ilə iki ildə bir dəfə keçirilir.

Katibliyə aşağıdakı şöbələr daxildir:

1. Planlaşdırma və operativ xidmət proqramı şöbəsi;
2. FAO-ilə birlikdə kənd təsərrüfatı şöbəsi;
3. İqtisadi inkişaf şöbəsi;
4. İqtisadi proqnozlaşdırma mərkəzi;
5. Transmilli Korporasiyalar üzrə birgə qrup;
6. BMT-nin sənayenin inkişafı üzrə (YUNİDO) təşkilatı ilə birgə sənaye texnikası şöbəsi;
7. Elm və texnika qrupu;
8. Beynəlxalq ticarət və İnkişaf şöbəsi;
9. Statistika və kəmiyyət üzrə təhlil şöbəsi;
10. Nəqliyyat və rabitə şöbəsi;
11 .Sənədləşmə və nəşr şöbəsi.

İqtisadi və sosial inkişafa qadınların cəlb edilməsi məsələləri də komissiyanın gündəlik fəaliyyətində əsas yeri tutur.

Köməkçi orqanlar olan hökumət ekspertlərindən ibarət Komitə regionda beynəlxalq inkişaf strategiyasının yerinə yetirilməsini təhlil edir. İnkişaf və əməkdaşlıq üzrə olan komitə milli iqtisadiyyatların inteqrasiyasına kömək edir. Bu komissiyanın fəaliyyəti BMT- nin büdcəsi və xüsusi üzvlərin üzvlük haqları hesabına ödənilir.

5. BMT-nin Afrika ölkələri üçün iqtisadi komissiyası (Af.İK)

BMT-nin Afrika ölkələri üçün İqtisadi komissiya EKOSOS tərəfindən 1958-ci İldə yaradılıbdır. 53 ölkəni özündə birləşdirir.

Afrika iqtisadi Komissiyasının əsas məqsədi:

— Afrikanın iqtisadi və sosial inkişafına köməklik etmək; İqtisadi və sosial inkişafa dair olan bütün fəaliyyətlərin əlaqələndirilməsi və razılaşdırılmasını həyata keçirmək;

— Afrika ölkələri arasında və eləcə də digər ölkələrlə iqtisadi əlaqələrin inkişafına köməklik göstərmək;

— iqtisadi və texnoloji problemlər üzrə tədqiqat aparılmasını genişləndirmək, informasiya yaymaq, məsləhət - xidmət göstərmək, peşəkar kadr hazırlanmasına yardım etmək;

— regionda iqtisadi və texniki inkişafa şərait yarada bilən siyasət işləyib hazırlamaq.

Bütün bunları həyata keçirmək üçün digər tədbirlərlə yanaşı planlaşdırma və operativ idarəçilik üzrə çoxmillətli mərkəz yaradılmışdır.

Bu cür beş mərkəz mövcuddur. Bunların hər biri regionun müxtəlif ökələri, yarım qrup ölkələr üçün cavabdehlik daşıyır:

Məsələn - Kamerunda olan mərkəz Mərkəzi Afrika üçün.

— Ruandada olan mərkəz - dəniz ölkələri adlanan Burundi, Ruanda, Zair üçün;

— Mozambik Mərkəzi-Şərqi və Cənubi Afrika üçün;

— Nigeriya Mərkəzi - Qərbi Afrika üçün;
— Mərakeş Mərkəzi-Şimali Afrika üçün.

Afrika İqtisadi Komissiyasının ali orqanı Nazirlərin Konfransı hesab olunur. Konfrans hər ildə bir dəfə çağırılır.

Bundan əlavə, Afrikanın iqtisadi inkişafı problemləri müzakirə edildikdə müxtəlif sahələrin Nazirlərinin görüşü keçirilir (maliyyə, iqtisadi planlaşdırma, sosial məsələlər, ticarət, nəqliyyat və kommunikasiya və s. sahələr).

Af.İK-in Katibliyinə aşağıdakı bölmələr daxildir;

— Ümumafrika sənədləri və informasiya bölməsi;
— Texniki yardım gösterilməsi üzrə əlaqələndirmə bölməsi;
— Siyasət və proqramların əlaqələndirilməsi bölməsi;
— İqtisadi əməkdaşlığın idarə edilməsi;
— idarəçilik və Konfransa xidmət göstərmək üçün olan şöbə;
— Sosial-iqtisadi tədqiqat və planlaşdırma şöbəsi;
— Kənd təsərrüfatı şöbəsi;
— Sənaye şöbəsi;
— Beynəlxalq ticarət və maliyyə şöbəsi;
— Afrika ticarət mərkəzi;
— Af.İK-ilə transmilli korporasiyalann birgə qrupu;
— Təbii ehtiyatlar şöbəsi;
— Texnika üzrə Afrika regional mərkəzi;
— Nəqliyyat, rabitə və turizm şöbəsi;
— Statistika şöbəsi;
— Çoxtərəfli proqramlaşdırma və operativ fəaliyyət mərkəzləri və s.

XIII FƏSİL

REGİONAL İQTİSADİ TƏŞKİLATLAR VƏ BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ ONLARIN ROLU

Qərbi Avropa Dövlətlərinin Regional İqtisadi Təşkilatlan

1. Avropa İttifaqmm (Al) yaranması tarixi.
AMn tərkibinə daxii oian təşkiiat və qurumiar.
2. Avropa İnvestisiya Bankı (AİB).
3. Avropa Yenidənqurma ve
İnkişaf Bankı (AvY və İB).
4. Avropa Neqiiyyat Nazirierinin Konfransı.
5. Avropa Mülki Aviasiya Konfransı.
6. Avropa Azad Ticarət Birliyi (AATB) və
Avropa İqtisadi Məkanı (AİM).
7. Aİ-də sahibkarlıq fəaliyyətinin tənzimlənməsi

1. Avropa İttifaqının yaradılması tarixi. Aİ-nin tərkibinə daxil oian təşkiiat və qurumlar

Əgər əvvəlki yüzillikləri nəzərə almasaq yalnız 1870-1945-cl illərdə Fransa və Almaniya arasında 3 dəfə qanlı müharibə olmuşdur. Böyük dağıntılar baş vermişdir. Odur ki, bəzi dövlət liderləri sülhün təmin olunmasını yeganə çıxış yolu hesab edirdilər. Dövlətlər

arasında inteqrasiya birliyi yaradılması məsələləri ön plana çəkilirdi.

Məlumdur ki, Avropa dövlətləri arasında çox mütəşəkkil inteqrasiya birliyi yaradılmışdır. İnteqrasiya prosesinin inkişafı özlüyündə BİM-in inkişafı amili kimi çıxış edir. Daha doğrusu BİM-in hərtərəfli inkişafında beynəlxalq ticarətin və TMK-ların rolunun artması ilə yanaşı İnteqrasiya birliklərinin yaranması da böyük əhəmiyyət kəsb edir. İnteqrasiya əlaqələrinin inkişafı özlüyündə BİM-ln inkişafı deməkdir. İnteqrasiya əlaqələrinin aparılması üçün yaradılan qurumlar, institutlar isə məhz tənzimləmə sistemini təşkil edirlər.

Odur ki, bu mövzuda inteqrasiya prosesinin şərhinə o qədər də geniş yer verilmir. Ancaq istər inteqrasiya daxili və istərsə də digər regional təşkilatların fəaliyyəti açıqlanır. Avropanın iqtisadi inkişafı üçün elə bir yeni inkişaf xətti yaratmaq lazım gəlirdi ki, bu bütün Avropanın Birliyi üçün zəmin hazırlaya bilsin. 1948-ci ildə Böyük Britaniyanın himayəsi ilə «Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı» yaradılmışdır. Eləcə də 1949- cu ildə Avropa Şurası yaradılmışdır. Lakin hər iki təşkilat müəyyən təkliflər, məsləhətlər verməklə kifayətlənirdilər.

Beləliklə 1950-ci ilin mart ayında ABŞ ilə Fransanın prezidentləri və Böyük Britaniyanın Baş Naziri Fransa ilə Qərbi Almaniya arasında bərabərhüquqlu inteqrasiya yaradılmasına dair plan hazırlanması barədə Fransanın Xarici İşlər Naziri Rober Şumana tapşırıq vermişlər. Rober Şuman belə bir layihə hazırlanmasını tanınmış iqtisadçı Jan Monneni cəlb edilmişdir.

Jan Monne bu layihəni 1950-ci ilin aprel ayında Şumana təqdim etmişdir. Burada Konkret olaraq kömür

və poladtökmə sənayesinin birlikdə idarə edilməsi məsələsi nəzərdə tutulurdu. Rober Şumanın bəyannaməsində birləşmiş Avropa quruculuğunun əsas prinsipləri aşağıdakılardan ibarət idi:

1. Birləşmiş Avropa quruculuğu birdəfəlik bir proses olmayıb, uzun bir dövrü əhatə edir.
2. Fransa ilə Almaniya arasındakı bu uzun müddətli əməkdaşlıq - iqtisadiyyat, maliyyə, texnologiya və bütün digər sahələri də əhatə etməlidir.
3. Bu əməkdaşlıqda əsas mərkəz Fransa-Alman kömür-polad istehsalı üzərində qurulur. Burada rəhbərlik Avropa kömür və polad Birliyi üzrə ali rəhbər orqana həvalə edilir.
4. Birliyin rəhbər orqanlarının qəbul etdiyi qərarlar məcburi qüvvəyə malikdir. Bu birliyə digər ölkələrin daxil olması ümumi razılıqlara əsaslanmalıdır.
5. İqtisadi mənafelərin birləşdirilməsində əsas məqsəd həyat səviyyəsinin artırılması, məşğulluğun yüksəldilməsi, bu birlik daxilində vətəndaşların sərbəst hərəkətinin və iqtisadi azadlığının təmin edilməsindən ibarətdir.

Beləliklə 1950-ci il iyun ayının 20-də Monnenin sədrliyi ilə dövlətlərarası komissiya öz işinə başlamışdır.

Beləliklə, **1951-ci ildə Paris** müqaviləsinə əsasən **Avropa Kömür və Polad Birliyi** yaradılmışdır. Müqavilə Almaniya ilə Fransa arasında bağlansa da İtaliya, Belçika, Niderland və Lüksemburq da müqaviləyə qoşulmuşlar.

Bu müqavilə **1952-ci ildən** qüvvəyə minmişdir. Qeyd etdiyimiz kimi ilk danışıqların əvvəllərindən Belçika, Niderland və Lüksemburq dövlətləri bu kimi

müqavilələrin gedişinə çox böyük əhəmiyyət verirdilər. Bu dövlətlərin görkəmli dövlət xadimləri - Xarici İşlər Nazirləri P.A.Spaak, I.Bayer və C.Bexin təşəbbüsü ilə 1955- ci ildə İtaliyada Beynəlxalq Konfrans çağırılmışdır. Burada əsas məsələ «Birliyin» daha da genişlənməsi idi. Həmin dövrdə Avropada atom enerjisi sürətlə inkişaf etdirilirdi. Odur ki, Avropa Kömür-Polad birliyinin prinsipləri əsasında «Atom enerjisi birliyi» yaradılması da təklif olunurdu.

Qanunauyğun olaraq bu 6 ölkə təkcə kömür və polad üzrə birlik yaradılması ilə kifayətlənməyərək Atom enerjisi üzrə də birləşmək barədə 1957-ci İldə mart ayının 25-də Romada (İtaliya) müqavilə bağlamışlar. Həmin müqaviləyə əsasən Avropa İqtisadi Birliyi yaratmışlar. Bu müqavilə 1958-ci ildə qüvvəyə minmişdi. Bir müddət bu birlik qeyri-rəsmi olsa da "Ümumi bazar" adlanırdı. 1968-ci ildən isə Avropa Birliyi adlanmışdır.

Beləliklə, həmin vaxtdan hazırki dövrədək Avropa dövlətləri arasında inteqrasiya prosesləri genişlənmiş, iqtisadi və valyuta ittifaqı formalaşmışdır. 1979-cu ildə hesablaşma vahidi olan - EKYU ^ (Avropa valyuta sistemi) yaranmışdır . 1987-ci ildə Vahid Avropa aktı qərarlaşmışdı.

Nəhayət, 1991-ci İlin dekabr ayında Hollandiyanın Maastrixt şəhərində Avropa Şurasının sessiyası olmuşdur. Sessiyada Avropa İqtisadi Birliyinin Avropa İttifaqı barədəki müqavilənin mətni bəyənilmiş və 1992- ci il fevral ayının 7-də həmin şəhərdə üzv olan ölkələrin nümayəndələri tərəfindən təsdiq edilmişdir. Bu

^ EKYU - Fr. EKU. Fransantn qədim qızıl və gümüş sikkəsi.

müqavilə **1993-cü il noyabr** ayının 1-dən qüwəyə minmişdir. Deməli, şərti olaraq 2 ay nəzərə alınmasa, **AİB-1994-CÜ il yanvar ayının 1-dən Avropa İttifaqı -** Aİ adlandırılmışdır.

Aİ öz fəaliyyətində ilk növbədə **üç problemi** ön plana çəkmişdir.

1. 1993-cü ildən Aİ-də vahid vətəndaşlığın qəbul edilməsi.

2. Siyasi İttifaqın formalaşdırılması. Burada daxili siyasətlərin yaxından əlaqələndirilməsi, inteqrasiyaya əsaslanan xarici siyasət yeridilməsi, hüquqi sistemlərin yaxınlaşdınlması və Aİ parlamenti rolunun artırılması nəzərdə tutulur.

3. İqtisadi və valyuta ittifaqının formalaşdırılması.

Avropa ittifaqının genişlənməsi mənzərəsi aşağıdakı kimi olmuşdur.

— 1957-ci il: Fransa, Almaniya, İtaliya, Belçika, Lüksemburq, Hollandiya.

— 1973-cü il: İngiltərə, Danimarka, İrlandiya.

— 1981-ci il: Yunanıstan

— 1986-cı il: Portuqaliya və İspaniya.

— 1995-ci il: Avstriya, Finlandiya və İsveç.

— 2004-cü II: Estoniya, Litva, Latviya, Çex Respublikası, Polşa, Kipr, Slovakiya, Malta, Macarıstan.

— 2007-ci il: Rumıniya və Bolqarıstan.

Beləliklə, 2007-ci ilə Aİ - özündə 27 ölkəni birləşdirir. Ardıcıl olaraq Aİ genişlənməkdədir.

Avropa İttifaqının tərkibinə aşağıdakı təşkiiat **və qurumlar daxildir.** Buna Al-nin təşkilatı quruluşu da demək olar:

1. Avropa Şurası - 1974-cü ildən ardıcıl olaraq fəaliyyət göstərir. 1986-cı İldə rəsmi hüquqi status alıbdır.

2. Avropa parlamenti - 1957-ci ildə yaradılıbdır
3. Aİ-nin Nazirlər Soveti
4. Avropa Komissiyası
5. Avropa Məhkəməsi

6. Avropa valyuta institutu və Avropa mərkəzi bankı (Almaniya)

7. Səhiyyə və Əməyin mühafizəsi üzrə Avropa agentliyi (İspaniya)

8. Tibbi pereparatların ixracı üzrə Avropa agentliyi (Böyük Britaniya)

9. Ətraf mühitin mühafizəsi üzrə Avropa agentliyi (Danimarka)

10. Avropa təhsil fondu (İtaliya)

11. Avropa peşəkar təhsili inkişafı mərkəzi (Yunanıstan)

12. Avropa İttifaqı tərcümə mərkəzi. Avropa patentlərinin Apellyasiya məhkəməsi (Belçika) və s.

Cədvəl №6

Aİ-yə daxil olan dövlətlər (2010)

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln nəfər
1.	Avstriya	84	8,4
2.	Belçika	30,5	10,8
3.	Böyük Britaniya	245	62,0
4.	Almaniya	357	82,0
5.	Macarıstan	93	10,0

6.	Danimarka	43	5,6
7.	İrlandiya	70.4	4,5
8.	İspaniya	506	40,3
9.	İtaliya	301	60,0
10.	Latviya	64,5	2,3
11.	Litva	65,2	3,6
12.	Estoniya	45,0	1.3
13.	Malta	0,316	0,400
14.	Lüksemburq	2,6	0,500
15.	Niderland	41,8	16,7
16.	Polşa	323	39,0
17.	Portuqaliya	92	10,6
18.	Slovakiya	49	5,4
19.	Sloveniya	20	2.1
20.	Finlandiya	338	5,2
21.	Fransa	552	61,0
22.	Çexiya	79	10,5
23.	İsveç	450	9,4
24.	JİBÜ _____	9,3	0,800
25.	Yunanıstan	132	11,3
26.	Rumıniya	238	21,5
27.	Bolqarıstan	111	7.4
		43415	492,6

2. Avropa İnvestisiya Bankı (AİB)

Avropa İnvestisiya Bankı Avropa Birliyinin maliyyə institutu hesab olunur. 1958-ci ildə Roma müqaviləsinə əsasən yaradılıbdır. Bu bankın Nizamnaməsi Avropa ittifaqı Nizamnaməsinin tərkib hissəsidir. Bankın əsas vəzifəsi Avropa İttifaqının qərarlarına əsasən müəyyən edilir.

AİB kapital bazarında öz vəsaiti hesabına əməliyyat aparmaqla birliyin ölkələri arasında investisiya qoyuluşunu maliyyələşdirir.

Bu bank heç də mənfəət götürməyi qarşıya məqsəd qoymur.

Layihələrin maliyyələşdirilməsinə yardım edir, borc verir, inkişaf etməkdə olan ölkələrə, Mərkəzi və Şərqi Avropa ölkələrinə güzəştli borc verir.

AİB-in fəaliyyəti aşağıdakı istiqamətləri əhatə edir:

— istər dövlətə və istərsə də xüsusi sahibkarlara sənayenin, kənd təsərrüfatının inkişafına, ekologiya sahəsinə və energetika infrastrukturasına, xidmət və kommunikasiya sahələrinin İnkişafına kredit verir.

— Avropa İnkişaf fondu, Avropa Sosial fondu və Avropa Kənd Təsərrüfatının İstiqamətləndirilməsi və Təminatı fondu ilə birlikdə investisiya proqramlarının maliyyələşdirilməsini həyata keçirir.

AİB - hər bir layihənin dəyərinin 50%-ə qədərlni maliyyələşdirir.

Digər maliyyə vasitəçiləri ilə məsləhətləşmələr aparmaqla daha böyük layihələri başqa borc hesabına maliyyələşdirir.

— Sənaye layihələrinin inkişafına 7-12 ilə, infrastrukturanın inkişafına 20 ilə uzun müddətli borc verir.

Borcun verilməsində bəzən valyuta bərabərliyi, bəzən bir valyuta, müxtəlif valyutalar. Avro, dönərli valyutalar əsas götürülür.

AİB-in idarə heyətinin qərarına əsasən AI-nin üzvü olmayan, lakin yaxın əlaqələr saxlayan ölkə və birliklərə də borc verilməsi nəzərdə tutulur.

AİB çərçivəsində "Müvəqqəti Edinburq Kredit* ləşmə fondu" (1992) və Avropa İnvestisiya fondu (1994) fəaliyyət göstərir.

3. Avropa Yenidənqurma və İnkişaf Bankı (AvY və İB)

Avropa Yenidənqurma və İnkişaf Bank 1990-cı ildə yaradılmışdır. 1991-ci ildən fəaliyyətə başlamışdır. Bankın təsis edilməsində 40 ölkə iştirak etmişdir. Hazırda isə onların sayı 57-dir. Bütöv bir qurum şəklində Avropa İttifaqı və Avropa İnvestisiya Bankı da bura daxildirlər.

Bununla yanaşı Ümumdünya bankı və BVF - ilə də yaxın əlaqə saxlayır. Şərqi Avropa ölkələrinə borc verilməsi barədə 1992-ci ildə bu bank ilə Yaponiyanın İxrac-İdxal bankı arasında razılıq əldə edilmişdir.

Avi və İB yüksək kredit reytinqi olan beynəlxalq maliyyə təşkilatı statusuna malikdir. Belə status bu banka beynəlxalq kapital bazarına çıxmağa daha geniş imkanlar verir. Beləliklə Beynəlxalq Kapital bazarından güzəştli şərtlərlə vəsait vermək imkanına malikdir. Bankın əsas məqsədi:

— İlk növbədə Mərkəzi və Şərqi Avropa ölkələrində əməliyyat aparmaq; bu ölkələrin bazar iqtisadiyyatı sisteminə keçməsinə köməklik etmək;

— Həmin ölkələrdə xüsusi sahibkarlığın inkişafına yardım etmək;

— Kommersiya bankları İlə inkişaf bankının funksiyalarını əlaqələndirmək və s.-dən İbarətdir.

Bank xüsusi və özəlləşdirilmiş müəssisələrə köməklik göstərəndə onların sponsor yardımı olmasını

və biznes-planı olmasını da məsləhət bilir. Xarici sponsoru olan obyektlərə daha tez kredit verir. AvY və İB Kommersiya müəssisələrinə 10 il müddətinə;

İnfrastrukturanın inkişafına, nizamnamə kapitalının təşkilinə 15 illiyə kredit verir.

Adətən bu bankın maliyyələşdirmə məbləği borc götürənin cəmi xərclərinin 35%-indən artıq olmur. Əlbəttə bu faiz dərəcəsi dəyişməz deyildir. İnfrastruktura sahələrinin maliyyələşdirilməsi üçün bankın inkişaf departamenti hökumət orqanlarından sifarişlər alır və layihənin yerinə yetirilməsində məsul şəxsi müəyyən edir.

xüsusi bölmənin inkişafına Bank çox yaxından köməklik edir. 200-dən çox layihənin maliyyələşdirilməsinə köməklik göstərmişdir. Bu layihələr özəlləşdirmə və quruluş islahatı, maliyyə bölməsinin inkişafı, iqtisadiyyat bölməsi, energetika, AES-in təhlükəsizliyi, kənd təsərrüfatı, nəqliyyat, turizm, telekommunikasiya, sosial bölmə, ətraf mühitin mühafizəsi və digər sahələri əhatə edir. Bank kapital bazannın inkişafına zəmin yaradır və qiymətli kağızlann yeriəşdirilməsinə təminat verir.

AvY və İB-in tərkibinə - 9 departament (bank əməliyyatları, maliyyə üzrə, layihələrin qiymətləndirilməsi, baş iqtisadiyyat şöbəsi və s.) daxildir. Bank əməliyyatları departamenti üç şöbədən ibarətdir. Bu şöbələr aşağıdakı qrupları əhatə edir.

— Ölkələr üzrə 10 qrup.

1. Azərbaycan, Qırğızıstan, Tacikistan, Türkmənistan
2. Baltlkyanı ölkələr, Belarusiya
3. Bolqarıstan, Albaniya, Makedoniya, Sloveniya

4. Çexiya, Slovakiya
5. Macarıstan
6. Qazaxıstan, Özbəkistan
7. Polşa
8. Rumıniya, Moldova, Xorvatiya
9. Rusiya
10. Ukrayna, Ermənistan, Gürcüstan

— **Ayrı-ayrı sahələr və fəaliyyət dairələri üzrə 13 qrup mövcuddur.**

Kənd təsərrüfatı; təhsil və peşə hazırlığı; energetika; maliyyə institutları; təbii ehtiyatlar; nüvə təhlükəsizliyi; özəlləşdirmə; quruluş islahatları; mülkiyyət; turizm; telekommunikasiya; nəqliyyat; ekologiya infrastrukturası və s.

— **Əməliyyata yardım qrupları.**

Bütün qrupların tərkibi Bankın üzvü olan ölkələrin dövlət və xüsusi bölmələrinin mütəxəssislərindən ibarətdir. Bankın təsis müqaviləsinə əsasən aşağıdakı fondlar yaradılmışdır:

— **Baltikyanı xüsusi investisiya fondu: Bu** fond Baltikyanı ölkələrində xüsusi bölmənin inkişafına köməklik edir.

Burada Danimarka, İslandiya, Norveç, Finlandiya, İsveç iştirak edir.

— **Baltikyanı xüsusi texniki yardım fondu.** Baltikyanı ölkələrə bazar iqtisadiyyatının inkişafına köməklik göstərir. Bu fondun işində də Danimarka, İslandiya, Norveç, Finlandiya və İsveç iştirak edir.

— **Rusiya xüsusi fondu** - Xüsusi bölmədə xırda biznesin inkişafını nəzərdə tutur.

— **Rusiya xüsusi texniki yardım fondu.**

AvY və İB-in ilkin kapitalı 10 mlrd. EKYU və yaxud 12.8 mlrd, dollar olmuşdur.

Bankın üzvü olmaqda - Aİ, Avropa Birliyi və Avropa İnvestisiya Bankının kvotası 51%;

Mərkəzi və Şərqi Avropa 13,5%;

Digər Avropa ölkələri 11,3%;

Qeyri-Avropa ölkələri 24,2%; təşkil edir.

Bankın cəmi kapitalının daha çox hissəsi aşağıdakı ölkələrə məxsusdur:

ABŞ - 10%; Almaniya, Fransa, İtaliya, Böyük Britaniya və Yaponiyanın hər biri 8,5% təşkil edir.

Bir qayda olaraq burada da kredit ehtiyatları adi və xüsusi ehtiyat fondlarına bölünür. Adi fonddan vəsait bazar şərtləri ilə verilir. Xüsusi fonddan isə rentabelliyi aşağı olan sahələrə, sosial infrastruktura sahələrinə kredit verilir.

Bu bank kreditinin 70%-ə qədəri xüsusi bölmənin inkişafına ayrılır.

Şərqi Avropa ölkələrinə qoyulan cəmi birbaşa investisiyanın 15%-ə qədəri bu bankın payına düşür.

4. Avropa Nəqliyyat Nazirlərinin Konfransı

Avropa Nəqliyyat Nazirlərinin Konfransı Avropa dövlətləri nəqliyyat nazirlərinin təşəbbüsü ilə 1953-cü ildə yaradılmışdır. İqamətgahı Parisdə İƏ və İT-in iqamətgahı ilə bir yerdədir. Ona görə də hər iki təşkilatın iqtisadi məsələlər üzrə katibliyi eynidir.

Təşkilatın 31 üzvü var:

Avstriya, Belçika, Bolqarıstan, Bosniya və Hersqovina, Böyük Britaniya, Macarıstan, Almaniya

Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Latviya, Litva, Estoniya, Lüksemburq, Moldova, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Türkiyə, Finlandiya, Fransa, Çexiya, İsveçrə, İsveç.

Bunlardan əlavə - 6 ölkə birlikdə - Avstraliya, Kanada, Yeni Zellandiya, Rusiya, ABŞ, Yaponiya da bura daxildirlər.

Azərbaycan, Albaniya, Ermənistan, Gürcüstan və Mərakeş də bu təşkilatın işində iştirak edirlər. Təşkilatın əsas məqsədi:

— Avropada daxili nəqliyyatın inkişafına köməklik etmək, onun beynəlxalq əhəmiyyətini artırmaq;

— Avropada daxili nəqliyyatla bağlı olan beynəlxalq təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsinə köməklik etmək.

Bu məqsədlə də aşağıdakı istiqamətlərdə iş apanlır:

— nəqliyyatın inkişaf istiqamətləri işlənib hazırlanır, investisiyaya olan tələbat dəqiqləşdirilir;

1996- cı ildə təşkilatın nazirlər soveti ekoloji nəqliyyat strategiyası barədə qərar qəbul etmişlər, bu məqsədlə dəmir yolu və çay nəqliyyatına üstünlük verilməsini xüsusi qeyd etmişlər;

— infrastrukturanın inkişaf istiqamətləri işlənib hazırlanmışdır;

— dəmir yolu, avtomobil yolu və çay nəqliyyatının inkişafı barədə konkret tədbirlər müəyyən edilmişdir;

— Mərkəzi və Şərqi Avropanın Avropa nəqliyyat bazarı İlə İnteqrasiyası probleminin həlli sürətləndirilir, bir çox eyni normalar, prinsiplər hazırlanır.

Beləliklə, Mərkəzi və Şərqi Avropa üçün də vahid qayda yaradılması ilə sərnişin nəqliyyatının yaxşılaşması baş verir.

5. Avropa Mülki Aviasiya Konfransı (AvMA)

Avropa Mülki Aviasiya Konfransı Avropa Şurasının təşəbbüsü ilə 1955-ci ildə yaradılıbdır. Burada Beynəlxalq Mülki Aviasiya təşkilatının da fəal rolu olmuşdur.

Bu təşkilatın tərkibinə aşağıdakı dövlətlər daxildir:

Avstriya, Belçika, Bolqarıstan, Böyük Britaniya, Macarıstan, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Kipr, Latviya, Litva, Estoniya, Lüksemburq, Malta, Moldova, Monako, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Türkiyə, Finlandiya, Fransa, Xorvatiya, Çexiya, İsveçrə, İsveç.

Bu təşkilatın yaradılmasının əsas məqsədi:

— Mülki aviasiyanın daha səmərəli istifadə edilməsi və təhlükəsizliyinin artırılması;

— üzv olan ölkələrin təklifləri, qərarları əsasında mülki aviasiyanın inkişafı problemlərinin konkretləşdirilməsi;

— Avropa ölkələrinə aid olan problemlərin həll edilməsi üçün Beynəlxalq Mülki Aviasiya təşkilatı ilə əməkdaşlığın artınıması və s.

Beləliklə, XIX-əsrin axırlarına kimi Avropada mülki aviasiyanın Avronaviqasiya və Avronəzarət deyilən sistemlərlə tam əlaqələndirilməsi proqramı başa çatmalıdır.

6. Avropa Azad Ticarət Birliyi (AATB)

1950-ci illərdə Avropa dövlətləri arasında inteqrasiya və birlik yaradılması prosesi başlanarkən Böyük Britaniya, Almaniya və Fransa ilə o qədər də İsti əlaqədə deyildi. Həmçinin ilk təşəbbüs həmin dövlətlər tərəfindən olduğu üçün İngiltərə burada da özünəməxsus qısqanclıq göstərirdi. Ona görə də 1951-1957- ci illərdə nə Kömür və Polad birliyinə, nə də Atom enerjisi birliyi barədəki müqaviləyə qoşulmadı. Aydındır ki, İngiltərənin bu hərəkəti bəzi digər ölkələrə də təsir etməyə bilməzdi.

Beləliklə, İngiltərə AİB-ə əks mövqedə olduğunu nümayiş etdirdi. 1960-cı ildə 11 dövlətin iştirakı ilə Avropa Azad Ticarət Birliyini (AATB) yaratdılar. Bu beynəlxalq birliyi Böyük Britaniya, Avstriya, Danimarka, Norveç, Portuqaliya, İsveçrə, İsveç, İslandiya, Lixtenşteyn, Finlandiya imzalamışlar.

AATB haqqında müqaviləyə əsasən üzv olan dövlətlər arasında Gömrük Tarifləri ticarətdə miqdar məhdudiyyətləri aradan qaldırılmışdır. Üzv dövlətləri üçüncü dövlətlərə qarşı münasibətdə də müstəqil siyasətlərə malikdirlər.

AATB-nin qərargahı İsveçrədə (Cenevrədədir) yerləşir,

AİB-ə nisbətən AATB-in quruluşu və vəzifələri daha sadə olmuşdur. Gömrük siyasəti ancaq sənaye mallarına tətbiq edilirdi. Üçüncü dövlətlərdən idxal edilən məhsullara vahid tarif tətbiq edilmirdi. Bir sözlə AİB ilə müqayisədə bu təşkilatın işləri o qədər də uğurlu olmamışdır. Burada milli çərçivədən üstün

dövlətlərarası institutlar yaradılmamışdır. Beləliklə bura daxil olan dövlətlərin bir çoxu seçim qarşısında qalmışlar. AATB fəaliyyətini möhkəmləndirmək və yaxud AİB-ə daxil olmaq. Nəticədə ardıcıl olaraq 7 dövlət AATB sıralarından çıxmış və AİB-ə daxil olmuşlar. Beləliklə hazırda AATB-də 4 dövlət - İsveçrə, Norveç, İslandiya və Lixtenşteyn fəaliyyət göstərir. Göründüyü kimi bu təşkilat o qədər də nüfuzlu qurum deyildir.

Avropa Azad Ticarət Birliyinin əsas məqsədi:

— İqtisadi fəallığın artmasına yardım etmək;

— Tam məşğulluğun təmin edilməsi;

— İstehsalın inkişafına yardım etmək;

— Müxtəlif resurslardan səmərəli istifadə edilməsi;

— Maiiyyə sabitliyinin təmin edilməsi;

— Üzv dövlətlərində həyat səviyyəsinin yüksəldilməsi;

— üzv olan dövlətlər arasında ticarətdə ədalətin rəqabət prinsiplərinin tətbiq edilməsi;

— Azad Ticarət zonasının ərazisində İstehsal edilən xammalın təminatında bərabərsizliyin aradan qaldırılması;

— Ticarətdə olan maneəçiliklərin tədricən aradan qaldırılması yolu ilə dünya ticarətinin dinamik inkişafına zəmin yaratmaq.

Avropa Azad Ticarət Birliyinin tərkibinə aşağıdakı qurumlar daxildir:

— AATB şurası;

— AATB-in katibliyi;

— Müxtəlif komitələr;

— AATB-in müşahidə orqanı;

— AATB məhkəməsi.

AATB - şurası. Bu şura AATB-i ifadə edir. Bu şura üzv dövlətlərin nümayəndələrindən ibarətdir. Şuranın görüşləri Nazirlər səviyyəsində təşkil edilir. Şura bu beynəlxalq müqavilənin qərarlarının yerinə yetirilməsinə nəzarət edir. Müəyyən tövsiyələr İşləyib hazırlayır, zəruri işgüzar komitələr yaradır, qərarların qəbul edilməsini həyata keçirir.

Şura ayda iki dəfə Nazirlər və ya daimi nümayəndələr səviyyəsində görüşlər keçirir. Cari işlərin yerinə yetirilməsi üçün aşağıdakı komitələr yaradılmışdır:

Gömrük ekspertləri; ticarət ekspertləri; iqtisadi komitə; məşvərətçi komitə; parlamentlər komitəsi; büdcə komitəsi.

AATB katibliyi.

AATB-in cari məsələləri ilə Katiblik məşğul olur. Katiblik İsveçrədə Cenevrə şəhərində yerləşir. Katibliyə Baş Katib rəhbərlik edir. Eyni zamanda Katiblik, Şuraya, Komitələrə və ekspert qruplarına texniki yardım göstərir. Bu birliyin icra orqanları Aİ-nin orqanlarından fərqli olaraq məşvərətçi funksiya daşıyırlar.

1994-cü ildə AATB ilə Aİ arasında **«Vahid iqtisadi** məkan» yaradılmasına dair müqavilə bağlanmışdır.

Bu müqaviləyə əsasən AATB-nIn iki orqanı yaradılmışdır: AATB-ni müşahidə orqanı və AATB məhkəməsi. Müşahidə orqanının qərargahı, Brüsseldə, AATB məhkəməsinin qərargahı isə Lüksemburqda yerləşir.

Cədvəl №7

Avropa Azad Ticarət Birliyi Dövlətləri (2010)

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln nəfər
	İsveçrə	41	7,8
	Norveç	324	4,9
	İslandiya	103	0,300
	Lixtenşteyn	0,160	0,036
		468,2	13,040

Avropa İqtisadi Məkanı (AİM)

Avropa İqtisadi Məkanı 1992-ci ildə Al-nin 12 dövləti və AATB-ln 7 üzvünün qərarı ilə yaradılmışdır. Bu razılaşma 1994-cü ildə qüvvəyə minmişdir.

Burada əsas məqsəd eyni normalar və şəraitə əsaslanan qurum yaratmaqdan ibarətdir.

Razılığa əsasən:

— əmtəə və xidmətlərin, kapitalın və İnsanların ölkələr arasında sərbəst hərəkətinə zəmin yartmaq;

— iqtisadiyyat, elmi tədqiqat, Istehlak, ətraf mühit, sosial siyasət, təhsil və digər sahələrin inkişafı üzrə siyasətin razılaşdırılması;

— ümumi norma və qayda yaradılması üçün hüquqi sistem işlənib hazırlanması nəzərdə tutulmuşdur.

AİM haqqında razılığa əsasən Al ilə AATB ölkələri arasında müəyyən kənd təsərrüfatı məhsullarının idxalı barədə. Al ilə İslandiya və Norveç arasında balıq tutmaq üzrə ikitərəfli razılıq əldə edilmişdir. AİM iki tərkibdən: Ali siyasi orqan olan Şuradan və Birləşmiş

Komitədən ibarətdir. İki məşvərətçi orqan mövcuddur. Məsləhətverici komitə və Birləşmiş parlament komitəsi.

1994-cü il müqaviləsinə əsasən AATB-ln 4 üzvündən üçü Aİ-yə müqavilə əsasında qoşulmuşdur. Dördüncü dövlət İslandiya isə Aİ İlə ikitərəfli müqavilə imzalamışdır. İsveçrə Avropa məkanına qoşulmaqdan İmtina etmişdir (Referendumun nəticələrinə görə).

Avropa İttifaqı və Azərbaycan

Azərbaycanın dünya miqyasında əlaqələri artdığı kimi Avropa İttifaqı İlə də genişlənmişdi, Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə əməkdaşlıq daha çox üstünlük təşkil edir. Qeyd etməliyik ki, bu əməkdaşlıq siyasətinin artmasının nəticəsidir ki, 1998-ci ildə Aİ öz xüsusi elçisini Azərbaycana göndərmiş və 2000-ci ildə Azərbaycan öz daimi nümayəndəliyini Aİ- də açmışdır. 1991-ci ildən başlayaraq Aİ - Azərbaycana müxtəlif formalarda yardım etmişdir (humanitar, texniki, ərzaq və s.). 1996-cı ildə Lüksemburqda Aİ ilə tərəfdaşlıq və əməkdaşlıq sazişi bağlanmışdır. Bu saziş 1999-cu ildə qüvvəyə minmişdir.

Bu sazişə əsasən Azərbaycanda aparılan iqtisadi islahatlar Aİ tərəfindən hərtərəfli dəstək alır və müxtəlif layihələr həyata keçirilir.

7. Aİ-də sahibkarlıq fəaliyyəti və onun tənzimlənməsi

Tənzimlənmənin əsas istiqamətləri. Avropa ölkələri arasında belə bir inteqrasiya prosesinin yaranması ilə bu birlik çərçivəsində və eləcə də ayrı-ayrı

dövlətlərdə sahibkarlıq fəaliyyəti daha da artmışdır. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi isə inteqrasiya qruplaşmasının mövcudluğu üçün real baza yaradır. Bu baza və yaxud mexanizm əsasən üç istiqamətdə fəaliyyət göstərir:

1. Aİ çərçivəsində vahid daxili bazarın mövcud olması ilə iqtisadi siyasətin tənzimlənməsi.
2. Xarici iqtisadi siyasətin tənzimlənməsi.
3. İnhisar əleyhinə qanuna riayət edilməsi əsasında sahibkarlıq fəaliyyətinə zəmin yaradılması.

Al çərçivəsində sahibkarlıq fəaliyyətinin tənzimlənməsində əsas məqsəd dövlətlərarası qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi, sahibkarlığın daha səmərəli aparılması, vahid daxili bazarın , iqtisadi və valyuta ittifaqlarının, gömrük ittifaqının fəaliyyətinə zəmin yaratmaqdan ibarətdir. Aydındır ki, bunun üçün də bütün təsərrüfat subyektləri üçün vahid qanunvericilik aktları yaradılır, milli qanunvericilik aktları uyğunlaşdırılır.

Al-nin vahid daxili bazarı çərçivəsində sahibkarlıq fəaliyyətinin tənzimlənməsi aşağıdakı istiqamətlərdə aparılır:

1. Kompaniyaların yaradılması və fəaliyyətinin təşkilati-hüquqi tənzimlənməsi;
2. Transmilli təsərrüfat əlaqələrinin genişlənməsi və Avropa kompaniyalarının yaradılması;
3. Vahid sənaye siyasətinin yeridilməsi;
4. Firmalararası təsərrüfatçılıq əlaqələri və işgüzarlıq praktikası sahəsində olan qanunvericilik aktlarının uyğunlaşdırılması;
5. Vahid bank qanunvericiliyinin qəbul edilməsi;

e.Vahid maliyyə xidməti bazarı yaradılması: vahid valyuta və maliyyə siyasəti yeridilməsi;

/.Sığorta işi və audit sahəsi üzrə qanunvericilik qəbul edilməsi;

S.Ticarət, sənaye əməkdaşlığı və kooperasiyası məsələləri üzrə vahid qanunvericilik aktı qəbul edilməsi;

Ə.Vergiqoyma sistemi üzrə uyğunluq yaratmaq, daxili vergiqoymada olan fərqləri aradan qaldırmaq;

10. Texniki normaların, standartlaşma və patentlərin uyğunlaşdırılması;

11. Zay məhsul buraxılmasına qarşı məsuliyyətin artırılması üçün qanunvericilik və normativ aktların qəbul edilməsi;

12. Nəqliyyat sahəsi üzrə qanunvericilik aktları qəbul edilməsi;

IS.Xarici investisiya barədə vahid qayda tətbiq edilməsi;

14. Kiçik sahibkarlığın inkişafına yardım göstərilməsi;

15. Daxili bazar çərçivəsində tənzimləmənin bu kimi istiqamətləri ilə yanaşı digər istiqamətləri ilə yanaşı digər istiqamətləri də qeyd etmək olar. Belə ki, məsələn, vahid gömrük ittifaqı çərçivəsində;

16. Vahid ticarət siyasətinin işlənməsi;

1/.Gömrük hüququ sahəsində milli qanunvericiliklərin razılaşdırılması;

IS.Vahid antidempinq siyasətinin işlənməsi;

19.Subsidiya və dövlət sifariş bazarının liberal-laşdırılması sahəsində vahid siyasət yeridilməsi nəzərdə tutulur.

Sahibkarlığın tənzimlənməsində inhisar əleyhinə tədbirlər sistemi də böyük rola malikdir. Bu sahədə aşağıdakı qanunvericiliklər əsas götürülür:

-rəqabət haqqında qanunvericiliyin olması;

-kompaniyaların başqalarına birləşdirilməsi və yaxud tam yox olması barədə qanunvericilik;

-kartel əleyhinə qanunvericilik.

Beləliklə demək olar ki, bütün sahələrdə milli dövlətlər və qanunvericilik aktlarını Al-nin vahid siyasəti tələblərinə uyğunlaşdırmağa çalışırlar. Qeyd etməliyik ki, belə bir mexanizm siyasəti tələblərinə uyğunlaşdırmağa çalışırlar. Qeyd etməliyik ki, belə bir mexanizm artıq formalaşmışdır. Bu isə Aİ-yə məxsus milli hüquqdan üstün qurumların rolunun artması deməkdir. Buradan da institusional tənzimləmə mexanizminə yol açılmış olur. Burada milli çərçivədən üstün tənzimləmədə bir tərəfdən milli təsərrüfatların spesifik cəhətləri, inteqrasiya birliyinin üzvü olmaları, digər tərəfdən isə Al-nin vahid iqtisadi siyasəti öz əksini tapmış olur. Burada qarşılıqlı anlaşılma, üzvü bağlılıq, vahid norma və standartların qəbul edilməsi əsas götürülür.

Al-də vahid daxili bazar çərçivəsində sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, kompaniyaların yaradılması və fəaliyyəti sahəsində təşkilati və hüquqi tənzimlənməsi Al-yə daxil olan dövlətlərdə birgə kompaniyaların yaradılması üçün eyniləşdirilmiş hüquq normalarının olması əsas şərtlərdən biridir. Bu cür eynilik 1957-ci il Roma müqaviləsinin müddəalarına əsaslanır. Məlumdur kl, 1957-ci İldə Roma müqaviləsinə əsasən Avropa İqtisadi Birliyi yaradılmışdır. Həmin müqavilənin 2-ci fəslində (52-58-ci bəndlər) üzv

olmaq hüququ haqqında göstərilmişdir ki, AİB-in üzvü olan hər bir şəxs, firma daimi bizneslə məşğul olmaq hüququna malikdir. O. üzv olan ölkələrdə öz filialını, agentliyini yarada bilər. Yenə də Roma müqaviləsinin 54.1 maddəsinə əsasən 1961-ci ildə Al şurası bu birlik daxilində müəyyən məhdudiyyətlərə qarşı baş proqram qəbul etmişdir. Müəyyən cəmiyyətlər, firmalar yaradılması barədə və onların arasında danışıqlar aparılması 220-ci bənddə öz əksini tapmışdır. Ayrı-ayrı ölkələrdə müəssisələrin təsnifatı, hüquqi vəziyyəti, yaradılma qaydası və s. cəhətdən müxtəliflik mövcud idi. Ona görə də 1960-cı İlədək Aİ-də kompaniyaların hüquqi vəziyyəti milli qanunvericiliklərlə müəyyən edilirdi.

1961-ci ildə Al-də vahid daxili bazar yaradılması ilə baş proqram qəbul edilmiş və və hər cür məhdudiyyətlərin aradan qaldırılması qərar alınmışdır. Bu proqrama əsasən Al sahibkarlıq fəaliyyətinin şərtlərini işləməyə başlamışdır.

Al-nin komissiyası aşağıdakı şərtləri əsas məqsəd kimi qoymuşdir:

-milli sərhədlərin aradan götürülməsi;

-kiçik və orta biznesin inkişafına yardım etmək; -Al çərçivəsində transmilli fəaliyyətə imkan yaradılması, transavropa kompaniyalarının yaradılmasına həvəs oyatmaq;

-üzv olan ölkələrin firmaları arasında kooperasiya əlaqələri yaradılmasına, rəqabət qabiliyyətinin artırılmasına əlverişli zəmin yaratmaq;

-vahid geniş daxili bazar yaratmaq.

Yaradılan kompaniyalar, firmalar barədə milli hüquqların eyniləşdirilməsi üzrə Al-nin komissiyası

direktivlər hazırlamışdır. Direktivlər Al şurası tərəfindən qəbul edilmişdir. Şuranın direktivlərində vahid normalar nəzərdə tutulmuşdur.

Birinci direktiv - 1968-ci ildə qəbul edilib, kompaniyaların qeydiyyatdan keçməsi şərtləri barədədir.

İkinci direktiv - 1976-cı ildə qəbul edilib, kompaniyaların mənsub olduğu kapitalın minimum həddi barədədir. Bu direktivə əsasən səhmdar kapitalının minimum həddi 25 min EKYU müəyyən edilir (1999-cu ildən EKYU avro ilə əvəzlənib).

Üçüncü direktiv - 1978-ci ildə qəbul edilib, firmaların qovuşması-birləşməsi barədədir.

Dördüncü direktiv - 1978-ci ildə qəbul edilib, mühasibat hesabatı barədədir.

Beşinci direktiv - 1983-cü ildə qəbul edilib, kompaniyaların quruluşu və işçilərin İştirakı barədədir.

Altıncı direktiv - 1982-ci ildə qəbul edilib, kompaniyaların artırılması barədədir.

Yeddinci direktiv - 1983-cü ildə qəbul edilib, birləşdirmək, gücləndirmək baxımından mühasibat hesabatı məsələsi barədədir.

Səkkizinci direktiv - 1984-cü ildə qəbul edilib, auditorların təsnifatı barədədir.

Doqquzuncu direktiv - 1984-cü ildə qəbul edilib, əsas ana və qız cəmiyyətləri arasındakı münasibətlər barədədir.

Onuncu direktiv - 1985-ci ildə qəbul edilib, beynəlxalq qovuşma-birləşmə barədədir.

On birinci direktiv - 1989-cu ildə qəbul edilib, firmalar haqqında məlumat verilməsi qaydası barədədir.

On ikinci direktiv - Vahid şəxsə məxsus kompaniyalar barədədir.

On üçüncü direktiv - 1988-cl ildə qəbul edilib, səhmlərin başqasına verilməsi qaydası barədədir.

Onu da qeyd etməliyik ki, 7 direktiv müvəffəqiyyətlə qəbul edilmişdir, qalan 6 direktiv İsə firmaların hesabatlarında nəzərə alınır. Hər halda vergiqoymada, kompaniyaların fəaliyyətində, heyətin İştirakı məsələsində, kompaniyaların İşgüzarlıq şəraiti və digər məsələlərdə eyniləşmə aparılmasında çətinliklər vardır.

1989-cu ildə Aİ-nin Şurası Transmilli firmaların fəaliyyətində eynilik yaradılması barədə qanun hazırlanmışdır. Bu eyniləşdirmə vergiyə cəlb etməyi də nəzərdə tuturdu. 1990-cı ildə TMK-dən ikiqat vergi tutulmasının ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

O vaxtdan da Al-də sahibkarlıq fəaliyyətində eynilik əsasında hüquq normaları formalaşdırılır.

Təsərrüfat əlaqələrinin transmilliləşməsi və Avropa şirkətlərinin yaradılması

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələsində Transmilli şirkətlərin yaradılması və onların fəaliyyətinin tənzimlənməsi də böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə kompaniyalar barədə ardıcıl olaraq qanunlar qəbul edilmişdir. (Aydındır ki, bu qanunlar Roma müqaviləsinə əsaslanırdılar). Məsələn Belçikada

1961-1985-ci illər arasında kompaniyalar barədə 7 qanun qəbul edilmişdir. Fransada 1966, 1981, 1982, 1984- cü illərdə kompaniyalar haqqında yeni qanunlar qəbul edilmişdir. İngiltərədə 1985-ci ildə qəbul edilmiş akt kompaniyalar haqqında əsas qanun hesab edilir. 1967, 1972, 1980, 1981-ci il aktları, kompaniyaların birləşdirilməsi aktı hesab edilir. 1965-ci ildə Almaniyada Səhmdar cəmiyyətləri barədə qanun qəbul edilmişdir. 1985- **ci** ildə Danimarka və İspaniyada kompaniyalar barədə yeni qanun qəbul edilmişdir. Yunanıstanda kompaniyalar barədə 1962-ci il qanununa, İrlandiyada 1963-cü il qanununa düzəlişlər edilmişdir.

Burada səlahiyyətlərin bölgüsü, kompaniyaların təsnifatı, səhmdar kapitalının yaradılması, mənfəətin bölüşdürülməsi və s. məsələlər öz əksini tapmışdır. 1981-ci ildə qəbul edilən aktda "Kiçik kompaniya" yeni anlayışı işlədilmişdi. Belə kompaniyalar məhdud hesabatlarla kifayətlənirdi.

Beləliklə, Avropada kompaniyaların nizamnaməsi formalaşmışdır. Avropa kompaniyaları nizamnaməsi Avropa İttifaqı Kompaniyalarının eyniləşdirilməsi hüququnun əsası hesab edilir. Qeyd etməliyik ki, Avropa Kompaniyaları Nizamnaməsinin birinci layihəsi Al-nin komissiyası tərəfindən 1970-ci ildə işlənmişdir.

Nizamnamənin quruluşu - Nizamnamə 2 hissədən ibarətdir:

- I hissədə ümumi müddəalar (hüquq forması, yaranma qaydası, minimum kapital, qeydiyyat qaydası və s.) əks olunmuşdur. Göstərilir ki, AK ən azı Al-nin müxtəlif ölkələrinin iki kompaniyasını birləşdirə bilər.

kütləvi kompaniyalar müstəqil olaraq AK-a çevrilə bilərlər. Bu şərtlə Al-nin digər ölkələrində onların filialları olmalıdır.

Bununla yanaşı Nizamnaməyə əsasən üçüncü ölkənin firmalarına AK-da iştirak etmək hüququ verilir, iki və yaxud bir neçə AK Holdinq firmasında xüsusi AK- da yarada bilərlər. AK-nın minimum kapitalı 100 min EKYU müəyyən edilir.

- II hissədə AK-ın yaradılması qaydası göstərilir. Birləşmə yolu ilə, Holdinq qaydasında, birgə qız cəmiyyətlərinin yaranması, AK-ın öz qız cəmiyyətlərinin yaranması və s.
- III hissədə AK-ın səhmdar kapitallarının yaranması əks olunur. Səhmlərin satılması qaydası, üzvlük haqqı ilə bağlı olaraq hüquqları, öhdəlikləri müəyyənləşdirilir.
- IV hissədə idarəçilik orqanları müəyyənləşdirilir. İki manqanı (dəstə) və yaxud bir manqan idarəçilik formaları fərqləndirilir.
- V hissədə illik mühasibat hesabatı aparılması qaydası, hesabatların dərc edilməsi, firmaların hesabatları, onların audit yoxlamaları əks olunur.
- VI hissədə AK-ların ləğv edilməsi qaydaları, əmlakın satılması qaydaları, qarşılıqlı ödəmələrin dayandırılması məsələləri öz əksini tapır.
- VII hissədə kompaniyaların bir-birini udması öz tabeçiliyinə keçirməsi şərtləri göstərilir.
- VIII hissədə vergilərin ödənilməsi qaydası əks olunur.
- IX hissədə AK-ların cərimələnməsi qaydası göstərilir.

Aİ-də vahid sənaye siyasəti

Başqa sahələrdə olduğu kimi sənaye sahəsinin də vahid hala salınması məqsədilə ardıcıl olaraq islahatlar aparılmış və müəyyən siyasət yeridilmişdir. Belə ki, 1990-cı illərədək Al çərçivəsində sənaye sahəsində aparılan siyasətdə mövcud quruluşun saxlanması, qismən yaxşılaşdırılması (kənd təsərrüfatı, kömür sənayesi, poladəritmə, gəmiqayırma sənayesi) əsas götürülürdü.

1990-CI ildə Al komissiyası "Açıq və rəqabətll iqtisadiyyatda Sənaye siyasəti" adı altında sənəd işləyib hazırlamışdır. Burada sənaye siyasətinin yeni prinsipləri formalaşdırılmışdır. Bu prinsiplər aşağıdakılardan ibarətdir:

- Çərçivə şəraitinə uyğun olaraq Al-nin İştirak çılarında quruluş dəyişikliyi bazarın və rəqabətin tələbləri səviyyəsində aparılmalıdır.
- Yüksək texnoloji sahələrə daha çox üstünlük verilməlidir.
- Ümumavropa üzrə sənaye siyasəti milli təşəbbüsü də tamamlamalıdır. Beləliklə, sənayenin bir çox sahələri üçün proqram sənədi işlənib hazırlanmışdır. Məsələn, ETTKl-nin təşkili; texniki standartlaşdırma; Avropa təsərrüfat hüququ; vahid nəqliyyat şəbəkəsi; enerji təchizatı və telekommunikasiya; işçilərin peşəkarlığının öyrənilməsi və s. belə proqramları "Praqmatik bazar sənaye siyasəti" adlandırmışlar. Avropanın yeni sənaye siyasəti İqtisadi artım siyasətinin bir hissəsi olmaqla bütünlükdə milli iqtisadiyyatı da əhatə edir:

o Bu tam fundamental tədqiqat olub hərtərəfli dövlət yardımım tələb edir.

• Kiçik, orta və iri müəssisələr arasında rəqabətə zəmin yaradılması nəzərdə tutulur.

• Sənaye siyasətinin əsas istiqamətlərindən biri kimi informasiya xidmətinin roluna üstünlük verilir.

• İxtisaslı işçilərlə kadr təminatı məsələsi də sənaye siyasətinin əsas istiqamətlərindən biri hesab edilir.

• Infrastrukturanın inkişafı ön plana çəkilir.

Beləliklə, qeyd etməliyik ki. Qərbi Avropa kompaniyaları üçün vahid bazar yaradılması onların təsərrüfat əlaqələrinin əsasını təşkil edir.

Al-nin iqtisadi siyasətində əsas yerlərdən birini də firmaların transmilliləşdirilməsi tutur. Müəssisələrin rəqabət qabiliyyətinin artmasına zəmin yaranmışdır.
1993- cü ildə bütün maniəçiliklər aradan qaldırılmışdır. Kapitalın hərəkətində liberallaşma prosesi artmışdır. Hələ 1968-ci ildən üçüncü ölkələrlə olan ticarət münasibətlərində vahid gömrük tarifləri tətbiq edilir.

Al-də rəqabətin tənzimlənməsi

Vahid bazar çərçivəsində azad rəqabətin təmin edilməsi 1957-ci ildəki Roma müqaviləsinin 35,37,85-94-cü bəndlərində nəzərdə tutulmuşdur. Aİ başqa sahələrdə olduğu kimi rəqabət sahəsində də vahid razılaşdırılmış siyasət aparır. Beləliklə də, firmalararası azad rəqabəti təmin etmiş olur.

Rəqabət sahəsində Al-nin vahid siyasətində aşağıdakı istiqamətlər əsas götürülür:

Kiçik və orta biznesin inkişafına həvəs göstərilməsi;

- Müştərək sahibkarlıq fəaliyyətinə yardım göstərilməsi;
- Amerika və Yaponiyanın TMŞ-ri ilə rəqabətə girə bilən iri kompaniyalar yaradılmasına yardım etmək;
- Firmalarda istehsalın təmərküzləşməsi işinə nəzarət etmək;
- İnhisar əleyhinə olan qanunvericiliyin təkmilləşdirilməsi.

Məlumdur ki, sahibkarlıq fəaliyyətinin tənzimlənməsində vahid inhisar əleyhinə qanunvericiliyin hazırlanması böyük əhəmiyyət kəsb edir.

İnhisar əleyhinə praktika

Məlumdur ki, 1990-cı illərdə istehsalda və kapitalda transmilliləşmə prosesi geniş miqyas almışdı. Odur ki, Al-də İnhisar əleyhinə praktikada 1990-cı illərdən artmışdır.

Beləliklə də, bu proses sahibkarlığın tənzimlənməsində əsas istiqamətlərdən birinə çevrilmişdir. Burada əsasən bazarda daha üstün mövqedə olan firmaların vəziyyəti nəzərdə tutulur. Daha doğrusu aşağıdakı cəhətlərə diqqət yönəldilir:

1. Bu üstün firmalar bazarı təmin edə bilirmi? Buraxılan məhsulların yenilənməsi baş verirmi?
2. Bazara daxil olan məhsulların rəqabət qabiliyyəti artırmı?
3. Məhsulun keyfiyyətinin artması təmin edilirmi?
4. Qiymətlərin elastikllyi baş ven’rmi?

Beləliklə, həmin üstün mövqedə olan müəssisələrdə rəqabət qabiliyyəti yaradılarsa, onlar inhisar əleyhinə tədbirlərə cəlb edilirlər.

Bazarda İnhisar əsasən istehlakın və kapitalın təmərküzləşməsi zəminində baş verir. Ona görə də inhisar əleyhinə praktikada firmaların birləşməsi və qovuşması prosesinə daha ciddi nəzarət edilir. İstehsalın təmərküzləşməsi prosesi inteqrasiya proseslərinin ən zəruri amilinə çevrilmişdir. Ona görə də Aİ orqanlarında istehsalın həddindən artıq təmərküziəşdiril- məsinə İcazə verilmir. Həddən artıq üstün mövqe tutmaq halları qadağan edilir. Bu məqsədlə 1989-cu ilin dekabr ayında Komissiyanın nəzarət etmək hüququ barədə “göstəriş” hazırlanmışdır. Daha böyük birləşmələr əsas nəzarət və tənzimləmə obyektinə çevrilmişlər. Bu böyük kompaniyaların cəmi dövriyyəsinin 2 mrid. EKYU-dan artıq olması qərarlaşırdı. Bu kompaniyada iki üzvün dövriyyəsi isə 250 mln. EKYU nəzərdə tutulmuşdur.

1990-cı ildə nəzarət haqqında qanun qüvvəyə minmişdir. Qanunda göstərilmişdir ki, əgər kompaniyaların birləşməsi normal rəqabətə maniəçilik göstərmirsə. komissiya müvafiq qərar çıxararaq bir ay müddətinə öz fikrini bildirir. Bu barədə aşağıdakı cəhətlər əsas götürülür, əvvəlcədən müstəqil olan iki və daha artıq firma bir müstəqil firma halına birləşə bilər. O firmaların əmlakı da yeni birliyin sərəncamına keçir.

XIV FƏSİL

MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA VƏ ASİYA DÖVLƏTLƏRİNİN REGİONAL İQTİSADİ TƏŞKİLATLARI

1 *Beynəlxalq Əməkdaşlıq Bankı.*
2. *Beynəlxalq İnvestisiya Bankı.*
3. *İqtisadi Əməkdaşlıq Təşkilatı.*
4. *Müstəqil Dövlətlərin Əməkdaşlığı.*
5. *GUAM Regional Təşkilatı.*
6. *Qaradəniz İqtisadi Əməkdaşlığı.*
7. *Qaradəniz Ticarət və İnkişaf Bankı.*

1. **Beynəlxalq Əməkdaşlıq Bankı**

Beynəlxalq Əməkdaşlıq Bankı 1963-cü ildə yaradılmış və 1964-cü ildən fəaliyyətə başlamışdır. Həmin ildən də BMT-nin katibliyi tərəfindən qeydə alınmışdır. Bank 9 ölkəni özündə birləşdirir. Bunlar: Bolqarıstan, Vyetnam, Kuba, Monqolustan, Polşa, Rusiya, Rumıniya. Slovakiya, Çexiyadan ibarətdir (əvvəllər Macarıstan və Almaniya da bura daxil idilər).

Bankın əsas məqsədi çoxtərəfli əməliyyatlarda həmin dövlətlərin hesablaşmalarını həyata keçirmək, qarşılıqlı İqtisadi Yardım Şurası ölkələrinin başqa ölkələrlə əməkdaşlığına köməklik etmək, başqa ölkələrlə olan əmtəə göndərmələrinə plan və hesablaşma nizamına, qarşılıqlı, öhtəçiliklərə əməl edilməsinə yardım etməkdən ibarətdir.

Bank yarandığı vaxtdan üzv olan ölkələr arasında İqtisadi əməkdaşlığın inkişafına və iqtisadi inkişafa xidmət edir.

Bank 1991-ci ilədək beynəlxalq hesablaşmaları, kredltləşmələri dönərli Rusiya pul vahidi olan rubl ilə həyata keçirirdi. 1991-cl ildən isə qarşılıqlı hesablaşmalar dönərli valyuta ilə aparılır.

Odur ki, bankın fəaliyyətində müəyyən çətinliklər də yaranmışdır. Banka həvalə edilmişdir ki, üzv olan ölkələrin bazar iqtisadiyyatı sisteminə keçməsinə köməklik göstərsin. Odur ki, bank əməliyyatlarının və bank xidmətinin həcmi xeyli artmışdır.

Bu beynəlxalq bankı saxlamaq üçün üzv olan ölkələr onun kommerisiya fəaliyyətinin artırılmasında müəyyən tədbirlər həyata keçirmişlər.

Bank kommersiya xarakterli müştərilərlə hesablaşma və kredit xidmətlərini artırmışdır. Son vaxtlardan bu bank bank müştərilərindən başqa - iri müəssisələrlə və xarici ticarət kompaniyaları ilə də geniş iş aparır.

Müştərilərin tapşırığı əsasında Bank Dünya Bankı praktikasında qəbul olunmuş bütün əməliyyatlan aparır: sənədləşmə əməliyyatları həyata keçirir, müştərilərin hesablaşmalarını aparır, təminat verir, depozitləri yerləşdirir, istiqrazların dəyişilməsi üzrə əməliyyat aparır, bank məsləhətləri və bir çox digər xidmət növləri həyata keçirir.

2000-ci ildən bu Bankın bütün yazışmalar şəbəkəsi dünyanın müxtəlif ölkələlərindən 300-dən artıq bankı əhatə edir. Burada 70 bank üzv olan ölkələrin payına düşür. Bütün yazışma münasibətlərində Rusiyadan - 16 kommersiya bankı, Bolgarıstandan - 12

Polşadan - 11, Çexiyadan - 7, Rumıniyadan - 7, Slovakiyadan - 5 bank iştirak edir.

2. Beynəlxalq İnvestisiya Bankı

Beynəlxalq İnvestisiya Bankı 1970-ci ildə Qarşılıqlı İqtisadi Yardım Şurasının üzvlərinin razılığına əsasən yaradılmışdır. Əsas məqsədi həmin ölkələr arasında uzunmüddətli və ortamüddətli kreditləşmə əməliyyatları aparmaqdan ibarət olmuşdur. 1991-ci ildən sonra Qarşılıqlı İqtisadi Yardım Şurasının dağılması ilə bağlı olaraq, bu bank çoxtərəfli əməliyyatları dönərli rublla deyil, dönərli valyuta ilə aparmağa keçmişdir. O vaxtdan da kredit münasibətlərində milli valyutalardan istifadə edilmir.

Bank özündə 11 dövləti birləşdirir: Bolqarıstan, Macarıstan, Monqolustan, Polşa, Rusiya, Çexiya, Slovakiya, Rumıniya, Kuba, Vyetnam, Yuqoslaviya.

1991-ci ildən sonra bu Bankın işində də köklü dəyişikliklər baş vermişdir. Kreditləşmədə yeni mexanizmlər işlənib hazırlanmışdır. Bu məqsədlə Bankın Şurası kredit və faiz siyasəti üzrə əsas prinsiplər müəyyənləşdirmişdir. Burada üzv olan ölkələrin iqtisadiyyatının müasir xüsusiyyətləri və onların xarici iqtisadi əlaqələrinin öyrənilməsi ön plana çəkilmişdir. Kreditləşmə sistemində iri müəssisələrdən müxtəlif mülkiy- yətll orta və kiçik müəssisələrə, müştərək müəssisələrə, nəqliyyat, turizm sahəsi İlə məşğul olan müəssisələrə keçidə üstünlük verilmişdir.

Son illərdə Bank layihələrin maliyyələşdirilməsinə, müəssisə və təşkilatlann kapitalında iştirak etmək işinə.

müəyyən obyektlərin birgə maliyyələşdirilməsinə daha çox üstünlük verir.

1991-ci ildən bu bank banklararası ümumdünya kommunikasiya sisteminə daxil olmuşdur.

3. İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT-EKO)

Məlumdur ki, daha ümumi, universal beynəlxalq təşkilatlarla yanaşı ayrı-ayrı ərazilər üzrə də bir çox beynəlxalq institutlar - qurumlar yaradılması zərurəti artmışdır. Azərbaycan Respublikası da müstəqillik əldə etdikdən sonra fəal surətdə istər ümumi və istərsə də regional təşkilatlara qoşulur. Belə təşkilatlardan biri də İqtisadi Əməkdaşlıq Təşkilatıdır. Bu təşkilat ilk əvvəllər - 1964-1979-cu illərdə də fəaliyyət göstərmişdir. "İqtisadi İnkişaf Təşkilatı" adı ilə İran, Türkiyə və Pakistanı birləşdirirdi. Bu ölkələr arasındakı texniki- iqtisadi və mədəni əməkdaşlığın inkişafı nəzərdə tutulurdu. Vaxt keçdikcə həmin təşkilat çərçivəsində bu ölkələr arasındakı iqtisadi əməkdaşlıq daha da genişlənmişdir. Qarşılıqlı ticarətin inkişafı və sabit iqtisadi artıma zəmin yaradılması məqsədi ilə bu təşkilat 1985-ci ildən "İqtisadi Əməkdaşlıq Təşkilatı" adlandırılmışdır. 1992-ci ilin noyabrında Azərbaycan, Türkmənistan, Tacikistan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan və Əfqanıstan da bu təşkilatın üzvlüyünə qoşulmuşdur. Beləliklə hazırda bura 10 ölkə daxildir. Elə buna görə də hər il noyabr ayının 28-i EKO günü kimi qeyd olunur. Bu təşkilata daxil olan dövlətlərin 8 mln. kv. km ərazisi və 400,0 mln. nəfərdən artıq əhalisi vardır.

İƏT-in genişlənməsindən sonra təşkilat yeni mərhələyə qədəm qoymuşdur. Təşkilatın fəaliyyətini artırmaq üçün fundamental struktur və fəaliyyət mexanizmi islahatları aparmaq tələb olunurdu. Bu məqsədlə 1995-ci ildə işçi qrupu yaradılmışdır. 1996-cı ildə İƏT Nazirlər Şurası qrupun tövsiyələrini 10 sənəd formasında təsdiq etmişdir.

1996- cı ilin sentyabr ayında İzmir şəhərində üzv dövlətlərin Xarici İşlər Nazirlərinin növbədənkənar görüşü keçirilmişdir. Burada təşkilatın yeni nizamnaməsi qəbul edilmişdir. 1997-ci ildən təşkilatın fəaliyyəti aşağıdakı 10 əsas sənəd əsasında aparılır:

1. İzmir müqaviləsi:
2. İƏT-in təşkilat quruluşu haqqında sənəd:
3. İƏT - katibliyinin təşkilat strukturu haqqında sənəd:
4. İƏT-in hüquqi statusu haqqında razılaşma:
5. İran İslam Respublikası və İƏT arasında İƏT katibliyinin hüquqları, imtiyazları və immunitetləri haqqında razılaşma:
6. İƏT - prosedur qaydaları:
7. İƏT - funksional metodologiyası:
8. İƏT - regionu üçün iqtisadi - əməkdaşlıq strategiyası:
9. İƏT - katibliyinin işçi heyəti haqqında qaydalar:
10. İƏT - katibliyinin maliyyə tənzimlənməsi haqqında sənəd.

İƏT-in (EKO-nun) aşağıdakı qurumları vardır:

1. Nazirlər Şurası (Bu İƏT-in ali orqanı hesab edilir) və Xarici İşlər Nazirləri şurası.
2. Müavinlər Şurası. Bu İƏT-in daimi fəaliyyət göstərən orqanı hesab edilir.

3. Regional planlaşdırma Şurası (İqtisadiyyat Nazirliyinin müavinlərindən ibarətdir).

4. İƏT-in Katibliyi. Bu Tehrandadır. Baş katib rəhbərlik edir. Bu baş katib Nazirlər Şurası tərəfindən 4 illiyə seçilir.

5. Əməkdaşlıq üzrə texniki komitələr (İqtisadi, ticarət, nəqliyyat və rabitə, sənaye, k/t-ı, təhsil, elm və mədəniyyət, energetika, infrastruktura və s.).

6. İƏT-in ixtisaslaşdırılmış agentlikləri; ticarət-sənaye palatası; Sığorta Mərkəzi (Karaçi); Sığorta Kompaniyası (İstanbul).

İƏT-in Nazirlər Şurası əsas qərar qəbul edən orqandır. Onun aşağıdakı səlahiyyətləri var:

1. Müxtəlif sahələrdə İƏT-in siyasətini, strategiyasını və iş proqramlarını təsdiq etmək;

2. Baş Katibi və onun müavinlərini təyin edir;

3. Regional planlaşdırma Şurasının, Daimi nümayəndələr Şurasının və İxtisaslaşmış agentliklərin hesabatlarını nəzərdən keçirmək və qəbul etmək;

4. Regional institutların hesabatlarını nəzərdən keçirmək;

5. Xüsusi komitələr təsis etmək;

6. Təşkilatın ilk büdcəsini və audit hesabatlarını təsdiqləmək;

7. Üzv dövlətlərin təşkilata ayırdıqları maliyyə vəsaitinin həcmini qiymətləndirmək və bu barədə qərar qəbul etmək;

8. Sammitlərin təşkil edilməsi və təxmini gündəliyin hazırlanması;

9. Sammitlərdə İƏT proqramlarının və layihələrinin həyata keçirilməsi haqqında hesabat təqdim etmək;

10. Bütün fiskal, inzibati və təşkilat! işlərin gedişi üçüq katibliyin işçi heyəti ilə və maliyyə cəhətdən təmin olunması.

Qeyd etmək lazımdır ki, İƏT-in əsas rəhbər və texniki orqanı Tehranda yerləşmişdir. Bu orqanların görüşləri, seslyalan isə növbə ilə üzv olan dövlətlərin paytaxtında keçirilir.

İqtisadi əməkdaşlıq təşkilatının əsas məqsədi:

1. İştirakçı ölkələr arasında tarif sistemində müəyyən maneələrin aradan qaldırılması;

2. Sənaye sahəsində birgə müəssisələr yaradılmasında əməkdaşlığın inkişaf etdirilməsi və burada regional bazarın əsas götürülməsi;

3. İnvestisiya bankının təsis edilməsi və iştirakçı dövlətlərdə xüsusi bölməni inkişaf etdirmək;

4. İştirakçı dövlətlərin sığorta şirkətinin İşinin vahid hala salınmasına köməklik göstərmək;

5. Həmin ərazi daxilində turizmin inkişafına zəmin yaratmaq;

6. Nəqliyyat sisteminin yaradılması;

7. Qarşılıqlı surətdə texniki və ekspert köməkliyi göstərilməsi;

8. İqtisadi Əməkdaşlıq Təşkilatının elm fondunun təsis edilməsi;

9. Bu iştirakçı dövlətlərdə gənclər fondunun təsis edilməsi;

10. Mədəni əməkdaşlığın inkişaf etdirilməsi;

11. İştirakçı dövlətlər arasında kütləvi informasiya sahəsində əməkdaşlığa köməklik göstərilməsi.

İƏT-in fəaliyyətinin müasir vəziyyəti. İƏT-in fəaliyyətinin müasir vəziyyəti əsasən aşağıdakı cəhətlərlə xarakterizə olunur.

Əvvəlcədən qeyd etməliyik ki, İƏT nisbətən gənc təşkilatdır. Onun iştirakçılarının bir qismi - İran, Pakistan, Əfqanıstan, hətta Türkiyə də beynəlxalq birliklərdə o qədər də təmsil oluna bilmirlər.

2. Bu təşkilatın digər üzvləri olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan isə açıq iqtisadiyyat sisteminə yeni keçmiş ölkələrdir. Bu ölkələr müstəqillik yolunda, beynəlxalq əlaqələrdə heç bir təcrübəyə malik deyildirlər.

3. Bu ölkələrin siyasi-strateji, ticarət-iqtisadi istiqamətləri, mənafeləri, iqtisadiyyatda və infrastrukturda qeyri-ardıcıllıq, bəzi ölkələrdə valyuta çatışmazlığı və s. kimi amillərin mövcud olması üzündən həmin təşkilatdakı əməkdaşlıq o qədər də gözə çarpa bilmir.

Bütün bunlarla yanaşı Pakistan, İran və Türkiyənin, Orta Asiya Respubiikaiarının bazarları uğrundakı rəqabətləri İƏT-in qeyri-sabitliyinə gətirib çıxarır. Eləcə də Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Xəzər Dəniz İqtisadi Əməkdaşlığı, Fars dilli ölkələrin birliyi və bu kimi paralel qurumların yaradılması da İƏT-in möhkəmlənməsinə əks təsir göstərə bilər.

Bütün bunlarla yanaşı İƏT-in işində və bu ölkələr çərçivəsində iqtisadi münasibətlərdə böyük irəliləyişlər də həyata keçirilməkdədir. Belə ki:

1. İƏT-in fəaliyyət proqramı qəbul edilmişdir.
2. İƏT çərçivəsində tarif dərəcələri barədə protokol imzalanmışdır.
3. Dəniz gəmiçiliyi sahəsində və eləcə də ticarət və inkişaf bankı yaradılması barədə layihələr hazırlanmasına dair razılaşmalar əldə edilmişdir.

4. Tehranda sığorta işinə dair birgə kollec yaradılmışdır.

5. İƏT çərçivəsi daxilində tranzit ticarətə dair razılıq əldə edilmişdir (Azərbaycan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Türkiyə, Tacikistan, Türkmənistan imza atmışlar).

6. İƏT-in çərçivəsində sahibkarlar üçün viza rejimi sadələşdirilmişdir (Əfqanıstan, Azərbaycan, İran, Qazaxıstan, Pakistan, Türkiyə, Türkmənistan İmza atmışlar).

7. İƏT-in gəmiçilik kompaniyasının və onun nizamnaməsinin təsis edilməsi razılaşdırılmışdır (bu sənədə Əfqanıstan, Pakistan, Türkmənistan və İran imza atmışlar).

8. Ticarət və İnkişaf Bankı yaradılması barədə razılıq əldə edilmişdir (Pakistan, Türkmənistan, İran imzalamışlar).

9. İƏT üzrə mədəniyyət İnstitutu yaradılması barədə razılıq əldə edilmişdir - 8 ölkə imzalamışlar.

10. İƏT üzrə elm fondu yaradılması qərara alınmışdır.

11. Sığorta kompaniyası yaradılmasına dair yazılı sənəd hazırlanmışdır (Pakistan, Türkiyə, İran imzalamışlar).

12. İƏT ilə BMT-nin inkişaf proqramı (PROON) və bəzi digər qurumlar arasında qarşılıqlı anlaşmaya dair sənədlər də hazırlanmışdır.

Hazırda Alma-Ata - Daşkənd - Tehran - İstanbul marşrutu üzrə tranzit magistral dəmir yolu çəkilməsi, Yaponiya, Koreya, Çin, Mərkəzi Asiya, Avropa transkontinental dəmiryolu dəhlizi yaradılması layihələri barədə qarşılıqlı danışıqlar gedir.

İƏT “ Hindistan və Çinlə əlaqələri genişləndirmək və onların bu quruma üzvlük məsələsini müzakirə edirlər.

İƏT-in nəqliyyat və kommunikasiya üzrə daimi komissiyası yaradılıbdır. Bu qurum regionda infrastrukturanın inkişafının sürətləndirilməsinə xidmət edir.

lƏT-in dövlət başçıları dəfələrlə göstərmişlər ki, əməkdaşlıq təşkilatının rolunun güclənməsi və bu təşkilatla digər beynəlxalq və regional təşkilatlar arasında qarşılıqlı faydalı əlaqələrin qurulması obyektiv zərurət təşkil edir. İƏT - bir çox beynəlxalq qurumlarla - o cümlədən Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, BMT- nin Narkotik vasitələrə Nəzarət üzrə Proqramı, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası, Ümumdünya Ticarət Təşkilatı, Ümum- dünya Səhiyyə Təşkilatı və s. ilə yaxından əməkdaşlıq edir.

Bütün bu iqtisadi münasibətlərdə hər bir dövlət öz milli mənafeyi baxımından iştirak edir. İƏT-in VI zirvə görüşündə Tehranda (2000-ci il iyunun 10-da) Azərbaycanın Prezidenti H.Əliyev İƏT - çərçivəsindəki iqtisadi münasibətlərin inkişafına böyük əhəmiyyət verərək göstərmişdir ki, ölkəmizdə xarici investorların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Xarici kapitalın ölkəmizə cəlb edilməsi üçün əlverişli şərait vardır.

İƏT-in üzvləri bir-birinin hər cür faydalı təcrübəsindən geniş istifadə edirlər. 2007-cl il iyun ayının 6- da Bakıda İƏT ölkələrində özəlləşdirmə təcrübəsinə dair seminar keçirilmişdir.

Bu seminarda 8 ölkənin - Azərbaycan, Türkiyə, İran, Pakistan, Əfqanıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın səlahiyyətli dövlət qurumlarının nümayəndələri və İƏT Katibliyinin məsul şəxsləri iştirak etmişlər.

Cədvəl N28

İqtisadi əməkdaşlıq təşkilatı ölkələri (2010)

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln nəfər
	Azərbaycan	86,6	9,0
	İran	1648	75,4
	Türkiyə	779,4	73,7
	Pakistan	796	176,3
	Türkmənistan	488	**6,2**
	Tacikistan	143	6,9
	Qırğızıstan	199	**5,4**
	Özbəkistan	447	27,4
	Qazaxıstan	2717	16,0
	Əfqanıstan	652	31,4
		7956	427,7

4. **Müstəqil Dövlətlər Birliyi (MDB)**

Məlumdur ki, bu əməkdaşlığın üzvüləri uzun müddət - təqribən 70 il eyni sosial-iqtisadi-siyasi sistemdə yaşamışlar. Vahid mərkəzləşdirilmiş planlaşdırılma mexanizminin tələbləri altında fəaliyyət göstərmişlər. 1970-ci illərdən sonra bu sistemə daxil olan ölkələrin təsərrüfatçılıq mexanizmində, planlaşdırma və

idarəçilik işlərində müəyyən dəyişikliklər özünü göstərirdi.

1979-cu ildə Sovet ittifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi ilə SSRİ Nazirlər Sovetinin birgə qərarı olmuşdur. Bu qərarda planlaşdırılmanın yaxşılaşdırılması və iqtisadi mexanizmin təkmilləşdirilməsi nəzərdə tutulurdu. Eləcə də 1980-ci illərdən başlayaraq bir çox iqtisadi və siyasi islahatlar keçirilməyə başlanmışdır.

1986-cı ilin fevral ayından idarəçilik sistemində və iqtisadiyyatda yenidənqurma - islahatlar genişlənmişdir.

1986- cı ilin noyabr ayında fərdi fəaliyyət barədə qanun qəbul edilmişdir (29 növ fərdi əmək fəaliyyəti, o cümlədən xüsusi müəssisələrin yeri göstərilirdi).

1987- ci ilin iyun ayında "Dövlət müəssisələri" haqqında (maliyyə müstəqilliyi), 1988-ci ildə kooperativlər haqqında (onların iqtisadi, sosial, təşkilat!, hüquqi tərəfləri barədə) qanun qəbul edilmişdir.

Bütün bu kimi İslahatlar - qanuni aktlar mərkəzləşdirilmiş planlaşdırma sisteminin əsasını laxladırdı.

Nəhayət 1990-cı ilin əvvəllərində partiya və konstitusiya quruculuğunda da islahatlar keçirilməsi barədə qərarlar qəbul edilirdi.

Beləliklə, 1989-1990-cı illərdə tənzim olunan bazar iqtisadiyyatı proqramı qəbul edilmişdir (bu proqram 1989-cu ilin axırlarında SSRİ Xalq deputatları Sovetinin 2-ci qurultayı tərəfindən qəbul edilmişdir).

Nəhayət 1991-ci ilin axırlarında (8 dekabr, 1991, Minsk) Rusiya, Belorusiya və Ukraynanın prezidentləri (Belorusiyada) SSRİ-nin buraxılması - ləğv edilməsi barədə razılığa gəlmişlər.

Aydındır ki, bu hadisə ayrı-ayrı ölkələr arasındakı istehsal-texniki, mədəni, elmi, təsərrüfat əlaqələrinin pozulmasına səbəb olmuşdur. Geniş təhlil aparmadan tam inamla qeyd etmək olar ki, SSRİ respublikaları arasındakı əlaqələrin və qarşılıqlı iqtisadi yardım Şurası çərçivəsindəki əməkdaşlığın birdən-birə pozulması nəticəsində dünya sosializm sisteminə dəyən zərərin həcmini İkinci Dünya müharibəsində həmin ölkələrə dəyən zərərlə müqayisə etmək olar (C.K). Burada bütün ictimai-iqtisadi siyasi, hərbi hadisələrin həcmi nəzərdə tutulur. İkinci Dünya Müharibəsindən sonrakı bərpa dövrü təqribən 10 ilə qurtardığı halda bu gün 1990-cu ildən 17 il keçməsinə baxmayaraq heç bir respublika hələ ki, əvvəlki səviyyəsini tam bərpa edə bilməyibdir (C,K).

Bir məsələni də qeyd etmək maraqlıdır ki, həddindən artıq böyük görünən SSRİ-nin cəmi əhalisi Çinin əhalisinin təqribən 25%-ni təşkil etdiyi halda, Çin vahid rəhbərliyi saxlamaqla geniş, hərtərəfli islahatlar aparmağa üstünlük verir. Bu mənada Çin modeli daha münasib model ola bilərdi.

Beləliklə Sosialist dövlətlərini birləşdirən Qarşılıqlı İqtisadi Yardım Şurasının dağılması ilə (1949-cu ildə yaradılmışdı) onun üzvü olan ölkələrin ictimai-iqtisadi quruluşunda da köklü dəyişikliklər baş verirdi. Yeni müstəqil dövlətlər formalaşırdı. Bununla yanaşı SSRİ-nin siyasi cəhətdən dağılmasına baxmayaraq bir çox sahələrdə vahid sistem qalmışdır. Bunlardan - vahid enerji sistemi, vahid nəqliyyat sistemi, telekommunikasiya, qarşılıqlı xalq təsərrüfatı kompleksləri, ümumi neft-qaz kəmərləri sistemi, işçi qüvvəsinin sərbəst hərəkəti, vahid texniki standartlaşdırma və s.

Ona görə də keçmiş SSRİ-nin ərazisində yeni bazar yaradılması imkanları da qalırdı.

Beləliklə yeni formalaşmış dövlətlərin rəhbərləri bu ölkələr arasındakı tarixi əlaqələrin bərpa edilməsinin vacibliyinə çox üstünlük vermişlər. 1991-ci ilin dekabr ayının 8-də Wlinsk şəhərində SSRİ-nin buraxılması aktı ilə eyni zamanda Rusiya, Beiorusiya və Ukrayna arasında yeni formada əməkdaşlıq barədə müqavilə imzalanmışdır. Dekabr ayının 21-də isə Alma-Atada (Qazaxıstan) Keçmiş SSRİ-nin tərkibində olan respublika rəhbərlərinin görüşü olmuş və 8 ölkə həmin müqaviləyə qoşulmuşlar.

Bunlar - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Tacikistan, Özbəkistan, Moldova və Ermənistan (1993-cü ildə Gürcüstan da bu birliyə qoşulmuşdur) respublikalarından ibarətdir.

Beləliklə 1991-ci ilin dekabr ayında Müstəqil Dövlətlər Birliyi yaradılmışdır. Bu prosesin formalaşdırılması barədə ilk təşəbbüslər, görüşlər 1992-ci ilin mart ayında Moskvada həmin ilin oktyabr ayında Bişkekdə, 1993-cü ildə Minskdə keçirilmişdir.

21 dekabr 1991-ci il (Alma-Ata) razılaşmalarında MDB-nin quruluşu da müəyyən edilmişdir.

MDB-nin Nizamnamə orqanları:

— Dövlət Başçıları Şurası;
— Hökumət Başçıları Şurası;
— Xarici İşlər Nazirləri Şurası;
— Müdafiə Nazirləri Şurası;
— Sərhəd qoşunları Komandanlığı Şurası;
— Parlamentlər arası Assambleya;
— İqtisadi məhkəmə.

MDB-nin icra orqanları:

— İqtisadi Şura;

— üzv dövlətlərin daimi səlahiyyətli nümayəndəlikləri şurası;

— İcraçı Komitə.

MDB sahələrarası əməkdaşlıq orqanları:

— Anti-Terror Mərkəzi;

— Dövlətlərarası Bank;

— Dövlətlərarası statistika komitəsi;

— Standartlaşdırma, metreologiya və sertifikasiya üzrə dövlətlərarası şura;

— Anti-inhisar siyasəti üzrə dövlətlərarası şura;

— Əmək, miqrasiya və əhalinin sosial müdafiəsi üzrə məşvərətçi şura;

—Rabitə sahəsində məlumatlandırma üzrə dövlətlərin əlaqələndirilməsi şürası;

— Elektro enerji şurası;

— Avrasiya və hava məkanının istifadəsi üzrə dövlətlərarası şura;

—Üzv ölkələrin statistika xidmətlərinin rəhbərləri şurası;

— Birliyin gömrük xidmətlərinin rəhbərləri şurası.

MBD-nin ali orqanı dövlət və hökumət başçılarının Şurası hesab edilir. 1992-ci İlin mart ayında Alma- Atada parlamentlərarası assambleya yaradılmışdır (iqamətgahı Sankt-Peterburqdadır).

1993- cü ildə (24 sentyabrda) Moskvada MDB - dövlətlərinin Müdafiə Nazirləri Şurası və Xarici İşlər Nazirləri Şurası təsis edilmişdir. Həmin ildən İcraedici Katiblik (iqamətgahı Minskdədir) fəaliyyət göstərir. Eləcə də Xarici İqtisadi Müəssisə və Təsisatlar üzrə

rəhbərlər Şurası, Neft və Qaz üzrə hökumətlərarası Şura, İqtisadiyyatın digər sahələri üzrə hökumətlərarası Şura fəaliyyət göstərir.

MDB - yarandığı vaxtdan xarici siyasət, təhlükəsizlik və müdafiə sahəsi üzrə siyasət, İqtisadi və maliyyə siyasəti kimi sahələr üzrə vahid siyasət yeridilməsi gündəlik tələbata çevrilmişdir.

1993-cü ildə iqtisadi İttifaq yaradılması barədə razılıq əldə edilmişdir.

Burada aşağıdakı cəhətlər nəzərdə tutulmuşdur:

— Əmtəələrin, Xidmətlərin, Kapital və işçi qüvvəsinin sərbəst hərəkəti;

— pul-kredit münasibətlərində, büdcə, qiymət və vergiqoymada, valyuta və gömrük dərəcələrində razılaşdırılmış siyasət yeritmək;

— azad sahibkarlığın və investisiyanın inkişafına zəmin yaratmaq, ayrı-

ayrı müəssisə və sahələr arasında istehsal kooperasiyasının inkişafına yardım etmək;

— təsərrüfatçılıq qanunlarının razılaşdırılması.

Bu razılaşmaya əsasən üzv olan ölkələr aşağıdakı beynəlxalq hüquqi prinsiplərə əsaslanmalıdırlar:

— biri-birinin daxili işlərinə qarışmamaq, insan hüququna və azadlığına hörmət etmək;

— qəbul edilmiş öhtəçiliklərə məsuliyyətlə yanaşmaq;

— hər hansı bir münaqişənin sülh yolu ilə həll edilməsi və bir-birinə qarşı iqtisadi təzyiq tətbiq edilməməsi;

fiziki və hüquqi şəxslərə qarşı münasibətdə hər hansı bir milli və digər əlamətlərə görə ayrı-seçkiliyə yol verməmək.

Bütün bu kimi cəhətlərin və prinsiplərin ümumiləşdirilməsi ilə MDB-nin iqtisadi İttifaqı öz məqsədini müəyyənləşdirmişdir:

— üzv olan ölkələrdə iqtisadiyyatın sabit inkişafının formalaşdırılması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması;

— bazar münasibətləri əsasında mərhələ-mərhələ ümumi iqtisadi məkanın yaradılması;

— bütün təsərrüfat subyektləri üçün bərabər imkanlar və təminat yaradılması;

— ümumi mənafeyə uyğun olaraq birgə iqtisadi layihələrin həyata keçirilməsi;

— ekoloji problemlərin həllində, təbii fəlakətin aradan qaldırılmasında birgə fəaliyyət göstərmək.

İqtisadi ittifaq bu kimi vəzifələri yerinə yetirməklə ardıcıl olaraq inteqrasiya prosesini genişləndirir və aşağıdakı mərhələləri nəzərdə tutur.

— Azad Ticarət Birliyi;

— Gömrük İttifaqı;

— Əmtəə, Xidmətlər, Kapital və işçi qüvvəsi üzrə ümumi bazar yaradılması;

— valyuta ittifaqı yaradılması.

Onu da qeyd etməliyik ki, MDB daxilində müəyyən qrup dövlətlərarası inteqrasiya əlaqələri müxtəlif səviyyədə formalaşır. Belə ki, 1995-ci ilin yanvarında Rusiya, Belorusiya və Qazaxıstan arasında Gömrük İttifaqı barədə müqavilə bağlanmışdır, 1998-ci ildə Tacikistan və Qırğızıstan da bu müqaviləyə qoşulmuşlar. Bu subregion birliyi 1998-ci ildə Avropa Asiya İqtisadi Birliyinə çevrilmişdir.

2000-cl ilin oktyabr ayında Astanada (Qazaxıstan) Rusiya, Belorusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistan **Avrasiya İqtisadi Birliyi** yaratmaq barədə müqavilə bağlamışlar. 2005-ci ildə Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistandan ibarət Mərkəzi Asiya İqtisadi Birliyi də **Avrasiya İqtisadi Birliyinə qoşulmuşdur.**

Cədvəl №9

Müstəqil Dövlətlər Birliyi (2010)

№	**Dövlətlərin adı**	**Ərazisi min kv. km.**	**Əhalisi mln nəfər**
1	Rusiya	17075	143
2	Belarus	208	9,5
3	Ukrayna	604	46,0
4	Azərbaycan	86,6	9,0
5	Qazaxıstan	2717	16,0
6	Özbəkistan	447	27,4
7	Qırğızıstan	199	5,4
8	Tacikistan	143	6.9
9	Türkmənistan	488	6.2
10	Moldova	34	3,7
11	Ermənistan	30	3,3
		22032	276,4

5. GUAM - AVRASİYA Subregional Təşkilatı

MDB ölkələri arasında yaradılan subregional qruplaşmalardan biri də GUAM təşkilatıdır. Bu təşkilat 1997- ci ildə Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova arasında yaradılmışdır.

Bəzən GUAM-ın yaranmasının obyektiv əsasları aşağıdakı amillərlə İzah edilir: Bu dövlətlərin MDB-də təhlükəsizlik müqaviləsində iştirak etməməsi; bu dövlətlərin hər birinin ərazisində "etnik münaqişələrin" mövcud olması və MDB-nin (xüsusilə Rusiyanın) bu işin həllində "bitərəf mövqeyi; bu ölkələrin ölkədaxili, regional və beynəlxalq münasibətlərə baxışlarında olan yaxınlıq; vahid iqtisadi, sosial və siyasi məqsədlərinin mövcudluğu və s.

Beləliklə, bu dövlətlərin başçıları ilk dəfə 1997-ci ildə Strasburq (Fransa) görüşü zamanı Nəqliyyat Enerji üzrə öz qüvvələrini birləşdirmək barədə razılığa gəlmişlər.

Bu təşkilat hazırki vəziyyətə düşənədək ümumiləşdirilmiş halda bir neçə mərhələ keçmişdir:

1. 1997-ci ilin oktyabr ayının 10-da Avropa Şurasının Starsburqda keçirilən Sammiti - forumu:
2. 1997-98-ci illərdə Kopenhagendə və Osloda xarici işlər Nazirləri səviyyəsində siyasi məsləhətləşmələr keçirilməsi;
3. 2001-ci ildə GUAM - dövlət başçılarının sammiti çərçivəsində GUAM-ın Yalta Xartiyası;
4. 2006-cı ilin mayında GUAM -ın Kiyev Sammitində «Demokratiya və İqtisadi inkişaf uğrun- da təşkilat» adlandırılması və təşkilatın nizamnaməsinin imzalanması və s.

Bu qurumun yaradılması MDB daxilində gedən qanunauyğun proseslərin nəticəsi kimi qiymətləndirilir.

GUAM Qərb istiqamətli siyasətə daha çox üstünlük verir. Qərbi Avropa nümunəsində siyasi, iqtisadi, sosial, mədəni inteqrasiyaya nail olmağa çalışır. Türkiyə, Rumıniya, Bolqarıstan, Litva və Polşa kimi dövlətlər də bu təşkilata maraq göstərirlər.

GUAM ölkələri Xəzər dənizinin karbohidrogen ehtiyatının Qərb şirkətləri ilə birgə mənimsənilməsi, onun Bakı - Tibilisi - Ceyhan boru kəməri ilə dünya bazarına çıxarılması, Şərq - Qərb (TRASEKA) nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, üzv olan ölkələr arasında təhlükəsizlik sahəsində birgə layihələrin reallaşdırılması, sərhədlərin təhlükəsizliyi və digər məsələlərdə birgə maraq nümayiş etdirilir.

2000-ci ildə GUAM ölkələri başçılarının Vaşinqtonda görüşü, ABŞ hökumətinin bu təşkilatın fəaliyyəti üçün 45 mln. dollar vəsait ayırması, Avropa birliyinin GUAM-ı dəstəkləməsi bu təşkilatın perspektivli olmasına zəmanət verir.

"2001-cl İldə Yaltada üzv dövlətlərin prezidentlərinin görüşündə GUAM regional beynəlxalq təşkilat adlandırılmışdır. İmzalanmış birgə sənəddə (Xartiyada) qeyd olunmuşdur ki, GUAM öz qarşısına üzv olan ölkələr arasında sosial-iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi, enerji layihələrinin. Nəqliyyat Kommunikasiya xətlərinin birgə istifadə edilməsi, regional təhlükəsizliyin təmin olunması, terrorizmə, narkoticarətə qarşı birgə mübarizə aparılması vəzifəsini qoyur. Xartiyada qeyd olunmuşdur ki, bu təşkilat hərbi-siyasi blok deyildir və MDB-yə qarşı qoyulmayıbdır".

GUAM-ın 2005-ci ildə Kişlnyovda (Moldova) keçirilən zirvə görüşündə üzv olan dövlətlərin rəhbərləri ilə yanaşı ABŞ-ın Dövlət Departamentinln Avrasiya üzrə məsləhətçisi, ATƏT-in baş katibi, Rumıniya prezidenti və Litva prezidenti də iştirak etmişlər.

Dövlət başçılarının zirvə görüşündə regional problemlər, demokratik proseslərin inkişafı, Avropaya inteqrasiyanın sürətləndirilməsi, terrorizm və təcavüzkar separatizmlə mübarizə, regional təhlükəsizlik, quruma üzv olan dövlətlər arasında əlaqələrin gücləndirilməsi və digər məsələlər müzakirə edilmişdir.

2006-cı İldə zirvə görüşü Kiyevdə (Ukrayna) keçirilmişdir. Bu görüşdə GUAM-ın müxtəlif səviyyələrdə uğurları, konkret əməkdaşlıq layihələri müzakirə edilmişdir.

GUAM ölkələri rəhbərlərinin 3-cü zirvə görüşü 2007-ci il iyun ayının 19-da Bakıda keçirilmişdir.

Görüşdə Azərbaycan, Ukrayna, Rumıniya, Gürcüstan, Bolqarıstan, Moldova, Polşa, Litvanın dövlət və hökumət başçıları, eləcə də ABŞ, Latviya, Estoniya, Yaponiyanın nümayəndə heyətləri də iştirak etmişlər.

Görüşün iştirakçıları qeyd etmişlər ki, hazırda GUAM-ı Demokratiya və İqtisadi İnkişaf uğrunda təşkilat adlandırmaq olar.

Burada bir çox məsələlərlə yanaşı mükəmməl nəqliyyat dəhlizinin yaradılması, Tranzit İmkanların və energetika sahəsində qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi. Dünya Ticarət Təşkilatının tələblərinə və normalarına əsaslanan azad ticarət zonası yaradılması məsələləri geniş müzakirə edilmişdir.

Həmin zirvə görüşündə müxtəlif sahələrdə əməkdaşlığa dair bir neçə sənəd imzalanmışdır.

Bunlardan: GUAM-ın imtiyazları və immunitetlərinə dair saziş;

2007-2010-cu illərdə mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş, üzv ölkələri arasında yüklərin beynəlxalq multimodal daşınması haqqında saziş, Nüvə və radiasiya təhlükəsizliyi məsələlərində qarşılıqlı yardıma dair memorandum imzalamışlar.

GUAM-ın quruluşu - Şura və Katiblikdən ibarətdir. Şura təşkilatın əsas orqanıdır. Şura öz İşini dövlət başçıları (sammit), xarici işlər nazirləri, milli koordinatorlar və daimi nümayəndələr səviyyəsində təşkil edir. GUAM-ın Kiyev Sammitini qərarlarına uyğun olaraq təşkilatın qərargahı və o cümlədən katiblik Kiyevdə yerləşir. Katiblik Baş Katib tərəfindən İdarə olunur.

— Dövlət başçıları Şurası;
— Xarici İşlər Nazirləri Şurası;
— Milli Koordinatorlar Şurası;
— Daimi Nümayəndələr Şurası;
— Katiblik;
— Müxtəlif işçi qrupları.

GUAM - İşçi Şurası və GUAM parlament Assambleyası fəaliyyət göstərirlər.

GUAM - BMT, ATƏT, Avropa Şurası, MDB və digər təşkilatlarla öz əlaqələrini genişləndirir. 2003-cü ildə BMT Baş Assambleyasında GUAM-a müşahidəçi statusu verilmişdir.

Cədvəl №10

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln. nəfər
	Azərbaycan	86,6	9,0
	Gürcüstan	70	4,4
	Ukrayna	604	46
	Moldova	34	3,7
		794,6	63,1

6. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QdİƏT)

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı 1992-ci ildən fəaliyyət göstərir. Lakin rəsmi olaraq 1998-ci ildə təsis olunubdur. QİƏT-in inkişaf strategiyası 1995-ci ilin iyun ayında Buxarestdə (Rumıniya) və 1998-ci ilin iyun ayında Yaltada keçirilən zirvə görüşlərində müəyyən edilmişdir. Yaltada (1998) təşkilatın nizamnaməsi qəbul olunmuşdur.

Azərbaycan, Albaniya, Ermənistan, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Rumıniya, Türkiyə, Ukrayna, Serbiya - cəmi 12 dövlət bu təşkilata daxildirlər (Katiblik İstanbuldadır).

İqtisadi sahədə bu təşkilatın əsas məqsədi:

— Bir çox sahələrdə çoxtərəfli və ikitərəfli əməkdaşlığın inkişafı;

— Sahibkalıq fəaliyyəti üçün şəraitin yaxşılaşdırılması;

— Fərdi və kollektiv müəssisələrin, firmaların təşəbbüskarlığına maraq yaratmaq;

— Aşağıdakı sahələrdə əməkdaşlığın artırılması həyata keçirilir: - energetika sahəsində; mineral xammal materiallarının hasilatı və emal edilməsində; kənd təsərrüfatı və kənd təsərrüfatı sənayesində; elm və texnika sahəsində; nəqliyyat, kommunikasiya sahəsində; turizm, ətraf mühitin qorunması, səhiyyə və əczaçılıqda; iqtisadi və kommersiya informasiyasının mübadiləsi sahəsində;

— Elmi-texniki əməkdaşlığın inkişafına və burada xüsusi bölmənin iştirakına zəmin yaradılması və s.

Bu cür əməkdaşlığın həyata keçirilməsi məqsədi ilə Qaradəniz Beynəlxalq Tədqiqat Mərkəzi, QD elm fondu, Alimlər Birliyi və Elmi-texniki Tədqiqatın İnformasiya Şəbəkəsi yaradılmışdır.

— Kiçik və orta müəssisələr, investorlar, sahibkarlar və sənayeçilər arasında əməkdaşlığa maraq oyatmaq yolu ilə sahibkarlığın inkişafına köməklik göstərmək;

— Milli infrastrukturanın, nəqliyyat və rabitə sisteminin inkişafına və Transavropa nəqliyyat sistemi ilə birləşməsinə köməklik edilməsi;

— Bütün bunlardan əlavə Bank və maliyyə sahəsində, vergiyə cəlb olma məsələlərində, investisiyanın qorunması, statistika məlumatları və digər informasiya verilməsi sahəsində də əməkdaşlıq edilməsi üçün İşçi qrupları yaradılmışdır 1995-ci ildə Qaradəniz Ticarət və İnkişaf Bankı yaradılması barədə qərar qəbul edilmişdir. 2007-ci ilin iyun ayının 15-də Türkiyənin İstanbul şəhərində Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) 15 İlliyinə həsr edilmiş zirvə görüşü olmuşdur. Görüşdə 12 üzv olan ölkələr və

müşahidəçi statusuna malik 13 ölkənin nümayəndələri iştirak etmişlər.

Görüşdə ABŞ-ın, BMT-nin, Aİ-nin, ATƏT-in, Dünya Bankının, Dünya Ticarət Təşkilatının nümayəndələri də iştirak etmişlər.

QDİƏT-in quruluşu:

— **Təşkilatın daimi Beynəlxalq Katibliyi.**

Üzv ölkələrin Koordinasiyasını həyata keçirir. Katibliyə Baş Katib rəhbərlik edir (üç illiyə seçilir).

— **Xarici İşlər Nazirləri Şurası.** Bu şura təşkilatın Ali Orqanı hesab edilir. Əsas qərar qəbul edən orqandır. 6 aydan bir keçirilir. Hər üzv ölkə 6 ay müddətinə təşkilata sədrlik edir.

— **Parlament Assambleyası.** Üzv ölkələrin milli parlamentlərini təmsil edir.

— Xarici İşlər Nazirlərini təmsil edən yüksək vəzifəli şəxslər komitəsi.

Xarici İşlər Nazirləri Şurasının bütün işlərinin hazırlanmasını həyata keçirir.

— **İşgüzar Şura** - Bu qurum əsasən sahibkarlıq məsələləri ilə məşğul olur.

QDİƏT-in fəaliyyəti əsasən aşağıdakı işçi qrupları tərəfindən həyata keçirilir:

— Təşkilatı məsələlər üzrə işçi qrupu;

— Ticarət və iqtisadi inkişaf üzrə işçi qrupu;

— Bank və maliyyə məsələləri üzrə işçi qrupu;

— Statistika və iqtisadi məlumatların mübadiləsi üzrə işçi qrupu;

— Səhiyyə və əczaçılıq üzrə işçi qrupu;

— Nəqliyyat üzrə işçi qrupu;

— Fövqəladə hallar üzrə işçi qrupu;

— Cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq üzrə işçi qrupu;

— Rabitə üzrə işçi qrupu;

— Energetika üzrə işçi qrupu;

— Elm və texnologiya məsələləri üzrə işçi qrupu;

— Ətraf mühitin qorunması məsələləri üzrə işçi qrupu;

— Kənd təsərrüfatı və Aqrar-sənaye məsələləri üzrə işçi qrupu;

— Turizm üzrə əməkdaşlıq işçi qrupu;

— Kiçik və orta müəssisələr üzrə işçi qrupu;

Bütün bunlarla yanaşı müvəqqəti ekspert qrupları da yaradılır.

Cədvəl №11

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi min nəfər
1	Azərbaycan	86,6	9,0
2	Albaniya	29	3,2
3	Ermənistan	30	3,3
4	Bolqarıstan	111	7,4
5	Yunanıstan	132	11,3
6	Gürcüstan	70	4,4
7	Moldova	34	3.7
8	Rusiya	17075	143,0
9	Rumıniya	238	21,5
10	Ukrayna	604	46
11	Serbiya	70	7,3
12	Türkiyə	779,4	73,7
		19,259	333,8

7. Qara dəniz Ticarət və İnkişaf Bankı (QT və İB)

Qara dəniz Ticarət və İnkişaf Bankı Qaradəniz iqtisadi əməkdaşlıq təşkilatı üzvləri olan ölkələrin 1994- cü il razılığı əsasında yaradılıbdır.

Bank öz fəaliyyətində:

— Qara dəniz regionunda iqtisadi inkişafa yardım etmək;

— İnfrastruktura sahələri üzrə olan layihələrin maliyyələşdirilməsi və investisiyaların cəlb edilməsinə zəmin yaratmaq;

— Digər Beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığı həyata keçirməyi əsas götürmüşdür;

Beləliklə Bankın fəaliyyəti aşağıdakı istiqamətlərdə həyata keçirilir:

— Qara dəniz İqtisadi Əməkdaşlıq təşkilatı çərçivəsində çoxtərəfli əməkdaşlıq layihəsinin kreditləş- dirilməsi;

— Üzv olan ölkələrdə müəyyən iqtisadi problemlərin həllinə köməklik göstərmək;

— Qara dəniz hövzəsində və eləcə də digər ərazidə iqtisadi inkişafa köməklik göstərmək. Burada qaz və neftin, emaledici avadanlıqların nəqli ilə bağlı layihələrin maliyyələşdirilməsi nəzərdə tutulur. 1994-cü ildəki razılaşmaya əsasən Bankın Nizamnamə fondu 1 mlrd, xüsusi əvəzləmə hüququ olan valyutaya bərabərdir (1,375 mlrd, dollar). Ayrı-ayrı ölkələrin kvotası: Rusiya, Yunanıstan və Türkiyə hər biri 16,5%; Bolqarıstan, Rumıniya və Ukrayna - hərəsi 13,5%; Azərbaycan, Ermənistan, Albaniya, Gürcüstan və Moldova hər biri - 2% təşkil edir. Qeyd etməliyik ki. Bankın fəaliyyəti əsasən 1998-ci ildən, kredit verilməsi isə 1999-cu ildən başlanmışdır.

XV FƏSİL

AMERİKA DÖVLƏTLƏRİNİN REGİONAL İQTİSADİ TƏŞKİLATLARI

Başqa regionlarda olduğu kimi Amerikada da kifayət qədər birliklər yaradılmışdır. Lakin bu birliklərin bir çoxu inteqrasiya birliyi kimi açıqlanmışdır. Odur ki, bu mövzuda inteqrasiya proseslərinin inkişafı deyil, ancaq tənzimləyici təşkilat kimi araşdırılma aparılır. Bu mənada aşağıdakı təşkilatlar tarixi ardıcıllıqla verilir.

1. *Amerika Dövlətləri Təşkilatı.*
2. *Amerika Dövlətlərarası İnkişaf Bankı.*
3. *Mərkəzi Amerika iqtisadi inteqrasiya Bankı.*
4. *And qrupu və yaxud And paktı.*
5. *Karib inkişaf Bankı.*
6. *Karib birliyi və Karib ümumi bazan.*
7. *Energetika üzrə Latın Amerikası təşkilatı.*
8. *Latın Amerikası iqtisadi sistemi.*
9. *Latın Amerikası inteqrasiya birliyi.*
10. *Şərqi Karib dövlətləri təşkilatı.*
11. *Amerika dövlətlərarası investisiya korporasiyası.*
12. *Şimali Amerika Azad ticarət zonası.*
13. *Cənubi Amerika Ümumi Bazarı.*

1. Amerika Dövlətləri Təşkilatı (ADT)

Amerika Dövlətləri Təşkilatı 1948-ci ildə yaradılıbdır. Daha doğrusu bu təşkilat 1890-cı ildə yaradılmış Amerika dövlətlərinin Beynəlxalq ittifaqı qurumunun bazası əsasında yaranmışdır. Bu təşkilat 35

dövləti özündə birləşdirir. Antiqua və Barbuda, Argentina, Baham adalan, Barbados, Beliz, Boliviya, Braziliya, Venesuela, Haiti, Qayana, Qvatemala, Honduras, Qrenada, Dominika, Dominikan Respublikası, Kanada, Kolumbiya, Kosta-Rika, Kuba, Meksika, Nikaraqua, Panama, Paraqvay, Peru, Salvador, Sent- Vinsent və Qrenada, Sent-Kits və Nevis, Sent-Lyusiya, ABŞ, Surinam, Trinidad və Tobaqa, Uruqvay, Çili, Ekvador, Yamayka. Birliyin bütün görüşlərində Amerikada üzv olan ölkələrin inkişafı naminə əməkdaşlıq prinsipləri barədə bəyannamə qəbul edilmişdir. Burada demokratiya, azad ticarət və Amerikada sabit inkişaf, Amerikada azad ticarət zonası yaradılması, ticarət və investisiya yollarının bütün maneəçiliklərdən azad edilməsi problemləri ön palana çəkilmişdir. Üzv olan ölkələrin dövlət başçılarının son 2005-ci II görüşündə Amerika birliyində demokratiyanın qorunub saxlanılması və möhkəmləndirilməsi, iqtisadi inteqrasiya və azad ticarətin inkişafı yolu İlə həyat şəraitinin yüksəldilməsi, yoxsulluğun və ayrı-seçkiliyin aradan qaldırılması, sabit inkişafın təmin edilməsi və ətraf mühitin qorunub saxlanılması problemlərini əhatə edən plan fəaliyyət göstərir.

Bu təşkilat öz tərkibində Amerika dövlətlərarası iqtisadi və sosial Şuraya da malikdir. Həmin Şura üzv olan dövlətlər arasında İqtisadi əməkdaşlığın inkişafına hərtərəfli yardım edir.

Eləcə də təşkilatın tərkibində Amerika dövlətlər-arası hüquq komitəsi də fəaliyyət göstərir. Bu komitə Rlo-de-Janeyrodadır (Braziliya). Amerika dövlət- lərarası telekommunikasiya Komissiyası da mövcuddur.

2. Amerika Döviətlərarası İnkişaf Bankı (ADİB)

Amerika Düvlətlərarası İnkişaf Bankı 1959-cu ildə Amerika dövlətləri təşkilatının xüsusi komitəsi tərəfindən hazırlanmış razılaşmaya əsasən yaradılmışdır. Bankın tərkibinə 46 dövlət daxildir. Bunlardan 28 dövlət Latın Amerikası və Karib hövzəsi ölkələridir, 18 ölkə isə qeyri regional ölkələrdir: Belçika, Böyük Britaniya, Almaniya, Danimarka, İsrail, İtaliya, Kanada, Niderland, Norveç, ABŞ, Finlandiya, Fransa, İsveç, Yaponiya və s.

Bankın əsas məqsədi:

— Latın Amerikası və Karib hövzəsi ölkələrinin iqtisadi və sosial inkişafına yardım etmək;

— Həmin ölkələrin iqtisadiyyyatına dövlət və xüsusi kompaniyaların investisiya qoyuluşuna köməklik göstərmək;

— Maliyyə və bütün digər ehtiyatlardan qarşılıqlı istifadə edilməsi siyasətində Bankın üzvü olan ölkələrin əməkdaşlığına nail olmaq və s.

Bank bu məqsədinin reallaşdırılması üçün öz fəaliyyətində aşağıdakı istiqamətlərə üstünlük verir:

— Regionda iqtisadi və sosial layihələri maliyyələşdirir. Burada sənaye, energetika, kənd təsərrüfatı və balıqçılıq, nəqliyyat, turizm və kiçik müəssisələr, infrastruktura daha ön plana çəkilir. Sosial sahədə ətraf mühitin qorunması, elm və texnika, təhsil və səhiyyə sistemi, şəhər təsərrüfatının inkişafı problemləri üstünlük təşkil edir.

— Milli və ərazi üzrə inkişaf planı və layihələrin həyata keçirilməsinə texniki yardım göstərir;

— Layihələrin tərtib edilməsinə, hazırlanmasına, təsdiq edilməsinə köməklik edir və reallaşdırılmasına nəzarət edir.

Bankın tərkibində 8 departament fəaliyyət göstərir. Bunlar - bank əməliyyatları; maliyyə üzrə; iqtisadi və sosial inkişaf; layihələrin təhlili; hüquq üzrə; plan və proqramlar; inzibati sahə və katiblikdən ibarətdir. Bankın Avropada xüsusi nümayəndəsi vardır.

Bankın maliyyə vəsaiti qarşılıqlı ödənişlər və borc verilməsində yaranan vəsait, üzv olan ölkələrin maliyyələşdirmə fondları hesab edilir. Bank kapitalının hərəkəti nəticəsində əmələ gələn vəsait hesabına xüsusi əməliyyat fondu yaradılır. Bu fond hesabına güzəştli şərtlərlə borc verilir.

Bankın işində Sosial tərəqqi üçün Trast fondu da vardır. Venesuela Trast fondu, Latın Amerikası ölkələrinə köməklik göstərmək üçün texniki əməkdaşlıq Trast fondu və s.

1993-cü ildə Bankın üzvü olan ölkələr tərəfindən çoxtərəfli investisiya fondu da yaradılıbdır. Bu fond az məbləğdə borc verir.

Latın Amerikasının 26 ölkəsində və Fransada Bankın şöbələri vardır.

3. Mərkəzi Amerika İqtisadi İnteqrasiya Bankı (MAİİB)

Mərkəzi Amerika İqtisadi inteqrasiya Bankı 1961- ci ildə yaradılmışdır. Öz tərkibində 7 ölkəni birləşdirir -

Qvatemala, Honduras, Kosta-Rika, Meksika, Nikaraqua, Salvador, Tayvan.

Bankın əsas məqsədi regionda kapital qoyuluşu sahəsində siyasət yeritməklə Mərkəzi Amerika dövlətlərinin iqtisadi inkişafına və inteqrasiyasına yardım etməkdən ibarətdir.

Bank öz fəaliyyətini aşağıdakı istiqamətlərdə həyata keçiririr.

— Mərkəzi Amerikanın ümumi bazarı üçün əhəmiyyət kəsb edən sahələrin və eləcə də kənd təsərrüfatı bölməsinin, xidmət dairəsinin, turizmin, ətraf mühitin mühafizəsinin, insan ehtiyatlarının inkişafına uzun müddətə investisiya qoyuluşunun maliyyələşdirilməsi;

— infrastruktura obyektlərinin maliyyələşdirilməsi;

— möhkəm valyutaya ehtiyacı olan, məşğulluğun artırılmasında xüsusi rolu olan istehsal müəssisələrinin maliyyələşdirilməsi;

— Mərkəzi Amerika dövlətləri arasında və eləcə də bu regionun üçüncü dövlətlərlə ticarət əlaqələrinin artırılmasına köməklik göstərmək;

— Sosial inkişafa yardım etmək, bələdiyyə infrastrukturasını maliyyələşdirmək;

— yoxsulluqla mübarizə aparılması sahəsində sosial investisiya proqramının reallaşdırılması;

— Kadr hazırlığı məqsədi ilə beynəlxalq təşkilatlarla texniki əməkdaşlıq aparılmasına köməklik etmək və s.

Bankın inzibati aparatında **hüquq şöbəsi; beynəlxalq münasibətlər və planlaşdırma şöbəsi;**

dövlət bölməsi ilə iş aparılması şöbəsi; xüsusi böimə ilə iş aparılması şöbəsi fəaliyyət göstərir.

Bankın maliyyələşdirmə mənbəyi - nizamnamə kapitalı, ehtiyat kapitalı, cəlb olunmuş vəsaitlər və s. hesab edilir.

Bank aşağıdakı fondlar hesabına borc verir:

• Adi fond - xüsusi və dövlət bölmələrində istehsalın və infrastrukturanın inkişafı üzrə layihələrin maliyyələşdirilməsini həyata keçirir;

• Mərkəzi Amerika iqtisadi inteqrasiya fondu. Üzv olan ölkələrdə infrastrukturanın inkişafı layihələrini maliyyələşdirir.

• Dövlət, yerli və bələdiyyə hakimiyyət orqanları fondu.

Bu fond hesabına muxtar hakimiyyət orqanları müəssisələri və Mərkəzi Amerika təşkilatları maliyyələşdirilir.

• Mənzil tikintisi fondu - şəhər təsərrüfatı və mənzil tikintisini maliyyələşdirir.

• Sosial inkişaf fondu - şəhər və kənd rayonlarının inkişafını maliyyələşdirir.

• Mərkəzi Amerika İqtisadi və sosial inkişaf fondu. Bu sahələrə ayrılan kapitalın istifadəsini əks etdirir. Bütün bunlardan əlavə Bank xüsusi kapitallara malik olan bir çox digər fondların da idarə edilməsini həyata keçirir.

4. And qrupu və yaxud And paktı

And qrupu və yaxud And paktı 1969-cu ildə Kolumbiyanın Kartaxen şəhərindəki razılığa əsasən

yaradılıbdır. Bura beş ölkə daxildir - Boiiviya, Vene- suela, Kolumbiya, Peru, Ekvador. And qrupu And inteqrasiya sisteminin bir hissəsi hesab edilir. Bu sistemin ikinci hissəsini isə üzv olan ölkələrin yaratdıqları siyasi institutlar təşkil edir (And prezidentləri şurası. Xarici işlər Nazirlərinin şurası).

And* qrupunun əsas məqsədi İnteqrasiya və sosial-iqtisadi əməkdaşlıq yolu İlə üzv olan ölkələrin inkişafına yardım etmək, iqtisadi artımın sürətlənməsi və məşğulluğun təmin edilməsi, Latın Amerikası ümumi bazarını yaratmaq və sair problemlərdən ibarətdir.

Bu məqsədlə And qrupu üzv olan ölkələr üçün vahid iqtisadi siyasət hazırlayır, müəyyən layihələrin əlaqələndirilməsini həyata keçirir.

—Qanunçuluğun üzvi surətdə əlaqələndirilməsinə və hüquq normalarının həyata keçirilməsinə nəzarət edir.

—^Xüsusi sahibkarlar İttifaqı **və** And **Əmək** İnstitutu kimi köməkçi orqanları vasitəsi ilə ərazilər- arası və And qrupu orqanlararası əlaqələr yaradılmasını həyata keçirir. 1990-cı ildə "And strategiyası" qəbul edilmişdir. Burada 3 məqsəd nəzərdə tutulmuşdur:

— And iqtisadi məkanın inkişafı;

— And qrupu ölkələrinin beynəlxalq əlaqələrinin genişlənməsi;

— Latın Amerikasının vahidliyinin qorunması:

Həmin ildə "Sülh aktı" da qəbul edilmişdir. Bu sənəddə And ölkələrində İnteqrasiya prosesinin

*** And Cənubi Amerikada dağ sistemidir. Sosial yardım agentliyi kimi də çıxış edir.**

Bu qrupun üzvü olan ölkələrdə biiiiyin fiiiallan fəaliyyət göstərir:Məsələn Boqotada (Kolumbiya).

genişlənməsi, inteqrasiyanın ayrı-ayrı mərhələlərinin reallaşdırılması və digər tədbirlər nəzərdə tutulmuşdur. 1993-cü ildə And qrupu ilə Aİ-nin Avropa Komissiyası arasında əməkdaşlıq haqqında razılıq əldə edilmişdir.

And qrupu çərçivəsində aşağıdakı qurumlar yaradılmışdır. And İnkişaf Birliyi (Karakas Venesu- ela) 1986-cı İldə yaradılıbdır. Bu birlik inkişaf bankı kimi, eləcə də, iqtisadi və And Ehtiyat Fondu. Bu fond üzv olan ölkələrin valyuta ehtiyatının müəyyən hissəsinə sərəncam verməklə tədiyyə balansının tarazlığına, maliyyə və valyuta siyasətlərinin razılaşdırılmasına köməklik edir.

Telekommunikasiya Cəmiyyəti Birliyi. Bu birlik regionda telekommunikasiya xidmətinin inkişafına və əməkdaşlığın genişlənməsinə yardım edir.

6. Karib İnkişaf Bankı (KİB) və yaxud KARİBBANK

Karib İnkişaf Bankı və yaxud Karibbank 1970-ci ildə yaradılıbdır. Öz tərkibində Karib hövzəsinin 25 ölkəsini və eləcə də Böyük Britaniya, Almaniya, İtaliya, Kanada və Fransanı birləşdirir. Bankın əsas məqsədi Karib hövzəsi ölkələrinin iqtisadi İnkişafına yardım etmək, onların İqtisadi əməkdaşlığına və inteqrasiya əlaqələrinə zəmin yaratmaqdan İbarətdir.

Bankın fəaliyyətinin əsas istiqamətləri:

— regional inkişafa zəmin yarada biləcək hər bir konkret layihə və proqramın maliyyələşdirilməsi (sənaye, faydalı qazıntıların çıxarılması, kənd təsərrüfatı, heyvandarlıq, balıqçılıq, nəqliyyat, turizm, mənzil tikintisi, marketinq sahəsi, təhsil və s.);

— üzv olan ölkələrdə iqtisadi ehtiyatlardan səmərəli istifadə olunmasına yardım etmək, iqtisadiyyatda qarşılıqlı əlaqələrin təmin edilməsi;

— üzv olan ölkələrdə inkişaf proqramlannm əlaqələndirilməsi, ərazi daxili və beynəlxalq ticarətin genişləndirilməsi;

— investisiya iaylhəiərinin hazırlanmasında texniki yardım göstərilməsi. Layihələr üzrə texniki-iqtisadi hesablaşmaların əsaslandırılmasında iştirak etmək;

— layihələrə xüsusi və dövlət qurumlarının investisiya qoymasında maliyyə institutlarına yardım etmək; 2000-ci illər üçün bir çox sahələr üzrə nəzərdə tutulmuş proqramlar həyata keçirilmişdir;

— Beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi (ilk növbədə PROON, Amerika Dövlətlərarası İnkişaf Bankı, Karib ümumi Bazarı - KARİKOM və s.).

Bankın maliyyələşdirmə mənbələri:

1. Adi Kapital ehtiyatları;
2. Xüsusi inkişaf fondu və s.-dən İbarətdir.

Bankın nizamnaməsinə uyğun olaraq onun səhm kapitalının 60%-dən artığı həmin ərazinin ölkələrinə məxsus olmalıdır.

Həmin ərazi üzvlərinin hökumətlərinə, dövlət və xüsusi müəssisələrə Bank birbaşa kredit verir. Bankın tərkibində 4 departament (maliyyə üzrə, iayihələşdirmə, iqtisadiyyat və proqramlaşdırma, hüquq məsələləri üzrə) fəaliyyət göstərir.

6. Karib Birliyi və Karib Ümumi Bazan - KARİKOM

Karib Birliyi və Karib Ümumi Bazan - Karikom 1973- cü ildə yaradılıbdır (1968-ci ildə yaradılmış Karib azad ticarət birliyi bazasında), 1974-cü ildən fəaliyyətə başlamışdır. Əslində bu ümumi bazar Karib Birliyinin tərkib hissəsi kimi təsəvvür olunur.

Birlik özündə Karib hövzəsinin 14 ölkəsini - Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Domlnika, Qrenada, Qayana, Monserrat, Sent-Kits və Nevis, Sent-Lyusiya, Sent-Vinsent və Qrenadin, Surinam, Trinidad və Tobaqo və Yamayka. Bunlardan əlavə əlahiddə üzv olan - Virgin Britaniya adaları, Terks və Kaykos adaları da bura daxildir.

Birliyin yaradılmasından sonra əlavə olaraq bir neçə müqavilələr bağlanmış və bəyannamələr qəbul edilmişdir. Belə ki, 1984-cü ildə üzv olan ölkələrdə quruluş siyasəti və daha yaxından inteqrasiyanın inkişafı barədə;

1985-ci ildə üzv olan ölkələrdə yerli və ərazi üzrə sahibkarlığın inkişafı barədə;

1989-cu ildə Karib hövzəsində ətraf mühitin mühafizəsi, təbiətdən səmərəli istifadə edilməsi və inteqrasiyanın gələcək inkişafı barədə;

1991-cl ildə Karib hövzəsi ölkələrinin 2000-ci ilə inkişafı barədə bəyannamələr qəbul edilmişdir.

Ümumi şəkildə KARİKOM-un əsas məqsədi üzv olan ölkələrin ümumi bazarını yaratmaq, iqtisadi inteqrasiyanın İnkişafına yardım etmək, vahid xarici tarif sisteminə keçmək, əmtəələrin əsas mənşəyinə görə müəyyən edilməsi sisteminin tətbiqi, razılaşdırılmış

fıskal tədbirlər pianınm reallaşdırılması və şairədən ibarətdir.

Müqavilənin müddəalarına əsasən demək olar ki, bütün məhsullar üzrə (çox az məhsullar İstisna olmaqla) gömrük rüsumları aradan götürülmüşdür, az inkişaf etmiş ölkələrdə bu tədbir 10 ilə nəzərdə tutulmuşdur. Ümumi gömrük qaydası müəyyən edilmişdir, vahid ticarət siyasəti və kənd təsərrüfatı üzrə ümumi siyasət həyata keçirilir, pul və maliyyə siyasətləri əlaqələndirilir, kapitalın və İşçi qüvvəsinin sərbəst hərəkəti genişlənir, turizm, nəqliyyat və rabitə sahəsində əməkdaşlıq artır.

Vahid Valyuta İttifaqına keçilməsi işləri genişlənir.

KARİKOM - BMT, BVF, NAFTA kimi beynəlxalq təşkilatlar və İqtisadi qruplaşmalar ilə yaxından əlaqə saxlayır.

1994- cü ildə üzv olan ölkələrin dövlət başçılarının görüşündə NAFTA ilə KARİKOM arasında əməkdaşlığın inkişafına dair rəsmi sənəd qəbul edilmişdir.

KARİKOM-un fəaliyyətinin maliyyə təminatı üçün hələ 1969-cu ildə Karib İnkişaf Bankı yaradılmışdır.

KARİKOM-un yaranması ilə 1973-cü ildə Karib İnvestisiya Korporasiyası yaradılmış, 1975-ci ildə isə 15 min. dollar Nizamnamə Kapitalı ilə fəaliyyətə başlamışdır. Burada əsasən Barbados, Qayana, Trinidad və Tobaqo, Yamayka kimi ölkələr daha çox fərqlənməklə zəif inkişaf etmiş ölkələrin maliyyələşdirilməsinə yardım etmişlər. Elə bu məqsədlə də 1991- ci ildən Karib İnvestisiya Fondu fəaliyyət göstərir.

7. Energetika üzrə Latın Amerikası Təşkilatı (LAET)

Energetika üzrə Latın Amerikası təşkilatı 1974-cü ildə yaradılmışdır. Bura 25 dövlət daxildir: Barbados, Boliviya, Braziliya, Venesuela, Haiti, Qayana, Qvatemala, Honduras, Qrenada, Dominikan Respublikası, Kolumbiya, Kosta-Rika, Kuba, Meksika, Nikaraqua, Panama, Paraqvay, Peru, Salvador, Surinam, Trinidad və Tobaqo, Uruqvay, Çili, Ekvador və Yamayka.

LAET-in əsas məqsədi energetika sahəsində əməkdaşlığın əlaqələndirməsi və məsləhətləşmələrin həyata keçirilməsindən ibarətdir.

Bunun üçün LAET - öz fəaliyyətində energetika bölməsinin inkişafında ümumi regional proqramlar işləyib hazırlayır, həmin sahənin inkişafı üçün xüsusi və dövlət kapitalının cəlb edilməsinə yardım edir, texnologiya mübadiləsinin artmasına, kommersiya əlaqələrinin genişlənməsinə səy göstərir. LAET yarandığı vaxtdan ayrı-ayrı sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün bir çox problemlər barədə bəyannamələr qəbul etmişdir. Bunlardan:

-1979-cu ildə "Səmərəli enerji təchizatı və enerji istehlakı" üzrə proqramın reallaşdırılması;

-1981-ci ildə "Latın Amerikası ölkələrinin energetika əməkdaşlığı" proqramı;

-1986-cı ildə "Ərazi üzrə əməkdaşlığın güciəndirilməsi" barədə;

-1988-ci ildə "Energetika bölməsində maliyyə problemi və alternativ maliyyələşdirmə mexanizminə dair";

1990-cı ildə "Enerji ilə təchiz olunma imkanları və özünü enerji ilə təmin etmə probleminə dair".

1996-cı ildə də enerji bölməsinin inkişafı geniş müzakirə edilmiş və geniş fəaliyyət proqramı qəbul edilmişdir.

8. Latın Amerikası İqtisadi Sistemi (LAİS)

Latın Amerikası İqtisadi Sistemi Panama müqaviləsinə əsasən 1975-ci ildə yaradılıbdır. 27 dövləti özündə birləşdirir ~ Argentina, Barbados, Beliz, Boliviya, Braziliya, Venesuela, Haiti, Qayana, Qvatemala, Honduras, Qrenada, Dominikan Respublikası, Kolumbiya, Kosta-Rika, Kuba, Meksika, Nikaraqua, Panama, Paraqvay, Peru Salvador, Surinam, Trinidad və Tobaqo, Uruqvay, Çili, Ekvador, Yamayka. Bu təşkilatın əsas məqsədi üzv olan ölkələrdə sosial-iqtisadi inkişafa nail olmaq üçün ərazidaxili əməkdaşlığın genişlənməsinə yardım etmək, iqtisadi və sosial problemlər barədə ümumi prinsiplər, ümumi strategiya işləyib hazırlamaqdan ibarətdir.

LAİS öz fəaliyyətini aşağıdakı istiqamətlərdə həyata keçirir:

— Ərazi daxili ticarətin və üzv olan ölkələrin üçüncü ölkələrə ixracının genişlənməsinə yardım etmək;

— Balıqçılıq potensialının daha səmərəli istifadəsi, bu sahədə üzv ölkələrin fəaliyyətlərinin razılaşdırılması;

— Ərazi üzrə gübrə satışının inkişafına yardım göstərilməsi;

— Elm və texnika sahəsində məsləhətləşmələr aparılması, təhlil və əlaqələndirmə işləri üzrə proqramların reallaşdırılmasına yardım etmək;

— Ərazidə xırda sənətkarlığın inkişafına zəmin yaratmaq;

— Texnoloji informasiya infrastrukturasının inkişafına köməklik göstərmək və s.

9. Latın Amerikası İnteqrasiya Birliyi (LAİB)

Latın Amerikası İnteqrasiya Birliyi 1980-ci ildə Montevideo (Uruqvayın paytaxtı) müqaviləsinə əsasən yaradılıbdır. Bu müqavilə 1982-ci ildə qüvvəyə minibdir.

Məlumdur ki, 1960-cı ildə Latın Amerikası Azad Ticarət Birliyi (LAATB) yaradılmışdır. Deməli LAİB bu təşkilatın bazasında yaradılmışdır.

LAİB özündə Latın Amerikasının 11 ölkəsini birləşdirir. Bunlar - Argentina, Boliviya, Braziliya, Venesuela, Kolumbiya, Meksika, Paraqvay, Peru, Uruqvay, Çili, Ekvadordur.

LAİB-in əsas məqsədi iqtisadi əməkdaşlığın inkişafı ilə bazarın genişlənməsini təmin etməkdən ibarətdir.

LAİB ərazidəki ölkələr arasında qarşılıqlı ticarəti tənzimləyir, İqtisadi, İmtiyazlı zonalar yaradılmasına maraq oyatmaq yolu ilə mərhələ-mərhələ Latın Amerikası ümumi bazarının əmələ gəlməsinə zəmin hazırlayır.

lO.Şərqi Karib Dövlətləri Təşkilatı (ŞKDT)

Şərqi Karib Dövlətləri Təşkilatı 1981-ci ildə yaradılıbdır, 7 ölkəni özündə birləşdirir. Bunlar - Antiqua və Barbuda, Qrenada, Domlnika, Monserrat, Sent-Vinsent və Qrenadin, Sent-Kits və Nevis, Sent- Lyusiya və eləcə də ayrıca birlik klml Virgin (Britaniya) adaları da bura daxildir.

Təşkilatın əsas məqsədi İqtisadi və siyasi əməkdaşlığın, İqtisadi inteqrasiyanın İnkişafına yardım etmək və razılaşdırılmış xarici siyasət yeritməkdən İbarətdir.

ŞKDT-ln fəaliyyətində aşağıdakı problemlər ön plana çəkilir:

- ticarət və İqtisadi İnkişaf, 1991-cl İldən qəbul edilmiş qərara əsasən ümumi bazar yaradılmışdır. Əmtəələrin sərbəst hərəkəti həyata keçirilir, valyuta İttifaqı yaradılmışdır. Bu İsə kapitalın sərbəst hərəkətini artırmışdır. Ticarətin və İnvestisiyanın genişlənməsini təmin etmək üçün aşağıdakı qurumlar yaradılmışdır.

1. Şərqi Karib üzrə investisiya yardımı xidməti;
2. İxracın inkişafı üzrə şərqi Karib agentliyi;
3. Şərqi Karib Kənd təsərrüfatının hərtərəfli inkişafının əlaqələndirmə mərkəzi.

- təbli ehtiyatların və təbiətdən istifadənin inkişafı. Bu məqsədlə 2 qrup yaradılmışdır.

1. Təbii ehtiyatların idarə edilməsi qrupu - kənd təsərrüfatı, ətraf mühit, turizm məsələləri ilə məşğuldur. Bu qrup təbii ehtiyatların idarə edilməsi üzrə layihələr İşləyib hazırlayır.

2. Balıqçılıq məsələləri üzrə qrup. Bu qrup balıqçılıq üzrə əlaqələndirmə və əməkdaşlıq məsələlərinin inkişafı və qanunçuluğun əlaqələndirilməsi İlə məşğuldur.

— Bu təşkilatın fəaliyyətində aviasiya daşımaları, mülki aviasiyanın tənzimlənməsi də böyük əhəmiyyət kəsb edir. Bu təşkilatın fəaliyyətinin daha mütərəqqi inkişafı üçün 1983-cü ildə Şərqi Karib mərkəzi bankı yaradılmışdır.

Bu bank şərqi Karib dövlətləri üçün vahid valyutanın olmasını dəstəkləməklə onun beynəlxalq baxımdan nüfuzunu təmin edir və iqtisadi inkişafa yardım göstərir. Bununla yanaşı bank pul emissiyası hüququna malikdir və üzv olan ölkələr üçün banknotlar buraxılır.

11. Amerika Dövlətlərarası İnvestisiya Korporasiyası (ADİK)

Amerika Dövlətlərarası İnvestisiya Korporasiyası 1989-cu ildə yaradılıbdır. Bu korporasiya çoxtərəfli investisiya qurumu olmaqla Amerika Dövlətlərarası İnkişaf Bankının tərkibinə daxildir (hüquqi cəhətdən müstəqil təşkilatdır).

Bura 34 dövlət daxildir, o cümlədən eyni ərazidən olmayan Avstriya, Almaniya, İsrail, İspaniya, İtaliya, Niderland, ABŞ, Fransa, İsveçrə və Yaponiya da bura daxildir.

Birliyin əsas məqsədi Latın Amerikası və Karib hövzəsi ölkələrində xüsusi sahibkarlığın genişləndirilməsi, xüsusi müəssisələrin təşkili və modernləşdirilməsi yolu ilə (kiçik və orta müəssisələrin artırılması əsasında) iqtisadi inkişafa yardım etməkdən ibarətdir.

Öz fəaliyyətində aşağıdakı istiqamətləri əsas götürür:

— Sərbəst dönərli valyuta ilə borc verir, Səhmdar Kapitalına investisiya qoyur, üzv olan ölkələrin iqtisadi fəaliyyətinin genişlənməsinə təminat verir;

— Layihələrin maliyyələşdirilməsini həyata keçirir və səhmdar kapitallarını alır. İnvestisiya birliyi layihələrinin 33%-ə qədərini maliyyələşdirir. Elə Səhmdar Kapitallarının da 33%-dən artıq alınmasına yol vermir.

İri miqyaslı layihələr (borc vermək və investisiya qoymaq yolu İlə) birləşdirilmiş (sindikatlaşmış) formada maliyyələşdirilir.

Nisbətən kiçik layihələr xüsusi bölmədə olan maliyyə vasitəçiləri tərəfindən həyata keçirilir.

Bu birlik maliyyələşdirdiyi layihələrdə inzibati və idarəçilik funksiyalarına qarışmır. Lakin direktorlar şurasında iştirak edir;

— Digər mənbələrdən maliyyə vəsaiti cəlb olunmasında köməklik edir. Yeni texnologiyanın, "Nou-Xau"nun yayılmasını maliyyələşdirir. İnvestisiya birliyi Amerika Dövlətlərarası İnkişaf Bankının maliyyələş-dirməsi mənbəyindən başqa ayrıca maliyyələşdirmə mənbəyinə malikdir.

Hazırda bu birliyin səhmdar kapitalı 200 mln. dollardan artıqdır.

12. Şimali Amerika Azad Ticarət Zonası (NAFTA)

Şimali Amerika Azad Ticarət Zonası 1 yanvar 1994- cü üdə yaradılmışdır. Bura Kanada, ABŞ və Meksika daxildir. Qeyd etməliyik ki, bu birliyin ilk təməli 1965-ci üdən qoyulmuşdur. Həmin ildə ABŞ ilə Kanada arasında avtomobil sənayesi məhsullarının satışı barədə müqavilə imzalanmışdır. Sonra 1989-cu İldə yenə ABŞ ilə Kanada arasında azad ticarət barədə razılıq əldə edilmişdir. Nəhayət 1994-cü ildə Meksika da bu müqaviləyə qoşulmuşdur.

Müqavilənin şərtlərinə əsasən son 25 ilə, daha doğrusu 2010-cu ilədək bu ölkələr arasında bütün ticarət və investisiya məhdudiyyətlərinin aradan qaldırılması nəzərdə tutulmuşdur.

Şimali Amerikada sahibkarlıq fəaliyyətinin müxtəlif cəhətləri barədə əsaslandırılmış müddəalar sənədləşdirilmişdir. Burada açıq bazar yaradılması, investisiya qoyuluşu, təminat, xidmət məsələləri, intellektual mülkiyyət hüququ məsələləri, dövlət alışı, standartlara riayət edilməsi, biznesmenlərin ölkələrarası hərəkəti, münaqişələrin həlli və bu kimi problemlər müqavilənin məzmununu təşkil edirdi. Bu kimi problemlərin bir çoxu ABŞ ilə Kanada arasında daha tez öz həllini tapmışdır, Meksika ilə də qarşılıqlı, anlaşıqlı şəraitdə irəliləyiş əldə edilir.

Cədvəl №12

Şimali Amerika Azad Ticarət Zonası NAFTA

(2010)

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln nəfər
1.	ABŞ	**9364**	**296**
2.	Kanada	**9971**	**34,5**
3.	Meksika	**1958**	**112**
		21293	**442,5**

13. Cənubi Amerika Ümumi bazarı (MERKOSUR)

Latın Amerikasında yaranan ən böyük ticarət - siyasi ittifaqlardan biri də Cənubi Amerika Ümumi Bazandır. Bu qurum Argentina. Braziliya, Paraqvay və Uruqvayı özündə birləşdirir. Bu təşkilat 1995-cl ildə yaradılmışdır. Bu təşkilatın yaradılması barədə ilk müqavilə 1991-ci ildə Paraqvayın paytaxtı Asunsyon şəhərində həyata keçirilmişdir. Sonralar Çili və Boliviya da bu qurumun işində iştirak edirlər. Müqavilənin müddəalarına əsasən, üzv olan 4 ölkədə qarşılıqlı ticarətdə bütün rüsumlann və tarif məhdudiyyətlərinin aradan qaldırılması, vahid gömrük dərəcələrinə keçilməsi, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti, sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə və bəzi digər sahələrin İnkişaf siyasətlərinin əlaqələndirilməsi, valyuta- maliyyə dairəsində razılaşdınimış strategiya əldə edilməsi nəzərdə tutulmuşdur.

Bu birliyin işində inteqrasiya proseslərini

Bazar Şurası, icra orqanı olan Ümumi Bazar Qrupu (iqamətgahı Montevideodadır Uruqvayda), 10 Texniki Komissiya fəaliyyət göstərir - xarici ticarət; gömrük tənzimlənməsi; texniki normalar; valyuta - maliyyə və makroiqtisadi siyasət; yerüstü və dəniz nəqliyyatı; sənaye texnologiyası; kənd təsərrüfatı və energetika.

Cədvəl №13

Cənubi Amerika Ümumi Bazarı (MERKOSUR)

2010

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln nəfər
1.	Argentina	2780	49,5
2.	Braziliya	8547	191,0
3.	Paraqvay	407	6,3
4.	Uruqvay	177	3,4
		11911	250,2

XVI FƏSİL

ASİYA VƏ SAKİT OKEAN DÖVLƏTLƏRİNİN İQTİSADİ TƏŞKİLATLARI

1. Sakit okeanın cənub hissəsi ölkələri komissiyası.
2. Asiya və Sakit okeanda birgə iqtisadi və sosial inkişaf üzrə "Kolombo planı".
3. Məhsuldarlıq məsələsi üzrə Asiya təşkilatı.
4. Cənubi Şərqi Asiya dövlətləri birliyi və Asiya Sakit okean iqtisadi əməkdaşlığı.
5. Cənubi Sakit okean forumu.
6. Asiya İnkişaf Bankı.
1. *Cənubi Asiyanın regional əməkdaşlığı birliyi.*

1. Sakit okeanın cənub hissəsi ölkələri komissiyası

Sakit okeanın cənub hissəsi ölkələri komissiyası 1947-ci ildə yaradılıbdır. Burada əsas məqsəd həmin ölkələrdə iqtisadi, siyasi, sosial, mədəni problemlərin yaxşılaşdırılmasında və tənzimlənməsində əməkdaşlıq etməkdən ibarətdir.

Həmin təşkilatın tərkibinə 27 ölkə daxildir (əvvəllər bu regiona məxsus olan adalar da bura daxildir).

Bunlar;

Avstraliya, Vanuatu, Böyük Britaniya, Şərqi Samoa, GUAM, Qərbi Samoa, Kiribati, Kuka adası. Marşal

adaları, Nauru, Yeni Zellandiya, Niue, Palau, Papua-Yeni Qvineya, Pitkern, Şimal Marian adaları, ABŞ, Mikroneziya Birləşmiş ştatları, Solomon adaları, Tokelau, Tonqa, Tuvaiu, Uoills və Futuna, Fici, Fransa, Fransa Polineziyası, Yeni Kaledoniya.

Bu təşkilat öz fəaliyyətində üzv olan ölkələrin birgə layihəsi əsasında aşağıdakı proqramları həyata keçirir:

— kənd təsərrüfatında bitkiçiliyin və heyvandarlıqda xəstəliklərə qarşı mübarizənin genişiəndiriiməsi;

—balıqçılıq üzrə - sahil boyu və açıq dənizdə balıqçılığın İnkişafını artırmaq;

— kənd rayonlarının inkişafını genişləndirmək;

— səhiyyə, təhsil, mədəniyyət və digər sahələrin inkişafına texniki yardım göstərmək.

Bütün bunlarla yanaşı bu təşkilat həmin regionun ölkələri arasında əmtəələrin, texnologiyanın və insanların hərəkətinin asanlaşdırılması üçün müəyyən metod və vasitələr də işləyib hazırlayır.

2. Asiya və Sakit okeanda birgə iqtisadi və sosial inkişaf üzrə "Kolombo Planı"^

Asiya və Sakit okeanda birgə iqtisadi və sosial inkişaf üzrə "Kolombo Planı” **1950-ci üdə "Millətlər Həmrəyliyi"** ölkələrinin xarici işlər nazirlərinin görüşündə qəbul edilibdir. Bu plan 1951-ci ildən həyata keçirilir. Planda Cənubi və Cənubi Şərqi Asiyanın iqtisadi və sosial inkişafı barədə birgə təşəbbüs nəzərdə tutulur. İlk

^ Kolombo Şri-Lankanın paytaxtıdır. İran, Kamboca. Laos, Malayziya. Maldiv adalan. Myanma, Yeni Zellandiya, Nepal, Pakistan, Papua Yeni Qvineya, Koreya respub., Sinqapur, ABŞ, Tailand. Filippin. Şri-Lanka, Yaponiya.

1950-ci illərdə “Kolombo planında” imperializmin möhkəmləndirilməsi və milli-azadlıq hərəkatlarının zəiflədilməsi nəzərdə tutulurdu.

1985-ci ilin sonundan “Kolombo planı”nda 6 kreditor ölkəsi (ABŞ, Yaponiya, Böyük Britaniya, Kanada, Avstraliya və Yeni Zellandiya) və 20 kredit alan ölkə (Birma, Hindistan, Pakistan və s.) iştirak edirlər.

"Kolombo Planı"na aşağıdakı 24 dövlət daxildir:

Avstriya, Əfqanıstan, Banqladeş, Butan, Hindistan, İndoneziya, İran, Kamboca, Laos, Malayziya, Maldiv adaları, Myanma, Yeni Hollandiya, Nepal, Pakistan, Fici, Papua-Yeni Qvineya, Koreya Respublikası, Sinqapur, ABŞ, Tailand, Filippin, Şri-Lanka, Yaponiya.

"Kolombo Planın"da əsas məqsəd həmin ölkələrin iqtisadi və sosial inkişafı fəaliyyəti üzrə razılaşdırılmış siyasət yeritməkdən ibarətdir.

Bu plan aşağıdakı istiqamətlərdə həyata keçirilir:

— ölkələrin biri-birinə yardım göstərməsi və texniki əməkdaşlıq etməsi.

Bu yardım müxtəlif formalarda həyata keçirilir. Texniki yardım - mütəxəssislər göndərilməsi, xaricə təhsil almağa göndərmək və s.

— milli inkişaf layihələrinin həyata keçirilməsi üçün maliyyə yardımı;

— əmtəə formasında — ərzaq, xammal, material köməkliyi;

— müəyyən məsləhətlər (təhsil proqramları da daxil olmaqla) vermək;

— sahibkarlığın inkişafına, elm, texnika və təhsilə marağın artmasına, müəssisələrdə təşkilatçılığın və

idarəçiliyin yaxışılaşdırılmasına, ekoloji problemlərə və fövqəl vəziyyətlərdə köməklik göstərir;

— texniki əməkdaşlıq proqramının (müxtəlif sahələrdə biliyin və təcrübənin ötürülməsi, kadr hazırlığı da daxil olmaqla) reallaşdırılmasına yardım edir:

— narkotizmə qarşı mübarizə proqramı hazırlayıb həyata keçirir. Bu sahədə olan qanunvericilik aktlarının təkmilləşdirilməsi və tətbiq edilməsinə yardım edir. Bu tədbirlər könüllü üzvlük haqları və BMT-nin xətti hesabına həyata keçirilir.

3. Məhsuldarlıq məsələsi üzrə Asiya təşkilatı

Məhsuldarlıq məsələsi üzrə Asiya təşkilatı 1961-ci ildə yaradılıbdır. Dövlətlərarası regional təşkilat olub sahibkarlıq fəaliyyətində məhsuldarlığın artırılmasına və iqtisadi inkişafda əməkdaşlığın genişlənməsinə xidmət edir. Təşkilatın tərkibinə 18 dövlət daxildir: Banqladeş, Vyetnam, Honq-Konq, Hindistan, İndoneziya, İran, Malayziya, Monqolustan, Nepal, Koreya Respublikası, Sinqapur, Tailand, Tayvan, Fici, Filippin, Şri-Lanka, Yaponiya.

Bu təşkilatın fəaliyyətində üç əsas sahədə ~ sənaye, kənd təsərrüfatı və xidmətdə məhsuldarlığın artırılması üzrə proqram işlənib hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur. Təşkilat - bu fəaliyyətini məhsuldarlıq məsələləri üzrə məşğul olan milli təşkilatlar vasitəsilə yerinə yetirilir.

Sənaye xidmət sahəsində olan proqramlarda - məhsuldarlıq və sosial-iqtisadi inkişaf; kiçik və orta istehsal müəssisələrinin inkişafı; məhsuldarlığın ölçül-

məsi; idarəçilik; keyfiyyətə nəzarət; istehsal; heyətin idarə edilməsi; marketinq; texnologiyanın idarə edilməsi; informasiya təminatı və s. sahələr nəzərdə tutulur.

Kənd təsərrüfatı üzrə olan proqramda isə - kənd təsərrüfatının inkişafı siyasəti, ehtiyatlar, texnologiya, ətraf mühitin mühafizəsi, marketinq və kənd təsərrüfatı təşkilatlarının işi, aqrar sənaye kompleksi, kənd rayonlarının inkişafı və s. öz əksini tapır.

4. Cənubi-Şərqi Asiya dövlətləri Birliyi (ASEAN) Asiya - Sakit Okean İqtisadi Əməkdaşlığı (ATEK)

Son 10 illiklərdə Asiya Sakit okean regionu (ASOR) beynəlxalq münasibətlər sistemində dinamik iqtisadi artıma malik olan ərazi kimi daha çox diqqəti cəlb edir. Odur ki, bu ərazidə inteqrasiya əlaqələri də geniş vüsət almışdır. Bu regionda Yaponiya-Çin-Yenl Sənaye Ölkələri - Cənubi - Şərqi Asiya dövlətləri Birliyindən İbarət "asiya dördbucağı” yaranmışdır.

Bu regionda iki müstəqil inteqrasiya Birliyi yaranmışdır. Cənubi-Şərqi Asiya dövlətləri Birliyi (ASEAN) və Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı (ATES) .

Hər iki birlik inteqrasiya birliyi kimi geniş araşdırılmışdır. Odur ki, bu başlıqda onların açıqlanmasına az yer verilir.

Cənubi-Şərqi Asiya döviətləri Biriiyi. 1967-ci ildə Banqkok (Tailand) razılığına əsasən yaradılmışdır. 10 ölkəni birləşdirir: İndoneziya, Malayziya, Sinqapur, Tailand, Filippin, Vyetnam, Laos, Myanma, Kamboca, Bruney-Darüssalam.

Sosial-iqtisadi və mədəni əməkdaşlıq, sülhün və sabitliyin qorunması nizamnamənin əsasını təşkil edir. Birliyin ali orqanı dövlət başçıları və hökumətin konfransı hesab edilir. 11 ixtisaslaşdırılmış Komitə fəaliyyət göstərir. İldə 300-dən artıq məsləhətləşmələr və tədbirlər keçirirlər. Birlik çərçivəsində Azad Ticarət zonası barədə çərçivə müqaviləsi, sənaye üzrə əməkdaşlıq barədə baza müqaviləsi həyata keçirilmişdir.

Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı (ATES) bu ərazidə yaradılmış ikinci daha böyük inteqrasiya birliyidir. Bu əməkdaşlıq 1989-cu İlin noyabr ayında yaradılmışdır. Bura 21 dövlət daxildir. Birlik çərçivəsində inteqrasiya prosesləri genişlənir.

Cədvəl №14

Cənubi-Şərqi Asiya Dövlətləri

№	Dövlətlərin adi	Ərazisi min kv. km.	Əhalisi mln nəfər
1.	İndoneziya	1905	240
2.	Malayziya	330	27,6
3.	Sinqapur	0640	5,1
4.	Tailand	513	67,0
5.	Filippin	300	94,0
6.	Vyetnam	332	88,0
7.	Laos	237	6.2
8.	Myanma	678	48,0
9.	Kamboca	181	13.4
10.	Bruney	5.8	0,400
		4482	589.7

Cədvəl №15

Asiya Sakit Okean İqtisadi Əməkdaşlığı

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mln nəfər
1.	ABŞ	9364	296
2.	Kanada	9971	34,5
3.	Meksika	1958	112,3
4.	Peru	1285	29,5
5.	Avstraliya	7741	22,6
6.	Yeni Zellandiya	271	4,4
7.	Çin	9597	1306,3
8.	İndoneziya	1905	240,0
9.	Malayziya	330	27,6
10.	Tailand	513	67
11.	Filippin	300	94,0
12.	Bruney	5,8	0,400
13.	Vyetnam	332	88,0
14.	Koreya Respublikası	99'	49,0
15.	Sinqapur	0'640	5,1
16.	Tayvan		23,2
17.	Çili	758	17,2
18.	Rusiya	17075	143,0
19.	Papua - Yeni Qvineya	0,463	6,7
20.	Honq-Qonq	1,1	7,0
21.	Yaponiya	372	127,9
		61879	2672,2

5. Cənubi Sakit Okean Forumu

Cənubi Sakit Okean Forumu 1971-ci ildə yaradılıbdır. Sakit okeanın Cənub hissəsindəki ada ölkələrini özündə birləşdirir. Foruma 15 ölkə daxildir: Avstraliya, Vanuatu, Qərbi Samoa, Klribati, Kuka adası. Marşal adaları, Nauru, Yeni Zellandiya, Niuye, Papua - Yeni Qvineya, Solomon adaları, Tonqa, Tuvalu, Mikroneziya Birləşmiş ştatları, Ficl.

Dialoq aparmaqda Aİ, Kanada, Çin, Böyük Britaniya, ABŞ və Yaponiya ilə partnyorluq edir.

Bu forumun əsas məqsədi regional siyasətdə İqtisadiyyat, ətraf mühit, təhlükəsizlik və digər qlobal problemlər üçün birgə layihələr hazırlamaqdan ibarətdir.

Bu forumun əsas fəaliyyəti aşağıdakı istiqamətlərdə həyata keçirilir:

—^forumun ayrı-ayrı qurumlarının fəaliyyətini üzv olan ölkələrin hökumət təşkilatlarının işi ilə əlaqələndirmək;

—Cənubi Sakit okean üzrə ətraf mühitin mühafizəsi proqramında iştirak etmək;

—Cənubi Sakit okean regionunda ticarət üzrə razılaşmalarda və iqtisadi əməkdaşlıqda iştirak etmək. Burada bir tərəfdə forumun üzvləri, digər tərəfdə isə Avstraliya ilə Yeni Zellandiya nəzərdə tutulur.

Razılaşmalarda foruma üzv olan ölkələr arasında rüsumsuz və yaxud güzəştli ticarət əlaqələri nəzərdə tutulur.

Bu forum çərçivəsində aşağıdakı təşkilatlar yaradılıbdır:

— Cənubi Sakit okean xətti forumu. Bu qurum daha zəruri gəmiçilik xətlərinin istifadəyə verilməsinə yardım edir.

— Forumun balıqçılıq üzrə agentliyi. Bu qurum regionda və kənarda balıqçılıq üzrə olan qanunçuluq, razılaşmalar, qiymətlər, balığın daşınması, emalı və s. barədə məlumat toplayır.

— Marketinqə yardım fondu. Sahibkarlara xaricə və regionda məhsul satışına köməklik göstərir.

— Cənubi Sakit okean ticarət komissiyasi (Avstraliya, Sidney) və Cənubi Sakit okean Ticarət Bürosu (Yeni Zelandiya. Oklend). Bu qurum ticarət münasibətlərinin inkişafı ilə məşğuldur.

— Hökumətlərarası Turizm Təşkilatı Sakit okeanın cənub hissəsində turizmin inkişafı işlərinə baxır.

“ Forumun Telekommunikasiya Proqramı. ***Bu*** qurum 1989-cu ildə təsis olunmuşdur. Əsasən telekommunikasiya vasitələrinin, eləcə də bu sahədə avadanlıqların və xidmətin inkişafına köməklik göstərir.

6. Asiya İnkişaf Bankı (AsİB)

Asiya İnkişaf Bankı 1966-cı ildə yaradılmışdır.

1974- cü ildə yenidən təşkil olunaraq BMT-nir? Asiya və Sakit okean ölkələri üçün iqtisadi və sosial komissiyası (ESKATO) adlandırılmışdır.

Asiya İnkişaf Bankı 56 ölkəni özündə birləşdirir. Bunlardan 40 ölkə xalis regional, 16 ölkə isə digər regionlardandır (bunlardan - Avstriya, Belçika, Böyük Britaniya, Almaniya, Danimarka, İspaniya, İtaliya,

Kanada, Niderland, Norveç, ABŞ, Türkiyə, Finlandiya, Fransa, İsveçrə, İsveç).

Bankın əsas məqsədi həmin regionda inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişafına və əməkdaşlığına köməklik göstərməkdən ibarətdir.

Bankın fəaliyyətində əsas cəhət regional və milli layihələrin, proqramların maliyyələşdirilməsindən ibarətdir. Burada aşağıdakı sahələrə daha çox üstünlük verilir.

Kənd təsərrüfatında: İrriqasiya işləri, kənd rayonlarının İnkişafı, balıqçılıq, heyvandarlıq, meşə təsərrafatı;

Energetikada: energetika sahəsində olan layihələr təbii qaz və kömür çıxarılması, neft emal edən müəssisələrin yaradılması;

Nəqliyyat və rabitə sahəsində: liman və g- əmıçllik, yollar, dəmir yolları, təyyarə limanları, telekommunikasiya;

İnfrastruktura sahəsində: su təchizatı, sanitariya işləri, şəhər təsərrüfatı infrastrukturası, təhsil və səhiyyə sahəsində olan layihələr və s.

Bunlarla yanaşı Bank kiçik və orta sahibkarlara da az məbləğdə borc verir.

Asiya İnkişaf Bankı başqa banklarla və beynəlxalq maliyyə institutları ilə birlikdə də müəyyən layihələrin maliyyələşdirilməsini həyata keçirir. Burada Almaniya, Yaponiya və Fransanın banklarını, Küveyt və Səudiyyə Ərəbistanının maliyyə institutlarını qeyd etmək olar.

Bankın maliyyə ehtiyatları üzvlük haqlarından, ehtiyat kapitaldan, kapital bazarındakı qarşılıqlı əməliyyatlardan, güzəştli kreditiəşmələrdən, texniki yardım göstərilməsindən və digər fondlar hesabına varanır.

Cəmi kapital yaradılmasında inkişaf etmiş ölkələr 60%, inkişaf etməkdə olan ölkələr isə 40% səsə malikdirlər. Burada ABŞ 17%, Yaponiya isə 14% səsə malikdirlər.

Xüsusi bir cəhəti qeyd etməliyik ki, həmin regiondan olan ölkələrdən üzvlük haqqının müəyyən edilməsində ÜDM-in həcmi, əhalinin sayı, büdcə xərcləri, İxracın həcmi və s. kimi göstəricilər əsas götürülür.

Bu regiondan olmayan inkişaf etmiş ölkələrin üzvlük haqqının müəyyən edilməsində onların inkişaf etməkdə olan ölkələrə iqtisadi yardımı və beynəlxalq təşkilatlara büdcədən olan yardımın həcmi nəzərə alınır.

Beləliklə, Bank maliyyə vəsaiti toplayaraq region ölkələrinə borc verir. Burada çox ciddi yoxlama və yerində qiymətləndirmə, hər bir layihənin qiyməti müəyyənləşdirilir. Borcun effektlvli istifadə edilməsi və s. göstəricilər şərtləndirilir.

Bank vəsaiti formalaşma mənbəyinə, təyinatına və verilmə şərtlərinə görə iki cür olur.

1. Adi vəsait fondu;
2. Xüsusi fond

Adi fonddan kommersiya şərtləri ilə məqsədli borc verilir. Bu borc 10-30 ilə verilir (2-7 il güzəştli müddət hesab edilir). Burada faiz dərəcəsi dünya pul bazarı faiz dərəcəsinə uyğun müəyyən edilir. Bankın vəsaitinin əsasını adi fond adlandırılan hissə təşkil edir. Bu vəsait əvvəlcədən keçirilən kapital, borc vəsaitləri, borcların qaytarılmasından yaranan vəsait, kredit əməliyyatlarından olan mənfəət və s. hesabına formaiaş:r

Xüsusi fond İsə güzəştli borc və kredit verilməsinə sərf edilir. Bu fondun vəsaiti üzvlük haqqı hesabına formalaşır və ayrıca hesabda əks olunur. Buradan güzəştli şərtlərlə verilən borc 40 ilə nəzərdə tutulur.

Bank öz idarəçiliyini üç xüsusi fond vasitəsilə həyata keçirir.

Asiya İnkişaf Fondu. Bu fond 1974-cü ildə yaradılıbdır. Əsasən öz üzvləri olan inkişaf etmiş ölkələri özündə birləşdirir (Fransadan başqa). Burada Yaponiyanın payı - 52%, ABŞ - 16%, Almaniya - 9%, Kanada - 5%, Böyük Britaniya və Avstraliya hər biri 4% təşkil edir. Fond hər nəfərə düşən ÜDM-in həcmi az olan ölkələrə güzəştli şərtlərlə borc verir.

Xüsusi Texniki Yardım Fondu. Bu fond əsasən üzv ölkələrin könüllü üzvlük haqqı hesabına maliyyələşdirilir. Bank əməliyyatlarına texniki yardım göstərir.

Xüsusi Yaponiya Fondu. Bu fond 1988-ci ildə Bank ilə Yaponiya arasındakı razılığa əsasən yaradılıbdır. Bu fond (Bankın üzvü olan) inkişaf etməkdə olan ölklərə iqtisadiyyatda quruluş dəyişikliyi aparılmasına, yeni investisiya cəlb edilməsinə, ölkənin sənayeləşdirilməsinə, təbii ehtiyatların inkişafına, əvəzsiz texnologiya verilməsinə, İnsan ehtiyatlarının inkişafına köməklik göstərir.

Qeyd etməliyik ki, Asiya İnkişaf Bankı Asiya Maliyyə-İnvestisiya Birliyinin Səhmlərini öz əllərində cəmləşdirmişdir. Burada Asiyanın, Amerikanın və Avropanın 25 xüsusi maliyyə institutları təmsil olunurlar.

Asiya İnkişaf Bankı BMT - sistemi ilə, xüsusən Ümumdünya Bankı, BVF, FAO, Kənd Təsərrüfatının İnkişafı Fondu ilə. Al, OPEK-in Beynəlxalq İnkişaf

Fondu və digər beynəlxalq təşkilatlarla yaxın əməkdaşlıq edir.

Məhz bu yaxın əməkdaşlığın nəticəsidir ki, Ümumdünya Yenidənqurma və İnkişaf Bankı Aİ, Avropa İnvestisiya Bankı, Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu, İslam İnkişaf Bankı, OPEK-in xüsusi fondu, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşdirilmə işi üçün vəsait buraxırlar.

1976-ci ildə Asiya İnkişaf Bankının himayəsi ilə Asiya - Sakit okean regionunda inkişafın maliyyələşdirilməsi İnstitutları Birliyi yaradılmışdır. Bu qeyri- dövlət təşkilatı olsa da, yüksək məsləhətverici statusa malik olub BMT-nin İqtisadi və Sosial Şurası (EKOSOS) tərkibinə daxildir. Bu birlik 72 İnkişaf Bankını və digər inkişafın maliyyələşdirilməsi institutlarını və 7 xüsusi qurumu, (BY və İB və AsİB) özündə birləşdirir.

AsİB-in fəaliyyəti faktiki olaraq inkişaf etmiş sənaye ölkələri tərəfindən tənzim edilir. Bankın siyasətində ABŞ və Yaponiyanın rolu daha böyükdür. Bu isə həmin regiona xarici xüsusi kapitalın axmasına zəmin yaradır. Yaponiya, ABŞ, Kanada, Danimarka, Niderland və digər ölkələrin AsİB-in xüsusi fonduna vəsait ayırması ilə faktiki olaraq Bankın üzvü olan digər ölkələri özlərinə bağlayırlar. Əvvəllər bu Bankdan borc alan bir çox ölkələr (yeni sənaye ölkələri) C.Koreya, Honq-Konq, Sinqapur, Tayvan və s. hazırda donor ölkələrə çevrilmişlər.

1995- ci ildə bankın verdiyi borc 1,45 mlrd, doll., kredit isə 5,5 mlrd, dollara bərabər olmuşdur.

Bankın cəmi kapitalı 26 mlrd, dollardır. Hazırda bu bank regionda hərtərəfli borc verən əsas mənbə hesab edilir. 1974-1995-ci illərdə Bankın cəmi krediti 57 mlrd.

dollar təşkil etmişdir. 1998-ci ildə bu göstərici 6,5 mlrd dollar olmuşdur. 2000-ci ilin məlumatına görə Asiya ölkələrinin kreditə olan ümumi tələbatı 130 mlrd, dollar təşkil edir.

Hazırda AsİB-dən borc alan ən böyük dövlət Çin hesab olunur.

7. Cənubi Asiyanın Regional Əməkdaşlığı Birliyi

Cənubi Asiyanın Regional Əməkdaşlığı Birliyi 1985-ci üdə yaradılıbdır. Bura 7 ölkə daxildir - Banqladeş, Butan, Hindistan, Maldiv, Nepal, Pakistan, Şri-Lanka.

Bu birliyin əsas məqsədi - üzv olan ölkələr arasında iqtisadi, elmi-texniki, sosial və mədəni sahələrdə əməkdaşlığı inkişaf etdirmək, iqtisadi artımı sürətləndirmək, əhalinin həyat səviyyəsini yüksəltməyə yardım etməkdən ibarətdir.

Bu məqsədlə də əməkdaşlıq və maliyyələşdirmə barədə proqramların əlaqələndirilməsi, regional və xarici ehtiyatların səfərbər edilməsi, iqtisadi, ticarət və texniki əməkdaşlıq barədə proqram və layihələr hazırlanması tələb olunur. Bu mənada kompleks proqram fəaliyyəti mövcuddur. Bu proqram 12 sahədə əməkdaşlıq nəzərdə tutur: kənd təsərrüfatı, kommunikasiya, ətraf mühitin mühafizəsi, kənd rayonlarının İnkişafı, elm və texnika, turizm, nəqliyyat və s. 1995-ci ildə bu birliyin üzvləri gələcəkdə burada azad ticarət zonası yaradılması barədə müqavilə bağlamışlar, 226 növ əmtəə üzrə tarif dərəcələrinin azaldılması həyata keçirilir.

XVII FƏSİL

AFRİKA DÖVLƏTLƏRİ ÜZRƏ REGİONAL İQTİSADİ TƏŞKİLATLAR

1. *Afrika Birliyi təşkilatı..*
2. *Afrika İnkişaf Bankı.*
3. *Mərkəzi A frikanın Gömrük və İqtisadi İttifaqı.*
4. *Afrika İnkişaf Fondu.*
5. *Mərkəzi Afrika Dövlətlərinin İnkişaf Bankı.*
6. *Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi.*
7. *Şərqi Afrika İnkişaf Bankı.*
8. *Cənubi Afrika İnkişaf Birliyi.*
9. *Şərqi və Cənubi Afrikanın Ümumi Bazan.*
10. *Qərbi Afrikanın İqtisadi və Valyuta İttifaqı.*
11. *Qərbi Afrika İnkişaf Bankı*

Bütün başqa regionlarda olduğu kimi Afrika regionunda da müəyyən birliklər yaranmağa başlamişdır. Burada yaranan iqtisadi inteqrasiyanın əsasını dörd iqtisadi ittifaq təşkil edir. Bunlardan Mərkəzi Afrika dövlətləri:

Qərbi Afrika dövlətləri; Cənubi Afrika dövlətləri:

Şərqi və Cənubi Afrika dövlətləri.

Bütün bu kimi təşkilatlar iqtisadi qruplaşma olmaqla ümumi bazarla birlikdə əmtəələrin, kapitalm və işçi qüvvəsinin sərbəst hərəkətinə zəmin yaradırlar və bu sahədə olan iqtisadi münasibətləri tənzimləyirlər.

Aydındır ki, onların müəyyən siyasi məqsədləri də vardır.

1. Afrika Birliyi Təşkilatı (ABT)

Afrika Birliyi Təşkilatı 1963-cü ildə yaradılıbdır - 53 ölkəni özündə birləşdirir. Digər bütün birliklər demək olar ki, bu təşkilat çərçivəsində, onun müəyyən müddəaları əsasında yaradılır.

Bu təşkilatın əsas məqsədi iqtisadiyyat, nəqliyyat, rabitə, elm, texnika, ərzaq təminatı və digər sahələrin əlaqələndirilməsi və əməkdaşlığı əsasında ümumi yüksəlişə nail olmaqdır.

1991-ci ildə Ərəb Birliyi Təşkilatı üzvləri Afrika İqtisadi Birliyi barədə müqavilə imzalamışlar. Burada göstərilir ki, həmin birliyin yaranması və formalaşması 34 il çəkəcək və 6 mərhələ təşkil edəcəkdir. Beləliklə bu iqtisadi birlik Afrika Birliyi Təşkilatının əsas tərkib hissəsi olacaqdır.

2. Afrika İnkişaf Bankı (Af.İB)

Afrika İnkişaf Bankı 1964-cü ildə yaradılıbdır. Dövlətlərarası regional institutu olmaqla Afrika ölkələrinə kredit verir.

Bankın tərkibinə 77 dövlət daxildir. Bunlardan 53 dövlət həmin regiona məxsusdur, 24 dövlət isə digər region dövlətləridir.

Bankın fəaliyyətində nisbətən daha böyük rolu olan Afrika dövlətlərindən Nigeriya, Əlcəzair, Liviya, Mərakeş, CAR, Misir və Konqo Demokratik Respublikasını (Zair) qeyd etmək olar.

Digər regionlardan olan dövlətlərdən isə daha yüksək xüsusi çəkiyə malik olanları qeyd etmək olar:

Avstriya, Belçika, Böyük Britaniya, Almaniya, Danimarka, İspaniya, İtaliya, Niderland, Norveç, Portuqaliya, Finlandiya, Fransa, İsveçrə, İsveç. Bu ölkələr cəmi səhm kapitalının 17,3%-nə sahibdirlər.

ABŞ, Argentina, Braziliya, Kanada (9,4%), Hindistan, Çin, Koreya Respublikası, Yaponiya (6,2%), Küveyt və Səudiyyə Ərəbistanı (0,5%) təşkil edirlər. Əlbəttə ümumi iqtisadi inkişaf dəyişdikcə ayrı-ayrı dövlətlərin rolu da dəyişir.

Belə ki, həmin 24 dövlətin Bankda olan səhm kapitalı artaraq 1998-cl ildəki 33,4%-dən 40%-ə, 53-reglonal dövlətlərin payı isə 66%-dən azalaraq 60%-ə bərabər olmuşdur. Bankın əsas məqsədi aşağıdakılardan ibarətdir:

— region üzrə ölkələrin iqtisadi və sosial inkişafına köməklik göstərmək;

İnvestisiya proqramları və layihələrinin maliyyələşdirilməsi;

— Dövlət və xüsusi sahibkarlar tərəfindən olan investisiya siyasətinə yardım edilməsi;

— Bank ilə ayrı-ayrı qurumların birlikdə ikitərəfli, çoxtərəfli qurmlann birlikdə maliyyələşdirmə aparmasının təşkil edilməsi;

— Ayrı-ayrı ölkələrdə inkişaf layihəsi hazırlanmasına texniki yardım edilməsi;

— Afrika ölkələrinin İqtisadi inkişaf strategiyasını hazırlamaq və s.

Qeyd etməliyik ki, hazırda Afrika dövlətləri üçün xas olan əsas problemlərdən biri də borcun qaytanla bilməməsidir. Son illərin məlumatına görə bu məbləğ təqribən 1 trln. dollar təşkil etmişdir (Konqo DR, Anqola, Sudan və Nigeriyanın borcu daha çoxdur).

1998- ci ildən bu bank kreditləşdirmə sistemində daha fəal, yeni tədbirlər həyata keçirməyə başlamışdır.

Afrikada aqrar bölmənin əsası olan xırda kənd təsərrüfatı istehsalçılarının kreditləşdirilməsi proqramı hazırlanmışdır. Afrika ölkələrinin maliyyələşdirilməsində yeni layihələr həyata keçirilir. Məsələn, son illər Əlcəzairdə kiçik və orta biznesin inkişafına 136 mln. dollar;

Burundiyə - iqtisadiyyatın İnkişafına 55 mln. dollar;

Zambiyaya - su təchizatı sisteminin və təhsilin inkişafına 23 mln. dollar;

Mərakeşə - dəmir yolunun modernləşdirilməsinə 82 mln. dollar;

Seneqala - kənd təsərrüfatının maliyyələşdirilməsinə 14 mln. dollar;

Eritreyaya - İrriqasiya layihəsinə 12 mln. dollar maliyyə vəsaiti ayrılmışdır.

Başqa banklarda olduğu kimi burada da əsas maliyyə mənbəyi:

1. Nizamnamə kapitalına köçürülən hissə.
2. Borc verilməsindən əldə olan gəlir.
3. Beynəlxalq kapital bazarından olan gəlirlər və digər vəsaitdən ibarətdir.

Bu bankın tərkibində Nigeriya İnam Fondu da fəaliyyət göstərir. Bu fond 1976-cı ildə yaradılıbdır. Nigeriyanın hökumət təşkilatı hesab olunur.

Bu fond Nigeriyanın neft İxracından olan gəlirindən ayrılır. 2000-ci ilə fondun vəsaiti 400 mln. dollardan artıq olmuşdur.

3. **Mərkəzi Afrikanın Gömrük və İqtisadi İttifaqı**

Mərkəzi Afrikanın Gömrük və İqtisadi İttifaqı 1966- cı ildə yaradılmışdır (Ekvatorial Gömrük İttifaqının davamı kimi). Bura 6 ölkə daxildir. Qabon, Kamerun, Konqo, MAR, Çad, Ekvatorial Qvineyası. Bu ittifaqın əsas məqsədi Mərkəzi Afrikada mərhələ-mərhələ ümumi bazar yaratmaq və inkişaf etdirməkdən ibarətdir.

Aydındır ki, iqtisadi münasibətlərin düzgün əlaqələndirilməsi üçün üzv olan ölkələr üzrə ümumi prinsiplər hazırlanır.

Afrikanın ayn-ayn regional təşkilatlan ilə Mərkəzi Afrika dövlətləri Bankı (Kamerun), Məri<əzi Afrika Dövlətlərinin İnkişafı Bankı (Konqo), Layihələrin Qiymətləndirilməsi Texnoloji İnstitutu (Qabon) və s. əməkdaşlığın artınıması da bu ittifaqın fəaliyyətində böyük rol oynayır. Bu təşkilatın normal fəaliyyəti üçün ümumdünya təşkilatlan ilə də qarşılıqlı əlaqələri böyük rola malikdir. 1991-ci ildə ümumdünya Bankı və BVF ilə birlikdə regionda islahat proqramı işlənib hazırlanmışdır. 1994-cü ildə Mərkəzi Afrikada iqtisadi və valyuta birliyi yaradılması barədə qərar qəbul edilmişdir.

4. **Afrika İnkişaf Fondu (Af.İF)**

Afrika İnkişaf Fondu 1972-ci ildə yaradılıb. 1974-cü ildən əməliyyat aparmağa başlamışdır.

Bu fond müstəqil bir hüquqi şəxs kimi Afrika İnkişaf Bankı qrupuna daxildir.

Fondun 26 üzvü vardır: Afrika İnkişaf Bankı, 14 Avropa ölkəsi, ABŞ, Kanada, Yaponiya.

Fondun əsas məqsədi nisbətən yoxsul ölkələrə güzəştli şərtlərlə layihələri maliyyələşdirmək, texniki yardım göstərmək, əməkdaşlığın inkişafını maliyyələşdirmək, ticarəti genişləndirməkdən ibarətdir.

Fondun vəsaiti əsasən Qərb ölkələrinin üzvlük haqqı hesabına formalaşır.

Fond, ilk növbədə, kənd təsərüfatının, nəqliyyatın, ərzaq məhsullarının artırılmasına güzəştli kredit verir. Hazırda fond yeni layihələrin maliyyələşməsini həyata keçirir.

Bunlardan; Qvineyaya - təhsilin maliyyələşdirilməsinə 50 il müddətinə 16,5 mln. dollar:

Madaqaskara - quruluş islahatı keçirilməsinin maliyyələşdirilməsinə 46,5 mln. dollar;

Toqoya - quruluş islahatı aparılmasına BVF, BY və İB və Yaponiya ilə birlikdə 50 illiyə 15,3 mln.dollar krediti qeyd etmək olar.

5. Mərkəzi Afrika Dövlətlərinin İnkişaf Bankı

Mərkəzi Afrika Dövlətlərinin İnkişaf Bankı 1975-ci ildə yaradılıbdır. Bankın tərkibi 11 üzvdən ibarətdir. Bunlardan altısı Afrika dövlətləridir: Qabon, Kamerun, Konqo, MAR, Çad, Ekvatorial Qvineya (bunlar eyni zamanda gömrük və iqtisadi ittifaqın üzvüdürlər); 2-si Afrika İnkişaf Bankı və Mərkəzi Afrika Dövlətlərinin İnkişaf Bankıdır. 3-ü isə qeyri regional üzv - Almaniya, Küveyt, Fransadan ibarətdir.

Bankın əsas məqsədi:

—üzv ölkələrin iqtisadi və sosial inkişafına köməklik etmək;

—İqtisadi inteqrasiyanın inkişafına dair layihələrin maliyyələşdirilməsi;

—^Texniki-iqtisadi hesablamaları maliyyələşdirmək;

—Sənaye, kənd təsərrüfatı, energetika, infrastruktura, nəqliyyat, elmi tədqiqat işlərinin maliyyələşdirilməsi və s. həyata keçirmək.

Bank digər maliyyə institutları ilə əməkdaşlıq edir. Bankın maliyyə ehtiyatları - nizamnamə kapitalı, dünya kapitalı bazarından olan gəlirlər və Bankın öz xüsusi gəlirləri hesabına formalaşır.

6. Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi

Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi 1975-cl ildə yaradılmış, 1976-cı ildən isə fəaliyyətə başlamışdır. Birlik yaradılması barədəki müqavilədə siyasi sahədə də əməkdaşlıq nəzərdə tutulmuşdur.

Bu birliyin tərkibinə 16 ölkə daxildir.

Benin, Burkina Paso, Kot-d'İvuar, Yaşıl Burun adası, Qambiya, Qana, Qvineya, Qvineya-Bisau, Liberiya, Mali, Mavritaniya, Niger, Nigeriya, Seneqal, Syerra-Leone, Toqo

Bu birliyin əsas məqsədi:

— Qərbi Afrika dövlətləri arasında iqtisadi ittifaq yaradılmasına yardım etmək;

— İqtisadi sabitliyin möhkəmlənməsinə köməklik göstərmək;

— Milli siyasətlərin əlaqələndirilməsinə, investisiya qoyuluşunda qanunçuluğun əlaqələndirilməsinə köməklik etmək;

— Ümumi bazar, iqtisadi və valyuta ittifaqı yaradılmasına köməklik göstərmək;

— Birgə istehsal, birgə müəssisələr yaradılmasını həyata keçirməkdən ibarətdir,

7. Şərqi Afrika İnkişaf Bankı

Şərqi Afrika İnkişaf Bankı 1976-cı ildə yaradılıbdır. Bankın üzvləri - Keniya, Tanzaniya, Uqan- dadan ibarətdir. Eləcə də Korporativ təşkilatlar, müəssisələr, institutlar, Afrika İnkişaf Bankı da bu bankın üzvüdürlər.

Bankın əsas məqsədi - üzv olan ölkələrin inkişafına köməklik göstərmək, onlara məsləhət xarakterli xidmətlər göstərməkdən ibarətdir.

8. Cənubi Afrika İnkişaf Birliyi

Cənubi Afrika İnkişaf Birliyi 1992-ci ildə yara- dıllıbdır. Birliyin tərkibinə 11 dövlət daxildir: Anqola, Botsvana, Zambiya, Zimbabve, Lesoto, Malavi, Mozambik, Namibiya, Svazilend, Tanzaniya, CAR.

Birliyin əsas iqtisadi məqsədi regional inteqrasiya yolu ilə İqtisadi inkişaf və sosial yüksəlişə nail olmaq, milli və regional strategiya və proqramların həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

Ona görə də həmin ölkələrin siyasi və sosial-iqtisadi planlarının əlaqələnməsinə, əmtəələrin, kapitalın

və işçi qüvvəsinin sərbəst hərəkətinə, qabaqcıl texnologiya əldə edilməsinə, idarəçiliyin təkmilləşdirilməsinə, xarici vəsaitin cəlb edilməsi və s. kimi problemlərə üstünlük verilir.

Ayrı-ayrı sahələrin inkişaf proqramı konkret ölkələrə tapşırılır. Hər bir sahə üzrə ayrıca siyasət və strategiya işlənib hazırlanır və məsul tərəf müəyyən edilir.

Məsələn: sənaye və ticarət üzrə - Tanzaniya;
energetika sahəsinə - Anqola; hasilat sənayesi üzrə - Zambiya; ərzaq, kənd təsərrüfatı təbii ehtiyatlar üzrə - Zimbabve; dəniz balıqçılığı və dəniz ehtiyatlan üzrə - Namibiya; daxili sututarlardan balıq ovlamaq, meşə təsərrüfatı sahəsinə- Malavi;
nəqliyyat, rabitə mədəniyyət və informasiya üzrə - Mozambik;
turizm, ətraf mühitin mühafizəsi, torpaqdan istifadə üzrə Lesoto;
kənd təsərrüfatı və heyvandarlıq sahəsində tədqiqat aparılması üzrə - Botsvana;
insan ehtiyatlarının inkişafı sahəsinə - Svazilend məsuldurlar.

Bütün bu proqramlara icra orqanı olan katiblik ciddi nəzarət edir və məsuliyyət daşıyır.

Bu birlik digər beynəlxalq və regional qurumlarla yaxından əməkdaşlıq edir.

1994-cü ildə Avropa İttifaqı ilə bir çox sahələr üzrə əməkdaşlıq barədə razılaşmalar əldə edilmişdir.

9. Şərqi və Cənubi Afrikanın Ümumi Bazan

Şərqi və Cənubi Afrikanın Ümumi Bazarı 1994-cü ildə yaradılmışdır. Öz tərkibində 20 dövləti birləşdirir:

Anqola, Burundi, Zair, Zambiya, Zimbabve, Keniya. Komor adaları, Lesoto, Mavriki, Madaqaskar, Malavi, Mozambik, Namibiya, Ruanda, Svaziiend, Sudan, Tanzaniya, Uqanda, Eritreya, Həbəşistan.

Bu birliyin əsas məqsədi:

— Sabit dinamik artım və inkişafa nail olmaq;

— Daha yaxından iqtisadi əməkdaşlıq etmək üçün birgə makroiqtisadi proqram və siyasət işləyib hazırlamaq;

— Xarici və yerli investisiya cəlb edilməsinə şərait yaratmaq;

— Afrika iqtisadi birliyi yaradılması tədbirlərinə üstünlük vermək;

— Beynəlxalq forumlara üzv olan ölkələrin birliyi mövqeyini saxlamaq;

— Eyni siyasi mövqedən çıxış etməkdir.

Bütün bu məqsədlərə çatmaq üçün bu təşkilat ticarətin liberallaşması və Gömrük ittifaqı yaradılmasına çalışır. Bir çox xarici ticarət maneçiliklərini aradan qaldırır. Valyuta-maliyyə sahəsində əməkdaşlığı artırır. İqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafında yaxından əməkdaşiq edir. Bir qayda olaraq xüsusi sahibkarlığın İnkişafına, investisiya qoyuluşunun genişlənməsinə, sosial məsələlərə, insan amilinin inkişafına üstünlük verilir.

Odur ki, ümumi bazarın inkişafı və formalaşmasının nəticəsi olaraq İqtisadi birlik mərhələsinə keçid nəzərdə tutulmuşdur.

10. Qərbi Afrikanın İqtisadi və Valyuta İttifaqı

Qərbi Afrikanın İqtisadi və Valyuta İttifaqı 1994-cü ildə yaradılmışdır (1973-cü ildə Qərbi Afrika valyuta ittifaqı adlanırdı).

Öz tərkibində 7 ölkəni birləşdirir. Benin, Burkina-Faso, Kot-d'lvuar, Mali, Niger, Seneqal, Toqo.

Bütün başqa birliklərdə olduğu kimi, burada da əsas məqsəd üzv olan ölkələr arasında inteqrasiya əlaqələrini genişləndirmək, ümumi tarif dərəcələri tətbiq etməklə ümumi bazar yaradılmasına yol açmaq, əmtəə və xidmətlərin, insanların sərbəst hərəkətinə zəmin yaratmaq, milli iqtisadi siyasətləri əlaqələndirmək, qanunçuluqda əlaqələri genişləndirməkdən ibarətdir.

11. Qərbi Afrika İnkişaf Bankı

Qərbi Afrika İnkişaf Bankı maliyyə qurumu olmaqla 1973-cü ildə yaradılmış, 1976-cı ildə isə əməliyyata başlamışdır. Bu bankın 13 üzvü vardır. Bunlardan 7 dövlət eyni zamanda Qərbi Afrikanın iqtisadi və valyuta ittifaqının üzvüdürlər. Bunlar - Benin, Burkina-Faso, Kot-d'İvuar, Mali, Niger, Seneqal, Toqo, eləcə də Qərbi Afrika Dövlətlərinin Mərkəzi Bankı, Afrika İnkişaf Bankı, Almaniya İnkişaf Korporasiyası, Avropa İnvestisiya Bankı və Belçika ilə Fransa da bu bankın üzvüdürlər. Bankın əsas məqsədi:

—üzv olan ölkələrin taraz inkişafına köməklik göstərmək;

—Qərbi Afrikada iqtisadi inteqrasiyanı reallaşdırmaq;

—yüksək əhəmiyyətli layihələri maliyyələş dirməkdən ibarətdir.

Bu məqsədlə Bank öz fəaliyyətində ayrı-ayrı sahələrin inkişafında iqtisadi siyasətlərin əlaqələndirilməsinə yaxından köməklik edir:

—milli və regional layihələrin maliyyələşdirilməsinə təminatla kredit verir;

—milli maliyyə institutlarının və müəssisələrin kapitalında iştirak edir;

—texniki-iqtisadi əsaslandırmaları maliyyələşdirir;

—kiçik və orta müəssisələrə yardım edir;

—^Afrika İnkişaf Bankı, Qərbi Afrika Dövlətləri İqtisadi Birliyi, Afrika Həmrəylik Fondu, Mərkəzi Afrika Dövlətlərinin İnkişaf Bankı ilə yaxından əməkdaşlıq edir;

—BMTsisteminə daxil olan beynəlxalq təşkilatlarla, Al ilə, Asiya, Şimali Amerika, Şimal ölkələri, Almaniya ilə əməkdaşlıq edir.

Eləcə də bank Belçika, Almaniya, Danimarka, Kanada, Niderland, Norveç, Finlandiya, Fransa, İsveçrə, İsveç, Yaponiya və digər ölkələrlə ikitərəfli münasibət saxlayır.

Bankın maliyyə vəsaiti üzv olan tərəflərin qoyduqları pay və maliyyə ehtiyatının kapitallaşması ilə arta bilər.

Bankın ali ortanı Qərbi Afrika iqtisadi ittifaqının Nazirlər Soveti hesab edilir.

XVIII FƏSİL

ƏRƏB DÖVLƏTLƏRİNİN REGİONAL İQTİSADİ TƏŞKİLATLARI

1. *Ərəb Dövlətləri Liqası.*
2. *Ərəb İqtisadi Birliyi Şurası.*
3. *Ərəb İqtisadi və Sosial İnkişafı fondu.*
4. *Ərəb Bankı - Afrikanın İqtisadi İnkişafı.*
5. *Ərəb Valyuta Fondu.*
6. *Fars Köıiəzi Ərəb Dövlətlərinin Əməkdaşlığı Şurası*

1. Ərəb İqtisadi Birliyi Şurası

Ərəb İqtisadi Birliyi Şurası **1964-cü ildə** yaradılıbdır, öz tərkibində **12 ərəb** dövlətini birləşdirir: Misir, İordaniya, Yəmən, Küveyt, Liviya, Mavritaniya, BƏƏ, Fələstin, Suriya, Somali, Sudan dövlətləridir.

Həmin Şura 7 dövlətin birliyi əsasında ümumi bazar da yaradıblar (Misir, İraq, İordaniya, Liviya, Mavritaniya və Suriya).

Birliyin əsas məqsədi:

- ümumi bazar yaradılması və bununla da əmtəələrin, kapitalın, insanların sərbəst hərəkətinə zəmin yaratmaq, sərbəst iqtisadi fəaliyyətə yol açmaq;
- regionda nəqliyyatın inkişafına, tranzit nəqliyyata zəmin yaratmaq;
-dəniz limanları, mülki təyyarə limanları, digər yollar çəkilişinə nail olmaq;
- mülkiyyət hüququnun təmin edilməsindən ibarətdir.

Bunun üçün Ərəb ölkələrində idxal-ixrac əməliyyatları üzrə normativ aktlar vahid hala salınır, sənaye, kənd təsərrüfatı, ticarət, infrastruktur sahələri üzrə əlaqələndirilmiş siyasət yeridilir, iqtisadi inkişaf əlaqələndirilir, Kapital qoyuluşu, ikiqat vergi tutulması, investisiya münaqişələrinin tənzimlənməsi qaydası və s. vahid hala salınır.

Bu Şura Beynəlxalq təşkilatlarla yaxından əlaqə saxlayır.

Şura çərçivəsində birgə ərəb cəmiyyətləri yaradılır. Belə ki, hasilat və tibbi sənaye sahəsi üzrə İordaniyada, heyvandarlığın inkişafı üzrə Suriyada, Sənaye investisiyası üzrə İraqda, belə cəmiyyətlər fəaliyyət göstərir.

Bütün bunlarla yanaşı Şura çərçivəsində sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, idarəçilik sisteminin yaxşılaşdırılması və eləcə də elmi biliklərin və təcrübə mübadiləsinin yayılması üçün bir çox ixtisaslaşdırılmış birliklər yaradılmışdır.

Bunlardan:

ITekstlI sənayesi üzrə Ərəb İttifaqı (Suriya);

2. Sement və İnşaat Materialiarı üzrə Ərəb İttifaqı (Suriya);

3. Şəkər üzrə Ərəb Federasiyası (Sudan);

4. Kimyəvi gübrə istehsalçılarının Ərəb Federasiyası (Küveyt);

5. Maşınqayırma üzrə Ərəb Federasiyası (İraq);

6. Balıq Məhsulları istehsalçılarının Ərəb Federasiyası (İraq);

7. Yeyinti Sənayesi üzrə Ərəb Federasiyası (İraq);

8. Gəmiçilik üzrə Ərəb Federasiyası (İraq);

9. Ərəb Kooperativ Federasiyası (İraq);

10. Yerüstü nəqliyyat üzrə Ərəb İttifaqı;

11. Tibbi pereparatlar və tibbi avadanlıqlar istehsalçılarının Ərəb Federasiyası.

2. Ərəb İqtisadi və Sosial İnkişafı Fondu

Ərəb İqtisadi və Sosial İnkişafı Fondu 1968-cl ildə yaradılmış, 1971-ci ildə fəaliyyətə başlamışdır. 1974- cü ildən isə layihələrin maliyyələşdirilməsi üzrə əməliyyatlar aparmağa başlamışdır.

Bu fondun 21 üzvü vardır. Ərəb Liqası dövlətləri (Komor adalarından başqa) həmin fondun üzvüdürlər.

— İnkişaf fondu - üzv olan ölkələrə, istər dövlət, istərsə də xüsusi bölmədə olan təşkilatlara, institutlara subsidiya və borc verir və beləliklə iqtisadi layihələri maliyyələşdirir.

— Ərəb dövlətlərinin iqtisadiyyatının İnkişafı üçün xüsusi və dövlət tərəfindən olan İnvestisiyanın artmasına maraq yaradır.

— İqtisadi inkişafın müxtəlif sahələrinə texniki yardım göstərir.

— Ərəb dövlətlərarası ticarətin maliyyələşdirilməsi proqramına yardım edir.

— Bir çox digər təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsini həyata keçirir.

Bu mənada həmin fond milli və regional İnkişaf institutları arasında əlaqələndirmə qrupu kimi katiblik funksiyası yerinə yetirir.

3. Ərəb Bankı - Afrikanın İqtisadi İnkişafı

Ərəb Bankı - Afrikanın İqtisadi İnkişafı Ərəb dövlətləri Birliyinin (LİQA) təşəbbüsü ilə 1973-cü ildə yaradılıbdır. 1975-ci ildən əməliyyat aparmağa başlamışdır. Müstəqil beynəlxalq institut olmaqla beynəlxalq hüquqi şəxs statusuna malikdir.

Bank öz tərkibində 18 dövləti birləşdirir.

Bunlar: Əlcəzair, Bəhreyn, Misir, İordaniya, İraq, Qətər, Livan, Liviya, Mavritanıya, Mərakeş, BƏƏ, Oman, Fələstin, Səudiyyə Ərəbistanı, Suriya, Sudan, Tunis,

Bankın əsas məqsədi aşağıdakılardan ibarətdir;

—Qeyri Ərəb Afrika dövlətlərinin iqtisadi inkişafına maliyyə yardımı göstərmək;

—^Afrika dövlətlərinin inkişafı üçün zəruri texniki köməklik göstərmək

—Afrika dövlətlərinin inkişafı üçün Ərəb ölkələrindən investisiya axınına maraq yaratmaq.

Bu məqsədlə də bank öz fəaliyyətində aşağıdakı cəhətlərə üstünlük verir:- Milli və regional sahədə fəaliyyət göstərən maliyyə institutlarına borc və təminat verir

—Ərəb ölkələrinin yardımının bölgüsünü və əlaqələndirilməsini həyata keçirir.

Bu bankdan 41 dövlətin köməklik almaq hüququ vardır.

Onu da qeyd etməliyik ki, bu köməklik hər hansı bir hökumətə, müəssisə və təşkilatlara, dövlət və

xüsusi birliklərə, qarışıq Ərəb-Afrika birliklərinə göstərilir.

—Bank sənaye, sosial və digər böyük iqtisadi layihələrin maliyyələşdirilməsində iştirak etməklə hər bir ölkənin iqtisadi inkişaf planında iştirak etmiş olur.

Bu bankın hər bir layihəyə qoyduğu vəsait layihənin dəyərinin 50%-indən artıq olmur.

Layihənin dəyəri az olduqca- 10 mln. dollaradək, bank vəsaiti 80%-ə qədər də ola bilər.

Bankın maliyyə vəsaiti ölkələrin qoyduğu ilkin kapitaldan və cəlb olunmuş borc vəsaitlərindən ibarətdir.

1973-cü ildə Bank ilə neft ixrac edən ərəb ölkələrinin birlikdə Afrikaya köməklik fondu yaradılmışdır. Bu fond Ərəb ölkələri Liqasının idarəçiliyinə verilmişdi. Lakin Afrikada olan Ərəb ölkləri bu fonddan köməklik almaq hüququna malik deyillər.

4. Ərəb Valyuta Fondu

Ərəb Valyuta Fondu 1977-ci ildə yaradılmışdır.
Bu fondun tərkibinə Ərəb Liqası dövlətlərindən 20 üzv daxildir (Cibuti və Komor adalarından başqa). Bu fondun əsas məqsədi:

— Tədiyyə balansında çatışmazlıq yarandıqda üzv olan dövlətlərə kredit verməklə maliyyələşdirmə aparır.

— Ərəb ölkələrində valyuta kursunun sabitləşməsinə və dönərliyinə yardım edir.

— Üzv olan ölkələrdə iqtisadi inteqrasiyanın və İnkişafın sürətlənməsinə köməklik göstərir.

— Ərəb ölkələrində maliyyə bazarının inkişafına yardım edir.

— Beynəlxalq valyuta və iqtisadi məsələlərdə üzv olan ölkələrin mövqelərinin əlaqələndirilməsini tənzimləyir.

Fond öz məqsədinə nail olmaq üçün struktur islahatları həyata keçirilməsinə kredit verir.

Bununla yanaşı 4 növdə güzəştli şərtlərlə borc verir.

1. Birbaşa - borc 3 ii müddətinə verilir.

2. Adi borc - 5 illiyə verilir.

3. Qarşılıqlı əvəzlənmə formasında borc 3 İlə verilir.

4. Daha geniş miqyaslı borc - 7 ilə verilir.

Aydındır ki, borcun verilməsində sabitləşmə və iqtisadi islahatlar barədə proqramlar, borc alan dövlətlərin öhtəçiliklərl, razılışmalar əsas götürülür.

Bu fondun maliyyələşdirmə mənbəyi - ilkin kapital, borc və kreditlər, ehtiyat kapitalı və s.-dən ibarətdir.

5. Ərəb Dövlətləri Liqası (Cəmiyyəti)

Ərəb Dövlətləri Liqası 1945-ci ildə yaradılıbdır. Bura Yaxın Şərqin və Şimali Afrikanın 22 dövləti daxildir.

Bunlar: Əlcəzair, Bəhreyn, Clbuti, Misir, İordaniya, İraq, Yəmən, Qətər, Komor adaları, Küveyt, Livan, Liviya, Mavritaniya, Mərakeş, BƏƏ, Oman, Fələstin, Səudiyyə Ərəbistanı, Suriya, Somali, Sudan və Tunisdən ibarətdir.

Bu təşkilat müstəqil ərəb dövlətlərinin könüllü birliyidir. İqtisadiyyat, maliyyə, nəqliyyat, mədəniyyət, səhiyyə və digər sahələrin inkişafı üzrə əlaqələrin, siyasətlərin nizamlanması ön plana çəkilir. Əslində

Liqanın fəaliyyəti əsasən iqtisadiyyat deyil, siyasətə daha çox yönəldilmişdir. Odur ki, Liqa heç də azad ticarət zonası və yaxud ümumi bazar yaratmağı nəzərdə tutmur.

Liqanın əsas məqsədinin ana xəttlərindən biri üzv ölkələrin milli təhlükəsizliyinin mühafizəsi və onların müstəqilliyinin təmin edilməsindəki hərəkətlərinin əlaqələndirilməsindən ibarətdir.

Liqanın tərkibində iqtisadiyyat, nəqliyyat, inzibati idarəçilik və maliyyə, valyuta siyasəti, kənd təsərrüfatı, kommunikasiya, İnformasiya, sosial sahələr üzrə komitələr fəaliyyət göstərir.

Liqa bir çox İnstitutlar, ixtisaslaşdırılmış təşkilatlar, sahibkarlığın inkişafına zəmin yarada bilən qurumlar yaradıbdır.

Bunlardan:

Ərəb Menecmentinin Təşkili;

Ərəb Əmək Təşkili;

Ərəb İqtisadi Birliyi Şurası;

Ərəb İqtisadi və Sosial İnkişafı Fondu;

Afrikada Ərəb İqtisadi İnkişaf Bankı;

Ərəb Kənd Təsərrüfatı İnkişafının Təşkili;

Ərəb Standartlaşdırma və Metrologiyanın Təşkili;

Ərəb Dəniz Nəqliyyatı Akademiyası;

Ərəb Telekommunikasiya İttifaqı;

Ərəb Valyuta Fondu;

Ərəb Neft İnstitutu.

Liqa öz nəzarəti altında olan institut və təşkilatlara maliyyə yardımı göstərir.

Liqanın tərkibində iqtisadi məsələlərə dair Şura fəaliyyət göstərir. Bu şuraya iqtisadiyyat nazirləri və yaxud onların nümayəndələri daxildirlər. Onlar üzv olan

ölkələrin iqtisadi və sosial siyasətlərinin razılaşdırılması İşlərinə xidmət edirlər.

6. Fars Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlığı Şurası

Fars Körfəzi Ərəb ölkələrinin Əməkdaşlığı Şurası 1981-ci ildə yaradılıbdır. Bu Əməkdaşlıq Şurası 6 ölkəni - Bəhreyn, Qatar, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Oman və Səudiyyə Ərəbistanını özündə birləşdirir. Bu Şuranın əsas məqsədi həmin ölkələr arasında inteqrasiya əlaqələrini genişləndirməkdən ibarətdir. Beləliklə, bu ölkələrin maliyyə, iqtisadiyyat, ticarət, mədəniyyət sahələrində oxşar sistem yaradılması əsas götürülür. Eləcə də Şura elmi tədqiqat işlərinə, müştərək müəssisələr yaradılmasına xüsusi bölmədə əməkdaşlıq edilməsinə də yaxından köməklik göstərir. Sənayedə, ilk növbədə hasilat sənayesində, kənd təsərrüfatında, heyvandarlıqda, su təchizatı işlərində elmi-texniki tərəqqinin inkişafına çox üstünlük verir. Bu Şura çərçivəsində aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq planı hazırlanmışdır;

— İqtisadi və sosial planlaşdırma;
— maliyyə, iqtisadiyyat və ticarət üzrə əməkdaşlıq;
— nəqliyyat və rabitə üzrə;
— sənaye üzrə əməkdaşlıq;
— neft çıxarılması üzrə;
— sosial və mədəni xidmət üzrə;
— valyuta-maliyyə üzrə əməkdaşlıq.

İqtisadi əməkdaşlıqda qarşıda duran vəzifələrə nail olmaq üçün aşağıdakı razılaşmalar həyata keçirilmişdir:

—1982-ci ildə kompleks İqtisadi razılaşma. Bura ticarət üzrə mübadilə, kapitalın hərəkəti, iqtisadi fəaliyyət, nəqliyyat və kommunikasiya, valyuta-maliyyə əməkdaşlığı və s. daxildir;

—1985-ci ildə - Ərəb ölkələri Əməkdaşlığı Şurasının inkişaf planı strategiyası haqqında;

—1985-ci ildə - vahid strateji sənayeləşmənin inkişafı;

—1986-cı ildə üzv olan ölkələrdə ümumi kənd təsərrüfatının inkişafı siyasəti.

1988-ci üdə Aİ bu təşkilatın üzvü olan ölkələrlə əməkdaşlıq edilməsi barədə müqavilə bağlamışdır. Bu müqaviləyə uyğun olaraq Aİ ilə birgə Şura yaradılıbdır.

XIX FƏSİL
İSLAM KONFRANSI TƏŞKİLATI (İKT)

1. *İslam Konfransı Təşkilatının yaranması:*
2. *İslam Konfransı Təşkilatının quruluşu:*
3. *İslam İnkişaf Bankı*

1. İslam Konfransı Təşkilatı (İKT) - Müsəlman ölkələrini birləşdirən ən nüfuzlu təşkilatlardan biridir. Hətta bəzən beynəlxalq aləmdə bu təşkilata «Müsəlman BMT-si» də deyirlər. Bu təşkilat öz üzvlərinin sayına görə və eləcə də mütəşəkkillyinə görə də fərqlənir.

Bu təşkilat 1969-cu ilin sentyabr ayında dövlət başçılarının Mərakeşdə (Paytaxtı Rabatda) keçirilmiş konfransda təsis edilmişdir. Hazırda bu təşkilata 60-dək dövlət daxildir.

İslam Konfransı Təşkilatının yaradılmasının əsas təşəbbüsü Səudiyyə Ərəbistanı Krallığı olmuşdur. Səudiyyə Ərəbistanı bu təşkilatda daha üstün nüfuza malikdir. Krallığın İKT büdcəsindəki payı - 10%, İİB-in kapitalındakı payı isə 25%-dir. İKT və İİB - iqamət-gahları Səudiyyə Ərəbistanının Ciddə şəhərindədir. Krallıq təmənnasız olaraq bina ayırmışdır. Əlavə maliyyə yardımları da göstərilir.

İKT regional təşkilat deyildir. Sadaladığımız dövlətlərdən aydın görünür ki, dünyanın müxtəlif ərazilərində yerləşər müsəlman ölkələrinin birliyidir. Bu təşkilatın nizamnaməsi 1972-ci ildə qəbul edilmişdir. İKT-in əsas məqsədi - islam ölkələri arasında sosial, mədəni, iqtisadi, elmi və digər sahələrdə əməkdaşlığı genişləndirmək və

Beynəlxalq təşkilatlarla onların birgə səyini təmin etməkdən ibarətdir.

— Müsəlman həmrəyliyinin möhkəmləndirilməsinə yardım etmək;

— Müstəmləkəçiliyin hər cür növünün ləğv edilməsinə yardım etmək;

— Müsəlman xalqlarının milli müstəqilliyi uğrunda birgə mübarizəsinə köməklik göstərmək;

— öz ərazisinin azadlığı uğrunda mübarizə aparan Fələstin xalqına yardım etməkdir. İKT-in nizamnaməsində aşağıdakı prinsiplər öz əksini tapmışdır: öz müqəddəratını təyinetmə hüququnun olması; üzv ölkələrin daxili işlərinə qarışmamaq; hər bir dövlətin suverenliyinə hörmət etmək; Ərazi bütövlüyü və müstəqilliyin qorunması; üzv-dövlətlər arasında hər hansı bir mübahisənin sülh yolu ilə tənzimlənməsi.

2. İslam konfransı təşkilatının quruluşu

İKT-nin üç əsas orqanı var:

1. Dövlət və hökumət başçılarının konfransı;
2. Xarici İşlər Nazirlərinin konfransı;
3. Baş katiblik və onun tabeliyində olan təşkilatlar.

Deməli İKT-nin ali orqanı Dövlət və hökumət başçılarının konfransıdır. Nizamnaməyə əsasən zirvə konfransları üç ildən bir keçirilir. 1969-cu ildən 2010-cu ilədək 12 zirvə toplantısı olmuşdur. Xarici İşlər Nazirlərinin Konfransı siyasi orqan hesab olur. İcra orqanı Baş katib hesab edilir.

Cari məsələlərin müzakirəsi üçün ildə bir dəfə nazirlərin konfransı çağırılır. 1980-ci ildə Nazirlər Konfransı İKT-nin Baş Katibliyinin 11 nazirdən ibarət

tərkibdə daimi fəaliyyət göstərən Nazirlər Komitəsini yaratmışdır.

Beləliklə İKT-nin tərkibində bir sıra daimi komitə və komissiyalar fəaliyyət göstərir;

— Əl-Qüds komitəsi;

— İnformasiya və mədəniyyət məsələləri üzrə daimi komitə;

— İqtisadiyyat və ticarət üzrə daimi komitə;

— Elmi və texniki əməkdaşlığa dair daimi komitə;

— İslam Sülh komitəsi.

Bunlardan başqa Fələstin, Əfqanıstan, Kəşmir və digər problemlər də daxil olmaqla 14 müxtəlif istiqamətli komitə fəaliyyət göstərir.

İKT-in fəaliyyətində aşağıdakı qurumlar daha geniş iş aparırlar.

— **İslam ticarət və sənaye** palatası; Bu palata üzv dövlətləri arasında ticarətin, sənayenin və əl sənətlərinin inkişafı ilə məşğuldur.

— **İslam ölkələri paytaxt** və şəhərləri təşkilatı. Bu təşkilat həmin ölkələrin paytaxt və şəhərləri arasında həmrəyliyin, milli dəyərlərin, adətlərin, qardaşlığın, dostluğun gücləndirilməsi məsələləri ilə məşğuldur;

— **İslam həmrəylik oyunları,** İdman Federasiyası;

— **Beynəlxalq Aypara** İslam Komitəsi; Bu komitə təbii fəlakətlər və hər hansı bir səbəbdən zərər çəkənlərə tibbi yardım edilməsini həyata keçirir;

— **İslam gəmi sahibkarlığı cəmiyyəti.**

Bu cəmiyyət üzv dövlətlərində dənizçilik şirkətləri arasında əməkdaşlığın birləşdirilməsi və koordinasiyası ilə məşğul olan, dövri dəniz səyahətlərini tənzimləyir.

— Beynəlxalq Ərəb-İslam Məktəbləri Dünya Federasiyası. Bu birlik dünyadakı bütün Ərəb-İslam məktəblərinin işini dəstəkləmək və onlara yardım etmək missiyası ilə məşğuldur.

İKT-in İslam İnkişaf Bankı və İslam Həmrəylik Fondu kimi maliyyə təşkilatları da fəaliyyət göstərir.

3. İslam İnkişaf Bankı.

Bu bank 1974-cü ildə yaradılıb, 1975-ci ildə fəaliyyətə başlayıbdır. Bankın əsas məqsədi üzv olan ölkələrin sosial-iqtisadi inkişafına yardım etməkdən ibarətdir. Bank öz fəaliyyətini əsasən aşağıdakı sahələrin inkişafına yönəltmişdir:

— İstehsal sahələrinin və layihələrin maliyyələşdirilməsi;

— Bəzi infrastruktura sahələri (yollar, məktəblər, rabitə və s.) üzrə layihələrin maliyyələşdirilməsi üçün borc vermək;

— Sənaye və Kənd Təsərrüfatı müəssisələri üzrə olan layihələrə kapital qoyuluşuna yardım etmək;

— Daha tez gəlir verən sahələr üzrə olan layihələrin maliyyələşdirilməsi;

— İdxal ilə məşğul olanlara qısamüddətli kredit verməklə idxalın artmasına zəmin yaratmaq;

— Layihələrin texniki-iqtisadi cəhətdən hesablanmasına kömək etmək məqsədi ilə texniki yardımı maliyyələşdirir, məsləhət vermək xidməti göstərir.

— Bəzi ərəb milli və regional maliyyə institutları İlə, eləcə də OPEK-in Beynəlxalq İnkişaf Fondu İlə əməkdaşlıq edir: Bankın maliyyə vəsaiti Nizamnamə

Kapitalı və əlavə vəsaitlər hesabına formalaşır. Hazırda Bankın kapitalı 10 mlrd, dollardan artıqdır. 1980-cl ildə bu Bank yeni sistemə keçmişdir. İnvestisiya-depozit planı deyilən sistem yaratmışdır. Bu plana əsasən Bank təşkilatlardan və fərdi müştərilərdən qısa müddətli depozitlər qəbul edir. Bu vəsaitdən idxalın maliyyələşdirilməsində istifadə olunur.

1987-ci üdə «İslam Bankları Portfeli» yaradılmışdır. Bu vəsaitlə Lizinq və Qiymətli Kağızlar üzrə olan əməliyyatlar maliyyələşdirilir.

Bank 1988-ci ildə ticarətin uzunmüddətli maliyyələşdirilməsi planının həyata keçirilməsinə başlamışdır.

1989-cu ildə ayrıca investisiya fondu yaradılmışdır. Aydındır ki, bütövlükdə İKT və onun hər bir orqanı sistemli şəkildə öz işini təkmilləşdirir və fəaliyyət dairəsini genişləndirir.

Fərəhli haldır ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra 1991-ci ilin dekabr ayında bu təşkilata daxil olmuşdur. 1993-cü ilin ortalarında Azərbaycanın bu təşkilatda olan əlaqələri daha da möhkəmlənmişdir.

1994-cü ildə Kasablankada (Mərakeş) keçirilən zirvə görüşündə Ermənistanın Azərbaycana olan təcavüzü 52 dövlət tərəfindən qəti pislənilmişdir.

1996- cı üdə İslam İnkişaf Bankı Bakıda, beynəlxalq investisiya konfransı keçirmişdir. Bu tədbirdə Bankın Prezidenti və Direktoriar Şurasının üzvləri və eləcə də 17 ölkədən gəlmiş - 180-dən çox İş adamı İştirak etmişdir. Konfransın başa çatmasından sonra 1997-ci ilin yanvannda Bankın Direktorlar Şurası tərəfindən Ələt-Hacıqabul avtomobil yolunun yenidən qurulması layihəsi üçün Azərbaycana 13,4 mln. dollar məbləğində

qəbul edilmişdir. Beləliklə, müxtəlif illərdə Bank Azərbaycana 74 mln. dollardan artıq güzəştli kredit vermişdir.

Cədvəl №16

İslam Konfransı Təşkilatı dövlətləri

№	Dövlətlərin adı	Ərazisi min kv. km.	Əhalisi mlin nəfər
1.	Azərbaycan	86,6	9
2.	Türkiyə	779,4	73.7
3.	Qırğızıstan	199	5,4
4.	Tacikistan	143	6,9
5.	Türkmənistan	488	5.0
6.	Qazaxıstan	2717	16,0
7.	Özbəkistan	447	27.4
8.	İraq	438	31.7
9.	Abaniya	29	3.2
10.	Əfqanıstan	652	31.4
11.	Pakistan	796	176,3
12.	Malayziya	330	27,6
13.	Küveyt	18	2,6
14.	İndoneziya	1905	240,0
15.	İordaniya	89	6,2
16.	Livan	10	3,8
17.	Səudiyyə Ərəbistanı	2150	27,1
18.	Yəmən	532	22,5
19.	Fələstin	6,3	4,0
20.	Bəhreyn	0.695	1,3
21.	Oman	212.5	2,7
22.	Qətər	11,4	1,7
23.	Suriya	185,0	21.1
24.	BƏƏ	83,6	2,6
25.	Maldiv adaları		

26.	Bruney	5,8	0,400
27.	Banqladeş	144	150,7
28.	Əlcəzair	2382	36,5
29.	Misir	1002	80,3
30.	Cad	1284	11,2
31.	Qvineya	246	10,0
32.	Liviya	1760	6,4
33.	Mali	1240	14,4
34.	Mavritaniya	1026	3,5
35.	Mərakeş	447	32,2
36.	Niger	1267	15,2
37.	Seneqal	200	12,4
38.	Somali	638	8,6
39.	Sudan	2506	44,0
40.	Tunis	164	10,5
41.	Syerra-Leone	72	9,3
42.	Burkina-Faso	274	15,7
43.	Kamerun	475	17,0
44.	Qabon	268	1,4
45.	Qambiya	11	1,7
46.	Qvineya-Bisau	36	1.4
47.	Uqanda	241	31,8
48.	Komor adaları	2,2	0,700
49.	Cibuti	22	0,800
50.	Benin	113	8.8
51.	Nigeriya	924	158
52.	Mazambiq	802	22,4
53.	Toqo	57	6.0
54.	Kot-divuar	322	19,7
55.	Qayana	215	0,784
56.	Surinam	163	0,440
		30623	1480,4

XX FƏSİL

BEYNƏLXALQ QEYRİ-DÖVLƏT SAHİBKARLIQ TƏŞKİLATLARI (BQDST)

1. *Beynəlxalq qeyri-dövlət sahibkarlıq təşkilatları haqqında ümumi məlumat.*
2. *Beynəlxalq sahibkarlar birlikləri və beynəlxalq biznesin tənzimlənməsində onların fəaliyyəti.*
3. *Beynəlxalq ticarət palatası (BTP).*

1. Beynəlxalq qeyri-dövlət sahibkarlıq təşkilatlan haqqında ümumi məlumat.

Qeyri-dövlət sahibkarlıq təşkilatları milli sahibkarlar ittifaqlarından İbarətdirlər. Bu ittifaqlar birlik şəklində və yaxud federasiya şəklində də ola bilərlər. Bu təşkilatlar demək olar ki, bütün sahələrdə fəaliyyət göstərirlər. İqtisadi, elmi-texniki, kommersiya, maliyyə sahələrində və s. hər halda onların varlığı beynəlxalq əməkdaşlığın inkişafına yaxından köməklik edir, dövlətlərarası əlaqələrin genişlənməsilə müəyyən təkliflərin verilməsi, işgüzarlığın artması, informasiyalar verilməsi işində fəal iştirak edirlər. Bu təşkilatlar öz nizamnamələrində vəzifələrini müəyyən edərkən çox vaxt istehsal sahəsində mübadilə, əmtəələrin keyfiyyətinin yaxşılaşdırılması üçün metodlar işləyib hazırlamaq, tədqiqatlar aparılması yolu ilə ümumi mənafelərin təmin edilməsi, məsləhətlər təşkil edilməsi və s. kimi məsələləri ön plana çəkirlər.

Onu da qeyd etməliyik ki, hazırda mövcud olan beynəlxalq sahibkarlar ittifaqlarının əksəriyyəti 1950-ci

illərdə yaranıbdır. Təqribi hesablamalara görə hazırda ancaq istehsal və satış sahəsində mövcud olan beynəlxalq sahibkarlar birliklərinin sayı 300-dən artıqdır.

Beynəlxalq kartel, sindikat, trest və s. kimi inhisar birliklərinin üzvləri böyük kompaniyalardan ibarət olduğu halda, beynəlxalq sahibkarlar ittifaqlarının üzvləri "Sahibkarlar birliyi"ndən və yaxud müxtəlif ölkələrin eyni sahələrinin birliyindən ibarət olur. Bu cür birlik inhisarçı kapitalın müxtəlif milli qruplarının yeni forması kimi özünü göstərir.

Beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində siyasətin formalaşmasında iri beynəlxalq biznes nümayəndələrinin birliyi daha böyük rol oynayır. Bu baxımdan Beynəlxalq ticarət palatasının (BTP) işini misal çəkmək olar. Nizamnaməyə uyğun olaraq BTP-in rəsmi məqsədində aşağıdakı məsələlər öz əksini tapır. Beynəlxalq biznesin bütün sahələrində - ticarət, sənaye, nəqliyyat, maliyyə və digər sahələrdə dövlətlərarası iqtisadi münasibətlərin yaxınlaşmasına zəmin yaratmaq. Beynəlxalq İqtisadi problemlərin həllinə və işgüzar dairələr arasında beynəlxalq əlaqə yaradılmasına köməklik etmək. Bununla da ayrı-ayrı xalqlar arasında dostluq münasibətlərinə və sülhə nail olmaq. BTP - beynəlxalq ticarətdə hər cürə ayrı-seçkiliyin əleyhinədir.

Onu da qeyd etməliyik ki, BMT sistemində olan beynəlxalq təşkilatlar beynəlxalq qeyri-dövlət sahibkarlıq təşkilatları ilə sıx əlaqə saxlayır. Bəzi təşkilatlara məsləhətçilik statusu verilir. BMT-nin bu təşkilatlarla olan münasibətləri EKOSOS orqanının 1296 saylı 23 may 1968-ci il tarixli qətnaməsi ilə qaydaya salınır. (Qətnamə belə adlanır "Qeyri-dövlət təşkilatları ilə

məsləhət üzrə tədbirlər”). Hazırda EKOSOSda 1600 Beynəlxalq qeyri-dövlət sahibkarlıq təşkilatı məsləhətçi statusuna malikdir. Bunlar iqtisadi və sosial sahələrdə çox fəal çalışırlar. Bunlardan əlavə 1500 təşkilat BMT-nin maraq dairəsindədir. Bütün bunların hamısı EKOSOS-la sıx əlaqə saxlayırlar.

1996-cı ildə EKOSOS qeyri-dövlət təşkilatları ilə məsləhətləşmə münasibətlərinə dair yeni - 1996/31 saylı qətnamə qəbul edərək 1296 saylı qətnaməni təzələmişdir.

Bu qeyri-dövlət təşkilatları beynəlxalq hüququn subyekti hesab edilmirlər.

Beynəlxalq qeyri-dövlət sahibkarlar təşkilatları öz məqsədləri və həyata keçirdiyi funksiya baxımından beynəlxalq və regional sahibkarlar ittifaqlarına bölünür. Eləcə də beynəlxalq və regional ticarət palataları da fərqləndirilir.

Beynəlxalq sahibkarlar ittifaqları milli sahibkarlar ittifaqlarının fəaliyyətinə köməklik etməyi öz qarşılarına məqsəd qoymuşlar (beynəlxalq iqtisadi münasibətlər sahəsi də daxil olmaqla). Yerinə yetirdikləri funksiyalar baxımından bu təşkilatların aşağıdakı növləri fərqləndirilir:

- Ümumiiqtisadi beynəlxalq birliklər və federasiyalar;
- Sahəvi birlik və federasiyalar;
- Kooperativ ittifaqlar.

Aşağıdakı beynəlxalq ittifaqlar daha böyük hesab edilirlər:

- Sənaye federasiyalar ittifaqı - EC_YUNİSE;
- Kakao istehsalçılar alyansı - APK;
- Beynəlxalq xəz ticarəti federasiyası -- MPTF;

- Toxum ticarəti üzrə beynəlxalq federasiya - FİS.

Ticarət palataları isə öz məqsədinə və təşkili formasına görə aşağıdakı növlərə bölünür: Beynəlxalq ticarət palatası; Regional ticarət palatası; Qarışıq ticarət palatası.

Qeyd etməliyik ki, Ərəb ölkələrinin ticarət, sənaye və kənd təsərrüfatı palatalarının ümumittlfaqı ən böyük regional ticarət palatası və Asiya ticarət və sənaye palatası konfransı da daha böyük hesab edilirlər.

2.Beynəlxalq sahibkarlar birlikləri və beynəlxalq biznesin tənzimlənməsində onların fəaliyyəti

Beynəlxalq sahibkarlardan ibarət təşkilatlar xüsusi inhisarçılıq əsasında fəaliyyət göstərir, onlar həm qlobal və həm də regional miqyasda mövcuddurlar. Dünya miqyasında aşağıdakı sahibkarlıq birliklərini qeyd etmək olar:

1. Üçtərəfli komissiya
2. KO Dairəvi stolu
3. Avropa işgüzarlıq konqresi
4. Beynəlxalq kommersiya bankları birliyi
5. Sənaye mülkiyyətinin mühafizəsi üzrə Beynəlxalq birlik
6. Şəkər və rafinad satıcılarının birliyi
7. Beynəlxalq maliyyə institutu
8. Əmtəələrin nömrələnməsi üzrə Beynəlxalq birlik.

Bu birliklərin fəaliyyətini ayrılıqda şərh edək:

1. Üçtərəfli komissiya 1973-cü ildə C.Rokfellerin iştirakı ilə yaradılmışdır.

C.Rokfeller ABŞ-da Çeylz Manxetten bank qrupunun sədridir. Bu bank ABŞ-dan, Qərbi Avropadan və Yaponiyadan 300-ə qədər iri TMŞ-rin nümayəndələrini, iqtisadçıları, siyasi dairələri özündə birləşdirir. Bu komissiyanın rəhbər orqanı olan İcraiyyə komitəsi 35 üzvdən ibarətdir. Üçtərəfli komissiyanın əsas rəsmi məqsədi İnkişaf etmiş ölkələrin sahibkarlarının yaxın əməkdaşlığına yardım etməkdən ibarətdir.

Komissiyanın fəaliyyətinin əsas istiqamətlərindən biri də inkişaf etmiş ölkələrin iqtisadiyyatında, siyasi problemlərdə yaranmış bəzi vəziyyəti təhlil edərək məruzələr hazırlamaqdır. Bununla yanaşı bəzi konkret problemlərin həlli barədə də müəyyən təkliflər işlənib hazırlanır və müxtəlif ölkələrin hökumət orqanlarına çatdırılır. Qeyd etməliyik ki, qərb dünyasının bütün daha güclü nümayəndələri üçtərəfli komissiya ilə əməkdaşlıq edir, ona görə də həmin komissiya hökumət orqanlarına da çox güclü təsir dairəsi qazanmaqla, qərb ölkələrinin qarşılıqlı əlaqələri sistemində qabaqcıl mövqe tutmuşdur.

Ayrı-ayrı qabaqcıl ölkələrin siyasətlərinə bu komissiyanın təsiri o dərəcədə güclüdür ki, çox vaxt onu - ABŞ, Qərbi Avropa və Yaponiyadan ibarət üçbucağın, hətta bütün dünyanın “Gizli kabineti” adlandırırlar.

2. KO Dairəvi Stolu (CAUX Round Table). Bu beynəlxalq sahibkarlar birliyi 1986-cı ildə F. Filips"^ və O. Jiskar'^tərəfından yaradılmışdır.

Bu birliyin yaradılmasında əsas məqsəd Avropa, Yaponiya və ABŞ-m qabaqcıl biznesmenlərini

F.Filips «Filips Elektroniks» kompaniyasının keçmiş prezidenti

birləşdirməkdən ibarətdir. KO Dairəvi Stolu əsasən aşağıdakı məqsədi nəzərdə tutur:

•Qlobal və mütərəqqi dəyişiklikdə biznesin və sənayenin rolunun artırılması;

• Ticarət dairəsində gərginliyin zəiflədilməsinə yardım etmək;

• Ölkələr arasında qarşılıqlı və iqtisadi sosial inkişafa zəmin yaratmaqdan ibarətdir. Odur ki, KO Dairəvi Stolunda belə bir inam yaranmışdır ki, dünya işgüzar birlikləri cəmiyyətini' iqtisadi-sosial həyatınm yaxşılaşdırılmasmda böyük rol oynaya bilərlər.

Bütün bu məqsədlə də KO Dairəvi Stolu «Beynəlxalq biznesin prinsipiəri»ni hazırlayaraq qətnamə qəbul etmişdir.

Bu prinsiplər iki əsas etik normalara əsaslanır:

• Qarşılıqlı əməkdaşlıq məqsədilə sağlam rəqabət şəraitində bir yerdə yaşamaq və işləmək;

• İnsan ləyaqətinə riayət etmək, hər bir şəxsin toxunulmazlığına nail olmaq.

Qeyd etməliyik ki, bu sənəd öz məzmununa görə «Minnosot prinsipləri»nə çox uyğun gəlir. Belə ki, ABŞ-ın Minnosot ştatında korporativ mərkəzi biznes etikası barədə qətnamə hazırlamışdı. Bu mərkəzin tərkibində təşkilat komitəsi yaradılmışdır. Təşkilat komitəsinə Yaponiya, Avropa və ABŞ-ın nümayəndələri daxildirlər.

3. Üçüncü Beynəlxalq birlik - Avropa işgüzar Konqresi (AİK) adlanır. Bu birlik 1997-ci ildə -Bonnda (Almaniya) təsis edilmişdir. Konfransda ATƏT Avropada Təhlükəsizlik və əməkdaşlıq təşkilatı) 37 dövlətindən siyasi xadimlər, biznesmenlər və bankirlər iştirak etmişlər.

Konfrans Avropa işgüzarlıq konqresi yaradılması üçün qərar qəbul etmişdir. «Avropa işgüzarlıq konqresi» beynəlxalq qeyri-dövlət təşkilatı olub ATƏT iştirakçıları dövlətlərinin sahibkarlarmı birləşdirir. Bura Avropa kompaniyaları, birlikləri və bankirlərinin nümayəndələrindən ibarət 51 üzv daxildir. Bu konqresin prezidenti Rusiyadan «Qazprom» idarəsinin rəisi R.I. Vyaxirev, müavini isə Almaniyadan «Doyç Bajpnk « idarəsinin üzvü Q.Krupp seçilmişlər.

İşgüzar konqresin nizamnaməsinə əsasən onun aşağıdakı əsas məqsədlərini qeyd etmək olar:

• ATƏT çərçivəsində İqtisadi əməkdaşlığa yardım etmək;

• Siyasi və işgüzar dairələr arasmda səmərəli dialoq yaradılması;

• Oz üzvlərinin hüquq və mənafelərinin qorunması və s.

4. Kommersiya banklarının beynəlxalq birliyi. Bu birlik 1991-ci İldə yaradılıbdır. Bura mərkəzi və şərqi Avropanın, ftusiyanın və MDB-nin digər üzvlərinin kommersiya bankları daxildir. Bu birlik kommersiya əsasmda müxtəlif xidmət növləri göstərir, təsərrüfat strukturları yaratmaq (və yaxud iştirak etmək) hüququna malikdir.

Birlik aşağıdakı əsas fimksiyalan yerinə yetirir:

• Üzv olan ölkələrə müasir bank strukturları yaradılmasına yardım etmək;

• Bankların və fırmalarm əməkdaşlığına yardım etmək;

• Bank fəaliyyətinin həyata keçirilməsində texniki yardım göstərilməsi;

• Banklararası əlaqələrin yeni formalarmm işlənib hazırlanması;

• Bankların maliyyə vəziyyəti barədə məlumatların ümumiləşdirilməsi;

• Bank mütəxəssislərinin görüşlərinin təşkili.

5. Sənaye mülkiyyətinin mühafizəsi üzrə beynəlxalq birlik. Bu qeyri-hökumət təşkilatı sənaye mülkiyyəti ilə məşğul olan , patent hüququ qazanan alim və praktiki işçilərin birliyindən ibarətdir. Birliyin cəmi üzvlərinin sayı 88 ölkədən 6 min nəfərdən artıqdır. Bura 45 milli qrupp və 3 regional qrupp daxildir.

6. Şəkər və rafinad satıcıları birliyi. Bu birlik 1891-ci İldə yaradılıbdır (o vaxt Böyük Britaniya və beynəlxalq bazar nəzərdə tutulurdu). Hazırda isə birliyin fəaliyyət dairəsi genişlənmişdi. Şəkər və rafinad satışı ilə məşğul olan firma, kompaniya və təşkilatlar bu birliyin üzvüdürlər (43 ölkədən 109 üzvü vardır).

7. Beynəlxalq maliyyə institutu (BMİ).Bu institut 1983-cü ildə yaradılıbdır. Ümumdünya banklar birliyinin, broker kompaniyalarmın, investisiya fondlarının və digər maliyyə müəssisələrinin birliyindən ibarətdir. Bu birliyə 50 ölkədən 270-dən artıq korporativ üzv daxildir. İnstitut London kreditorlar klubu İlə yaxın əməkdaşlıq edir.

8. Əmtəələrin nömrələnməsi üzrə beynəlxalq birlik. Bu birlik 1977-ci ildə yaradılıbdır, 32 dövləti birləşdirir. Bu birliyin köməkliyi ilə əmtəələr kodlaşdırılır, universal hala salınır. Bu kodlar maşınlar vasitəsilə oxunur. Bu cür kodlaşdırma vasitəsilə ticarətin genişlənməsinə zəmin yaranır. Vahid beynəlxalq kodun olması pərakəndə əmtəə ticarətinə də geniş yol açır. Qeyd

etməliyik ki, regional səviyyədə də Beynəlxalq qeyri-dövlət sahibkarlıq təşkilatları fəaliyyət göstərirlər. Bu təşkilatlarda regional sahibkarlarm liderləri öz qüvvələrini əlaqələndirərək regionda və dünya miqyasında yaranan bir çox problemlərin həllinə yardım edirlər. Bunlardan aşağıdakıları qeyd etmək olar:

1. Sakitokean iqtisadi Şurası - SİŞ.
2. Sakitokean iqtisadi əməkdaşlıq şurası - SIƏŞ
3. Asiya - Sakitokean regionunda maliyyələşdirmə institutu birliyi

1. Sakitokean iqtisadi Şurası- 1967-ci ildə təsis olunubdur. Bütünlükdə Sakitokean regionunda qabaqcıl biznesmenlərin birliyi hesab edilir. Onun 1000-dən çox korporativ üzvü vardır. Onlar dünyanm ən böyük korporasiyaları hesab edilirlər. Bura böyük avia-kompaniya və təyyarə istehsalı avtomobilqayırma, gəmiqayırma, kənd təsərrüfatı və balıqçılıq, bank işi, maliyyə işi, reklam və rabitə, telekommunikasiya, universitetlər, elmi-tədqiqat institutları və s.daxildir.

Avstraliya, Honqonk, Kanada, Çin, Kolumbiya, Malayziya, Meksika, Yeni Zellandiya, Peru, Rusiya, Koreya respublikası, ABŞ, Tayvan, Fici, Filippin, Çili və Yaponiyada 17-dən artıq işgüzar komitə fəaliyyət göstərir. Bu Şuranm əsas məqsədi:

- Beynəlxalq ticarətin və investisiyanın inkişafma yardım etmək;
- İşgüzar dairələrin liderləri arasmda əlaqə yaratmaq;
- Hər il yüksək səviyyədə görüşlər təşkil etmək;
- Beynəlxalq təşkilatlarla əməkdaşlığa zəmin yaratmaq;

• Hər il yüksək səviyyəli görüşlər keçirir. Bu görüşlərdə Sakit okean regionundan 800-ə qədər qabaqcıl biznesmenlər və 25 ölkədən dövlət başçıları iştirak edirlər.

• Beynəlxalq təşkilatlarala əməkdaşlıq etmək: Burada Asiyasakitokean iqtisadi əməkdaşlığı, ÜTT, Sakit okean iqtisadi əməkdaşlıq şurası və s. Təşkillat-larnəzərdə tutulur.

Sakitokean iqtisadi şurasının qurluşu aşağıdakılardan ibarətdir:

1. Beynəlxalq Prezident;
2. Beynəlxalq Prezidentin müavini;
3. Beynəlxalq xəzinədar;

4.17 Beynəlxalq prezident müavini;

5. Beynəlxalq katiblik;

6.17 komitə üvzüləri (bunlara baş direktorlar rəhbərlik edir)

2. Sakitokean iqtisadi əməkdaşlıq şurası (SlƏŞ). Yaponiya və Avstraliyanm təşəbbüsü ilə 1980-cl İldə yaradılıbdır. Qeyri-dövlət təşkilatı olub üçtərəfli əsasda biznes nümayəndələrini, dövlət orqanlarmı və elmi dairələri özündə birləşdirir. Bura Asiya-Sakitokean regionunun 22 dövlətindən müəyyən qurumlar daxildir. Bunlar

1. Avstraliya	8. Malayziya	15. ABŞ
2. Bruney	9.Meksika	16.Tailand
S.Honqonk	10. Yeni Zellandiya	17.Tayvan
4. İndoneziya	II. Peru	18.Filippin
S.Kanada	12.Koreya	19.Çİ1İ

	Respublikası	
e.çin	13.Rusiya	20.Yaponiya
7.Kolumbiya	14.Sinqapur	

Cənubi Sakit okean forumunun ada ölkələri və ayrılıqda Vyetnam da bura daxildir. Aydındır ki, bu təşkilatın da müəyyən qurumları vardır - Daimi Komitəsi, Koordinatorlar, üçtərəfli beynəlxalq məsləhət qrupları, yerli katiblik, beynəlxalq katiblik və s.

3. Asiya-Sakitokean regionunda inkişafm maliyyələşdirilməsi institutları birliyi.Bu təşkilat 1976-cı ildə yaradılıb (Asiya inkişaf bankı kimi Nizamnaməyə malik olub). BMT-nin Ekosos orqanı çərçivəsində məsləhət statusuna malikdir. 72 inkişaf bankını və digər maliyyə institutlarmı birləşdirir. Bunlardan başqa bura Beynəlxalq yenidənqurma və inkişaf bankı vw iäkişaf'^baflkı da daxil olmaqla 7 ixtisaslaşdırılmış üzv daxildir.

3. Beynəlxalq ticarət palatası (BTP)

Qeyri-dövlət təşkilatlarmdan biri də Beynəlxalq ticarət palatasıdır. Bu təşkilatm əsası 1919-cu ildə qoyulubdur. Bu təşkilat ümumdünya miqyasmda işgüzar dairələri birləşdirən ən böyük beynəlxalq xüsusi sahibkarlıq qurumudur. Palatanın əsas məqsədi nizamnaməsinə uyğun olaraq beynəlxalq biznesin bütün dairələrində (sənaye, ticarət, nəqliyyat, maliyyə və s.) ölkələr arasında münasibətləri genişləndirməkdən ibarətdir.

BTP -1600-dən artıq sahibkarlar birliyini əhatə edir. Bu birliklər sənayeçilər federasiyası, milli ticarət palataları, bank ittifaqları və digər ittifaqlardan İbarətdir.

Palatanın tərkibində 6 mindən artıq iri sənaye və ticarət kompaniyaları vardır. Beynəlxalq biznes ilə məşğul olan hər bir korporasiya, kompaniya, firma, digər hüquqi və fiziki şəxs BTP-nin üzvü ola bilər.

BTP-nin qurluşu aşağıdakılardan ibarətdir:

Şura, baş katib;

İcra Şurası, maliyyə komitəsi;

Beynəlxalq baş qərargah;

Mərkəzi işçi orqanları;

Komissiya və işçi qrupları;

Beynəlxalq arbitraj məhkəməsi;

Biznes sahəsində beynəlxalq hüquq və praktika institutu;

- Ticarət palatasının beynəlxalq bürosu;
- Ətraf mühit məsələsi üzrə ümumdünya sənaye şurası;
- İqtisadi cinayətkarlığa qarşı mübarizə üzrə BTP-nin xidmət sahələri (burada-Beynəlxalq dənizçilik burosu; Saxtakarlıqla mübarizə üzrə büro; iqtisadi cinayətkarlıq üzrə büro; dənizçilik əməkdaşlığı mərkəzi və s. əks olunur);
- Konqreslər;
- Konfranslar
- Milli komitə və qruplar.

BTP-nin beynəlxalq baş qərargahı Parisdədir. Bu baş qərargah Palatanın bütün fəaliyyətini əlaqələndirir. Baş qəragah 5 əsas departamentdən ibarətdir:

1. Beynəlxalq inkişaf;
2. Kommunikasiya;
3. iqtisadi siyasət və əməkdaşlıq;
4. Beynəlxalq ticarət siyasəti və texnologiya;
5. İnzibati rəhbərlik, maliyyə və işçi heyəti

BTP öz siyasətini komissiya və işçi qrupları vasitəsilə həyata keçirir. Burada əsasən beynəlxalq ticarət siyasəti, maliyyələşdirmə, beynəlxalq arbitraj, sığorta işi, vergiqoyma, çoxmilli müəssisələrin İşi, beynəlxalq investisiya, ətraf mühit, energetika və digər sahələr öz əksini tapır.

BTP - ali orqanı konqresdir. Konqres üç İldə bir dəfə keçirilir. Konqreslərarası vaxtda isə konfrans çağrılır.

XXI FƏSİL

BEYNƏLXALQ İNVESTİSİYA QOYULUŞLARININ TƏNZİMLƏNMƏSİ. ÇOXTƏRƏFLİ ELMİ-TEXNİKİ VƏ SƏNAYE ƏMƏKDAŞLIĞI.

Xarici əlaqələrin inkişafında investisiya fəaliyyəti mühüm yer tutur. Odur ki, bu problemin açıqlanması da böyük əhəmiyyət kəsb edir. Dünya təsərrüfatındakı beynəlmiləlləşmə və qloballaşma prosesinin genişləndiyi bir şəraitdə **kapitalın beynəlxalq hərəkəti** beynəlxalq iqtisadi münasibətlər sistemində daha hərəkətverici bir amilə çevrilmişdir. **Beynəlxalq iqtisadi münasibətlərin - beynəlxalq əmtəə ticarəti, xidmətlə ticarəti, beynəlxalq mübadilə, işçi qüvvəsinin beynəlxalq hərəkəti, inteqrasiya prosesinin inkişafı, TMŞ-in fəaliyyətinin genişlənməsi və s. kimi formalarının inkişafı bir çox hallarda valyuta, maliyyə-kredit problemləri ilə rastlaşmalı olur.** Bu mənada beynəlxalq valyuta, maliyyə-kredit münasibətləri bir tərəfdən BİM-In inkişafına zəmin yaradır, digər tərəfdən isə onun nəticəsi kimi tərəqqi tapır. **Beləliklə, kapitalın beynəlxalq hərəkəti BİM-in daha xüsusi bir forması kimi tədqiq edilir.**

Kapital ixracı probleminin şərhini “kapital” anlayışının nəzəri məzmunu barədə bəzi müddəaların açıqlanması ilə veririk.

K.Marksa (1818-1883) görə “kapital” öz-özünə artan dəyərdir. Kapital dəyər gətirən dəyərdir. Kapital iqtisadi münasibətləri əks etdirir.

Amerika iqtisadçısı İ.Fişer (1867-1947) göstərirdi kl, “kapital” vaxtaşırı gəlir gətirən bir mənbədir.

İkicidlik müasir mlkroekonomlka dərsliyinin müəllifi D.Xayman yazır ki, kapital daha çox əmtəə və xidmətlər istehsalı məqsədi ilə uzun müddət istifadə olunan ehtiyatdır. Maşınlar, binalar, avadanlıqlar, nəqliyyat vasitələri, alətlər, fondlar, xammal və yarım- fabrikatlar - fiziki kapitaldır.

Fransız iqtisadçısı F.Bastia (1801-1850) yazırdı ki, harada istehsal varsa, orda kapital da var. Kapitalsız heç kəs nə təklikdə, nə də cəmiyyətdə ardıcıl iş apara bilməz.

Amerika İqtisadçısı D.B.Klark bu fikirlərin tərəfdarı kimi yazırdı kl, kapital dünyası İşləyən adamın əlində elə bir alətdir, silahlanmadır ki, onun vasitəsilə insan təbiət elementlərini özünə tabe edir və dəyişdirə bilir.

Müasir amerika iqtisadçısı P. Samuelson göstərirdi ki, kapital uzun müddət istifadə olunan bütün varidatdır - dəzgahlar, kompüterlər, binalar, ağır çəkiclər, yük qaldıran maşınlar və s. bunlar müasir iqtisadiyyatın əsl mənzərəsini təsvir edirlər. Bir çox digər iqtisadçılar göstərirlər ki, kapital - puldur, kapital vaxtdır, kapital insandır və s.

Kapitalın məzmunu barəsindəki bütün fikirlər demək olar ki, biri-birini tamamlayır və təsdiqləyir. Bu fikirlərdə kapitalın həm xalis iqtisadi tərəfi, həm də əmtəə kimi İstifadə olunması - fiziki tərəfi öz ifadəsini tapmış olur. Deməli, kapital daimi hərəkətdədir. Bu hərəkətilə o bir formadan digər formaya keçir - məhsuldar formadan əmtəə formasına, əmtəə

formasından pul formasına. Kapitalın bu hərəkəti milli çərçivədə olduğu kimi, beynəlxalq miqyasda da baş verir.

Bazar iqtisadiyyatının daha faydalı fəaliyyət üçün əmtəə və xidmətlər ixracı ilə yanaşı istehsal amillərinin beynəlxalq hərəkətinə də zərurət yaranır. Dünya iqtisadi əlaqələrinin genişlənməsi ilə ölkələr arası işçi qüvvəsinin hərəkəti genişlənir, qısa və uzunmüddətli kapital axını güclənir, texnologiyanın beynəlxalq hərəkəti artır.

Kapitalın beynəlxalq hərəkəti dəyərlərin pul və yaxud əmtəə formasında hərəkəti deməkdir.

Kapital hərəkətində adətən investisiya əmtəələri hesab edilən binaların, qurğuların, maşınların, avadanlıqların fiziki şəkildə başqa ölkəyə aparılması nəzərdə tutulmayır. Hər hansı bir sahibkar bu kimi xarici texnika və s. başqa ölkəyə aparılıb nizamnamə kapitalına daxil edilirsə, bu kapital ixracı əməliyyatı hesab edilir.

Beləliklə, ayrı-ayrı ölkələrdə kreditorlarla borc alanlar arasında və eləcə də mülkiyyətçilərlə onların xarici firmaları arasında baş verən maliyə axını hərəkəti kapitalın beynəlxalq hərəkətini təşkil edir.

Deməli,

-Əmtəə formasında kapital ixracında maşınlar, avadanlıq, müəssisə komplektləri göndərilməsi həyata keçirilir.

- Pul formasında kapital ixracı ilə əmtəələr, avadanlıqlar və s. alınması (əsasən həmin ölkədən) verilən kredit nəzərdə tutulur.

Beynəlxalq korporasiyar çərçivəsində müəssisə-iərarası əmtəələr göndərilməsi də kapital ixracına aid edilir. Bir çox əməliyyatlarda kapital deyil, investisiya anlayışı da işlədilir.

İnvestisiya dedikdə, müxtəlif sahələrə qoyulan uzunmüddətli kapital nəzərdə tutulur.

Onu da qeyd etməliyik ki, iqtisadi ədəbiyyatlarda bəzən kapital ixracı ilə yanaşı kapitalın beynəlxalq hərəkəti anlayışı da işlədilir. Bu problemə tarixi baxımdan yanaşdıqda qeyd etməliyik ki, XVII-XVIII əsrlərdə ilkin kapital yığımı prosesinin başa çatması və kapitalist istehsal münasibətlərinin inkişafı (XIX əsrin axırları) ilə kapital ixracına ilkin zəmin yaranmışdır. Ona görə də həmin dövr belə də adlanır. Bu mərhələdə kapital ixracı əsasən bir istiqamətdə (inkişaf etmiş ölkələrdən müstəmləkə ölkələrə) həyata keçirilirdi.

XIX əsrin axırları ilə XX əsrin ortaları kapitalın beynəlxalq hərəkətində ikinci mərhələ hesab edilir. Bu mərhələdə kapital ixracı prosesi inkişaf etmiş ölkələr arasında, eləcə də inkişaf etməkdə olan ölkələrlə qarşılıqlı həyata keçirilməyə başlamışdı. Artıq bu mərhələdə kapital ixracı daha təkrarlanan, xarakterik bir proses kimi formalaşmışdı.

XX əsrin 60-60-cı illərindən kapital ixracında 3- cü mərhələ başlanmışdır. Bu mərhələdə kapital ixracında baş verən proseslər “Kapitalın beynəlxalq hərəkəti” anlayışı işlədilməsinə daha çox uyğun gəlir. Bu mərhələdə qarşılıqlı olaraq İEÖ, İEOÖ-rə məsələn 1996-cı ildə 129 mrid. Dollar, sonuncular isə öz növbəsində İEÖ-rə 51 mrid. Dollar kapital ixrac etmişlər. Kapital ixracı nəticəsində onun müəyyən

hissəsi mənfəət şəklində sahibkara qayıdır - əks hərəkət edir.

Beləliklə, ölkələr arasında kapitalın qarşılıqlı hərəkəti və əks hərəkəti kapitalın beynəlxalq hərəkəti adlanır (aydındır ki, burada ancaq ifadə fərqi vardır).

Xarici ölkələrə kapital ixracı və ölkələr arasında onun fəal hərəkəti müasir dünya təsərrüfatının ən əlamətdar cəhətlərindən biri olub beynəlxalq iqtisadi münasibətlərə geniş yol açır. Kapital ixracı əmtəə ixracındakı inhisarçılığa son qoymaqla onu daha da tamamlayaraq beynəlxalq iqtisadi münasibətlər sistemində həlledici rola malik olmuşdur.

Hər halda kapital ixracının əsas səbəbi ilk növbədə ölkədə şərti kapital artıqlığı imkanı ilə izah olunur.

Yüksək mənfəət əldə etmək məqsədi ilə kapital ixracının əsas səbəbləri:

1. Ölkədə kapital artıqlığı imkanı.
2. Dünya təsərrüfatının müxtəlif həlqələrində kapitala tələb və təklifin üst-üstə düşməməsi.
3. Yerli bazarın inhisarlaşması imkanın mövcudluğu.
4. Kapital ixrac edilən ölkələrdə xammal və iş qüvvəsinin ucuz olması imkanı
5. Ölkələrdə investisiya üçün sabit siyasi vəziyyətin və əlverişli şəraitin olması
6. Xarici ticarətdə ayrı-ayrı bazarların müqayisəli üstünlük prinsipidir.

Bunlarla yanaşı kapital ixracına təsir edən amillər də mövcuddur.

Bunlardan aşağıdakıları qeyd etmək olar:

1. Milli iqtisadiyyatlar arasında qarşılıqlı əlaqə və asılılığın artması. İstehsalın beynəlmiləlləşməsi.
2. Beynəlxalq sənaye şirkətlərinin yaranması.
3. Kapitalın bir qisminin iqtisadi artımın sürətini yüksəltmək, sənayenin qabaqcıl sahələrini inkişaf etdirmək, məşğulluq səviyyəsinə kömək etmək və s. barədə inkişaf etmiş ölkələrin iqtisadi siyasəti.
4. Xarici kapitalın köməkliyi ilə inkişaf etməkdə olan ölkələrin öz iqtisadiyyatlarını dirçəltməkdə iqtisadi marağı.
5. Ekoloji amillər (inkişaf etmiş ölkələrdə ekoloji vəziyyətin artması üzündən beynəlxalq şirkətlər kapitalı inkişaf etməkdə olan ölkələrə yeridir).
6. Beynəlxalq maliyyə təşkilatlarının rolu.
7. BİM-in bütün formalarının hərtərəfli inkişafı.
8. İxrac və idxalın liberallaşdırılması. Azad iqtisadi zonalar, offşor zonaları yaradılması.
9. IEOÖ-də sənayeləşmə siyasəti.
10. Məşğulluq səviyyəsinin saxlanılması siyasəti.
11. Elmi-texniki potensialın genişlənməsi.

Kapital qoyuluşu bütün növ dəyərləri əhatə edir. Daha doğrusu: 1. Daşınan və daşınmaz əmlakları (bina, qurğular, avadanlıqlar və digər maddi dəyərləri);
2. Pul vəsaiti; 3. Səhimlər, əmanətlər, istiqrazlar və s.; 4. İntelektual fəaliyyət hüququ; S.Təbii ehtiyatların axtarışı və istismarı sahəsində olan hüquq, təsərrüfatçılıq hüququ və s.

Kapital deyil, xarici investisiya dedikdə hər hansı bir investor digər ölkənin iqtisadiyyatına investisiya qoyursa, bu onun üçün xaricidir. İnvestisiya cəlb edilən ölkə üçün də bu investisiya xarici hesab edilir. Həmin investisiya üçün xarici investisiya qaydaları tətbiq edilir. Buna baxmayaraq investor bir çox daimi qaydalarla da hesablamalıdır. Bu da onun üçün xarici qayda hesab edilir. Bütün bunlarla yanaşı "investisiya" anlayışı bütün xarici mülkiyyəti əhatə etmir.

Təyinatına görə onun müəyyən məqsəd daşıyan hissəsi - Sahibkarlıq və yaxud xeyriyyəçilik məqsədi üçün ayrılan hissəsi investisiya hesab edilir.

İqtisadi məzmununa görə xarici investisiya sahibkarlıq kapitalı və borc kapitalı formasında həyata keçirilir.

Sahibkarlıq kapitalı (çox vaxt buna məhsuldar kapital da deyirlər) sahibkarlıq sahələrinə tətbiq edilir.

Borc kapitalı isə beynəlxalq borc və kredit şəklində verilir.

Sahibkarlıq kapitalının özü də birbaşa və portfel investisiyası şəklində həyata keçirilir.

Birbaşa xarici investisiya həyata keçirən investor xarici ölkədə müəssisəyə sahibkarlıq etmək, idarə etmək hüququ qazanır. Portfel investisiyada isə sahibkar (məsələn, səhlm qoyubdursa) idarəçilik, nəzarət və digər hüquqlara malik deyildir. Adətən ayrı-ayrı dövlətlər xarici İnvestisiyaların fəaliyyəti üçün konkret olaraq qanuni aktlar İşləyib hazırlayırlar. Bunun əsasında xarici kapitalın iştirak etmə formaları müəyyənləşdirilir: 1. Yeni müştərək müəssisə yaradılmasında payçı kimi İştirak etmək; 2. Mövcud müəssisələrdən səhlm, qiymətli kağızlar almaqla payçıya çevrilmək; 3.

Tamamilə xarici investor hesabına müəssisə yaradılması; 4. Xarici hüquqi şəxsin nümayəndəliyinin qız filialı müəssisəsi yaratması; 5. Torpaq və digər təbii ehtiyatlardan istifadə hüququ alması; 6. Dövlətsizləşdirmə və özəlləşdirmədə iştirak etmək; 7. Müəssisələr almaq yolu ilə; 8. Xarici İnvestisiya ilə banklar yaratmaq; 9. Dövlətdən qiymətli kağızlar almaq; 10. Yerli hüquqi şəxslərdən qiymətli kağızlar almaq; 11. Hüquqi və fiziki şəxslərlə müqavilələr bağlamaq; 12. Azad iqtisadi zonalarda təsərrüfatçılıq fəaliyyəti həyata keçirmək; 13. Sənayedə əməkdaşlıq həyata keçirmək;
14. Bir çox digər əmlak hüquqları əldə etmək və s.

Qeyd etməliyik ki, dövlətin investisiya siyasəti müvafiq qanunlar və yaxud normativ müddəalarla tənzimlənir. Bununla yanaşı göstərməliyik ki, bir çox inkişaf etmiş ölkələrdə - ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, Yaponiya və s. xarici investisiya barədə xüsusi qanunvericilik aktları yoxdur. Bu ölkələrdə ümumi qanunvericilik tətbiq edilir. Bu ümumi qanunvericilik əsasında trest əleyhinə qanunvericilik, vergiqoyma, valyuta, bank işləri və s. sahələr də tənzimlənir. Asiya, Afrika, Latın Amerikası ölkələrində, Mərkəzi və Şərqi Avropa ölkələrində isə xarici investisiyalara dair xüsusi qanun qəbul edilibdir.

Məsələn, Çin öz iqtisadi inkişafının sürətləndirilməsində xarici kapitaldan daha geniş istifadə edir. Bu siyasətin nəticəsidir ki, xarici investisiyanı tənzimləmək üçün yüzlərlə qanun və aktlar qəbul etmişdir.

Çin Xalq Respublikasının 18-ci bəndində xarici investisiya və müəssisələr barədə təsərrüfatçılıq etmək istəyən ayrı - ayrı şəxslər barədə geniş göstərişlər vardır. Beləliklə, əslində hər bir dövlət xarici kapitalın

daxil olması üçün müəyyən qayda yaratmışdır. Bəzi dövlətlərdə icazəli lisenziya sistem, bəzilərində isə azad sistem mövcuddur. Hindistanda və Latın Amerikası ölkələrində icazəli sistem mövcuddur. Bu yolla investisiya fəaliyyəti aparmaq üçün investora icazə verilir.

Ümumi şəkildə beynəlxalq investisiya aşağıdakı istiqamətlərdə tənzimlənir:

1. Xarici kapitalı qəbul edən ölkələrdə investisiya siyasəti hazırlayıb həyata keçirmək;
2. İnvestorlar ölkələrində xarici kapital qoyuluşu üçün onlara zəmin yaratmaq;
3. Beynəlxalq investisiyalaşdırma sahəsində çoxtərəfli əməkdaşlığa zəmin yaratmaq;
4. İkitərəfli əsasda beynəlxalq investisiyalaş-dırılmasının həyata keçirilməsi və

s. 1980-ci illərdən İEOÖ-in bir çoxunda xarici kapitalın cəlb edilməsinə dair olan siyasət dəyişilmişdir. Məsələn, Latın Amerikası ölkələrində mənfəətin xaricə köçürülməsi üçün xüsusi qayda müəyyən edilmişdir. Bəzi ölkələrdə xarici kapitalın cəlb edilməsi üçün azad iqtisadi zonalar yaradılmasına üstünlük verilir. Müxtəlif variantlarda belə zonalar Çində, Vyetnamda, Bolqarıstanda, Macarıstanda, Koreya Respublikasında və Rusiyada yaradılmışdır.

Bütün bunlarla yanaşı hər bir dövlət xarici kapitalın çox üstünlük əldə etməsinə yol verməməyə də çalışır. O öz ölkəsinin müstəqilliyinə, iqtisadi müstəqilliyinə, daxili bazarına, milli mənafeyə zərər verə biləcək hallara qarşı hüquqi sənədlər hazırlayır.

Məsələn, bir çox ölkələrdə eyni məzmuna malik aşağıdakı məhdudlaşdırıcı metodlar həyata keçirilir:

1 Səhmdar kapitalda xarici kapitalın payının azaldılması;

Bəzi sahələrdə xarici kapitalın iştirakına dövlət nəzarəti qoyulması;

3. Xarici firmaların yaratdıqları müəssisələrdə milli dövlət kapitalının və yaxud xüsusi kapitalın mütləq iştirakı;

4. İnkişaf etməkdə olan ölkələrdə vergiyə cəlbetmə yolu ilə mənfəətin bir hissəsinin daxili ehtiyacların ödənilməsinə yönəldilməsi;

5. Mənfəətin xaricə göndərilməsində məhdudiyyət yaradılması;

5. Lisenziya verilməsində məhdudiyyət qoyuiması;

7. Sənayenin bəzi sahələrində və xidmət sahələrində (maiiyyə, nəqiiyyat, teiekommunikasiya, teieviziya və s.) xarici investisiyaya qadağaiar qoyulması da həyata keçirilir;

İnvestisiya fəaliyyətinin tənzimlənməsində xarici kreditin sığortalanması da böyük rola malikdir.

Miiii kompaniyaların xarici investisiya fəaliyyətinə yardım etmək məqsədilə bir çox dövlətlərdə xüsusi fondlar yaradılıbdır. Məsələn, ABŞ, Almaniya, Avstriya və İspaniyada xaricə nəzərdə tutulmuş xüsusi investisiyaya yardım korporasiyası yaradılıbdır.

Fransada iqtisadi əməkdaşlıq üzrə mərkəzi maliyyə korporasiyası fəaliyyət göstərir. Böyük Britaniyada birliyin inkişafı üzrə Birləşmiş Krallıq korporasiyası mövcuddur.

® İsveçdə inkişaf etməkdə olan ölkələrlə sənaye əməkdaşlığı üzrə xüsusi fond vardır və s.

Bütün qeyd etdiklərimizdən görünür ki, kapital ixracına maraq yaradılması baxımından ayrı - ayrı ölkələr arasında elə bir köklü fərq yoxdur. Müxtəlif ölkələrin kapital ixracı üzrə ixtisaslaşması baxımından müəyyən fərqli cəhətlər vardır. Məsələn, Skandinaviya dövlətləri (İsveç, Danimarka, Finlandiya və İrlandiya) az inkişaf etmiş ölkələrə həmişə güzəştli maliyyə yardımı edir. ABŞ - Latın Amerikası və Karib hövzəsi ölkələrinin iqtisadiyyatı üçün xüsusi inkişaf proqramı həyata keçirir. Yaponiya inkişaf etməkdə olan ölkələrə investisiya qoyduqda onlardan vergi ayırmalarında güzəştlər nəzərdə tutur. Avropa dövlətləri və ABŞ investorlara birbaşa maliyyə yardımı edirlər. Bütün bunların nəticəsində dövlətlərarası birbaşa xarici investisiyanın həcmi ardıcıl olaraq artmışdır.

Aşağıdakı cədvəldə dünya üzrə və qabaqcıl ölkələrdə kapitalın beynəlxalq hərəkətinin həcmi verilmişdir (mlrd. doll).

Cədvəl

Dünya üzrə və qabaqcıl ölkələrdə kapitalın beynəlxalq hərəkətinin həcmi, mlrd,

	Ölkələr	1990	2000	2005
	Cəmi	920,3	3675,1	5987,0
	0 cümlədən IEÖ	817,1	3292,6	5207,9
1	ABŞ	72,5	560,2	440,9
2	Kanada	15,9	91,7	93,5

3	Yaponiya	88,3	12,3	117,8
4	Almaniya	114,0	331,5	467,8
5	Böyük Britaniya	146,5	770,3	1309,3
6	Fransa	104,8	271,1	650,0
7	İtaliya	40,6	91,3	206,4
8	Niderland	43,3	85,5	90,1
9	Belçika - Lüksemburq	80.1	373,0	769,0
10	İsveçrə	35,8	168,5	188,3
11	Səudiyyə Ərəbistanı	1,9	13,3	90,4
12	Çin	1.3	56,1	86,4
13	Rusiya		20,7	52,8
14	İndoneziya	0,3	0.1	13,3
15	Beynəlxalq iqtisadi təşkilatlar	34,2	25,0	46,4

Cədvəldəki göstəricilərdən görünür ki, cəmi xarici kapital 2005-ci ildə 1990-cı ilə nisbətən 6,5 dəfə, 2000- ci ilə nisbətən 1,6 dəfə artmışdır.

Aydındır ki, cəmi xarici kapital ixracı birbaşa və portfel formasında həyata keçirilmişdir. Son dövrlərin məlumatına görə portfel formasında olan ixrac daha çox üstünlük təşkil etmişdir. Bunu aşağıdakı cədvəldən də görmək olar.

Kapital ixracmtn quruluşu

Kapital ixracının formaları	1990	2000	2005
Birbaşa investisiya, mlrd.doll. %	238,3 (25.9)	1336,3 (36,4)	934,4 (15,6)
Portfel investisiyası, mlrd.doll. %	183,8 (20.0)	1078,8 (29.3)	2089,9 (34.9)
Sair investisiya, mlrd.doll. %	498,3 (54.1)	1260,0 (34.3)	2962,7 (49,5)
Cəmi, mlrd.doll. %	920,3 (100)	3675,1 (100)	5987,0 (100)

Aydındır ki, xarici investisiyanın belə yüksək artımı dünya iqtisadiyyatının qloballaşmasının və dünya təsərrüfatı əlaqələrinin artmasının ən zəruri göstəricilərindən biridir. Onu da qeyd etməliyik ki, birbaşa xarici investisiyanın belə sürətli artımı transmilli şirkətlərin hesabına baş vermişdir. Yenə YUNKTAD-m məlumatına əsasən 37 mindən artıq firmanın xaricdə (200 mindən artıq başqa ölkələrdə olan firmaları ilə) olan kapitalı 2100 mlrd, dollar təşkil etmişdir. Transmilli şirkətlərin müəssisələrində 73 mln. nəfərdən artıq adam işləyir. Əlavə işçilərin sayı isə 150 min. nəfərdir. Böyük transmilli şirkətlərin əksəriyyəti öz fəaliyyətinin daha çox hissəsini (bu nisbət 40 faizdən 80, 90, hətta 98%-ə qədərdir) xarici ölkələrdə həyata keçirirlər. Bunu transmiililəşmə indeksi ilə də ifadə etmək olar.

Dünya iqtisadiyyatında yaranan ən yeni hadisələrdən biri də ondan ibarətdir ki, bəzi yeni sənaye ölkələrinin xarici əməliyyatları nəzərə çarpacaq dərəcədə artmışdır. Bunlardan Latın Amerikasında - Braziliya və Meksikada və Asiyada Koreya Respublikası,

ziya, Filippin, Sinqapur, Honkonq və Tayvanı göstərmək olar. YUNKTAD - hesablamalarına görə cəmi birbaşa investisiyanın 1980-ci ildə 5%-i, 1994-cü ildə isə 15%-i inkişaf etməkdə olan ölkələrin payına düşmüşdür.

İnkişaf etməkdə olan ölkələrdən xaricə kapital ixrac edilməsi əsasən aşağıdakı sahələr üzrə ixtisaslaşmış şirkətlər hesabına həyata keçirilir. Elektronika, avtomaşınqayırma, neft emalı, sement istehsalı, yeyinti və tütün sənayesi, inşaat işləri və s. Bu lEOÖ-in inkişaf etmiş ölkələrə kapital ixrac etməyə cəhd göstərsələr də, hər halda regiondaxili münasibətlər daha üstündür. Bütün hallarda kapital idxal edən ölkələrin iqtisadi siyasəti (qanunvericilik aktları) ondan ibarətdir ki, milli iqtisadiyyatın daha həlledici sahələri (hasilat sənayesi, müdafiə müəssisələri, rabitə vasitələri, nəqliyyat, banklar və s.) xarici kapitalın nəzarəti altına düşməsin.

Onu da qeyd etməliyik ki, bir çox beynəlxalq təşkilatlar və xüsusilə İqtisadi və Sosial Şura, BMT, ÜTT, İƏ və İT, beynəlxalq valyuta - maliyyə təşkilatları birbaşa TMŞ-rin investisiya fəaliyyəti ilə məşğul olurlar. Beynəlxalq investisiya işinin tənzimlənməsinə yardım göstərirlər. İnvestisiyaya təminat verilməsi məsələləri yuxarıda qeyd etdiyimiz beynəlxalq təşkilatların sazişlərində, qərarlarında, təkliflərində müzakirə edilir.

Beynəlxalq investisiya sahəsində təminat yaradılmasına dair aparılan tədbirlərdən biri də son dövrlərdə Toqonun paytaxtı Lomedə əldə edilən sənəd olmuşdur. Al və Afrika, Asiya və Latın Amerikasının 60-dan artıq ölkəsi arasında razılaşma əldə edilmişdir.

Demək olar ki, son dövrlərdə investisiya üzrə çoxtərəfli razılaşmaların yeni dövrü başlamışdır. Bu

məqsədlə BVF, ÜDB, IƏ və İT, YUNKTAD, ÜTT-nin nümayəndələrindən ibarət işçi qrupları yaradılmışdır. Burada Şimali Amerika Azad Ticarət zonası, Asiya- Sakit Okean iqtisadi əməkdaşlığı, IƏ və İT, Xidmət ticarəti üzrə baş razılaşma və digər beynəlxalq təşkilatların investisiya üzrə olan çoxtərəfli sazişləri təhlil edilərək əsas götürülmüşdür. Yeni yanaşmalarda aşağıdakı məsələlərin qoyuluşu daha ön plana çəkilir:

- İnvestisiya fəaliyyəti ilə məşğul olanların hüquq və öhdəliklərinin nisbəti;
- Xarici investora məxsus olan mülkiyyət payının məhdudlaşdırılması;
- Xarici investisiyalar üçün xüsusi maraq yaradılması;
- Yerli iştirakçılar üçün mütləq mənada iştirak payının müəyyən edilməsi;
- İnvestorların öhdəlikləri. Eləcə də transfert qiymətlərindən istifadə edilməsi;
- İnvestisiya mübahisələrin həll edilməsi mexanizminin yaradılması və s.

ƏLAVƏLƏR

BƏZİ BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLAR

1. **Beynəlxalq Əmək Təşkilatı - BƏT**

1919-cu ildə yaradılıb.

2. **Birləşmiş Millətlər Təşkilatı ~ BMT**

26 iyun 1945-ci ildə ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda BMT-nin yaradılması barədə Nizamnamə qəbul edilibdir, 24 oktyabr 1945-ci ildə nizamnamə təsdiq edilibdir. 190-a qədər ölkəni birləşdirir.

3. **BMT-nin İqtisadi və Sosial Şurası**

1946- cı ildə yaradılıbdır. 54 üzvü vardır. Bunlardan 14-ü Afrika ölkələri; 11-i Asiya ölkələri; 6-sı Şərqi Avropa ölkələri; 10-u Latın Amerikası və Karib hövzəsi ölkələri; 13-ü Qərbi Avropa ölkələri və ABŞ-dan ibarətdir.

4. **BMT-nin Sənayenin İnkişafı Təşkilatı (UNİDO)**

1966-cı ildə yaradılıbdır. 1986-cı ildən BMT- nin ixtisaslaşdırılmış təşkilatı hesab edilir. 168 ölkəni birləşdirir.

5. **Beynəlxalq Valyuta Fondu (BVF)**

1945- ci ilin dekabr ayında yaradılmış və 1946-cı ilin may ayından fəaliyyətə başlamışdır. İqamətgahı Vaşinqtondadır. 185 ölkəni birləşdirir. Azərbaycan 1992-ci ildən bu təşkilatın üzvüdür.

6. Beynəlxalq yenidənqurma və İnkişaf Bankı (BY və İB)

1945-ci ildə yaradılmışdır. 185 ölkəni birləşdirir. Azərbaycan 1992-ci ildən bu bankın üzvüdür.

7. Beynəlxalq İnkişaf Birliyi

1960- cı ildə yaradılıbdır. BY və İB-In filialı hesab edilir. 164 ölkəni özündə birləşdirir.

8. Beynəlxalq Maliyyə Korporasiyası (BMK)

1956- cı ildə yaradılıbdır. 175 ölkəni özündə birləşdirir.

9. İnvestisiya Təminatı üzrə Beynəlxalq Agentik (İTBA)

1988-ci ildə yaradılıbdır. 164 üzvü vardır.

10. İnvestisiya mübahisələrinin tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz

1966-cı ildə yaradılıbdır. 139 ölkəni özündə birləşdirir.

11. Beynəlxalq hesablaşmalar Bankı

1930- **cu ildə Bazeldə (İsveçrə), Haaqada (Niderland) yaradılıbdır. 50-yədək Bankı özündə birləşdirir.**

12. Paris klubu (onluqlar ölkəsi)

13. London Klubu

1980-ci ildə yaradılıbdır. 40-ə qədər kredit institutu daxildir.

14. Atom Enerjisi üzrə Beynəlxalq agentlik (MAQATE)

1957- ci ildə yaradılıbdır. 124 dövləti özündə birləşdirir.

15. Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)

1945-ci ildə yaradılıbdır. 174 dövləti və Aİ-ni özündə birləşdirir. İqamətgahı Romadadır (İtaliya).

16. Beynəlxalq kənd Təsərrüfatının İnkişafı Fondu (İFAD)

1976-cı ildə yaradılıb, 1977~ci ildən fəaliyyətə başlayıbdır. 160 ölkəni özündə birləşdirir.

17. Beynəlxalq Deniz Təşkilatı

1958- ci ildə yaradılıb, 1959-cu ildən fəaliyyət göstərir. 155 ölkəni özündə birləşdirir.

18. Beynəlxalq Mülki Aviasiya Təşkilatı

1944-cü ildə yaradılıb, 1947-ci ildən fəaliyyətə başlayıbdır. 185 ölkəni birləşdirir.

19. Ümumdünya Turizm Təşkilatı (WTO)

1975- ci ildə yaradılıbdır (1925 və 1947-cl illərdə başqa cür adlandırılmışdır). 130 dövləti, 4 dövlət birləşməsini və 329 birliyi əhatə edir.

20. İqtisadi əməkdaşlıq və İnkişaf Təşkilatı

1961-ci ildə yaradılıbdır (İqamətgahı Parisdədir (Fransa) 30 ölkəni birləşdirir.

21. Beynəlxalq Energetika Agentliyi

1974-cü ildə yaradılıbdır. İƏ və İT çərçivəsində muxtariyyət təşkil edir. İƏ və İT - ölkələrini əhatə edir (İslandiya və Meksikadan başqa) onun işində Aİ-də iştirak edir.

22. Nüvə Enerjisi üzrə Agentlik

1958-cl İldə yaradılıbdır.

23. Avropa Şurası

1949-cu ildə yaradılıb - 44 ölkəni birləşdirir.

24. Millətlər Liqası (Birliyi)

1931- cl ildə yaradılıbdır. 53-54 ölkəni birləşdirir.

TİCARƏTİN TƏNZİMLƏNMƏSİ ÜZRƏ BƏZİ TƏŞKİLATLAR

25. Taarif və Ticarət üzrə baş razılaşma (QATT)

1947- ci ildə yaradılıbdır.

26. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD)

1964-cü ildə Cenevrədə (İsveçrə) yaranmışdır. BMT-nin üzvü olan 190-a dək ölkəni özündə birləşdirir.

35. BMT-nin Qərbi Asiya ölkələri üçün İqtisadi və Sosial Komissiyası

1974-cü ildə yaradılıbdır. 14 ölkə daxildir.

36. BMT-nin Latın Amerikası və Karib hövzəsi üçün iqtisadi komissiyası

1948- cl İldə yaradılıbdır. 41 dövlət və 7 əlahlddə qurum daxildir.

37. BMT-nin Afrika ölkələri üçün iqtisadi komissiyası

1958-ci ildə yaradılıb - 53 ölkəni birləşdirir.

38. Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı

1974-cü ildən fəaliyyət göstərir. 156 ölkə daxildir.

39. Beynəlxalq Əmək Təşkilatı

1919-cu ildə yaradılıbdır (Versal sulh müqaviləsinə əsasən). İqamətghı Cenevrədədir (İsveçrə). 170-dən çox ölkəni özündə birləşdirir. BMT sisteminə daxildir.

40. Ümumdünya İntellektual Mülkiyyəti Təşkilatı (BOİS)

1970-ci ildə 74 dövlətin iştirakı ilə yaradılıbdır. 1974-cü ildən BMT-nin ixtisaslaşdırılmış müəssisəsi hesab edilir. İqamətgahı Cenevrədədir (İsveçrə).

41. İslam Konfransı Təşkilatı

1969-cu İldə yaradılıbdır. 57 dövləti birləşdirir.

27. Beynəlxalq Ticarət Mərkəzi
1964-cü ildə yaradılıbdır.

28. Ümumdünya Ticarət Təşkilatı (WTO)
Baş razılaşmanın bazası əsasında yaradılmış və 1995- ci ilin yanvar ayından fəaliyyət göstərir. 148 ölkəni özündə birləşdirir.

29. Neft ixrac edən ölkələr Birliyi (OPEC)
1960-cı ildə Bağdad konfransında yaradılıb, 12 ölkəni özündə birləşdirir.

30. Neft İxrac edən Ərəb ölkələrinin Birliyi (OAPEC)
1968- ci ildə yaradılıb.

31. Kakao üzrə Beynəlxlaq Təşkilat
1972-ci ildə yaradılıb.

32. Kofe üzrə Beynəlxalq Təşkilat
1962- ci ildə yaradılıbdır. 54 dövləti özündə birləşdirir.

33. BMT-nin Avropa İqtisadi Komissiyası
1947-ci ildən fəaliyyət göstərir. 55 dövləti birləşdirir.

34. BMT-nin Asiya və Sakit Okean ölkələri üçün iqtisadi və Sosial Komissiyası
1947-ci ildə yaradılıbdır. 49 dövləti birləşdirir.

Mündəricat

ÖN SÖZ 3
/ TFƏSİL. BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN
^ TƏNZİMLƏNMƏSİNİN OBYEKTİV ƏSASLARI
Beynəlxalq İqtisadi təşkilatlar (BİT-lər)..... 4
1. BİM-in tənzimlənməsinin zəruriliyi 4
2. Beynəlxalq iqtisadi təşkilatlar haqqında ümumi anlayış.
Onların yaradılma qaydası və təsnifatı **9**
3. Beynəlxalq iqtisadi təşkilatların yaranması mərhələləri 17
4. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində
Regional iqtisadi təşkilatların rolu 25
(TI FƏSİLBİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ
(BMT) YARADILMASI VƏ BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ ONUN ROLU 30
1. BMT-nin yaradılması tarixinə dair 30
2. BMT-nin əsas vəzifələri, onun quruluşu və iqtisadi funksiyaları 34
3. BMT-nin Baş Assambleyası 40
4. İqtisadi və Sosial Şura (İ və SŞ)..... 42
5. BMT-nin inkişaf proqramı (BMTİP) və Azərbaycanla onun əməkdaşlığı 49
6^BMT və Müasir Dünya 56
fIII FƏSİLMİLLƏTLƏR BİRLİYİ 61
(T^;FƏSİL.BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI - BƏT 66
1. BƏT-in yaranması tarixi 66
2. Beynəlxalq əmək təşkilatının məqsədləri 67
3. Beynəlxalq əmək təşkilatının quruluşu 69
4. BƏT və Azərbaycan 70
(y:FƏSİL.ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ
' YARANMASI 71

Ədəbiyyat

1. **Ш. Г Гаджиев. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев, Експресс-Обява, 2000,**
2. **S.Səfərov. Yeni Azərbaycan. İqtisadiyyat, siyasət, dinamizm. Bakı, 2003.**
3. **Ə.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005.**
4. **G.Gənciyev. BİM: Müasir vəziyyət və inkişaf problemləri. Bakı,2005**
5. **Q.Süleymanov. Beynəlxalq əmək bazarının inkişaf problemləri. Dərslik, Bakı, 2006.**
6. **Ə.Bayramov. Regional iqtisadi inteqrasiya. Bakı, 1997.**
7. **A.Ş.Şəkərəliyev. Dünya iqtisadiyyatı və Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1999.**
8. **H.M.Rəcəbli, V.Ə.Ibayev. Avropa Şurası. Bakı, Elm- 1999.**
9. **C.Kərimov, A.Orucov və H.İsrafilov. Dünya iqtisadiyyatı. Dərslik. Bakı-2005**
10. **И.Н.Геречикова. Международные экономические организации: регулирование мирохозяйственных связей и предпринимательском деятельности. М.,2000,**
11. **Х.А.Шреплер. Международные кономические организации. М.,1998.**
12. **M.Məmmədov, E.İbadov. Beynəlxalq iqtisadi təşkilatlar. Dərs vəsaiti. Bakı, 2008.**
13. **Ə.Ələkbərov. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı, 2009.**
14. **H.A.Israfilov. Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri (monoqrafiya). Bakı, 2010**

əhəmiyyəti 77
3. Turizm sənayesinin inkişafı 82
4. Ümumdünya Turizm Təşkilatının yaranması 86
5. Azərbaycanda turizmin inkişaf imkanları..... 91
® FƏSİL.TİCARƏT ÜZRƏ BİM-İN TƏNZİMLƏNMƏSİ, BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLAR 95
1. Ticarət üzrə BİM-in tənzimlənməsinin iqtisadi məzmunu 95
2. Ticarət üzrə BİM-in tənzimlənməsində beynəlxalq iqtisadi təşkilatların yaradılmasının zəruriliyi 97
3. Ümumdünya ticarət təşkilatının (ÜTT) fəaliyyəti 107
4. Beynəlxalq Ticarət Mərkəzi (BTM) 114
5. BMT-nin ticarət və inkişaf üzrə konfransı CY.UNKTAD) 116
I- VIi FƏSİL.DÜNYA ƏMTƏƏ BAZARININ ÇOXTƏRƏFLİ TƏNZİMLƏNMƏSİ SİSTEMİ.....123
1. Dünya əmtəə bazarının tənzimlənməsinin iqtisadi mahiyyəti 123
2. Xammal istehsalı və ixracı üzrə dövlətlərarası təşkilatlar (OPEK) 124
3. Əmtəə bazarı üzrə Beynəlxalq Təşkilatlar..... 136
4. Metal istehsalı və ixracı üzrə Beynəlxalq təşkilatlar... 146
5. Dünya əmtəə bazarının tənzimlənməsi və Beynəlxalq Şuralar 151
,/(VIII FƏSİL.İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF ^ TƏŞKİLATI - İƏ VƏ İT 155
1. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının yaradılması zəruriliyi..... 155
2. İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının idarəçilik qurumları 158
IX ^ FƏSİL. BMT-NİN SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATI (SİT) (UNİDO).....165
1. Sənayenin İnkişafı Təşkilatının yaradılması..... 165
2. Sənaye Mülkiyyətinin Mühafizəsi üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatı (BOUS)..... 169

S.Ümumdünya intellektual Mülkiyyəti Təşkilatı CBOUC).....173
(^FƏSİL. ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI - Ə və KTT (FAO) 176
1. Ərzaq və kənd təsərrüfatı təşkilatının yaradılmasının zəruriliyi 176
2. Ərzaq və tənd təsərrüfatı təşkilatının quruluşu 181
3^ Beynəlxalq tənd təsərrüfatının inkişafı fondu 183
(XİFƏSİL. BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARI VƏ raTISADİ ƏMƏKDAŞLIĞIN TƏNZİMLƏNMƏSİNDƏ ONLARIN ROLU.... 186
1. Beynəlxalq Valyuta Fondu (BVF) 186
2. Ümumdünya Bankı qrupu..... 195
3. Beynəlxalq Hesablaşmalar Bankı (BHB)..... 211
4. Paris Klubu..... 214
;X1I FƏSİL.BIRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI - SİSTEMİ ÜZRƏ REGİONAL İQTİSADİ TƏŞKİLATLAR..... 216
1. BMT-nin Avropa İqtisadi Komissiyası 216
2. BMT-nin Asiya və Sakit Okean ölkələri üçün İqtisadi və Sosial Komissiyası (ESKATO)..... 219
3. BMT-nin Qərbi Asiya ölkələri üçün İqtisadi və Sosial Komissiyası 222
4. BMT-nin Latın Amerikası və Karib hövzəsi üçün iqtisadi komissiyası 223
5. BMT-nin Afrika ölkələri üçün iqtisadi Jiomissiyası (Af.lK)..... 225
(^TPFƏSİL.REGİONAL İQTİSADİ TƏŞKİLATLAR VƏ BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ ONLARIN ROLU 227
1. Avropa İttifaqının yaradılması tarixi. Aİ-nin tərkibinə daxil olan təşkilat və qurumlar 227
2. Avropa İnvestisiya Bankı (AİB)..... 233
3. Avropa Yenidənqurma və İnkişaf Bankı (AvY və İB).. 235
4. Avropa Nəqliyyat Nazirlərinin Konfransı 238

5. Avropa Mülki Aviasiya Konfransı (AvMA) 240
6. Avropa Azad Ticarət Birliyi (AATB) 241
Avropa İqtisadi Məkanı (AİM) 244
Avropa İttifaqı və Azərbaycan 245
7. Al-də sahibkarlıq fəaliyyəti və onun tənzimlənməsi.... 245
Təsərrüfat əlaqələrinin transmilliləşməsi və Avropa şirkətlərinin yaradılması 251
Al-də vahid sənaye siyasəti 254
Al-də rəqabətin tənzimlənməsi 255
IjOİaisar əleyhinə praktika 256
fXiyyFƏSİL.MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA VƏ "ASİYA DÖVLƏTLƏRİNİN REGİONAL İQTİSADİ TƏŞKİLATLARI 258
1. Beynəlxalq Əməkdaşlıq Bankı 258
2. Beynəlxalq İnvestisiya Bankı 260
3. İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT-EKO) 261
4. Müstəqil Dövlətlər Birliyi (MDB) 268
5. GUAM - AVRASİYA Subregional Təşkilatı 276
6. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QdİƏT) 280
J^^Qara dəniz Ticarət və İnkişaf Bankı (QT və İB) 284
' XN^ƏSİL.AMERİKA DÖVLƏTLƏRİNİN REGİONAL
^ İĞTİSADİ TƏŞKİLATLARI 285
1. Amerika Dövlətləri Təşkilatı (ADT) 285
2. Amerika Dövlətlərarası İnkişaf Bankı (ADİB) 287
3. Mərkəzi Amerika İqtisadi İnteqrasiya Bankı (MAİİB).. 288
4. And qrupu və yaxud And paktı 290
5.....
Karib İnkişaf Bankı (KİB) və yaxud KARİBBANK 292
6.....
Karib Birliyi və Karib Ümumi Bazan - KARİKOM 294
7. Energetika üzrə Latın Amerikası Təşkilatı (LAET) 296
8. Latın Amerikası İqtisadi Sistemi (LAİS) 297
9. Latın Amerikası İnteqrasiya Birliyi (LAİB) 298
10. Şərqi Karib Dövlətləri Təşkilatı (ŞKDT) 299
11. Amerika Dövlətlərarası İnvestisiya Korporasiyası (ADİK) 300

ı13yCənubi Amerika Umumi bazarı (MERKOSUR)..... 303
XVI FƏSİL. ASİYA VƏ SAKİT OKEAN DÖVLƏTLƏRİNİN İQTİSADİ TƏŞKİLATLARI..... 305
1. Sakit okeanın cənub hissəsi ölkələri komissiyası 305
2. Asiya və Sakit okeanda birgə iqtisadi və sosial inkişaf üzrə "Kolombo Planı" 306
3. Məhsuldarlıq məsələsi üzrə Asiya təşkilatı 308
4. Cənubi-Şərqi Asiya dövlətləri Birliyi (ASEAN) Asiya - Sakit Okean İqtisadi Əməkdaşlığı (ATEK)..... 309
5. Cənubi Sakit Okean Forumu 312
6. Asiya İnkişaf Bankı (AsİB)..... 313
7. Cənubi Asiyanın Regional Əməkdaşlığı Birliyi 318
I XVIüFƏSİL. AFRİKA DÖVLƏTLƏRİ ÜZRƏ REGİONAL İQTİSADİ TƏŞKİLATLAR..... 319
1. Afrika Birliyi Təşkilatı (ABT) 320
2. Afrika İnkişaf Bankı (Af.İB) 320
3. Mərkəzi Afrikanın Gömrük və İqtisadi İttifaqı 323
4. Afrika İnkişaf Fondu (Af.İF) 323
5. Mərkəzi Afrika Dövlətlərinin İnkişaf Bankı..... 324
6. Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi 325
7. Şərqi Afrika İnkişaf Bankı 326
8. Cənubi Afrika İnkişaf Birliyi 326
9. Şərqi və Cənubi Afrikanın Ümumi Bazarı 328
10. Qərbi Afrikanın İqtisadi və Valyuta İttifaqı..... 329
11 . Qərbi Afrika İnkişaf Bankı 329
CXVI|])FƏSİL. ƏRƏB DÖVLƏTLƏRİNİN REGİONAL İQTİSADİ TƏŞKİLATLARI..... 331
1. Ərəb İqtisadi Birliyi Şurası..... 331
2. .....
Ərəb İqtisadi və Sosial İnkişafı Fondu..... 323
3. .....
Ərəb Bankı - Afrikanın İqtisadi İnkişafı..... 324
4. Ərəb Valyuta Fondu 335
5. Ərəb Dövlətləri Liqası (Cəmiyyəti)..... 336
6. -pars Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlığı Şurası ..338

2. İslam konfransı təşkilatının quruluşu..... 341
^.Jslam İnkişaf Bankı 343
/^/'XX^FƏSİL. BEYNƏLXALQ QEYRİ-DÖVLƏT
^SAHİBKARLIQ TƏŞKİLATLARI (BQDST)..... 347
1. Beynəlxalq qeyri-dövlət sahibkarlıq təşkilatları haqqında ümumi məlumat 347
2. Beynəlxalq sahibkarlar birlikləri və beynəlxalq biznesin tənzimlənməsində onların fəaliyyəti..... 350
3., Beynəlxalq ticarət palatası (BTP) 357
I (XX\ FƏSİL BEYNƏLXALQ İNVESTİSİYA ^ÖYULUŞLARININ TƏNZİMLƏNMƏSİ. ÇOXTƏRƏFLİ
ELMİ-TEXNİKİ VƏ SƏNAYE ƏMƏKDAŞLIĞI..... 360
ƏLAVƏLƏR..... 375
ƏDƏBİYYAT..... 381

CƏLİL KƏRİMOV
AYAZ ORUCOV
HƏSƏN İSRAFİLOV

BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLAR

Əlavələrlə ikinci nəşri

Nəşriyyatın direktoru: Hüseyn Hacıyev
Texniki redaktor: Gülbəniz Məmmədova
Dizayn: Müşfiq Hacıyev
Cildçi: Azad Həmzəyev
Montajçı:

Çapa imzalanmış 7.11.20J2~ci il
Kağız formatı 60x841/16, çap vərəq 25
Sifariş 213, sayı 300
ADPU~nun mətbəəsi
Bakı, Ü. Hacıbəyov küçəsi, 34
Tel: 493-74-10